Gülşən Lətifxan

# "Azər və Aida adası"

(Roman)

## I FƏSİL

Dünən mən səsyazan aldım. Lap yerinə düşdü, olduqca münasib şeydi bu; düyməni yüngülcə basan kimi dünyanın ən səbrli dinləyicisini salırsan çənənin altına, nə istəyirsən de, qəbul eləyəcək, səni təngə gətirən fikirlərdən də canın qurtaracaq, ürəyin boşalacaq, ən başlıcası isə daha ürəyindən keçənləri yazmağa - kağıza tapşırmağa ehtiyac olmayacaq; eh, heç bilirsiz bu yazıb-pozmaqdan necə bezmişəm? Tələbəsi olduğum Tibb institutunda qrup yoldaşlarımın çoxusu elə mən gündədi, amma onlar çoxdan səsyazan alıblar, hətta mühazirələri də səsyazanla yazmağa başlayıblar, mən isə dünənəcən götür-qoy eləyirdim; fikirləşirdim ki, səsyazan alım, almayım? Özümü bu cihaza əsir etməyə dəyərmi? Amma elə dünən də dərk elədim ki, mən daha bu səsyazansız keçinə bilmərəm... Bəli, dünəndən... Dünən ürəyimdən keçənləri kağıza yazası olsaydım, yəqin ki, yazdıqlarımı göz yaşlarım yuyub apardı... Azər məni qəlbimin ən dərin guşəsində bəslədiyim xatirələrlə tək-tənha qoyub İngiltərəyə oxumağa gedir. Demək, Azəri gözləyə-gözləyə mən yalnız texnikanın bu əl boyda möcüzəsi ilə ülfət, ünsiyyət bağlayacağam; bu mənim həyanım olacaq...

Bu mənə nə üçün lazımdı? Yəqin ki, dəli olmamaq, sutkanın istənilən dəqiqəsində, anında ürəyimi boşaltmaq, ürəyimdən keçən ən sirli, ən mübhəm duyğuları paylaşmaq üçün. Əlbəttə, mən ürəyimi boşaltmaqdan başqa, ənənəvi bir yola da əl ata bilərdim, gündəlik yazardım, amma mən o adamlardan deyiləm ki, əlimdə qələm saatlarla cümlələr üstündə baş sındırım, üstəlik də mən gündəlik yazmağa lap erkən uşaqlıq yaşlarımdan lazımınca ölçülüb biçilməmiş bir fəaliyyət kimi baxmışam, hesab eləmişəm ki, bu adətin yorucu, üzücü bir məşğuliyyət olması öz yerində, tamamilə düşünülməmiş bir işdir. Mən belə düşünürəm ki, gərək öz sirlərini ən yaxın rəfiqənə - hətta o, əmin, dayın qızı olsa belə - verməк olmaz, mənim sirlərim isə bir vaqondu söyləsəm az olar, gərək bu vaqona əlavə bir yedək də qoşasan...

Amma bu barədə yetər, hər sözün öz məqamı var, o ki qaldı Azərə, o, mənim dost-doğmaca əmim oğludur. Məni bu həyata bağlayan da odur. Bir Allaha məlumdur ki, onu bu dünyada hamıdan çox sevirəm, ola bilsin ki, hətta ata-anamdan da çox... Yox, hər halda ürəyindəkiləri qələmlə dəftərə, kağıza köçürməyin də üstünlükləri var; yazanda səsindəki titrəyişi gizlədə bilərsən, səni boğan qəhər və yaza-yaza axıtdığın satqın göz yaşları duyulmaz... Ancaq, siz elə zənn etməyin ki, mən ata-anamı sevmirəm ha, yox, çox sevirəm! Amma Azərə bəslədiyim sevgi ölçüyə-miqyasa gəlməz, heç bilmirəm bu duyğuya nə ad verim? Axı, o mənə həyatımdan da əzizdir...

Bu dünyada ən gözəl, ən ağıllı, ən xeyirxah oğlanı axtarmağa dəyməz - o, Azərdir. Yaradan onu xəlq eləyəndə təbiət də öz səxavətini göstərib: onun iri alnı, mənalı, ciddi sifəti, düz, sivri burnu, işıqlı, ifadəli iri qara gözləri dərhal qızların diqqətini çəkir, bunu mən dəfələrlə görmüşəm. Şabalıdı, sıx saçlarını bir qayda olaraq dəblə qırxdırır, qısa saç saxlayır və bu ona yaraşır desəm, az olar, saçın, gözün, qaşın rəngləri bir-birini tamamlayır. Ucaboyludu, qaməti şümaldı, dərhal nəzərə çarpan əzələləri də çox şey deyir, mən nə deyim, axı?!

Öz aramızda qalsın, Azər seyid nəslindəndi və bu da, özünüz bilirsiz ki, insanı yaxşı mənada qələmə verən şərtlərdəndi. Düzdür, biz əmioğlu, əmiqızıyıq, amma mən seyid deyiləm, çünki bu şərəfli adı ancaq nəslin kişiləri daşıya bilər. Azər də əmi uşaqları arasında yeganə oğlan olduğundan bu şərəfli adı hələlik

yalnız o daşıyır, o ki, qaldı atamın ikinci arvadından doğulan iki oğlan uşağına, onlar balacadılar, onları seyid kimi qəbul etmək hələ tezdir.

Mənim yaşıdlarım arasında Azər yeganə oğlan olduğundan soyadımızın da daşıyıcısı odur. O, doğulana qədər əmimin üç qızı olub, mən atamın yeganə övladı olmuşam, bibim də iki qız anasıdır. Lap uşaqlıqdan əmim qızları, bibim qızları Azərə pərəstiş eləyirdilər, amma o, onların qısqanclığına baxmayaraq meylini aşkarca mənə salmışdı, həmişə, hər yerdə mənim tərəfimi saxlayırdı. Amma bu yalnız bizim həmyaşıd olmağımızla (o, məndən cəmi iki yaş böyükdür) bağlı deyil, bizim zövqümüzdə yaxınlıq var, maraqlarımız da həmişə üst-üstə düşüb. Və beləcə heç zaman ayrılmadan, doğulandan, bu dünyaya göz açandan həmişə bir yerdə olmuşuq, heç zaman ayrılmamışıq. Bu da, ayrılıq... Qismət məni bu fəlakətlə də üzləşdirdi. Neynəyə bilərəm köks ötürməkdən başqa?

Bir daha qeyd etmək istəyirəm ki, bizim zövqlərimiz çox yaxındı: ikimiz də dənizi dəlicəsinə sevirik, əlbəttə, söhbət Xəzərdən gedir, şəhərimizə vurğunuq, xüsusən də İçərişəhərə, yüz illər qabaq təməli qoyulmuş qalaya. İkimiz də eyni filmləri, eyni kitabları, eyni mahnıları, həmçinin eyni caz nümunələrini sevirik, təbiətin boyaları sırasında vurğunu olduğumuz rənglər də eynidi: tünd mavi. Xörəklərə münasibətimiz də üst-üstə düşür, Fatimə bibiyə bəslədiyimiz sevgi də. İkimiz də bizim xalqı mənfur və mənasız Qarabağ savaşına sürükləyən erməni millətçilərinə nifrət bəsləyirik, axı məhz bu müharibə başlayandan sonra mən çoxlu sayda müəllimlərimi, rəfiqələrimi, milliyyətcə erməni olan qonşularımızı, həmçinin bu dünyada mənə hamıdan əziz insan olan Qreta nənəmi və anamı itirdim...

Yox, mən gərək düzünü söyləyəm, mənim anam həqiqətdə də erməni qızıdır, amma bu gün bunu Bakıda bəyan etmək nəinki ağılsızlıqdır, hətta təhlükəlidir. Belə ki, bir zamanlar mənim Azərbaycan Neft və Kimya İnstitutunda - yeni adı Neft Akademiyasıdır - təhsil alan atam Murad Bağırov elə bu təhsil ocağında mənim gələcək anamla - Karina Bağıryanla qarşılaşır və bu qənaətə gəlir ki, bir halda ki onlar eyni kökdən olan soyadı daşıyırlarsa, bu soyad onların intim bir həyat başlamalarına da körpü sala bilər. Ermənilərin islam kökündən gələn adları, soyadları ayrıca bir söhbətin mövzusudur və bu məsələ məni həmişə düşündürüb. Baş aça bilmirəm ki, bu nə cəfəngiyyatdı? Xristian dininə itaət eləyən ermənilərin ən geniş yayılmış soyadlarından biri açıq-aşkar müsəlman-türk kökənli Allahverdiyandır.

Qayıdaq mənim valideynlərimə. Kaş onlar bir-birinə rast gəlməyəydilər. Onlar qarşılaşmasaydılar, heç mən də doğulmazdım. Yox, dilim-ağzım qurusun, demək heç onda mən Azərə də rast gəlməzdim, dünyanın ən böyük səadətinin nə olduğunu anlamazdım, bilməzdim ki, sevmək, sevilmək nədi! Elə bu səbəbdən də fikirləşirəm ki, nə yaxşı ki, onlar qarşılaşıblar. Belə danışırlar ki, atamla anamın sevgi macəraları, intim münasibətləri gözlənilməz bir sonuca varanda və atam məsələni anasına anladanda və mənim gələcək nənəm Ruqiyyə xanım biləndə ki, oğlu nəsil-nəcabəti ilə bütün şəhərdə seçilən, müsəlman ənənələri üstdə köklənən bir ocağa erməni qızı gətirmək istəyir, necə deyərlər, daş atıb, başını tutub, amma biləndə ki, artıq anamın qarnında mən də varam, nənəm başa düşüb ki, daha yol qalmayıb, tez-tələsik bu xəbəri heç zaman heç nədən sınmayan, sarsılmayan ömür-gün yoldaşına çatdırıb...

Atamla anam çox götür-qoy eləyəndən sonra mənim adımı ona görə Aida qoyublar ki, bu ad ermənilər arasında da yayılıb; ortaq ad təsiri bağışlayır və valideynlərim bu ortaq adı tapıb mənə verməklə guya biclik işlədiblər, gələcəkdə mənim milliyyətimlə maraqlananlara kələk gəliblər. Hə, bu da mənim adım, soyadım: Bağırova Aida Muradovna. Yeri gəlmişkən ermənilər arasında da nə qədər istəsən Murad adlı adam tapmaq olar. Muradyan soyadı isə daha çox yayılıb. Yeri gəlmişkən bir məqama da diqqət yetirin: görürsünüzmü, valideynlərim doğum şəhadətnaməmdə azərbaycanlılar arasında qəbul olunduğu kimi "Murad qızı" yazdırmayıblar, məni rus manerasından gələn bir çağırış tərzi ilə mükafatlandırıblar: "Muradovna". Təbii ki, bu, valideynlərimin strateji uzaqgörənliyi kimi dəyərləndirilməlidir; çünki bu, hər iki (bəlkə də üç) tərəfi qane eləyən müraciət tərzidir. Amma valideynlərim bir şeyi nəzərə almayıblar; şəxsiyyət vəsiqəmdə - pasportumda mənim milliyyətim "azərbaycanlı" yazılıb; görünür, doğum şəhadətnaməsində də belə yazılıb və məlumdur ki, pasportun əsası-kökü doğum şəhadətnaməsidir. Deməli, azərbaycanlılar arasında

məni azərbaycanlı kimi qəbul etmək istəməyənlər meydana çıxsa, fakt qarşısında qalacaqlar. Fakt isə budur: "milliyyəti - azərbaycanlı"! Amma qonşu Ermənistanda, ermənilər arasında, erməni qulağında adım, soyadım, atamın adı yad səslənməsə də, əksinə, onlara doğma, tanış gəlsə də, milliyyətimi bildirən qrafadakı qeyd artıq söhbətə yer qoymayacaq və dərhal məlum olacaq ki, mən onların nifrət bəslədiyi Azərbaycan xalqının qızıyam və deməli, mən də düşmənəm. Olsun, onsuz da mən orda yaşamağa hazırlaşmıram.

Orda yaşamaq istəsəm də, istəməsəm də, hər halda mənim qanım qarışıqdır! Mən uğursuz bir haşiyəyəm, genetik cəhətdən azərbaycanlı olduğum qədər də erməniyəm və damarlarımda bir-birinin qanını içməyə hazır olan iki millətin qanı axır və mənim bütün məhrumiyyətlərim və fəlakətlərim də bununla bağlıdır. Politexnik institutunun müəlliməsi olan, səmimi rəftarı, bəyaz sifəti ilə dərhal yadda qalan anamdan mənə keçən əlamətləri sıralasam, etiraf etməliyəm ki, sifətimin bəyazlığı, həmçinin qonur gözlərim, şabalıdı saçlarım, zərifliyim və həssaslığım anamın mirasıdır, amma təbiət atamın da bir sıra zahiri əlamətlərini və xüsusiyyətlərini məndən əsirgəməyib; sifətimdəki aydın, mənalı ifadə, balaca, dik burnum, xasiyyətimdəki əyilməzlik, güzəştə getməmək, yəqin ki, qadın cinsinə mənsub olduğuma görə içimdə daha tez baş qaldıran qafqazlılara məxsus ehtiras isə sözsüz ki, atamın nişanələridir.

Bununla belə, düşünmək olmaz ki, valideynlərimin düşüncəsizliyi nəticəsində qarışıq nigahdan doğulduğuma görə mən həmişə əzab çəkmişəm. Əlbəttə yox, biz başqalarını da tanıyırıq, o keçmiş, gözəl günlərdə mənim ağlıma da gəlmirdi ki, qarışıq nigahdan doğulduğuma görə cəmiyyətdə mənə fərq qoyan ola bilər... Haçansa mən təsəvvürəgəlməz dərəcədə xoşbəxt idim, xudmani ailəmizdə bir-birini sevən insanların ikisinə də həsəd aparırdım, onların mənə göstərdiyi qayğıdan, sevgidən qanadlanırdım: onlar məni balet studiyalarına, folklor dərnəklərinə, musiqi, idman məktəblərinə aparırdılar və mən məhəbbət üstündə qurulmuş bu ailədə necə bir körpü olduğumu anlayırdım və özümü bu dünyanın ən bəxtiyar uşağı sayırdım. O zaman mən adı da əzəmətlə səslənən Sovet Sosialist Respublikaları İttifaqı adlı bir dövlətdə yaşayırdım. Və bu nəhəng, çoxmillətli ölkədə etnik münaqişələrə, dini ayrıseçkiliyə meydan yox idi. Mənə bu dövlətin ən görkəmli bir respublikasında -günəşli Azərbaycanda doğulmaq nəsib olmuşdu. Mən erkən yaşlarımdan bilirdim ki, Vətənim dünyaya görkəmli filosoflar, şairlər, müdrik şəxsiyyətlər bəxş edib, xalçalarımızın sorağı Yer kürəsinin ən məşhur sənət muzeylərindən gəlir, musiqimiz bütün dünyada səslənir, o ki qaldı torpağımızın bərəkətinə - faydalı qazıntılarımızdan olan neftə, bunun bəhrəsini ötən yüzillikdə Nobel qardaşları da görüb, qardaşlar hətta bu xammalın gətirdiyi gəlirin hesabına dünyanın ən şanlı-şöhrətli ödülünü - Nobel mükafatını təsis eləyiblər...

İndi özüm də inana bilmirəm ki, mən haçansa bu gözəl respublikanın bəxtiyar vətəndaşlarından biri olmuşam... Özü də necə bəxtiyar! Başının üstündə parlaq cənub günəşi şəfəq saçırsa, ayaqlarını Xəzərin ılıq suları yuyursa, tarixlərdən süzülüb gələn doğma musiqinin sədası ana laylası kimi qulaqlarından çəkilmirsə, azman dağlar insan kimi üzünə gülümsəyirsə, bu dağların bir qolu olan - qədim sivilizasiyaların izlərini bu gün də özündə yaşadan Qobustan qayalarındakı təsvirlərdə öz qədim keçmişinlə qarşılaşırsansa, necə bir tarixə malik olduğunu anlayırsansa, daha adama özgə nə lazımdı? Hələ mən Xəzərin neməti olan ağ balıq növlərindən, güllü-çiçəkli yaylalarda bəslənmiş, billur bulaqların suyundan içmiş quyruqlu quzuların ətindən hazırlanmış dolmasına, küftəsinə, basdırmasına, pitisinə, qovurmasına zəfəran, zəncəfil, darçın qarışdırılmış milli xörəklərimizdən və süfrəmizin daha bir bəzəyi, ətirli, şirəli göy-göyərtilərimizdən söz açmaq istəmirəm.

Ancaq o da məlumdur ki, insan, daha doğrusu, ağlı başında olmayan insan, həmçinin cəmi - cəmiyyətin tamahkar zümrələri hesab edirlər ki, həmişə nələrisə çatmır. Yoxsa, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində əmin-amanlıq içində yaşayan, amma erməni lobbisi tərəfindən qızışdırılandan sonra zaman-zaman millətçilik mikrobunun qurbanı olan, "Böyük Ermənistan" xülyasına inanan ermənilər dəhşətli siyasi münaqişələrə meydan açmazdılar. Bu münaqişə yalnız iki respublika arasında başlanan müharibə ilə məhdudlaşmadı, nəhəng Sovet İttifaqının dağılıb parçalanmasına səbəb oldu. Çünki Sovet İttifaqının başçısı Qorbaçovun yenidənqurma ilə bağlı sayıqlamalarından qaynaqlanan populist çıxışları da iki respublika arasında qanlı müharibəyə meydan açdı və artıq özünün müstəqilliyini elan etmiş Azərbaycanın bütün ərazisini bürüdü. Və üstəlik də məlum oldu ki, ermənilər silahlandırılıb və bu silahlandırılma ermənilərin "yaralı"

yerini qaşımaq və onların əli ilə həmişə Qərb üçün təhlükə mənbəyi olan sosializm sistemini dağıtmaq üçündür.

Amma nə lənətə gəlmiş Qorbaçov, nə ağlını itirmiş erməni millətçiləri bu münaqişəni anbaan qızışdıranda bizi yada salmadılar, mənim kimi qarışıq nigahlardan doğulmuş insanların taleyini düşünmədilər; fərqinə varmadılar ki, biz onlarla yanaşı, onlarla bir yerdə yaşamağa məhkumuq... Mənim kimi qarışıq nigahların qurbanı olanlar isə milyonlarcadı və demək olar ki, onların hamısı bu münaqişə nəticəsində isti ocaqlarını, var-yoxlarını itiriblər, həyatları təhlükə altındadır, daima qorxu, təlaş içində yaşayırlar, özü də çoxusu Vətəndən uzaqlarda, qürbətdə, qəribçilikdə...

Onların nə vecinə ki, mən anam sağ ola-ola, anasız - yetim qalmışam?! Bəli, yetim. Siz deyin, mən bu vəziyyətdə özümə nə ad verim? On ildən bəri mən artıq tikə kimi atılmışamsa, anamın üzünü də görmürəmsə buna nə ad qoymaq olar? Axı, o, -mənim anam sağ-salamatdır. Özü də o, məni hələ on bir yaşım tamam olmamış ərinin və ərinin qohumlarının umuduna qoyub Bakıdan çıxıb. Mən anamda təqsir görmürəm: o, səmimi qəlbdən inanıb ki, bu addımı mənim gələcəyim naminə atır. Hər halda məndən ötrü, ya hər hansı bir uşaq üçün ən başlıca şərt anasının yanında olmaq, ailə ünsiyyətindən qanadlanmaqdı, amma bu ailəni bilə-bilə dağıtdılar... Artıq iyirmi yaşım var və bütün bu məhrumiyyətlər məni o qədər də ağrıtmır, bir zamanlar isə, mən illərlə iztirab çəkməyə və dözməyə alışan ürəyimlə bacarmadım. Elə indinin özündə də hərdən mənə elə gəlir ki, mumiyaya salınmış daşam, müqəvvayam və bu mənasız və analoqu olmayan həyata sonsuz bir həsrətlə baxıram.

Münaqişə başlayanda mənim atam respublikanın aparıcı, mühüm sahələrindən birində çalışırdı, özü də nazir müavini vəzifəsində. Onun keçirtdiyi həyəcan, qorxu təsəvvürümə gəlir, mən indi başa düşürəm ki, o, biçarə nələr çəkib! Axı, o, anamı çox istəyirdi və təbii ki, anama görə həyəcanlanırdı, amma dünyagörmüş bir kişi kimi susurdu, içində çəkirdi. Və hərdən özünə ürək-dirək verirdi: "Bəyəm erməni qızıyla evlənən yalnız mənəm? Kimin nə həddi var mənə artıq-əskik söz desin!"

Və heç kim də heç nə söyləmədi. Rəsmi məlumata görə, münaqişənin üstündən uzun illər keçməsinə baxmayaraq, bu günün özündə Bakıda iyirmi mindən artıq erməni yaşayır. Hələ söhbət respublikanın paytaxtından gedir, o şəhərdən ki, Ermənistandan qovulmuş azərbaycanlı qaçqınların sığınacaq yerinə çevrilib, o şəhərdən ki, qəbiristanlıqları hər gün, hər saat erməni təcavüzü nəticəsində həlak olan cavanlara son mənzil olur. Bəs nə üçün məhz mənim anam Bakını tərk etməlidir? Nə üçün?.. İndi bilirəm ki nə üçün, amma ötən əsrin səksəninci illərində o hadisələr başlayanda, mən bu suala cavab tapa bilmədim, axı onda mənim cəmi on bir yaşım var idi və mən açıq-aşkar nəyisə başa düşməkdən imtina elədim, nə üçün dedim, nə üçün anamı-bu dünyanın ən doğma, ən istəkli, ən əziz varlığını məndən ayırsınlar?

## II FƏSİL

Axırı ki, sən də məni yalqız qoydun Azər, özü də bir zamanlar anamın, ardınca da nənəmin və babamın məni tək-tənha atıb getdikləri izlə... Günlər sənsiz mənə çox uzun görünür, Azik... Günəş gözdən itdi, şəhər bozardı və quşlar uçub getdilər. Nə üçün mən onlar kimi uça bilmirəm? Bilsən, necə qibtə eləyirəm quşlara, axı onlardan nə viza, nə bilet, nə pasport istəyən var. İnsanları millətlərə ayırmaq, Yer üzündə dövlət qurmaq kimin kəşfidir görəsən? Hər halda bu ağılsız və ədalətsiz, həm də amansız bir addımdı...

Qarşımda dünyanın coğrafi xəritəsini açmışam və uzaq İngiltərəni diqqətlə öyrənməyə başlamışam. Burdan cəmi ingilislərin ana vətəni mənə o qədər yaxın görünür ki, hətta mənə elə gəlir əlimi uzatsam sənin əsilzadə əllərinə çatar və o əllərin hərarəti bütün vücuduma yayılar; və beləcə əlimi sənə uzadıram-salam, əzizim! Məskunlaşdığın yeni ada sənin xoşuna gəlirmi? Bir zamanlar biz arzulayırdıq ki, Azər və Aida adasında məskunlaşaq ki, heç kim də bizi ayıra bilməsin, yadındadı? Onda biz lap balaca idik... Amma sən o zaman da uşaq olmağına baxmayaraq, uzaqgörən idin və yaşıdlarından ciddi hərəkətlərinə, sözlərinə görə seçilirdin. Yadımdadır, bir dəfə çox ciddi tərzdə mənə dedin:

-Sən həkim olmalısan, Aida. Bu olduqca vacib bir peşədir və sənin biliyin bizə öz adamızda gərək olacaq, lazım gələndə sən məni də, bizim uşaqlarımızı da müalicə edəcəksən.

Yalnız bu sözlərin xatirinə, mən qərar verdim ki, həkim olum və heç kim bilmir ki, bu mənə nəyin bahasına başa gəlir, heç kim bilmir ki, mən qana nifrət eləyirəm, qoxusu bir yana, qan görəndə ətim ürpəşir, ödüm ağzıma gəlir. Mən insanların keçirtdiyi əzablara da tamaşa edə bilmirəm, dəhşətə gəlirəm, iyrənirəm və fikirləşirəm gərək jurnalistika fakültəsinə gedəydim, amma indi mən həkim olmaq üçün oxuyuram, Azər, çünki bunu sən istəmişdin, Sən-mənim əzizim! Bəs mən nə istəyirəm? Bircə şey: səninlə bir yerdə olmaq...

Bir zamanlar rahatlıq tapdığım və özümü dünyanın bəxtəvəri sandığım evimizin pəncərəsinə yaxınlaşıram, ancaq bayıra yox, içəri baxıram. Ruqiyyə nənəmin vəfatından sonra bu mənzildə heç nə dəyişməyib. Bilmirəm yad bir qadının bu evdə peyda olmasını təzəlik kimi qələmə vermək olar, ya yox? Atam mənə qulluqçu tutub. O, otaqları yığışdırır, mənə xörək hazırlayır və mənim otağımla yanaşı otaqda da yatır ki, mən gecələr qorxmayım. İsmi-şərifi Lida xaladı. Rus adı daşımasına baxmayaraq, rus deyil, almandı, Bakıda doğulmuş alman. İkinci Dünya müharibəsindən sonra Almaniyaya dönməyən və Bakıda yaşamağa önəm verən hərbi əsirin qızıdı. Lida xala ilə məni birləşdirən bir məqam da var; o da qarışıq nigahdan doğulub, anası rus olub...

Ömrünün axırlarında qulaqları tutulan və tamam dağılan Sovet dövlətində çox şeylərdən məhrum olan, oğulsuz-uşaqsız və işsiz qalan Lida xala ciddi-cəhdlə çalışır ki, mənim tənhalığıma işıqlı rənglər calasın, o, işgüzar və təmizkardı. Amma məni lap qəlbən sevsə də, mən heç vaxt ona doğma ola bilmərəm, çünki o, öz işini görür, vəzifəsini yerinə yetirir və çəkdiyi zəhmətə görə də məvacib alır. O ki qaldı mənə, Lida xala mənim həyatımda həqiqətən heç nəyi dəyişməyə qadir deyil. Atam nə üçünsə qərara gəlib ki, qulluqçu mənə həyan olar və atamın ağlına da gəlməyib ki, mənim bir həyanım var və o da sənsən, mənim Azərim! Mən bir şeyi dəqiq bilirəm ki, sən olmasaydın, mən bu ötən illər ərzində heç bir şəraitdə yaşaya, tab gətirə bilməzdim. Elə buna görə də indi mənə baxmaq, mənim gözlərimi yaşsız görmək mümkün deyil; sən getdin və mənə indi yalnız o qalır ki, iztirabdan dəli olum...

Otağımın pəncərəsindən qədim Bakının daş döşənmiş, ilkin rəngini çoxdan itirmiş köndələn küçələrinə, dalanlarına, mağzalları bir muncuq düzümü kimi göz oxşayan qala divarlarına baxıram. Aralıda köhnə meçidin minarəsi və Şirvan şahlarının neçə yüz il qabaq inşa edilmiş Sarayı görünür.

Haçansa tişə ilə vurulmuş naxışları, kufi yazıları hələ də daş yaddaşında yaşadan saray qüllələrinin və sütunların qatı, qara kölgəsi elə bil ki, zamanın üstünə düşüb. Heç bilirsən orta əsrlərin bu nişanəsi mənə nə qədər doğmadır? Solda yalnız daş xarabalıqları qalmış Bazar meydanıdı və bütünlükdə böyük bir tarixi özündə yaşadan bu məkanın adı Qaladı. Qala Şəhər, İçərişəhər. Və bu Qala Şəhərdə də minlərlə, yüz minlərlə şan-şöhrətli oğlanlar, qızlar doğulub, amma onların arasında bizim qədər bir-birini sevən insanlar olmayıb. Ancaq məhz bizi ayırdılar!!! Nə üçün? Nəyə görə? Nədir bizim günahımız???

Hərdən fikirləşirəm: axı, nəyə görə varlığımla bağlı olduğum insanlar məni tərk eləyir və həyat məndən ötrü öz böyük mənasını itirir? Əvvəlcə nənəm, sonra babam, anam, ikinci babam, ikinci nənəm və indi də-sən... Haçansa mən evimizdəki mehribanlığı, ülfəti görəndə fərəhdən ürəyim sinəmə sığmırdı və böyük ailəmizi də arı pətəyinə bənzədirdim... İndi isə özümü ayaqları torpaqdan üzülmüş bir adam sayıram və görürəm ki, heç kim də bunun fərqində deyil...

## III FƏSİL

Nə böyük səadət imiş böyük və həm də mehriban bir ailədə doğulmaq! Babalı, nənəli böyümək! Nəvədən ötrü milliyyətin nə mənası? Təki baban olsun, nənən olsun. Mənimkilər hamısı şanlı-şöhrətli olublar, xatirələrdə, yaddaşlarda şan-şöhrətlərinə görə qalıblar.

Ata babamın adı İbrahimdi, amma hamı onu İbrahim kişi çağırardı, çünki əsil kişiydi, sözünün ağasıydı. Qartal burunlu, ağsaçlı bu qıvraq qocanın sifətini sanki külək döyüb qaraltmışdı, ağıllı qonur gözlərinin dərinliyində elə bil od gizlənmişdi və bu od zaman-zaman işıq saçırdı. O, ciddi bir təhsil görməmişdi, böyük vəzifə sahibi olmamışdı, amma adi bir buruq ustası ola-ola böyük şan-şöhrət qazanmışdı: həmişə də şəhərin möhtəbər kişiləri ilə durub-oturardı. Onu Sosialist Əməyi Qəhrəmanı adına layiq görmüşdülər və o, yalnız respublikanın yox, həm də ölkənin sayılan neftçilərindən hesab olunurdu.

Mütənasib bədəni, uzun qara hörükləri, mərmər kimi hamar, ciddi dərisi dərhal diqqəti çəkən ömür-gün yoldaşı - yəni mənim nənəm Ruqiyyə haqqında haçansa aşıqlar mahnı qoşublar, toylarda oxuyublar. Mənim babam da nənəmi ilk dəfə Suraxanıda -toyda görüb və gözəllər gözəlinə, nağıllarda deyildiyi kimi, bir könüldən min könülə aşiq olub. O zamanlar da əslən şüvəlanlı olan, güllə atmaqda, at çapmaqda ad çıxardan babam çərkəzi geyinərmiş, başına da qaragül dərili papaq qoyarmış. Qıza, sonra da sağa-sola baxıb və üzünü tutub Suraxanı cavanlarından birinə. Soruşub:

-Kimdi bu qız?

Suraxanılı cavan gülümsünüb:

-Bilməsən yaxşıdır, -deyib, -onun altı qardaşı var! Atası da dəyirman sahibidir. Onlar kənar adama qız verməzlər!

Babam səsini qaldırıb:

-Yəni Seyid Hacı Ələsgərin oğluna da verməzlər?

Suraxanılı cavan bu suala cavab verməyib, amma astadan deyib ki, mənim sənə məsləhətim budur ki, o qızdan gen dolanasan. Babam yenə də səsini qaldırıb:

-Ona hələ baxarıq, Suraxanılı balası!

Babam o vaxtacan gözləyib ki, nənəm bir dəstə qızla toy çadırından çıxıb və babam birbaşa atın belindən onun qarşısına sıçrayıb.

-Bu gözəlin ürəyini hansı bir dağ qartalısa çala bilibmi?

Sual nə qədər gözlənilməz olsa da, nənəm dərhal cavab verib:

-Mənim ürəyimi hələ ki, nə qartal fəth eləyə bilib, nə də şahin! Bildin?

Babam nənəmi sözünün ardını gətirməyə qoymayıb, onu qucaqlayıb və atının yəhərinə tullayıb və özünə də atın tərkində yer eləyən kimi ayğırın başını buraxıb...

O qızı Şüvəlan kəndində -xalası evində gizlədib və qohum-əqrəbaya da xəbər eləyib ki, toya hazırlaşsınlar. Nənəmin qardaşları hadisədən xəbər tutan kimi atlanıb, silahlanıblar və düşüblər nənəmi qaçırdan cavanın izinə, amma Şüvəlanın girəcəyində onları babamın babasının elçiləri - kəndin ağsaqqalları qarşılayıblar və onları Seyid İbrahimlə Ruqiyyə xanımın toy məclisinə dəvət ediblər...

Baxmayaraq ki qohumluq əlaqələri qız tərəfini son dərəcə haldan çıxardan, həyəcanlandıran hadisə ilə başlayıb, Ruqiyyə nənəm o günləri xatırlamağı sevirdi; deyirdi, İbrahim ailəmizdə o qədər hörmət, nüfuz qazanmışdı ki, rəhmətlik atamdan soruşanda neçə oğlun var?; cavab verirdi: İbrahim başda olmaqla yeddi.

Mən gözümü dünyaya açanda və atamın anası Ruqiyyə xanıma bir nənə kimi mehrimi salanda bir zamanlar incə, zərif gözəllər gözəli olan nənəm ətli-əndamlı bir arvada çevrilmişdi, amma yenə də son dərəcə qıvraq, zirək idi. Uzun kiprikləri ilə yadda qalan gözləri boz-bulanıqdı, əllərinə və sifətinə qırışlar iz salmışdı, xınalanmış ağ saçları da qayçı görmüşdü, çünki saçlarına qulluq etməyə vaxtı yoxdu. O da babam kimi bütün günü işləyirdi, boş vaxtlarını isə həvəslə bizə-ailə üzvlərinə həsr eləyirdi.

Nənəm bu dünyaya üç oğlan və bir qız gətirib. Amma Allah ona cavan yaşında bala dağı da göstərib; ortancıl oğlunu bir əlcə körpə ikən əlindən alıb. Babamla nənəm övladlarına Məhəmməd peyğəmbərin nəvələrinin müqəddəs adlarını veriblər: ilk uşaqlarına Həsən, qızlarına Fatimə, dünyasını erkən dəyişən oğullarına isə Hüseyn. Və onları həmişə sevib-əzizləyiblər. Yalnız mənim atama "sadə", aristokrat ad qoyublar-Murad. Bəs görəsən ona nə üçün peyğəmbərlərdən birinin adını verməyiblər? Məsələn, Əlinin? Oğlunun gələcək taleyi babama əyan ola bilərdimi? Kim bilir...

İbrahim babam deyərdi: kim ki, sağlığında ev tikməyib, ağac əkməyib, yaxşı oğul böyütməyib, demək o, boş-boşuna yaşayıb. Yeri gəlmişkən, Qaladakı geniş mənzil babama öz valideynlərindən qalıb, amma o, ailənin sonbeşik oğlu olmasına baxmayaraq, oranı öz evi hesab etməyib, Saray qəsəbəsində bağ massivində imarət tikməyə başlayıb və demək olar ki, öz mənalı və şərəfli ömründə halal zəhmətlə nə qazanıbsa, hamısını sidq ürəklə bu evin inşasına qoyub.

İbrahim babam Xəzərin sahilində aldığı bu boş torpaq sahəsini barlı-bəhərli bağa çevirmişdi, mən o məkanı görəndə ordakı üzüm tənəkləri, incir, ağ tut, xar tut, alma, armud, nar, şaftalı, ərik, gilənar, albalı bar verirdi, qızılgüllər, qərənfillər açırdı, nərgizlər, yasəmənlər çiçəkləyirdi. Belə ki, inamla demək olar ki, o, boş torpaqda həm imarət ucaldıb, həm də ağac əkib, bağ salıb!

O ki qaldı oğullarına, mənə elə gəlir ki, bu heç kim üçün də sirr deyil babam böyük oğluna, mənim əmim Həsənə-Azərin atasına üstünlük verirdi, ona öz varisi kimi baxırdı, təbii ki, bunun da səbəbləri vardı. O, olduqca zabitəli, sərt, məğrur baxışlarından hökmranlıq yağan, sözünü deməkdən çəkinməyən, iradəli bir kişidir. Həsən əmim ailənin tam razılığı əsasında, ənənəyə uyğun bir şəkildə ailə qurub, tanınmış bir azərbaycanlı ailəsində böyümüş, tərtəmiz Azərbaycan qızına evlənib və o qız da babamın ilk oğul nəvəsini - Azəri dünyaya gətirib.

Bunun müqabilində, sanballı vəzifə tutmasına, həyatda uğurlar qazanmasına baxmayaraq, mənim atam ləyaqətli oğul hesab olunmurdu, başlıcası da ona görə ki, valideynlərin sözünü eşitməmişdi, evə erməni qızı gətirmişdi - özü də qarnı burnunda, o ki qaldı ailənin yeganə qızına - Fatiməyə, o tutduğu əməllə nəinki babamı, bütün nəsli rüsvay eləmişdi; hamını yandırıb yaxmışdı, rəsmi nişanı ərəfəsində bir lüt musiqiçiyə qoşulub ata evindən qaçmışdı.

Danışırlar ki, babam o musiqiçinin barışıq üçün gələn elçilərini qapıdan qovub, gətirdikləri toy dəvətnaməsini tikə-tikə eləyib, başlarına səpələyib. Sözünü isə Fatimə bibimin qarasına deyib:

-Mən köklü bakılı ola-ola, salyanlı ilə qohum olum?! Şərəfsiz, yerə soxdu mənim papağımı; məni bişərəf elədi qohum-qardaş yanında! Axı mən qudama söz vermişdim! İnnən belə el arasına necə çıxacam? Bu günnən mənim o adda qızım yoxdur! Vəssalam, onu bağışlamıram, bağışlamayacağam da.

Babamın istəyi gözündə qaldı, axı Fatimə bibim qoşulub qaçmamışdan bir neçə gün qabaq Şüvəlan qəsəbəsində bir neçə isti şitillik saxlayan, var-dövlət sahibi olan yeznəsi Ağakərimə deyibmiş ki, qızını onun böyük oğlu Fikrətə verəcək. Təbii ki, bu sövdələşmədən bibim də xəbərdar imiş, amma heç cür ipə-sapa yatmırmış, sevmədiyi bir adama ərə getməyə razılaşmırmış.

Toylarda nağara çalmaqdan başqa əlindən bir şey gəlməyən, amma həmişə şən, deyib-gülən, eşmə, qara bığlarına həvəslə tumar çəkən salyanlı Yunusa aşiq olan və ona da qoşulub qaçan bibim musiqi məktəblərində müəllimlik etməli olur və uzun illər ata ocağına həsrət qalır, ona yad-mundar tikə kimi baxırlar. Yalnız o, ana olandan, dünyaya gətirdiyi qızın da adını Məhəmməd peyğəmbərin ən sevimli arvadının şərəfinə Xədicə qoyandan sonra babamın ürəyi yumşalır və nəhayət, qərara alır ki, özbaşınalıq etmiş qızı ilə, onun ailəsilə barışsın, ölüm-itim dünyasıdır.

Fatimə bibim uzun illərin ayrılığından sonra ilk dəfə ata ocağına ayaq basanda böyük qardaşı, yəni mənim Həsən əmim onu çox soyuq qarşılayır, daha doğrusu, heç üzünə də baxmır, amma bunu sezən babam dərhal öz hökmünü verir:

-Bu evdə söz sahibi mənəm, mən də sözümü demişəm! Əgər mən ata ola-ola qızımı bağışlamışamsa, bu evdə ona güldən ağır söz deməyə kimsənin haqqı yoxdur!

Bu xəbərdarlıqdan Həsən əmim öz payını götürür, amma babam yenə sözünə davam eləyir:

-Biz onu xoşbəxt etmək istəyirdik, bir halda ki, o, özü başqa yol seçdi, bizim borcumuz odur ki, onun qolundan tutaq, yıxılmağa qoymayaq. Sən də bir böyük qardaş kimi ona qarşı elə bir mövqe tutmalısan ki, o, tamam sınmasın, çıxdaş olmasın. Heç kimin də bu evdə ona artıq-əskik söz deməyə haqqı yoxdur, o da bu evin uşağıdır...

Yalnız İbrahim babamın bu sözlərindən sonra Həsən əmim suçunu anlayıb və lal-dinməz başını aşağı salmış bacısını ehtiramla sinəsinə sıxıb...

Uca boylu, qədd-qamətli Fatimə bibimin şahanə duruşu öz yerində, süd kimi bəyaz dərisi, gur şabalıdı saçları, nazik, kamanı qaşları, işıqlı ala gözləri həmişə diqqətimi çəkərdi və qəribədir ki, o zaman mən balaca olsam da o, öz dərd-sərini, həm də ümumiyyətlə, ailə sirlərini mənimlə paylaşar, bölüşərdi. Atamla anamın necə ailə qurmalarını, hansı çətinliklərlə qarşılaşmalarını da mənə Fatimə bibim anlatmışdı; onun söylədiyinə görə, babam izdivaca qəti etiraz eləyirmiş, amma biləndə ki, anamın boynuna uşaq düşüb, hamilədi, bir xeyli susub və sonra da üzünü nənəmə tutub:

-Əvvəlcə onu meçidə aparın, and içsin, islamı qəbul etsin, sonra da evə gətirin sakitcə, toy-filan da lazım deyil, doğana qədər də gözümə görünməsin, qız doğacaq onsuz da.

Ruqiyyə nənəm heyrətlə soruşub:

-Nə bilirsən qız doğacaq, bəlkə oğlan doğdu?

Babam incik halda dillənib:

-Atası qarğıyan oğula Allah oğul verməz!

İbrahim babamın təkidi ilə anamın adını da dəyişiblər, amma köklü surətdə yox, onu Karina deyil, Qərinə çağırmağa başlayıblar. Anamın yeni adı nə qədər mənalı olsa da, bu düzəlişi pasportda qeyd etdirməyiblər; valideynlərim fikirləşiblər ki, nəyə lazım artıq əziyyət, onsuz da "Qərinə"ni rus orfoqrafiyası ilə pasporta yenə "Karina" yazacaqlar. Əlbəttə, əgər onlar duysaydılar ki, haçansa bu düzəliş bir məna kəsb edə bilər, sözsüz ki, bu əziyyəti çəkərdilər - anamın pasportunda düzəliş etdirərdilər.

## IV FƏSİL

Ana tərəfdən o qədər də əqrəbalı olmamışam: nənəm Qretadan, babam Xristofordan və dayım Rubendən başqa qohum tanımamışam. Onlar Zavaqzalnı küçəsində, balaca, amma xudmani, rahat mənzildə yaşayırdılar. Görünür, Sovet dönəmindən qabaq indi onların yaşadığı bu birmərtəbəli, qədim daş tikili bir nəfərə mənsub olmuşdu, sonradan evi arakəsmələrlə kəsib burda bir neçə ailəni yerləşdirmişdilər, amma balaca məhləni bölə bilməmişdilər, sakinlər hamısı çarpaz-çarpaz şaxələnmiş bir üzüm tənəyinin qoynuna aldığı həyətə çıxırdılar, ortalıqdakı su krantından hamı yararlanırdı. Günəş şüalarının yalnız bu üzüm kolunun yarpaqları arasından asfaltına yol tapan bu balaca insan məskəni bizim lifti soyuq dalanı səsli-küylü magistral küçəyə çıxan, əsasən adlı-sanlı adamlar yaşayan daş binamıza əsla bənzəmirdi.

Başı tamam dazlaşmış, qarın bağlamış, əyri burnu bütün sifətini öz "işğalı" altına almış, simasından mehribanlıq yağan qaragözlü Xristofor babam rayon inşaat idarələrindən birində rəngsaz işləyirdi, üstəlik xüsusi sifarişlərə də gedirdi, nənəm Qreta isə tanınmış dərzi idi, müştərilərini də evdə qəbul eləyirdi.

Onlar bütün günü yorulmaq bilmədən işləyirdilər və deyirdilər ki, bütün bu əziyyət oğulları Rubenlə qızları Karinanın xatirinədi, təki onlar oxusunlar.

Anam valideynlərinin etimadını doğrultmuşdu, orta məktəbdə əla oxumuşdu, Neft və Kimya İnstitutuna girmişdi və elə orda da atamla qarşılaşmışdı. Amma ən çox sərt, soyuq baxışları ilə yadımda qalan dayım əzəldən tənbəl olub, elmə-savada maraq göstərməyib, texniki-peşə məktəbini bitirib və bununla da təhsilini bitmiş hesab eləyib. O, qarajda dəmirçilik etməklə para qazanırdı və işindən də razıydı. Mənim bu qaraqabaq dayım zahirən də valideynlərinə bənzəmirdi və o, birdən-birə bildirəndə ki, öz şərikinin Yerevanda yaşayan xalası qızına evlənmək istəyir, hamı heyrətə gəldi, amma o, tezliklə evləndi. Özü də köçüb Yerevanda məskunlaşdı.

Ailəlikcə Yerevana getməyimizi yaxşı xatırlayıram. Etiraf etməliyəm ki, qədim Şərqin və eləcə də Qərbin zəngin arxitektura ənənələrini özündə birləşdirən, hündür binaları və səliqə-sahmanı zadəganlıqdan xəbər verən Bakı şəhəri ilə müqayisədə Yerevan məndə zövqsüz geyinmiş, özünü qırçınla, saçaqla bəzəmiş bir mürəbiyyə təəssüratı oyatdı. Amma Yerevanda məni heyrətə gətirən şeylər də oldu. Onlar Azərbaycan musiqisinə qulaq asırlar, amma erməni dilində! Xörəkləri də türk adları daşıyır: basdırma, dolma, xaş. Elə bilirdim Bakıda öz evimizdəyəm, amma orda adamlar Bakıdakı kimi istiqanlı deyildilər; iddialı və soyuq idilər. Belə ki, mənim öz doğma dayımın toyunda canı-dildən oynamağa da qolum qalxmadı və mən Bakıya bir qədər məyus qayıtdım. Yerevan-Bakı qatarında mən narazılığımı aşkarca bildirəndə nəinki anam, Xristofor babam da, Qreta nənəm də mənimlə razılaşdılar.

Qreta nənəm:

-Onlar bizi-Bakı ermənilərini sevmirlər, hesab eləyirlər ki, biz xalis erməni deyilik, -dedi və qarası ağına qarışmış saçlarını çiyninə ataraq, tünd qonur gözlərini üzümə zillədi, -bizə üstdən aşağı baxırlar, amma baş açmaq olmur ki, nəyə görə? Bizim danışığımızı məsxərəyə qoyurlar, di gəl ki, özləri rusca, elə bir ləhcə ilə danışırlar ki, gərək qulağını tutub qaçasan. Dardüşüncəlidilər, həm də qəddar, bax belədi onlar! -Nənəm yenə sözünə ara verdi, əl dəsmalı ilə xırda, sivri burnunu, işıqlı bəyaz sifətini və yanağına ləkə salan göz yaşını silib dedi, -Yandırdın məni, Rubencan, bəs biz qocalanda kimin umuduna qalacağıq?

Sözün bu yerində Xristofor babam nədənsə Qreta nənəmin yarasına "duz səpdi".

-Sən gedərsən oğlunun yanına, -dedi, -valideynə baxmaq övladın borcudu. Yolu ki tanıdın, minərsən qatara, gedərsən Yerevana!

-Allah mənə o günü göstərməsin, onnansa ölərəm, -Qreta nənəm qəti şəkildə bildirdi, -Mən Bakıdan heç yana gedən deyiləm, amma sən özün istəsən Yerevana getmək, yol açıqdı.

Bu söz, deyəsən, Xristofor babama bərk yer elədi:

-Sən nə danışırsan? -dedi, -Mən Bakıda doğulmuşam, bütün ömrümü də burda yaşamışam. Bu şəhərdə mənim evim, dostlarım, qızım, kürəkənim, nəvəm var. Bəs onda bu Yerevanda nə itirmişəm? Bizim oğlumuz özünə qəribçilikdə yuva qurdu, neynəmək olar, təki xoşbəxt olsun...

Xristofor babam da Qreta nənəm kimi Ruben dayımın seçimindən və xüsusən də oğlunun yeni əqrəbasına bəslədiyi hüsn-rəğbətdən çox pərt olmuşdu. Hamını təəccübləndirən bu idi ki, mənim təhsil görməmiş dayım Rubenin aldığı, evdə qalıb qarımış, gicbəsər "dördgöz" Hayqanuşu ata-anası "elm xadimi" kimi qələmə vermişdilər. Sözarası eşitdirmişdilər ki, orta məktəbdə dərs deyirlər, ziyalıdılar, onların rəngsazlıqla və dərziliklə məşğul olan "proletar qudaları" bunu anlamalıdılar və nəzərə almalıdılar. Sən demə, onlar hər addımda vurğulayırmışlar ki, uşaq bağçasında tərbiyəçi işləyən bir qız, gələcəyi olmayan bir dəmirdöyənə ərə gedirsə, bunun nəyinə sevinsinlər... Eh, hələ sən demə girəvə düşən kimi, Xristofor babamın, Qreta nənəmin qulağı eşidə-eşidə Hayqanuşun anası Ruben dayımı sancırmış. Elə bil tanış-bilişə yalvara-yalvara bir ucu Bakı, bir ucu Tiflis Hayqanuşa ər axtarması yadından çıxıbmış. Sən demə, hamını da inandırırmış ki, mənzil də verəcəklər, toyun da xərcini çəkəcəklər, təki qızı alan olsun. Amma bakılı Rubenin saqqızını oğurlayıb, qızı alacağına əmin olan kimi sakitləşiblər və dərhal da taktikanı dəyişiblər. Bəylə gəlin tərəfi arasındakı sosial fərqi məqamı düşdükcə Rubenə çatdırıblar və onu inandırıblar ki, o, Allahına şükür eləsin ki, dəmirdöyən ola-ola, belə bir ziyalı ailəsindən oxumuş qız alıb.

-Bəxti gətirən ailə Sizin kimi olar! -Gəlinin valideynləri bu atmaca ilə də qudalarını sancıblar və onlara çatdırıblar ki, xoşbəxt gəlin Rubenin bacısıdır, yəni mənim anamdır, "özü seçib, özü bəyənib, varlı-karrı adama ərə gedib, ona görə də yağ içində böyrək kimi bəslənir... "

Mənim atam toy hədiyyələri almaqda heç nəyə qızırğalanmamışdı, cavanlara on iki şamlıq büllur çilçıraq, əldə toxunmuş bahalı Azərbaycan xalçası bağışlamışdı, hələ toy süfrəsindəki ən ləziz nemətlərin - ağ balığın, qara kürünün, quzu kababının, çeşidli kolbasaların da təminatçısı atam idi. Yerevan əhlini heyrətə gətirən şeylərdən biri də Bakıdan dəvət olunan musiqiçilər dəstəsi və onların məşhur başçısı Boka idi. Boka da o zamanlar bütün Qafqazda sevilirdi və atam da fikirləşmişdi ki, qaynının toyuna hər oxuyan çağırmayacaq ki? Əlbəttə, Yerevan əhli Bokanı görəndə gözlərinə inanmadılar, anam toy zalında gəlinin qoluna brilyant qaşlı qızıl saat bağlayanda qonaqların çoxusu içini çəkdi - kimisi həyəcandan, kimisi də həsəddən, qibtədən.

Artıq bütün Qafqazda tanınan Bokanın məlahətli səsi ucalanda həyəcanlanmış Yerevan əhli ortalığa düşüb oynamağa başladılar. Mən bir-birindən gözəl, nazlı-qəmzəli qızların sındıra-sındıra oynadığı zala göz gəzdirirdim və təəssüflənirdim ki, axı niyə mənim dayım, dünyada belə gözəl qızlar ola-ola ən çirkinini seçib? O zaman mən də yaşıdım qızlar kimi rəfiqələrimə toy libasında çəkilmiş bəy-gəlin şəkilləri göstərmək, şəkildəkiləri nişan vermək, onların haqqında danışmaq istəyirdim. Biz dərs arası toy şəkillərinə baxırdıq, gəlinin ayağından tutmuş başına kimi, kipriyindən tutmuş qaşına kimi -gözə görünən nə varsa, müzakirə eləyirdik, bər-bəzəyini incələyirdik, amma mən qarşımdakı cütlüyün - yəni dayım Rubenlə Hayqanuşun toy şəklini göstərsəydim, sözsüz ki, qızları özümə güldürərdim. Və məhz elə bu səbəbdən də, bu toy və ümumiyyətlə bu səfər gözümdən düşdü və öz-özümə dedim ki, kaş evə tez qayıdaq, ancaq məlum oldu ki, biz nəzakət xatirinə Yerevanda toydan sonra da bir neçə gün qalmalıyıq.

O yorucu-üzücü günlərdə atam təzə qohumların mənzilində qalmaqdan imtina elədi, bildirdi ki, "Ararat" mehmanxanasında yer alıb, amma Xrist babam və Qreçka nənəm (Mən hərdən anamın valideynlərini əsil adlarına çox yaxın olan bu ayamalarla əzizləyib-çağırırdım) onların evində qaldılar ki, oğulları inciməsin.

Görünür, biz Yerevan şəhərini və onun ətrafını gəzib-dolanıb qayıdana qədər, qocalar təzə qohumların arasında bəs deyincə sıxıntı çəkmişdilər, töhmət götürməli olmuşdular, yoxsa biz onlara baş çəkməyə gələndə o dərəcədə sevinməzdilər.

Bizə görə dərhal süfrə açdılar və Hayqanuşun atası, orta boylu, arıq bədənli, sir-sifətindən zəqqum yağan, riyakar bir səsə malik olan əmisi xalqlar dostluğu haqqında uzun-uzadı sağlıqlar söyləməyə

başladı, dedi ki, azərbaycanlılar və ermənilər qonşudular və onların tarixi borcu dostluq etməkdi, hətta bunu istəməsələr də. O beləcə danışanda atam da, anam da başlarını aşağı salmışdılar, yerə baxırdılar və hətta, bir əlcə uşaq ola-ola, mən də anlayırdım ki, ilk baxışda tikansız, adi, sadə görünən bu sözlərin arxasında mürəkkəb mətləblər yatır.

Yeri gəlmişkən, Yerevanda qalmalı olduğum bu üç gün ərzində ilk dəfə mənə aşkarca anlatdılar ki, milli fərq, milli ayrılıq nədir. Şəhəri gəzərkən hərdən nəyisə soruşmaq məcburiyyətində qalırdıq, cavab vermirdilər, üzlərini çevirib gedirdilər, özü də yalnız ona görə ki, biz rusca soruşurduq, onların ana dilində yox. Qonaqpərvərliyi və beynəlmiləlçiliyi hər şeydən üstün tutan biz bakılılara bu məzəli, həm də qəribə gəlirdi. Axı, sənin dilini bilmədiyinə görə qonağı necə başdan etmək olar?! Belə məqamlarda anamın müdaxiləsi bizi vəziyyətdən çıxardırdı, anamın azdan-çoxdan bildiyi erməni sözləri karımıza gəlirdi, amma nə isə bir şey anlatmalı olanda onun da nitqi tutulurdu, ilişirdi.

Yadımdadır, bir dəfə şəhərin mərkəzi küçəsində, balaca fəvvarənin tinində yerləşən kafedə ləzzətlə dondurma yeyirdik və söhbət eləyirdik: gah rus, gah da doğma Azərbaycan dilimizdə. İki dildə danışmağa adət etdiyimizdən biz özümüz də fərqinə varmadan, söhbətin axarına uyğun olaraq bir dildən digərinə keçirdik.

-Ne v svoi sani sel moy brat, -anam qüssə ilə dedi, -U Rubena i tak neustoyçivoye mirovozreniye, predstavlyayu, kak on izmenitsya pod ix vliyaniem...

Atam anamın fikrinə şərik olduğunu Azərbaycan dilində bildirdi:

-Sən haqlısan, bunlar çox anlaşılmaz külfətdi, -dedi və o da keçdi rus dilinə - vsyo vremya çuvstvuyu sebya v ix dome, kak na falşivom "partiynom" sobranii, qde pıtayutsya ubedit v loyalnosti... V dannom sluçaye k nam, tyurkam. Priçem-ubedit skoree samix sebya çem nas.

Sözün bu cür tamamında atam deyəsən anamın nə hala düşdüyünü hiss elədi və söhbətin səmtini dəyişdi; başladı Azərbaycan dilində erməni radiosunun adı ilə bağlı bir-birindən gülməli lətifələr danışmağa. Biz gülüşürdük, qəhqəhə çəkirdik və ağlımıza da gəlmirdi ki, kiməsə mane oluruq, axı kafedə bizdən savayı heç kim yox idi, amma birdən-birə kifayət qədər təmkinli görünən təşəxxüslü bir qadın bizə yan aldı və narazı halda səsini qaldırdı:

-Xatarin xosu! - və dərhal da uzaqlaşdı.

Atam çaşqın halda qadının arxasınca baxa-baxa anamdan soruşdu:

-O sözü bizə deyirdi?

-Əlbəttə yox, -anam dərhal cavab verdi, - onun biznən nə işi var...

...Və anam atamın diqqətini yarımçıq qalmış lətifəyə yönəltdi və atam daha bir neçə maraqlı əhvalat danışdı, amma son dərəcə qəzəbli bir cavan bizə yaxınlaşıb üstümüzə qışqırana qədər:

-Xatarin xosu, ara!!! - O da dayanmadı, dərhal aralandı.

Bu dəfə atam rusca narazı halda anamdan soruşdu:

-Da çto eto za "xatarin xosu"? Perevedi, Karina, çto eto znaçit?

Anam başını aşağı saldı, qızarıb-bozardı və güclə eşidilən bir səslə, təbii ki, mənim də anlamadığım o sözün rusca tərcüməsini dilinə gətirdi:

-Qovorite po-armyanski...

## V FƏSİL

Ancaq bir dəfə Yerevanda olduğumu tamam unutduğum anda elə bir hadisənin şahidi oldum ki, daha doğrusu, elə bir əhvalat baş verdi ki, mən kəsinliklə əmin oldum ki, bütün ermənilər millətçi deyil. Heç bilmirəm necə oldusa, mən də Hayqanuşun kiçik bacısı Siranuşla ərzaq dükanına girdim ki, çörək alaq. Piştaxta arxasında dayanmış qarasaçlı, qaragözlü qadın elə bir doğma, ılıq təbəssümlə üzümə baxdı ki, bir anlığa Yerevanda olduğumu mənə unutdurdu və ona təmiz Azərbaycan dilində müraciət elədim:

-İki çorək verin!

Yadımdadır, cavab əvəzinə o, mehribancasına gülümsündü və məndən rus dilində soruşdu:

-Tı, çto, iz Baku?

Yalnız o anda mən ayıldım və anladım ki, atamın sözünə əməl etməmişəm, Yerevanda azərbaycanca danışmışam.

-Çalış ki, bizdən savayı bu şəhərdə heç kimlə Azərbaycan dilində bir kəlmə də kəsməyəsən, daşnaklara ürcah ola bilərsən.

Onda hələ mən bilmirdim ki, daşnak nə olan şeydir, amma təbii ki, o, çörəksatan qadın daşnak deyildi, çünki o, ermənicə danışmadığıma görə məni sancmamışdı, əksinə, bizimlə hərarətlə vidalaşmışdı, hələ iki yerə bölüb hərəmizə bir tikəsini verdiyi bulkanın pulunu da almamışdı.

Biz hələ dükanı tərk eləməmiş zəhləm getmiş Siranuş başladı məni məzəmmət etməyə, təbii ki, rus dilində, çünki nə mən ermənicə başa düşürdüm, nə o, azərbaycanca danışa bilirdi.

-Vidiş, kakie mı, armyane, nesmotrya na to çto oni turki...

Siranuş rus dilində cümlələri düzgün qursa da, elə bir mundar ləhcə ilə danışırdı ki, xəcalət çəkirdim, əslində isə məni ağrıdan onun sözünün məğzi-mənası idi, çünki mənim qəbul etdiyim düşüncə tərzinə görə qonaqpərvərlik insanın təbii halıdır, udduğu hava, aldığı nəfəs kimi bir şeydir, amma qonaqpərvərliyini xeyirxah əməl kimi qələmə vermək, qabartmaq -ayıbdır. Bu barədə atamdan aldığım dərsi qulağımdan sırğa kimi asmışam: "elədiyin yaxşılığı unutmağa çalış, ruslar demişkən, bros sodeyannoe na dno morskoe".

Atam deyirdi:

-Yaxşılıq itmir, batmır, onun hesabını Yaradan-Xalıq özü aparır: balıq bilməsə də, Xalıq bilər. Heç vaxt da etdiyin yaxşılığı üzə vurma, onda bu yaxşılığın bir qara qəpiklik qiyməti olmaz.

Mən, bizim nəslin bütün uşaqları kimi ata-anasından belə bir həqiqət dərsi almamış Siranuşa təəssüflə baxırdım. Ancaq Siranuş öz suçunu anlamırdı və görünür elə bu səbəbdən də sözü sözə calayırdı, öz cəfəngiyyat anlayışı ilə məni nəyəsə inandırmağa çalışırdı, o, deyirdi ki, ümumiyyətlə, biz ermənilər Allahın seçilmiş millətiyik, heyif ki, bunu heç kim qiymətləndirmir, özü də biz ucaboylu, mavi gözlü yaranmışıq, özü də türklər gəlib bizi qırana qədər dənizdən-dənizə uzanan Böyük Ermənistanda yaşamışıq, amma biz ürəyi böyük xalqıq, yenə də türkləri bağışlamışıq, özün də görürsən ki, sizin əcdadlarınız olan türklər bizi soyqırımına məruz qoysa da, bu gün biz sizi qəbul eləyirik və bir süfrə arxasında da oturub yeyib-içirik...

Siranuş beləcə dil-dil ötəndə, hirsdən-həyəcandan az qalırdı nəfəsim kəsilə. Axı belə şeyləri ağıza alıb danışmaq ayıb deyilmi? Ruslar yerində deyirlər: "ne kormi kalaçom, da ne bey v spinu kirpiçom". Hələ bu Siranuş bir əlcə uşaq ola-ola belə şeylər danışırdı, bəs böyüyəndə nələr uyduracaqdı? Yəqin ki, belə bir mühakiməyə axıracan qulaq asdığıma görə məni nəinki ailədə, hətta məktəbdə və digər başqa yerlərdə də danlayıb utandırardılar. Axı, bizim Bakıda belə söhbətlərə cəfəngiyyat kimi baxırlar, demək, sən keyfiyyətsiz, mənasız adamsan ki, belə şeylərə qulaq asırsan.

Mən İbrahim babamın bir sözünü Siranuşa xatırlatdım, dedim ki, seçilmiş millət yoxdur, Siranuş, Allahın nəzərində bütün millətlər eynidir. O, insanları ayrı-ayrı millətlər halında yaratmayıb ki, onlar bir-birinin qarşısında özlərini öysünlər, o, insanları belə xəlq eləyib ki, bir-birilərindən yaxşı şeylər öyrənsinlər, kamilləşsinlər. Mən fikrimi beləcə tamamlayanda, Siranuş yenə də tərsliyini biruzə verdi, qapqara tük basan və onu insandan çox meymuna oxşadan üst dodağını alt dodağına bərk-bərk sıxaraq, mənə bir söz söyləmədən, etiraz əlaməti olaraq, irəli keçdi.

Ürəyimdə "sir-sifətinin tükünü də təmizləməyən, insandan çox meymuna bənzəyən bu sərsəmlə necə yola gedəsən?" - dedim və əlimdəki bulka tikəsini ləzzətlə dişlədim: "sərsəm şeylər uydurub danışınca, yataqdan duranda dolma burnunun altındakı tükə əl gəzdirsə daha yaxşı olar!" Arxadan onun qapqara tük basmış əyri ayaqları da diqqətimi çəkdi. Halbuki mən, eləcə də əmim, bibim qızları qoltuğumuzun altında bitən tüklərin öhdəsindən erkən yaşlarımızdan gəlirdik, amma bu başıbatmış, bu yaşında heç qapqara bığlarını da eyninə almır! Yəqin ki, bizlərdən birimizin bu Siranuş kimi bığı əmələ gəlsəydi və o bığla adam arasına çıxsaydı, topa tutulardı, tamam gözdən düşərdi. Amma biz, tərbiyə görmüş bütün qızlar kimi, erkən yaşlarından özümüzə qulluq etməyi bacarırdıq; bizi havayı yerə süngər daşı ilə dabanımızı qaşımağı öyrətməmişdilər ki? Dişimizə və xüsusən də saçımıza hər gün qulluq eləyirdik, bilirdik ki, gözəl saç qadının görkəmində nəyə qadirdi və onu da bilirdik ki, saç gərək yumşaq və parlaq ola. Bizə uşaqlıqdan yalnız bircə şeyi qadağan etmişdilər - qaş almağı. Bizə məlum idi ki, yalnız toy günü qaşımızı ala, ya onun formasını dəyişə bilərik. Bu çox gözəl ənənədi; günlərin birində sən qaşını alıb, ya aldırıb adam arasına çıxırsan və hamı da bilir ki, daha sən qız deyilsən, qadınsan! Xoşbəxtlikdən mənim qaşlarım yaranışından kaman kimidir, özü də nam-nazik, nə alınmağa ehtiyacı var, nə sürmələnməyə, elə bu səbəbdən əmim, bibim qızları mənim qaşlarıma qibtə eləyirdilər və həsrətlə gözləyirdilər ki, toy günləri gəlib çatsın və qalın qaşlarından canları qurtarsın, axı analarımız biz qızlar bəzənəndə həmişə diqqət yetirirdilər ki, mövcud sınırları aşmayaq.

Siranuş əlindəki bulka tikəsinin qalığını birbaşa yerə, tozun-torpağın içinə tullamaqla məni qeyzləndirdi və fikirlərimdən ayırdı. Mən tez-tələsik bulka tikəsini yerdən götürdüm, öpdüm, alnıma toxundurdum və yolumuzun üstündəki binanın daş çıxıntısının üstünə qoydum.

Siranuş heyrət içində səsini elə qaldırdı ki, həyəcandan çənəsi də şaqqıldadı:

-Sən nə oyun çıxardırsan?

Mən incik halda cavab verdim:

-Çörəyi yerə atmazlar, bu böyük günahdı, qəbahətdi!

Siranuş ucadan güldü:

-Bu səfsəfədi!-dedi, - Qabaqcadan desəydin ki, sənin bulkana tamahım düşüb, heç dilimə də vurmazdım. Guya varlı çıxıblar, kürü yeyirlər, gördüm, yerdən on qəpiklik bulkanı götürüb öpür, sonra da deyir, kürü yeyirəm! Tfu...

Mən dərindən köks ötürdüm. Doğrudan da ən adi şeyləri anlamayan adamlarla danışmaq çox çətindir! Hətta körpə uşaqları da Azərbaycanda başa salırlar ki, çörək-bərəkətdi, onun qədrini bilmək, ona ehtiramla yanaşmaq lazımdır. Kənd yerlərində indi də çörəyə and içirlər; çörək haqqı, bərəkət haqqı deyirlər. Çörəyə ehtiramı, bizim ailədə olduğu kimi, məktəbdə də aşılayırlar. Süfrədə qalmış çörək qırıntılarını heç vaxt digər atılası şeylərə qarışdırmağa yol verməzlər, onları ayrıca toplayıb elə yerlərə qoyarlar ki, quşlara qismət olsun. Bizim yurdumuzda kimsə yerə düşmüş çörək tikəsi görəndə heç vaxt tapdalamaz, ehtiyatla yerdən götürərək, ehtiram əlaməti olaraq, alnına, dodağına toxundurub öpər və sonra da elə bir hündür yerə qoyar ki, təsadüfən də olsa, tapdalanmasın. Bəs görəsən burda bu yepyekə qız niyə bunlardan xəbərsizdir. Axı biz qonşu respublikalarda -yanaşı yaşayırıq... Öz aramızdı, milli fərqin çörəyə münasibətə nə dəxli? Mənim Xristofor babam yerli-köklü ermənidir, amma həmişə üzünü mənə və mənim Zavaqzalnidəki rəfiqələrimə tutub deyərdi:

-Sizin nəsil xoşbəxtdi, çünki nə aclıq görmüsünüz, nə quraqlıq, nə müharibə, amma biz müharibə vaxtı çörək tapılmadığından ölməmək üçün jımıx yeyirdik, ona görə də çörəyin qədrini bilin, onu qoruyun, o böyük nemətdi.

İbrahim babam isə çörəyi müqəddəs nemət sayırdı. O, ailədə belə bir qayda qoymuşdu: çörək süfrəyə ən axırda verilərdi ki, qalıb quruması, süfrə başında oturanlar da çox gözləməsinlər. Bu səbəbdən də babam özü süfrənin başında yerini tutandan sonra hökmünü verərdi:

-Gətirin süfrəmizin şahənşahını!

Əgər İbrahim babam görsəydi ki, ailə üzvlərindən kimsə ləngiyir, inciyərdi və dərhal da onun dərsini verərdi:

-Əgər sən məcbur etsən ki, bərəkət səni gözləyə, ruzi-bərəkət hamımızdan üz döndərər!

Biz yeyib-doyandan sonra isə, yenə babamın işarəsilə süfrədən əvvəlcə çörəyi yığışdırardılar, çünki babam haçansa demişdi ki, bərəkətin süfrədə qalıb qurumasına yol vermək olmaz...

Mən özümü vadar elədim ki, Siranuşa iltifatla yanaşım. Bəlkə heç o bədbəxt günahkar deyil? Belə vacib şeyləri ona anlatmayıblarsa, hardan bilsin? Hər halda, bu gün mən hesab edirəm ki, Siranuşla müqayisədə mənim və eləcə də rəfiqəlik etdiyim qızların hamısının baxtı gətirib.

VI FƏSİL

Əmim, bibim qızları, rəfiqələrim üçün Yerevanda bilsən necə darıxırdım?! Bizim söhbətimiz tuturdu, danışmağa söz tapırdıq, modalardan, məşhur ifaçılardan və eləcə də incəsənət aləminin digər nümayəndələrindən söz açırdıq, oxuduğumuz yeni kitabları müzakirə eləyirdik. Amma Siranuşun görüş dairəsi o qədər məhdud idi ki, onunla bir-iki dəqiqə danışandan sonra məni əsnəmə tuturdu. Mən artıq Yerevana gəldiyimə təəssüflənirdim. Ancaq bununla belə hər şeyə dözməli, bir sözlə, öz mərifətimi göstərməli idim ki, mənim haqqımda başqa cür düşünməsinlər. Axı bizlərdə evə qonaq gələndə, əldən-ayaqdan gedirik ki, onu razı salaq, amma bu pırpızbaş Siranuş hər an çalışırdı ki, özünün məndən üstün olduğunu göstərsin, təkəbbüründən, lovğalığından əl çəkmirdi ki, çəkmirdi... Bəyəm, o, başa düşmürdü ki, mən qonağam? Axı bizlərdə, qonaq qədər heç kimə ehtiram olunmur. Qonağa sadəcə qonaq yox, Allah qonağı deyirlər. İbrahim babam həmişə söyləyirdi. Əvvəl Allah, sonra da qonaq. Amma bu ağıldan qıvraq Siranuşun belə şeylər haqqında heç təsəvvürü də yoxdur, yoxsa mənimlə bu dərəcədə qaba davranmazdı. Çox güman ki, elə bu səbəbdən Yerevan məni çox tez darıxdırdı.

Sən demə, məni bir sürpriz də gözləyirmiş: elə o axşam Ermənistan Dövlət televiziyası ilə SSRİ xalq artisti Zeynəb Xanlarovanın Azərbaycan xalq mahnıları əsasında tərtib edilmiş və Razdan stadionunda keçirilmiş konsertinin videoyazısı ikinci dəfə Ermənistan ictimaiyyətinə təqdim olundu. Ruben dayımın hələ gülməşəkər olan arvadı Hayqanuş könülsüz-könülsüz də olsa, diktorun söylədiklərini bizim üçün tərcümə elədi: "Hörmətli televiziya tamaşaçıları! Sizin saysız-hesabsız xahişlərinizi nəzərə alaraq, keçən il Azərbaycan xalq artisti Zeynəb Xanlarovanın Razdan stadionunda verdiyi konserti təkrarən diqqətinizə çatdırırıq". Atam, anam da elə bu sözlərdən dirçəldilər. Atam isə təəccüblə soruşdu:

-Bəs bizim səhnə ulduzumuz stadionda niyə oxuyub? Bəyəm sizdə konsert salonu yoxdur?

Siranuşun atası həvəslə cavab verdi:

-Nə danışırsınız! Zeynəb xanımın konsertinə düşməyə bütün şəhər can atırdı, bəyəm bütün şəhəri bir konsert zalına yerləşdirmək olar?! Heç yetmiş min nəfərlik Razdan stadionunda keçirilən konsertə də bilet tapmaq mümkün deyildi!

Biz böyük məmnunluqla konsertin videoyazısına baxırdıq. Zeynəb xanım açıq havada oxuyurdu. Mən sevimli müğənnimizin alqışlarla qarşılanan, bütün stadionu oynadan mahnılarına qulaq asdıqca, ecazkar ifa-

sının bizləri bəyənməyən ermənilər tərəfindən necə hərarətlə qarşılandığına şahid olduqca, ekranı qucaqlayıb öpmək istəyirdim. Axı, müğənnimizin səsindən, nəfəsindən əfsunlanan yalnız mən deyildim: bütün stadion Zeynəb xanıma qoşulub oxuyurdu! Və tamaşaçılar yerlərindəcə qollarını qaldırıb oynayırdılar, özü də eynilə bizim rəqqaslar, rəqqasələr kimi, oxunan mahnıları da xorla təkrar edirdilər və bu, həqiqətən məni təəccübləndirirdi. Belə çıxırdı ki, bu ermənilər bizim bütün mahnıları bilirlər?!

Siranuşun boyca balaca, amma ətli-əndamlı anası Susanna xala sanki ürəyimdən keçənləri bir baxmaqla oxudu və tülkü simasına qəribə bir ifadə verib, üzrxahlıq eləyirmiş kimi dilləndi:

-Bizdə sizin xalq mahnılarınızı çox sevirlər, çünki onlar bizim musiqimizə oxşayır.

Atam ona sarı çöndü, görünür, nə isə söyləmək, bu atmacaya münasibət bildirmək məqsədilə, amma deyəsən nə isə düşünüb dərhal fikrini dəyişdi, yalnız acı-acı gülümsəməklə kifayətləndi. Mən atamı çox gözəl anladım. Hələ nahar zamanı ata-anamla təzə gəlinin valideynləri arasında fikir ayrılığı meydana çıxdı, məncə atam abrını, ləyaqətini qorumasaydı, ləyaqət gözləməsəydi, adi söhbət münaqişə ilə də nəticələnə bilərdi, halbuki normal, tərbiyə görmüş insanlar bu cür mükalimələri sadəcə müzakirəyə çevirirlər.

Anlaşılmazlıq heç nədən yarandı. Siranuşun anası böyük bir sinidə süfrəyə içərisinə sarımsaq, pomidor, göyərti doldurulmuş, kürədə, öz buğunda bişmiş bir xeyli badımcan gətirdi və təntənə ilə elan elədi:

-Bu gün biz hörmətli qohumlarımızı milli erməni xörəklərindən biri olan "İmambayıldı"ya qonaq edəcəyik!

Atam tələsmədən xörəyin dadına baxdı və birdən-birə gözlənilməz bir sualla üzünü mənə tutdu:

-Necədi, qızım, xoşuna gəlirmi bu türk xörəyi? -O, "türk" sözünü xüsusi bir vurğu ilə ifadə eləmişdi və görünür, Susanna xalanı da hövsələdən çıxardan bu idi. Hiddəti, hikkəsi dərhal səsinə qarışdı:

-Siz nə danışırsız? Bu milli erməni xörəyidi!

Atam gülümsədi:

-Hörmətli Susanna xanım, Siz bu xörəyi çox dadlı bişirmisiniz, -dedi, -amma bilirsinizmi bu xörəyin daşıdığı adın mənası nədir?

Susanna xala inamla cavab verdi:

-"İmambayıldı" qədim erməni sözüdür, mənasını da yalnız qədim erməni dilini araşdıran dilçi-alimlər bilər!

Atam yenə gülümsədi:

-Mən özümü qədim erməni dilinin mütəxəssisi hesab etmirəm, -dedi, amma türk dilində danışan bir azərbaycanlı kimi sizə bildirmək istəyirəm ki, "İmam" sözü türk dilində də, azərbaycanca da eyni məna daşıyır, islamiyyətdə "peyğəmbər"dən sonra ən yüksək addır, o ki qaldı "bayıldı" sözünə, özündən getmək anlamındadır. Ona görə də bu ləzzətli xörəyin daşıdığı adın kökünü qədim erməni dilində yox, Anadolu türklərinin məişətində axtarmaq lazımdır, rəvayətə görə, Anadoluda qonaq olan imam Anadolu aşpazının süfrəyə gətirdiyi bu xörəyin dadına baxanda, aldığı ləzzətdən məst olub və bayılaraq özündən gedib. Hamıya məlumdur ki, Kiçik Asiyadan Qafqaza köç eləyən ermənilər hələ qədimlərdə öz mətbəxlərini milli türk xörəkləri ilə zənginləşdiriblər. Məsələn, sizin ən çox sevdiyiniz "dolma" kimi. Xalis türk sözüdür, "dolmaq" felindən yaranıb. "Basdırma" da onun kimi. Siz "kətə", "lavaş", "çörək" deyirsiz, amma bunları türk sözü kimi qəbul etmək istəmirsiz.

Sözün bu yerində Susanna xala səsini qaldırdı:

-Siz düz söyləmirsiz. Bəlkə demək istəyirsiz ki, heç ermənilərin milli xörəyi yoxdur? Bəlkə...

Kim bilir, Susanna xala həyat yoldaşının sərt baxışlarını sezməsəydi, daha nələr söyləyəcəkdi?

Nahardan sonra Siranuşun atası bildirdi ki, bizi ekskursiyaya dəvət etmək istəyir. Ev sahibinin qonaqpərvərliyindən xəbər verən bu təklifi təəccüblə qarşıladığımızı sezəndə isə, izah elədi ki, Ermənistan paytaxtının bütün qonaqlarına şəhərin tarixi yerlərini tanıtmaq və XX əsrin əvvəllərində türklər tərəfindən törədilən erməni soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət etmək adətə çevrilib. Mən dərhal valideynlərimə nəzər saldım: atamın əsil kişilərə məxsus sifətində bir əzələ belə tərpənmirdi, anam dodaqlarını çeynəyirdi, ağappaq ağarmış Qreta nənəmlə Xristofor babam isə çaşqın halda dayım Rubenə baxırdılar, sanki bu məsələnin çözülməsində ona arxalanırdılar. Təəssüf ki, dayım Ruben elə bil atamın, anamın düşdüyü vəziyyətdən xoşallanırdı, qalib bir əda ilə atama baxırdı, amma bir xeyli keçəndən sonra ev sahibini atam özü yerində oturtdu:

-Mənə və mənim ailəmə lütfkarlıq göstərib ekskursiyaya aparmaq istədiyinizə görə minnətdarlığımı bildirirəm, amma biz toya gəlmişik, sizin xalqın faciəvi keçmişi ilə bağlı bir abidəni ziyarət etməklə öz toy əhvalımızı korlamaq istəməzdik. Üstəlik də tarixi faciələrə düçar olan yalnız sizin xalq deyil. 1905, eləcə də 1918-1920-ci illərdə azərbaycanlılar da ermənilər tərəfindən böyük insan itgisi ilə nəticələnən soyqırımına məruz qalıb, özü də yalnız Bakıda yox, Şamaxıda, Lənkəranda, Zəngəzurda, həmçinin Türkiyə ərazilərində, Qarsda, İqdırda, amma bir dəfə də olsun soyqırımına məruz qalmış azərbaycanlıların xatirəsinə abidə ucaltmaq barədə məsələ qaldırılmayıb. Biz hesab edirik ki, dünən qaysaq bağlamış yaranı bu gün yenidən qaşıyıb qanatmaq məqsədyönlü deyil. Beləcə açıq-aşkar "beyinlərin yuyulub-yaxalanması" bizi iyrəndirir! - Sözün bu yerində atam əlini mənə və sonra da stolun küncündə ağzı açıla qalmış Siranuşa uzatdı - Gələcəyi qurmaq onların vəzifəsidir və təbii ki, xeyirxah qonşuluq münasibətləri əsasında! Deyin görüm bu gün siz cavanlarınızı türklərə qarşı nifrət ruhunda tərbiyə eləyəndə, uşaqların içində türklərə qarşı nifrət aşılayanda, antitürk şivənini şişirdəndə, ermənilərin 1915-ci il vətəndaş müharibəsinə rəvac verən xəyanətini gizlədəndə bunun gələcək nəticələrini ölçüb-biçirsinizmi? O müharibədə ermənilər qiyam qaldır-

maqla Osmanlı imperiyasına qarşı çıxdılar, düşmən dəyirmanına su tökdülər və günahsız türk vətəndaşları qarşılarına Osmanlı imperiyasını parçalamağı məqsəd qoyan müttəfiq orduların qurbanına çevrildi. Ona görə də alovun üstünə yağ tökmək yetər! Odu suyla söndürərlər, əzizlərim. Sizin müsaidənizlə, biz Yerevana səfərimizi qəmli notlarla tamamlamaq istəmirik.

Altdan-altdan atamı süzən dayım Ruben bişirilmiş xərçəng kimi qızarmışdı. Siranuş və eləcə də ata-anası susmuşdular, elə bil oxlov udmuşdular. Mən yenidən bir zamanlar azərbaycanlılar və ermənilər arasında süni surətdə yaradılmış uçurum barədə fikirləşirdim və mənə elə gəlirdi ki, dostluq və mehriban qonşuluq münasibətləri haqqında çeşidli danışıqlara baxmayaraq, yalnız bircə yanlış addım keçmişin qaysaq bağlamış yarasını yenidən qoparda bilər. Çünki bizim Azərbaycanın hər yerində, ali təhsil ocaqlarında, hətta məktəblərdə belə tarixin o qanlı səhifələrini çevirməməyə çalışırdılarsa, Ermənistanda tam əksinə, daima türklərə, əsasən türk kökündən olan azərbaycanlılara və ümumiyyətlə, bütün Qafqazın türk soylu xalqlarına nifrət aşılayırdılar. Mən erməniləri heç cür anlaya bilmirdim: bizim qanımızı içməyə hazır olsalar da, musiqimizə pərəstiş eləyirlər, türk köklü soyadlarını iftixar hissilə daşıyırlar, türk mətbəxinə məxsus xörəklərə üstünlük verirlər, - onları "qədim erməni mətbəxi"nin nümunələri adlandırsalar belə...

Nə yaxşı ki, Zeynəb Xanlarovanın Ermənistan televiziyası ilə nümayiş etdirilən konserti mənim korlanmış ovqatımı qaldırmışdı, yoxsa bu Yerevan səfəri məndən ötrü öz mənasını tamam itirərdi. Toyuq, kartof qızartması və cürbəcür turşularla zəngin şam yeməyindən sonra atam eyvana adladı ki, siqaret çəksin, mən də onun ardınca çıxdım ki, bir neçə dəqiqəliyə də olsa, Siranuşun çərənləmələrini eşitməyim, amma eyvanın bu başından o başına çəkilmiş şəriddə hələ qurumamış qadın tumanlarını və eləcə də ləkəli əskiləri görəndə dərhal bildim ki, atamın pərt halda başını aşağı salmasına səbəb nədir? Mən ev sahibəsinin yerinə xəcalət çəkdim. Axı bizdə bütün qadınlar bilir ki, alt paltarlarını göz qabağına sərib qurutmaq ayıbdır! Bakıda nəinki Ruqiyyə nənəm, Nazlı xalam, Fatimə bibim, hətta nənəm Qreta da bu qaydaya sözsüz əməl eləyirdilər.

Atam təzəcə alışdırdığı siqareti söndürüb tələsik otağa qayıtdı və pərt halda anamdan soruşdu:

-Mən harda siqaret çəkim? - O, heç vaxt otaqda siqaret yandırmazdı. Anam onu dərhal anladı və ev sahibəsinin qulağına nə isə pıçıldayandan sonra o, ox kimi eyvana çıxdı və şəriddən asılmış qadın tumanlarını, qadın köynəklərini, ləkəli əskiləri tez-tələsik yığışdırandan sonra otağa qayıdıb üzünü atama tutdu:

-Buyur eyvana, əzizim, -dedi, - nə qədər istəyirsən tüstülət siqaretini.

Anam qolunun üstündə tutduğu yaş, nəm paltarlara mənzildə yer axtaranda və tez-tez ev sahibəsinin bu işə müdaxiləsini gözləyəndə atam eyvanda siqaretini tüstülədə-tüstülədə Şərqə - gündoğana, ev sahibləri isə altdan-altdan atama baxırdılar.

-Vəhşidi, lap nazir də olsa, vəhşiliyində qalacaq...

Anlaşılmazlıq hez nədən yarandı. Siranuşun anası büyğk bir sinidə sğfrəyə izərisinə sarımsaq, pomidor, güyərti doldurulmuş, kğrədə, üz buğunda bişmiş bir xeyli badımcan gətirdi və təntənə ilə elan elədi:

-Bu gğn biz hürmətli qohumlarımızı milli erməni xürəklərindən biri olan "İmambayıldı"ya qonaq edəcəyik!

Atam tələsmədən xürəyin dadına baxdı və birdən-birə güzlənilməz bir sualla ğzğnğ mənə tutdu:

-Necədi, qızım, xoşuna gəlirmi bu tğrk xürəyi? -O, "tğrk" süzğnğ xğsusi bir vurğu ilə ifadə eləmişdi və gürğnğr, Susanna xalanı da hüvsələdən zıxardan bu idi. Hiddəti, hikkəsi dərhal səsinə qarışdı:

-Siz nə danışırsız? Bu milli erməni xürəyidi!

Atam gğlğmsədi:

-Hürmətli Susanna xanım, Siz bu xürəyi zox dadlı bişirmisiniz, -dedi, -amma bilirsinizmi bu xürəyin daşıdığı adın mənası nədir?

Susanna xala inamla cavab verdi:

-"İmambayıldı" qədim erməni süzüdür, mənasını da yalnız qədim erməni dilini araşdıran dilzi-alimlər bilər!

Atam yenə gülümsədi:

-Mən üzğmğ qədim erməni dilinin mğtəxəssisi hesab etmirəm, -dedi, amma tğrk dilində danışan bir azərbaycanlı kimi sizə bildirmək istəyirəm ki, "İmam" süzğ tğrk dilində də, azərbaycanca da eyni məna daşıyır, islamiyyətdə "peyğəmbər"dən sonra ən yğksək addır, o ki qaldı "bayıldı" süzğnə, üzğndən getmək anlamındadır. Ona gürə də bu ləzzətli xürəyin daşıdığı adın kükğnğ qədim erməni dilində yox, Anadolu tğrklərinin məişətində axtarmaq lazımdır, rəvayətə gürə, Anadoluda qonaq olan imam Anadolu aşpazının sğfrəyə gətirdiyi bu xürəyin dadına baxanda, aldığı ləzzətdən məst olub və bayılaraq üzğndən gedib. Hamıya məlumdur ki, Kizik Asiyadan Qafqaza küz eləyən ermənilər hələ qədimlərdə üz mətbəxlərini milli tğrk xürəkləri ilə zənginləşdiriblər. Məsələn, sizin ən zox sevdiyiniz "dolma" kimi. Xalis tğrk süzğdğr, "dolmaq" felindən yaranıb. "Basdırma" da onun kimi. Siz "kətə", "lavaş", "zürək" deyirsiz, amma bunları tğrk süzğ kimi qəbul etmək istəmirsiz.

Süzğn bu yerində Susanna xala səsini qaldırdı:

-Siz dğz süyləmirsiz. Bəlkə demək istəyirsiz ki, hez ermənilərin milli xürəyi yoxdur? Bəlkə...

Kim bilir, Susanna xala həyat yoldaşının sərt baxışlarını sezməsəydi, daha nələr süyləyəcəkdi?

Nahardan sonra Siranuşun atası bildirdi ki, bizi ekskursiyaya dəvət etmək istəyir. Ev sahibinin qonaqpərvərliyindən xəbər verən bu təklifi təəccğblə qarşıladığımızı sezəndə isə, izah elədi ki, Ermənistan paytaxtının bğtğn qonaqlarına şəhərin tarixi yerlərini tanıtmaq və XX əsrin əvvəllərində tğrklər tərəfindən türədilən erməni soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət etmək adətə zevrilib. Mən dərhal valideynlərimə nəzər saldım: atamın əsil kişilərə məxsus sifətində bir əzələ belə tərpənmirdi, anam dodaqlarını zeynəyirdi, ağappaq ağarmış Qreta nənəmlə Xristofor babam isə zaşqın halda dayım Rubenə baxırdılar, sanki bu məsələnin züzğlməsində ona arxalanırdılar. Təəssğf ki, dayım Ruben elə bil atamın, anamın dğşdğyğ vəziyyətdən xoşallanırdı, qalib bir əda ilə atama baxırdı, amma bir xeyli kezəndən sonra ev sahibini atam üzğ yerində oturtdu:

-Mənə və mənim ailəmə lğtfkarlıq güstərib ekskursiyaya aparmaq istədiyinizə gürə minnətdarlığımı bildirirəm, amma biz toya gəlmişik, sizin xalqın faciəvi kezmişi ilə bağlı bir abidəni ziyarət etməklə üz toy əhvalımızı korlamaq istəməzdik. Ğstəlik də tarixi faciələrə dğzar olan yalnız sizin xalq deyil. 1905, eləcə də 1918-1920-ci illərdə azərbaycanlılar da ermənilər tərəfindən büyğk insan itgisi ilə nəticələnən soyqırımına məruz qalıb, üzğ də yalnız Bakıda yox, Şamaxıda, Lənkəranda, Zəngəzurda, həmzinin Tğrkiyə ərazilərində, Qarsda, İqdırda, amma bir dəfə də olsun soyqırımına məruz qalmış azərbaycanlıların xatirəsinə abidə ucaltmaq barədə məsələ qaldırılmayıb. Biz hesab edirik ki, dğnən qaysaq bağlamış yaranı bu gğn yenidən qaşıyıb qanatmaq məqsədyünlğ deyil. Beləcə azıq-aşkar "beyinlərin yuyulub-yaxalanması" bizi iyrəndirir! - Süzğn bu yerində atam əlini mənə və sonra da stolun kğncğndə ağzı azıla qalmış Siranuşa uzatdı - Gələcəyi qurmaq onların vəzifəsidir və təbii ki, xeyirxah qonşuluq mğnasibətləri əsasında! Deyin gürğm bu gğn siz cavanlarınızı tğrklərə qarşı nifrət ruhunda tərbiyə eləyəndə, uşaqların izində tğrklərə qarşı nifrət aşılayanda, antitğrk şivənini şişirdəndə, ermənilərin 1915-ci il vətəndaş mğharibəsinə rəvac verən xəyanətini gizlədəndə bunun gələcək nəticələrini ülzğb-bizirsinizmi? O mğharibədə ermənilər qiyam qaldırmaqla Osmanlı imperiyasına qarşı zıxdılar, dğşmən dəyirmanına su tükdğlər və gğnahsız tğrk vətəndaşları qarşılarına Osmanlı imperiyasını parzalamağı məqsəd qoyan mğttəfiq orduların qurbanına zevrildi. Ona gürə də alovun ğstğnə yağ tükmək yetər! Odu suyla sündğrərlər, əzizlərim. Sizin mğsaidənizlə, biz Yerevana səfərimizi qəmli notlarla tamamlamaq istəmirik.

Altdan-altdan atamı sğzən dayım Ruben bişirilmiş xərzəng kimi qızarmışdı. Siranuş və eləcə də ata-anası susmuşdular, elə bil oxlov udmuşdular. Mən yenidən bir zamanlar azərbaycanlılar və ermənilər arasında sğni surətdə yaradılmış uzurum barədə fikirləşirdim və mənə elə gəlirdi ki, dostluq və mehriban qonşuluq mğnasibətləri haqqında zeşidli danışıqlara baxmayaraq, yalnız bircə yanlış addım kezmişin qaysaq bağlamış yarasını yenidən qoparda bilər. Zğnki bizim Azərbaycanın hər yerində, ali təhsil ocaqlarında, hətta məktəblərdə belə tarixin o qanlı səhifələrini zevirməməyə zalışırdılarsa, Ermənistanda tam əksinə, daima tğrklərə, əsasən tğrk kükğndən olan azərbaycanlılara və ğmumiyyətlə, bğtğn Qafqazın tğrk soylu xalqlarına nifrət aşılayırdılar. Mən erməniləri hez cğr anlaya bilmirdim: bizim qanımızı izməyə hazır olsalar da, musiqimizə pərəstiş eləyirlər, tğrk küklğ soyadlarını iftixar hissilə daşıyırlar, tğrk mətbəxinə məxsus xürəklərə ğstğnlğk verirlər, - onları "qədim erməni mətbəxi"nin nğmunələri adlandırsalar belə...

Nə yaxşı ki, Zeynəb Xanlarovanın Ermənistan televiziyası ilə nğmayiş etdirilən konserti mənim korlanmış ovqatımı qaldırmışdı, yoxsa bu Yerevan səfəri məndən ütrğ üz mənasını tamam itirərdi. Toyuq, kartof qızartması və cğrbəcğr turşularla zəngin şam yeməyindən sonra atam eyvana adladı ki, siqaret zəksin, mən də onun ardınca zıxdım ki, bir nezə dəqiqəliyə də olsa, Siranuşun zərənləmələrini eşitməyim, amma eyvanın bu başından o başına zəkilmiş şəriddə hələ qurumamış qadın tumanlarını və eləcə də ləkəli əskiləri gürəndə dərhal bildim ki, atamın pərt halda başını aşağı salmasına səbəb nədir? Mən ev sahibəsinin yerinə xəcalət zəkdim. Axı bizdə bğtğn qadınlar bilir ki, alt paltarlarını güz qabağına sərib qurutmaq ayıbdır! Bakıda nəinki Ruqiyyə nənəm, Nazlı xalam, Fatimə bibim, hətta nənəm Qreta da bu qaydaya süzsğz əməl eləyirdilər.

Atam təzəcə alışdırdığı siqareti sündğrğb tələsik otağa qayıtdı və pərt halda anamdan soruşdu:

-Mən harda siqaret zəkim? - O, hez vaxt otaqda siqaret yandırmazdı. Anam onu dərhal anladı və ev sahibəsinin qulağına nə isə pızıldayandan sonra o, ox kimi eyvana zıxdı və şəriddən asılmış qadın tumanlarını, qadın küynəklərini, ləkəli əskiləri tez-tələsik yığışdırandan sonra otağa qayıdıb ğzğnğ atama tutdu:

-Buyur eyvana, əzizim, -dedi, - nə qədər istəyirsən tğstğlət siqaretini.

Anam qolunun ğstğndə tutduğu yaş, nəm paltarlara mənzildə yer axtaranda və tez-tez ev sahibəsinin bu işə mğdaxiləsini güzləyəndə atam eyvanda siqaretini tğstğlədə-tğstğlədə Şərqə - gğndoğana, ev sahibləri isə altdan-altdan atama baxırdılar.

-Vəhşidi, lap nazir də olsa, vəhşiliyində qalacaq...

Ev sahibinin pıçıldadığı bu sözü qulağım çaldı və mən özümü saxlaya bilmədim:

-Vəhşi sənsən! - dedim. Və dərhal da özümü ələ alıb üzümü yana çevirdim. Fikirləşdim ki, naməhrəmliyin nə olduğunu anlamayan fəqir ermənidən niyə inciyəsən ki? Mən birdən-birə qəti olaraq bu qərara gəldim ki, mənim də, Siranuşun da "qafqazlı" atalarımız zahirən bir-birlərinə bənzəsələr də, fərqli dünyalarda yaşayırlar və elə bu səbəbdən də bir-birlərini anlamırlar. Əlbəttə, Bakıda bu barədə düşünmək, bunu dərk eləmək xəyalıma da gəlməzdi, axı orda yalnız ermənilər yox, başqa millətlərin oğlanları, qızları da bizim xalqın ənənələrinə, mövcud əxlaq qaydalarına, həyat tərzinə hörmətlə yanaşırlar. Bax elə bu səbəbdən də mən Bakıda ermənilər və azərbaycanlılar arasında ciddi fərqlər müşahidə etməmişdim...

## VII FƏSİL

İbrahim babam təqaüdə çıxandan sonra hər il, hələ istilər başlamamış, aprelin əvvəllərində nənəmlə bağ evinə köçərdi, əsasən yayın ən qızmar günlərində dincəlməyə - dənizdə çimməyə gələn övladlarının və qonaqlarının yolunu gözləyərdi və soyuqlar düşənəcən orda qalardı. O, boynundan bir zınqırov da asdığı sevimli fars pişiyi Tutunu tumarlaya-tumarlaya mühakimə yürütməyi, övladlarına nə isə anlatmağı sevərdi.

-Mən öldümmü, övladlarım hərəsi öz küncünə çəkiləcək, heç bir-biriləri ilə görüşməyə də vaxt tapmayacaqlar, amma nə qədər ki sağam, oğlanlarım da, qızım Fatimə də ailələri ilə birlikdə hər yay bu bağda dincələcəklər, o ki qaldı bu bağın məndən sonrakı sahibinə, hökm vermək istəməzdim, onsuz da bu bağa torpağı, torpaqda işləməyi sevən yiyələnəcək.

Düzü, mənə elə gəlirdi ki, övladlarının heç biri babam kimi torpaqda canı-dildən işləməyi sevmirlər, onlar ev heyvanlarına da babam kimi mehribanlıq, nəvaziş göstərmirdilər. Tutudan qabaq da babam pişik saxlayırdı, amma bu qar kimi bəyaz ev heyvanı fars yox, anqor mənşəli idi, adı da Muncuq, Muncuğun gözləri də muncuq kimi idi, amma müxtəlif rənglərdə - biri mavi, biri narıncı. O, Muncuqla qürrələnirdi və onu belə əzizləyirdi: "mənim türk mirvarim". Dəcəl Muncuğa son dərəcə bağlanmış bibim qızı Xədicə yel xəstəliyinə tutulanda və babam onun könlünü oxşamaq üçün layiqli bir hədiyyə tapmayanda Muncuğu - "türk mirvarisini" nəvəsinə bağışladı və Xədicə tamam sağalandan sonra da Muncuğu tələb etmədi, özünə təzə pişik aldı - gümüşü göy dərili, gözəl Tutunu. Muncuq kimi, bütün anqor cinsindən olan pişiklər kimi Tutu da suyu xoşlamır, elə bu səbəbdən də babam onu yumaq üçün quru şampundan və xüsusi daraqdan istifadə eləyirdi, bir sözlə, Şərq gözəli Tutunun nazıyla oynayırdı ki, bu işin də öhdəsindən gəlsin. Hərdən saatlarla, tələsmədən seyrək dişli daraqla pişiyi darayırdı, bu yolla tükün arasındakı cücü-mücünü çıxardardı və yalnız bundan sonra xüsusi şampunla onu yuyurdu, fenlə qurudurdu, yumşaq quyruğuna isə adına "talk" deyilən yağ sürtürdü. Bizim "Kisulya", babamın "Tutu xanım" çağırdığı bu gözəllər gözəli bütün ili babamın şəhərdəki mənzilində, Qafqaz cinsindən olan Toplan adlı köpəyi isə bağda yaşayırdı. Qış aylarında Toplanın yalnız suyunu bağın gözətçisi verirdi. Əsil müsəlmanlar kimi babam da köpəyin evə gətirilməsinin əleyhinə idi, o, öz etibarlı dostunu həmişə sığallayıb tumarlaya-tumarlaya deyirdi:

-İt insanın dostudur. Müdafiəçisidir, amma bu müdafiəçinin yeri qapının yanıdır. O ki qaldı pişiklərə, başqa məsələ, baxmayaraq ki, bütün ev heyvanlarından sonra əhliləşdiriblər, onlara sitayiş ediblər. Misirlilər hətta bu pişiklərin ucbatından hiyləgər farslara məğlub olublar; ön cərgədə hücuma keçən fars döyüşçülərinin hərəsi qucağına bir pişik alaraq sinəsinə sıxıbmış, bunu görən Misir oxçuları əllərindəki kamanı işlətməyiblər, fikirləşiblər ki, atdıqları ox bu pişiklərdən birinə dəyə bilər, onlar günaha batarlar. Təəssüf ki, hamı həmişə onlara eyni gözlə baxmayıb; orta əsrlərdə Avropa inkivizisiyası pişikləri iblis kimi qələmə verib, onları tonqallarda yandırıblar, hündür, sərt, sıldırım qayalardan dənizlərə, dəryalara atıblar. Amma yenə də biz yerə pəncəsi üstə düşmüşük, Tutu xanım, elə deyilmi?

Həmişə xumarlanan bu Şərq gözəli babamın sualını mütləq cavablandırardı: təbii ki, astadan miyoldamaqla.

Babamın bağında bizim ayrıca otaqlarımız vardı: o, burda da hər şeyi nəzərə almışdı və hər ailəyə ikinci mərtəbədə iki otaq ayırmışdı, amma hamının sevimlisi Azərin bağdakı məkanı birinci mərtəbədə, babamın öz otağı ilə yan-yana idi və elə bu səbəbdən də mən özümü Azərin yanına salmaq istəyəndə məqam gözləməli olurdum, çünki istəyirdim ki, bunu heç kim görməsin, heç kim sezməsin. Bununla yanaşı babam böyük otaqlardan birini də "gəldi-gedər" qonaqlar üçün ayırmışdı. Qarayığval Fatimə bibimə bu bölgüdə də otaq düşməmişdi, bu səbəbdən də babam ona bağda iki gündən artıq qalmağa izn vermirdi. Hətta bir dəfə mənim yanımda ona:

-Sən özgə evin gəlinisən, sən yad ocağın çırağını yandırırsan, -dedi, - bir-iki gün qaldın, yetər...

Ancaq, bu tələb Fatimə bibimin uşaqlarının - mənim doğmalarım Xədicə və Zəhranın qarşısında qoyulmamışdı, əksinə, babam onlara da otaq ayırmışdı və onlar da bütün yay aylarını bağda dincəlirdilər və təbii ki, bir-birindən şən, mənalı keçən günlərimizin bəzəyinə çevrilirdilər. Başqa cür ola bilərdimi? Axı, bu qızlar da babamın nəvələri -doğmalarıydı və təbii ki, onlara da bu bağda yer tapılmalıydı.

Yazıq Fatimə bibim qızlarına və eləcə də bizə baş çəkmək üçün Saraya şənbədən-şənbəyə, özü də tək gələrdi və dabanından tər süzülənəcən hər işə əl atardı, çünki bir qayda olaraq, bazar günləri bağımız qonaqlı-qaralı olardı və təbii ki, yük qadınların çiyninə düşdüyündən o, bir an da bekar oturmazdı, qonaqları qarşılayıb yola salandan sonra da nənəmə kömək eliyərdi: mövsümün pomidor, badımcan, xiyar kimi nemətlərini duza-sirkəyə qoyardılar, kompot, mürəbbə, cem bişirərdilər və bazar ertəsi tezdən əmimin xidməti maşınında şəhərə gedərkən qış üçün nəzərdə tutulmuş bu hazır məhsulları da zənbillərə, qutulara qoyub, maşının yük yerinə doldurardılar və təbii ki, bu nemətləri babamın şəhərdəki evində yerbəyer etmək də bibimin boynuna düşərdi.

Amma mənim ana nənəm, ana babam bağa gələndə İbrahim babam onları şəhərə qayıtmağa qoymazdı, hərdən həftələrlə qonaq saxlayardı. Üzünü babama, nənəmə tutub zarafatla deyərdi:

-Bilmirəm Bakının hisində, istisində nə itirmisiniz? Düzdür, siz tərəflər bir az sərin olur, amma orda da iqlimi korlayan şeylər var: birincisi - sarımsaq-soğan qoxusu, ikincisi də adamın qulağında danqıldayan erməni dili, bilmirəm necə dözürsüz?

Xristofor babam babamın bu zarafatına ucadan gülərdi və sonra da deyərdi: "Gəl nərdimizi oynayaq, ay İbrahim, təki danqıldayan dil olsun, əqidə yox"... Babam da ucadan gülərdi və gülə-gülə də söyləyərdi: "Dərinə getmə, ay Xristofor, batarsan".

Və sonra nərd taxtası arxasında onların səs-küyü bütün bağı bürüyərdi:

-Şeş qoşa!

-Sə du!

Qəribə idi ki, əvvəlcə oğlunun erməni qızına evlənməsinə qəti etiraz edən İbrahim babam illər ötdükcə anamın valideynlərinə də mehr salırdı və onları ən əziz, ən istəkli qohumlarından ayırmırdı.

Atam anamı nigahdan sonra evə gətirəndə isə o, öz mövqeyini bir ibrətamiz atalar sözü ilə bildirib:

-Su ki girdi qaba, oldu içməli! -Əslində atamın ailəyə erməni qızı gətirməsi ilə bağlı hər cür dedi-qodu da elə bu sözlə kəsilib.

Nədənsə mənə elə gəlirdi ki, nə mən babamın ən istəkli nəvəsiyəm, nə anam ən sevimli gəlini, amma babam bunu ailə çərçivəsində biruzə verməməyə çalışırdı, o ki qaldı onun Xristofor babama münasibətinə,

burda şübhəli məqam aramağa dəyməzdi: qarşılıqlı anlaşma onları günbəgün dostlaşdırıb, yaxınlaşdırırdı, bəzəyi incə zarafat olan görüşlərində onlar bir-birlərini sözsüz də anlayırdılar.

Ərik ağacının kölgəsində yalnız zər yox, həm də bir-birinə söz atan qocaların zarafatlarına biz Azərlə xımır-xımır gülürdük. Və belə anlarda mənə elə gəlirdi ki, ərik ağacının kölgəsində daldalanan, sərinləmək üçün dazlaşmış başlarına yaş dəsmal bağlayan, armudu stəkanlarda buğlanan pürrəngi çayları soyumağa qoymayan bu qocalar bizim varlığımızı unudublar. Amma biz gülməyimizdən qalmırdıq. İbrahim babamın oturduğu kreslonun kölgəsində xumarlanan gözəllər gözəli Tutu xanım isə elə bil bizim gülüşümüzdən hikkələnirdi və gözlərini qırpmadan babama zilləyirdi, sanki tam əminliklə bizə anlatmaq istəyirdi ki, sahibinin diqqətini çəkməyə, sahibinin daha çox səsi gələn bu cəmiyyətə qarışmağa yalnız onun haqqı var. O ki, qaldı bu bağın yerdə qalan sakinlərinə, onlar hörmət əlaməti olaraq qocaları tək buraxmışdılar, çünki bilirdilər, dünyagörüşləri üst-üstə düşən insanların bir yerdə olması hər ikisinə xoşdu.

Lap erkən yaşlarından müharibənin acılarını yaşamış, əzab-əziyyətlərə qatlaşmış və dünyanı görə-görə yaşlaşmış bu sadə qocalar bir-birlərini sözsüz də anlayırdılar və sovet quruluşunda meydana gələn, partiya biletinə - xidməti maşın, yüksək məvacib, dövlət vəzifəsi və digər elitar imtiyazlar qazanmaq üçün yiyələnən yeni nəslə ikrah hissilə baxırdılar. Bəlkə də qocalar yenə də sözü eyni hədəfə vurduqlarından bizi də, zamanı da unutmuşdular?

Amma bu zaman bizim azadlığımız başlanırdı, çünki atalarımız televizorun qarşısına keçirdilər, nənələrimiz mətbəxdə biş-düşlə məşğul olurdular, analarımız nərd oynayanlara, televizora baxanlara çay, mer-meyvə daşıyırdılar, qab-qacaq yuyurdular, süfrə açırdılar, otaqları yığışdırırdılar və biz isə bu böyük bağın sahiblərinə çevrilirdik və heç kim də bunun fərqinə varmırdı.

## VIII FƏSİL

Heç kimin ağlına da gəlmirdi ki, bizim üçüncü bir babamız da var; özümüzü ağıllı aparanda ilıq ləpələri ilə bizi oxşayan, dəcəllik edəndə inciyərək təpəmizdən dırnağımıza kimi soyuq dalğalarını üstümüzə ələndirən bu babamızın adı Xəzər idi.

O bizim haqqımızda hər şeydən xəbərdar idi; biz İnsandan nə gizlətmişdiksə, Ona etibar etmişdik. Çünki insanlar gəldi-gedərdi, Xəzər isə əbədi. Bu dünyaya bizim məhəbbətimiz haqqında yalnız o danışa bilər. Axı hər şeyi görməyə qadir olan Ulu Tanrıdan başqa bizi bağlayan tellər ağyallı Xəzər qədər kimsəyə bəlli deyil. Amma Xəzər baba sirr saxlayandır...

Biz onun sahilində, onun şəhadəti ilə and içib peyman bağlamışıq. Biz onun sahilində... yox, indi bu barədə danışmaq, göz yaşları axıtmaq istəmirəm...

Sən indi hardasan, Azər? Mənsiz necə yaşayırsan? Doğrudanmı, dözə bilirsən? Bu qoca Xəzərin nə vecinə, o ki mənim kimi sızlamır, sənsiz yanıb-yaxılmır mənim kimi...

Xeyli zamandır ki, bu şıltaq babamız Xəzər məni əsəbiləşdirməyə başlayıb, çünki bütün dənizlər bir-biri ilə ünsiyyət saxladığı halda, o haçansa dənizlərdən ayrılıb, quruda qalıb. Başa düşürsən bu nə deməkdir?! İndi mən bütün dənizlərdən Xəzərimlə Azərimə necə xəbər göndərim? Əgər Xəzər Dünya okeanına qovuşsaydı, mən onun qoynuna atılardım və Azərə sarı üzərdim. Biz Azərlə əsil üzgüçüyük. Əgər bizim valideynlərimiz bilsəydilər ki, necə azman dalğaların qoynuna atılmışıq, necə dalğalara baş vurmuşuq və görsəydilər ki, o dalğaları yara-yara haralaracan üzmüşük, qorxudan ölərdilər...

Bütün balıqçılar bizi tanıyırdı; axı, may ayından sentyabrın axırlarına kimi bizim günlərimiz balıqçıların tor qurduğu, qarmaq atdığı qayalıq sahillərdə, xəzri başlayanda daldalandıqları mağaralarda, qızılı qumlar üstündə açılan cığırlarda qovrulub qaralırdıq... ikilikdə keçən saatlar, dəqiqələr, anlar necə də xoş idi! Bizdən balacalara artıq hər şey məlum idi, axı hərdən onlar da bizə qoşulurdular, amma belə anlarda qaşqabağımızı tökəndə bizi başa düşüb aralanırdılar. Biz Azərlə gecədən xeyli keçəndən sonra ayrılmalı olurduq, amma yəqin ki, analarımızın tənbehi, hədə-qorxusu olmasaydı, onlar zorla bizi aparıb yatağa salmasaydı, gecə-gündüzümüz də bir-birinə qarışardı. Mən belə hallarda çox gec yuxulayırdım və yalnız bircə şey arzulayırdım. Səhər tez açılaydı və bizi yenidən görüşdürəydi.

O, həmişə məndən qabaq yuxudan dururdu və yuyunandan sonra qəsdən həyətdə kimisə səsləyirdi ki, mən də oyanım. Bir də görürdüm balıncımın üstünə bir bəyaz qərənfil düşdü. Əlbəttə bilirdim ki, Azər onu pəncərədən atıb, özü də tut ağacının arxasında dayanıb. Fikirləşirdim: Görəsən, istəklisini bu qayda ilə yuxudan oyatmaq bu dünyada kiminsə ağlına gələ bilərmi? Axı mənim ağ qərənfillərə pərəstiş etdiyimi Azər bilirdi, bir dəfə pıçıltıyla ona söyləmişdim: "ağ qərənfil gəlinə oxşayır, gəlin kimi məsum, cazibədar görünür".

Amma bizim bağımızdakı şitillikdə yalnız qırmızı qərənfillər açırdı və güllərin rəngindəki qan çaları, qəm məni qıcıqlandırırdı. Bunu da Azər bilirdi və hər səhər yalnız bir tək ağ qərənfil üzmək üçün qonşunun şitilliyinə oğurluğa gedirdi. Bəlkə də İbrahim babam meyvə ağaclarına məskən olan bağımızdakı şitilliyə ağ qərənfilin də toxumunu salardı, amma İbrahim babam heç ağ qərənfilin üzünə baxmaq istəmirdi, qərənfil qırmızı olar, deyirdi.

Mən Azərin pəncərədən ağ balıncımın üstünə tulladığı bir tək ağ qərənfili dərhal saçıma taxardım və otaqdan çıxardım ki, yarpaqlarına şeh düşmüş əncir ağacının budaqlarında bizi gözləyən "səhər yeməyinin" - kəhrəba kimi saralmış əncirlərin dadına ikilikdə baxaq. Bir dəfə isə o əncir ağacının altında... Yox, yox, bu barədə hələ danışmasam, yaxşıdır...

Bir dəfə isə Azər dənizdən tapdığımız və tut ağacının koğuşunda gizlədib saxladığımız iri, nəlbəki boyda balıqqulağında mənə yemək gətirdi və dedi: "Buyur, şahzadə, bu da səninçün səhər yeməyi!"

Biz necə də xoşbəxt idik!!! Nə üçün heç kim zamanı dayandıra bilmir. Nə üçün???

## IX FƏSİL

Hə, indi də o incir ağacı haqqında. Bu hadisəni mən öz uşaqlarıma danışacam, qoy bilsinlər ki, ataları analarının xatirinə nə eləyib? Kişilər mənim Azərimi də arada, öz aralarında oturdurdular ki, kişi olub kişilərə qarışsın, o da futbola baxsın. Azəri kişilər arasında görmək, kişi kimi tərbiyə etmək kimin yadına düşmüşdü bilmirəm, amma son zamanlar onu məndən ayırıb balıq tutmağa, ova, saunaya aparanda əsəbiləşirdim, amma onu da bilirdim ki, belə işlərə burnumu soxmağa ixtiyarım yoxdur. Belə saatlarda, dəqiqələrdə mən adətən bağda veyillənirdim, qüssədən ürəyim sıxılırdı. Amma neynəyə bilirdim? Belə yay axşamlarından birində, yenə də ağacların arasında var-gəl eləyəndə əmim qızlarının-Azərin böyük bacılarının səsini eşitdim. Onlara yaxınlaşanda məni siqaret iyi vurdu. Suçlu-suçlu mənə baxırdılar və hiss olunurdu ki, nədənsə qorxurlar. Qumun üstündə tüstülənməkdə olan siqaret kötüyünü görəndə gözlərimə inanmadım, amma anladım ki, kişilərin futbola aludə olduğunu görən qızlar xatakarlıq eləyiblər, siqaret çəkiblər.

Aynurun samur xəzinə bənzəyən qaşları bir-birindən aralandı, üzü güldü:

-Sən də dadına baxmaq istəyirsənmi?

Məndən qabaq Fidan dilləndı:

-Ona vermə, o, qorxaqdı, ağzı da yırtıqdı, xəbərçidi.

Mən dərhal üzümü bozartdım:

-Mən xəbərçi deyiləm, -dedim, -heç kimnən də qorxmuram!

Son sözü Aynur dedi:

-Onda sən də siqaret çəkməlisən ki, gedib artıq-əskik çərənləməyəsən...

Mən qətiyyən siqaretin dadına baxmaq istəmirdim, amma görəndə ki, vəziyyət belə tələb eləyir, etiraz etmədim. Amma siqareti ağzıma alanda məni elə bir öskürək tutdu ki, az qaldı nəfəsim kəsilə. Bu anda bir-birimizi necə hiddətləndirmişiksə qatıq satan Züleyxa xalanın yanımızdan ötüb keçdiyini hiss etməmişik, o

qarabuğdayı, zirək arvad isə sincab gözlərilə bizi görüb və çaparaq da bu dəhşətli xəbəri valideynlərimizə çatdırıb.

Çox keçmədi ki, əmim qızları mənim siqaret çəkməyimi məsxərəyə qoya-qoya getdilər, amma mən əncir ağacının altında qaldım, qaldım ki, siqaret çəkməyi necə lazımdı, öyrənim. Elə bu arada da futbola aludə olmuş kişilərin dəstəsindən yayınan Azər otaqlara baş vura-vura məni axtarıb və qəfildən qatıq satanın nənəmə verdiyi xəbəri də qulağı çalıb:

-Ay Ruqiyyə xanım, sənin nəvələrin incir ağacının altında siqaret çəkirlər!

İncir ağacının altında Azər qəfildən əlini çiynimə qoyanda, hələ mən öz "cinayət əməlimi" davam etdirirdim. O, siqareti əlimdən alıb qulağıma pıçıldadı:

-Qaça bilərdin, amma gecdi. Nənəmgil bura gəlir, mən nə desəm əməl elə!

Hadisələr elə bir sürətlə cərəyan elədi ki, mən özüm də məəttəl qaldım, baş aça bilmədim ki, neynəyim? Nəyə əməl eləyim?

Analarımız əllərində vərdənə, oxlov bizə yetişən anda Azər yerdəki siqaret kötüyünü götürdü və üstümə qışqırdı:

-Çək deyirəm sənə, çək, yoxsa öldürəcəm səni!

Mən çaşqın halda başımı bulayanda Azər siqareti zorla ağzıma soxmaq istədi və bunu görən Nazlı xala var səsilə onun üstünə qışqırdı:

-Əl çək qızdan, köpək oğlu!

Anam əlimdən tutub kənara çəkdi, Nazlı xala isə Azəri tərs-tərs süzüb, vərdənə ilə kötəkləyə-kötəkləyə evə apardı. Mən anamın əlindən çıxıb qışqırdım:

-Onu döyməyin, onun heç bir günahı yoxdur! O siqaret onun deyildi, o siqareti mən çəkirdim! -Amma mənim sözlərimə məhəl qoyan olmadı.

Yazıq Azər yaman döyüldü, amma dözdü, əsil qəhrəman kimi dözdü, özünü məğrur, cəsur kişi kimi apardı. Atası onu qayışla döyə-döyə qışqırdı:

-Mənim cibimdən siqaret götürdüyün, xəlvətə çəkilib çəkdiyin bəs deyil, hələ öz əmin qızını da buna təhrik eləyirsən! Ax, səni... yaramaz!!!

-Əl çək uşaqdan, bəsdir!.. - Atam mülayim səslə bu sözü deyəndən sonra böyük qardaşının əlindən qayışı almaq istəsə də, hiddətlənmiş Həsən əmim ona da acıqlandı: - Çəkil...

Bu zaman mən də özümü araya atmaq istədim, amma babam qolumdan tutub saxladı və amiranə səslə:

-O, bu cəzaya layiqdir, -dedi, -sən qarışma...

Mən o qədər qışqırdım ki, səsim batdı. Axşamüstü isə qızdırmam qalxdı. Gecə isə qızdırmadan sayıqlayırmışam:

-Azəri döyməyin, məni döyün...

Mən əməlli-başlı naxoşladım və anam tərlətmək üçün üstümə yorğan salanda, Azər mənə baş çəkməyə gəldi və məni görən kimi də gülümsədi və pıçıltıyla:

-Tez sağal,-dedi, -sənsiz darıxıram.

Mənim qızdırmam elə bil bu sözlə çəkildi. Yorğanı üstümdən atıb dikəldim:

-Belin çox ağrıyır? Göstər görüm.

Azər yenə gülümsədi:

-Qoy ağrısın, - dedi, - təki sənin haqqında heç kim artıq-əskik söz danışmasın.

Mən kövrəldim:

-Qoy danışsınlar! - dedim, - kaş elə mənim haqqımda danışaydılar, amma mənim gözüm baxa-baxa səni vurmayaydılar.

Azər gülə-gülə ərkyana bir tərzdə:

-Sən lap xərifləyirsən! - dedi, -bəyəm sən bilmirsən ki, mənim heç zaman siqaret çəkən qızla evlənməyimə yol verməzlər?

Yalnız yarızarafat, yarıgerçək verilmiş bu sualdan sonra mən anladım ki, Azər öz gələcək arvadının təəssübünü çəkir, adını indidən, əsil kişilər kimi qoruyur. Mən ona bir daha vuruldum: gücüm buna çatdı, özgə heç nəyə.

O yay bağımızdakı gözə çarpmayan ağaclardan birinin budağına adlarımızın baş hərflərini həkk elədik və bu iki hərfin arasında ürək şəkli çəkdik, sadəcə ürək, çünki belə təsvirlərdə məhəbbət - rəmzi olaraq ürəyin içindən keçən ox Azərin xoşuna gəlmirdi. O, hesab eləyirdi ki, onsuz da hər şey başa düşülür, anlaşılır... Bu yazının hansı ağacın budağında olduğu yalnız bizə məlumdur və bu təsviri ancaq öz ilkimizə göstərəcəyik, bizim ilkimiz isə mütləq oğlan uşağı olacaq!

Off... Xatirələr yenidən məni ən böyük arzumla baş-başa qoydu; qar kimi bəyaz toy donu geyinmək, ağ fatada ortaya çıxmaq, Azərin arvadı olmaq, sonra da dünyaya dörd övlad gətirmək: iki oğlan, iki qız. "Heyif deyil böyük ailə?" Bu Azərin sözüdür, mənim də ürəyimcədir. Axı mən bilirəm ki, bir-birindən ağıllı, fərasətli, gözəl uşaqların anası olacağam, axı böyük məhəbbətin meyvəsi olan uşaqlar adi ola bilməz! Amma bütün bunlar haçan gerçəkləşəcək?! Daha dözə bilmirəm, Azər, gözləmək... məni üzür... üzür!!!

## X FƏSİL

Haçansa mən özümü əsl şahzadə hesab eləyirdim; özü də ayrı-ayrı mədəniyyətləri təmsil edən doğmalarımın həyat tərzinə arxalanaraq. Mən bu mədəniyyətləri birləşdirən əsas həlqələrdən idim və dünyanın qarşımda açdığı bu mənəvi xəzinədən ən yaxşı şeyləri əxz eləyib mənimsəyirdim... O zaman mənə elə gəlirdi ki, qarışıq nigahın "meyvəsi" kimi mənim qarşımda daha geniş üfüqlər açılacaq, nəinki əmim qızlarının. Mən əmin idim ki, hamı mənimlə öyünür; məsud İnsanlar Planeti çarlığı qapısının məxfi açarına malik olduğumdan hamı mənə qibtə eləyir. Bəyəm mən təsəvvür edə bilərdimmi ki, belə bir gün də gələcək?

Mən ətrafımdakı adamlardan yarı erməni olduğumu gizlətməli olacam? Ola bilərmi ki, insan sol əlinə nifrət eləsin, amma sağ əlini sevsin? Gör bir siz neylədiniz, cənab daşnaklar... Gör bir neylədiniz?!

Onlardan hansı birini mən daha çox sevirdim? Azərbaycanlı babam İbrahimi, yoxsa erməni babam Xristoforu? Yəqin ki, hər ikisini eyni, amma hərəsinin öz yeri vardı. Mənim babalarımın hər ikisi üçün əsas şərt şərəfi qorumaqdı, çox fərqli idilər, hər birilə söhbət edəndə hökmən onların həyatından xəbərdar olmalıydın ki, biabır olmayasan! Xristofor babamla dil tapmaq asandı: o, heç zaman mənə acıqlanmazdı, söyməzdi, amma İbrahim babam sərtdi. İbrahim babamın yanında uzanmaq, ya qıçını qıçının üstünə aşırıb kresloda oturmaq olmazdı. O, otağa girəndə biz hamımız hörmət əlaməti olaraq ayağa qalxardıq. Xristofor babamın da özünəməxsus qadağaları vardı: mən uzanıb kitab oxuyan zaman onu görüb yataqdan sıçrayardımsa, o, dərhal buna etiraz edərdi:

-Uzan bala, uzan, -deyərdi, - gələn rəhbərlik deyil, öz babandı!

Xristofor babam qəfildən dabanımı qıdıqlayardı və sonra da arxamca düşüb məni o çağacan qovardı ki, mən ucadan gülə-gülə qaçıb gizlənim. Bazar günləri o, məni zooparka apardı, ordan qayıdandan sonra mənim üçün taxtadan balaca stullar hazırlayardı ki, fortepiano çalanda ayaqlarımı üstünə qoyum, hələ gəlinciklərimin də qayğısına qalırdı, onlar üçün arakəsməli evciklər, beşiklər düzəldərdi, hətta gəlinciklərimdən ötrü ayrıca rəf də yonub divara bərkitmişdi.

Xristofor babam baxa-baxa mən utanıb çəkinmədən ata-anamın qucağına atılar, onların dizi üstündə otura bilərdim, amma İbrahim babamın yanında belə hərəkət etmək olardı?! Valideynlərim qəti şəkildə bildirmişdilər ki, babam olan yerdə ərköyünlük etməyim, nazlanmayım, demişdilər ki, ata-ananın yaşlı adamın yanında öz uşağını əzizləməsi ona qarşı hörmətsizlik sayılır, biz də yəqin ki, elə bu səbəbdən İbrahim babam olan yerdə çalışırıq ki, artıq hərəkət etməyək, dinib-danışmayaq.

Ancaq İbrahim baba hərdənbir özü biz uşaqlara qoşulurdu, bizimlə uşaq kimi danışıb-gülürdü, əylənib-məzələnirdi, bizimlə birgə canavarla dovşanın məzəli macəralarından bəhs edən "Nu, poqodi!" cizgi teleserialına baxırdı. Bu ekran əsərinin altıncı buraxılışını daha çox xoşlayırdı: hinə girən canavar qısqanc və davakar xoruzla qarşılaşır. Onların döyüşü Azərbaycanın məşhur uşaq mahnısı "Cücələrim"in sədaları altında başlayırdı və İbrahim babam iftixarla gülə-gülə ətrafa baxırdı, bu tapıntıya görə filmin yaradıcılarının ünvanına xoş söz deyirdi: "görürsüz, bu seriyanı necə gözəl çəkiblər!" Onun məmnunluğu bizi də sevindirirdi, çünki başa düşürdük, anlayırdıq ki, əslində onu şadlandıran "Xoruzun hünəri" deyil. Ucsuz-bucaqsız ölkəmizdə göstərilən bu filmdə məhz Azərbaycan musiqisinin səslənməsidir.

Bununla belə uşaqların ən sevimli verilişi "Spokoynoy noçi, malışi" proqramına, bir gözümüz evin qapısında, qorxa-qorxa baxırdıq, bilirdik ki, babam qəfildən böyürdən çıxıb bizim bu verilişə baxdığımızı görsə, acıqlanmasa da, üz-gözünü turşudacaq! Bizim istəkli uşaqlıq dostlarımız - verilişin aparıcıları Stepaşka, Filya, Karkuşa və Xryuşa bizi əyləncəli nağıllar aləminə aparırdı, amma İbrahim babam ekranda "donuz balasını" - Xryuşanı görən kimi başlayırdı deyinməyə:

-Belə də şey olar? Bu bizim dinimizə qarşı hörmətsizlikdi! Nə üçün bizim müsəlman uşaqları yatmamışdan qabaq bu mundar donuz balasına tamaşa etməlidilər? Bəyəm uşaqlara yaxşı bir şey göstərmək olmaz? Bu boyda ölkənin biabırçılığına bax: müsəlman uşaqlarının ürəyində donuza qarşı mərhəmət, sevgi oyadır! Bu gün o donuz balasına baxacaqlar, sabah da onu yeyəcəklər...

Mən heç cür başa düşə bilmirdim ki, nə üçün bu şöhrətli donuz balası babamı belə əsəbiləşdirir? Axı, o, heyvanat aləminin vurğunu idi, səhər yuxudan qalxan kimi birinci öz köpəyini, sonra da sevimlisi Tutunu yemləyirdi. Bəyəm donuz heyvan deyildimi? Mən lap erkən yaşlarından bilirdim ki, donuz əti yemək olmaz. Niyə?

Bir dəfə mən bu barədə Qreta nənəmdən soruşanda, dərindən içini çəkəndən sonra cavab verdi:

-Bunu Quran yasaq eləyib. Biz müsəlman deyilik, amma atanın ailəsinə hörmət əlaməti olaraq biz də donuz əti almırıq. Ruqiyyə nənən mənə bərk-bərk tapşırıb ki, sənə haram yedirtməyim, elə biz də bu səbəbdən donuz ətindən imtina etmişik, bir ocağa iki qazan asmayacağıq ki?

Mən Qreta nənəmdən əl çəkmədim:

-Onun dadı necədi, ay nənə?

-Çox ləzzətlidi,- nənəm ətrafına baxa-baxa, astadan cavab verdi,-amma onu dadmaq sənə qismət olmayacaq.

Mən bu cavabdan sonra da sakitləşmədim və elə həmin gün donuz əti ilə bağlı bir sualla Ruqiyyə nənəmi dindirdim. O, çox ciddi cavab verdi: dedi ki, rəvayətə görə çox-çox əvvəllər donuzlar insan olublar, özü də cənnətdə yaşayıblar, amma özlərini o qədər natəmiz, mundar aparıblar ki, ordan qovulublar və indiki simalarını alıblar. O ki qaldı donuz ətinin mundar sayılmasına, haram buyrulmasına, bunun səbəbi donuzun canında mövcud olan mikroblardı ki, bu da insan orqanizmi üçün çox təhlükəlidir. Mən Ruqiyyə nənəmin sözünə o qədər də inanmadım, fikirləşdim ki, donuz ətinin tərkibində təhlükəli mikroblar varsa, bəs onda Qreta nənəm niyə deyir ki, ləzzətlidir? İçimdə sevimli Xryuşanın tərəfini saxlamağa güclü bir istək baş qaldırdı və mən qərara aldım ki, donuz əti ilə bağlı məni düşündürən sualla İbrahim babama üz tutum, özü də qonaq-qara yanında, görüm vəziyyətdən çıxa bilirmi?

-Baba, bu düzdürmü ki, donuz əti yeməyi Quran qadağan eləyib?

Babamın sir-sifəti bir anda sərtləşdi və o, nə üçünsə anama baxdı, başını aşağı salmış anam qıpqırmızı qızardı və üzünü mənə çevirib ötkəm səslə:

-Bəyəm, sən bunu bilmirsən? -dedi.

Atam da mənə acıqlandı:

-Səfeh suallar vermə!

Mən yenə inadkarlığımdan əl çəkmədim:

-Mən bilmək istəyirəm ki, niyə inəyi, qoyunu yemək olar, amma donuzu yox?

İbrahim babam xəfifcə gülümsəyəndən sonra cavab verdi:

-Çünki donuz əti yesən, donuza oxşayacaqsan!

Beləcə İbrahim babam bu söhbətə zarafatla son qoymaq istəsə də, mən yenə əl çəkmədim və növbəti sualı bir qədər də sərt qoydum; hətta cəzalandırılacağımı duysam da...

-Belə çıxır ki, çoxlu qoyun əti yeyənlər qoyuna oxşamalıdır?

Araya sükut çökdü, İbrahim babamın gözləri böyüdü, amma son dərəcə təmkinlə:

-Qoyun tərtəmiz ot yeyir, dumduru su içir, - dedi, - bəs donuz? Leş sökür, artıq-urtuq tıxayır. Qoyun heç vaxt öz balasını yeməz, amma donuz, görsə ki, öz sahibi yerə yıxılıb basıb onu yeyər, öz ölmüş balasını parçalayıb yediyi kimi. Qoyunu güllü-çiçəkli çəmənlərdə otarırlar, bəs donuzu? Bəyəm qoyun yatağını iysindən-qoxusundan baş çatdayan donuz damı ilə müqayisə etmək olar? - Babam birdən-birə yenə gülümsədi və keçdi zarafata, - indi özün seç, gör hansına oxşamaq istəyərsən?

O, otaqdan çıxsa da, yenidən geri qayıtdı və üzünü atama tutub nəsihətlə dedi:

-Mənim nəvəmnən işin olmasın, o, həqiqəti bilmək istəyir.

Gələcəkdə donuza bənzəmək məni qətiyyən qane eləmirdi, amma bütün müsbət keyfiyyətlərinə baxmayaraq, qoyuna da oxşamaq istəməzdim... Elə bu səbəbdən də o gün qəti şəkildə qərara aldım ki, başlayım vegeterian həyatına, yəni ümumiyyətlə ət yeməyim. Axı o gün ortalığa belə bir söhbət saldığıma görə Azər də məni məzəmmət eləmişdi:

-Dilinə yiyəlik eləyə bilmirsən sən?

-Söz də soruşmaq olmaz?

-Əlbəttə olar, - o, özünü itirdi, - bilirsən, mən özüm də hərdən fikirləşirdim ki, nəyə görə bu heyvan gözdən düşüb, amma deyəsən tapdım, - ara verib sözünə davam elədi, - bütün canlıları Allah yaradıb, düzdür-mü?

-Düz deyil, bizə məktəbdə öyrədiblər ki, insan meymundan dönmədi, meymundan yaranıb, nə baxırsan? Bəyəm Darvinin bu nəzəriyyəsini sizə keçməyiblər? Əmək meymunu insana çevirib.

-Yox, Balaca, - Azər hərdən məni bu sözlə əzizləyirdi, -ola bilsin ki, Darvin özü meymundan dönmədi, amma bütün insanları Allah yaradıb. Amma bu barədə məktəbdə danışma, yoxsa atanı işdən çıxardarlar. Axı, o partiyaçıdır! Bir özün fikirləş də, bəs indi niyə meymunlar insana çevrilmir?

Heç mən bu barədə fikirləşməmişdim, amma yenə də geri çəkilmədim.

-Əgər Allah bütün canlıları xəlq eləyibsə, demək donuzu da o yaradıb. Əgər mundardırsa, bəs onda niyə yaradırdı?

-Bilmirəm necə izah eləyim ki, məni anlayasan, - o, özünü elə aparırdı ki, sanki aramızda bir neçə il yox, iyirmi, otuz yaş fərq vardı, amma bununla belə o nə söyləyirdisə, mən aksioma kimi qəbul eləyirdim. -insanlar da fərqlidi: yaxşıları və yamanları, ağıllıları və səfehləri, gözəlləri və çirkinləri var, elədirmi? Heyvanlar da eləcə fərqlidilər, amma biz çeşidli insanlar kimi cürbəcür heyvanlardan da qaça bilmərik, yanaşı yaşamalıyıq, amma onların hamısının ətini yemək olmaz. Təsəvvür edirsənmi, min beş yüz il qabaq Ərəbistan yarımadasında, Günəş göydən od yağdıranda yağlı ətlər yemək nə fəsadlar törədə bilərdi?

Bu açıqlama məni tamam qane elədi: axı, o zamanlar soyuducu da olmayıb, onun buzxanası da -deməli, heç nədən zəhərlənə bilərdilər. Onun fikirləri ilə razılaşdığımı sezən Azər sözünə əlavə elədi:

-Mənə elə gəlir ki, nənəmin donuzların necə meydana gəlməsi haqqında söylədiyi əfsanədə həqiqət payı var, mən hardasa oxumuşam ki, donuz ürəyi insanınkına o qədər uyğun gəlir ki, hətta alimlər yaxın gələcəkdə insanlara ürək köçürməsi zamanı donuz ürəyindən istifadə etməyə təbii baxırlar.

Bu məlumat məni qorxutdu və mən qəti şəkildə qərara gəldim ki, belə cəngəlliklərə başımı soxmayım, onsuz da mən belə mürəkkəb məsələlərdən baş çıxaran deyiləm.

Əmoğlum yenə də bu söhbətin üstünə qayıtdı, ancaq ətrafa göz gəzdirəndən sonra, özü də astadan, pıçıltıyla:

-Ümumiyyətlə, qız uşaqlarına belə şeylər söyləmək olmaz, ancaq sənə dost kimi danışdım. Bilirsən, nəyə görə babamın donuzlardan xoşu gəlmir?

-Aydın məsələdir: onlar öz ifrazatlarını yeyirlər.

-Yox, Balaca, yalnız buna görə yox, babam qadınların yanında hər şeyi açıq-saçıq danışa bilməzdi! Təbiətdə bütün erkək heyvanlar dişilərə yiyələnmək üçün cəngə girirlər, sonra da mayaladıqları dişinin təəssübünü çəkirlər, onu başqa erkəklərdən öz namusları kimi qoruyurlar, eşitmisənmi bunu?

-Elə şey olar?

-Bu, məhz belədi! Amma bütün heyvanlardan fərqli olaraq, donuzlar, belə qaydalara məhəl qoymurlar, onlarda bütün dişilər ümumidi və onların bu cür həyat tərzi yalnız ikrah doğurur. Bilirsən...

Mən onun sözünü kəsib soruşdum:

-Sən nə danışırsan? Yəni başdan xarab qoç, ya təkə öz şərəfini qoruya bilir?

Azər gülümsündü:

-Əlbəttə qoruyur, - dedi, - başqa bir erkəyin ağzı nədir onun dişisinə yaxın düşə!

Birdən-birə yadıma düşdü ki, vəhşi heyvanlar arasında həqiqətən də belə qaydaların gözlənildiyini, dişiyə ən güclü erkəyin yiyələndiyini hansı kitabdasa oxumuşam, bununla belə, daha Azərdən bu barədə heç nə xəbər almadım, amma soruşmaq istəyirdim ki, şəhərdə yaşaya-yaşaya heyvanların həyat tərzindəki bu incəlikləri hardan bilir? Amma onu da anlayırdım ki, bu kişilərə məxsus həyat tərzinin elə bir hissəsidir ki, qadın o səmtə boylana da bilməz.

Hər halda mən heyrətlə içimi çəkdim: nə üçün və hardan belə şeylər yalnız oğlanlara məlumdur? Əmin oldum ki, Azərlə bu söhbətimiz heç vaxt yadımdan çıxmayacaq. Çünki o gün kəsinliklə qət etdim ki, dünya dağılsa da, ömrümün sonunacan ağzıma donuz əti almayacam. Amma, ümumiyyətlə ətdən imtina etmə-

yim, vegeterian həyat tərzi yaşamağım çox çəkmədi,öz bağımızda şişə çəkilən, manqala düzülən quzu ətinin ətri, qoxusu bir yaz axşamı ağzımı elə sulandırdı, məni elə bir hala saldı ki, elə o gündən dönüb oldum keçmiş vegeterian...

## XI FƏSİL

Babalarımla müqayisədə, nənələrimlə münasibətlərim heç vaxt axarından çıxmırdı. Adına hərdən sadəcə "nənə" yox, "Qreçka nənə" dediyim Qreta nənəmin yeganə nəvəsi idim və o, məni şahzadə kimi geyindirib bəzəyir, oxşayıb-əzizləyirdi və hiss eləyirdim ki, mənimlə sadəcə məzələnmir, ləzzət alır. Mənim ad günlərimə o, elə ciddi, elə məsuliyyətlə yanaşırdı ki, bunu özü üçün əsl bayrama, təntənəyə çevirirdi. Hər il bu təntənəli gündə o, mütləq yüngül bir don tikib əynimə geyindirirdi və ad günü açılan ipək süfrənin rəngini də bu dona uyğun seçirdi. Mənim oturacağım üçün də atlaz parçadan qırçınlı üzlük tikirdi və mən o stulda əsl şahzadə kimi vüqarla əyləşirdim. Qreta nənəm mənə piroq bişirmək və tikmə tikmək öyrətmişdi. O, mənim ən çox sevdiyim meyvələrdən ancaq mənim üçün mürəbbələr bişirirdi, turşular bağlayırdı və məni inandırırdı ki, səhərlər ona görə yuxudan oyanır ki, məni - yeganə nəvəsini - bu dünyadakı xəzinəsini görsün. Görəsən, bütün bu etiraflardan sonra Qreçka nənəmin mənim ikinci anam olduğunu söyləməyə ehtiyac varmı?

Ruqiyyə nənəmin də xeyli nəvəsi vardı, hamısına da eyni gözlə baxırdı, Azərdən başqa; ona xüsusi iltifat göstərirdi, amma buna baxmayaraq, onun dilli-dilavər nəvələri bütün günü başına fırlanırdılar ki, sevgisini qazansınlar. Məndən ötrü vaxtına heyfsilənməyən, mən olan yerdə heç nə gözünə görünməyən Qreta nənəmdən fərqli olaraq, Ruqiyyə nənəmin nəvələrinin nazıyla oynamağa yalnız hövsələsi yox, həm də vaxtı çatmırdı.

Onlar bir yerdə olanda isə mən özümü göyün yeddinci qatında hiss eləyirdim: mənə elə gəlirdi ki, hamıdan güclüyəm. Mən onların hər ikisinə pərəstiş edə-edə arzulayırdım ki, Qreçka nənəm də, Riquş nənəm də həmişə mənim yanımda olsunlar, heç olmasa yay tətili günlərində - qohum-əqrəba bağa toplaşanda. Qızmar yay günəşinin altında yaşamaq, böyük və mehriban bir ailənin üzvü olmaq məndə özümə qarşı inam aşılayıb və şəxsiyyətimi formalaşdırıb. Bunlar öz yerində, yay aylarında məktəbə getməməyimə, bir neçə ay Azərlə bir yerdə olduğuma görə o bağda keçən günlərim ömrümün ən əziz, ən işıqlı, nağıl kimi şirin xatirələridir. Kaş o işıqlı, günəşli günləri qaytarmaq mümkün olaydı, o günləri yenidən yaşayaydıq!!!

...Nazlı xala əda ilə başına yaylıq bağlayaraq kompot bişirmək üçün ehtiyatla qarağat yığırdı: o, bütün cücülərdən qorxurdu, xüsusən də arılardan. Qaşlarının vəsməsi, gözlərinin sürməsi həmişə diqqət çəkən Nazlı xala özünün bəyaz dərisi ilə fəxr eləyirdi və bir çox şəhərlilər kimi qorxurdu ki, yay günəşi onu da qaralda. O, yenə də əl güzgüsündə özünə baxdı və:

-Bu günəş adamı kölgədə də qaraldır, - dedi, -Bakıda, evdə oturmaq bundan yaxşı olardı. Otağım buzdan sərindi, şəhərdə mənim iki kondisionerim var.

Hətta yayın cırhacırında, dəniz qırağında qızılı qumlara ayaq basanda da Azərin anası ayaqqabılarını soyunmurdu, qorxurdu ki, dırnaqları nigaranlanmış incə ayaqları yaraşığını itirər, qızlarının bütün günü bağda ayaqyalın gəzməsi isə onu dəhşətə gətirirdi.

Bir dəfə mənim yanımda da qızlarını buna görə qınadı:

-Ayaqlarınız əndazədən çıxanda, at qıçına oxşayanda başa düşəcəksiz! Qız ayaqyalın gəzməz!

O ki qaldı mənim anama, o, bilə-bilə özünü qaraldırdı, kənardan baxan olmayanda ayaqqabılarını da soyunub, məmnuniyyətlə qumluqlarda ayaqyalın gəzirdi, düzəngahda ağappaq doğulan, amma yay aylarında qapqara qaralan biz "amazonkalardan" seçilmirdi. Bağda anamın asudə vaxtı da olmurdu, gecə də, gündüz də bu bağda vurnuxurdu, heç bir işdən də çəkinmirdi.

Amma Ruqiyyə nənəmin adını "tənbəl gəlinim" qoyduğu Nazlı xala heç vaxt özünü ağır işə verməzdi; ancaq xoşuna gələn işlərə əl atardı.

Bir dəfə isə öz hikkəsini açıq şəkildə elan elədi:

-Belə işləri mən qulluqçuma elətdirirəm, bura isə dincəlməyə gəlmişəm!

Ruqiyyə nənəm narazılıqla başını buladı:

-Şəxsən mən heç vaxt öz evimi kənar adama etibar etmərəm! Axı necə yol vermək olar ki, yad bir qadın sənin evində yır-yığış eləsin. Döşəyini açıb baxsın? Yalnız tənbəl və özünə hörmət etməyən qadınlar buna yol verə bilər!

Nazlı xala əldən olmasa da, dildən zirəkdi, söz altda qalmağı sevmirdi:

-Mən daha vacib işlərlə məşğulam, - dedi, - mən tibb elmləri namizədiyəm, şəhər xəstəxanasının şöbə müdiriyəm, torpaqda eşələnmək, ya kündə yayıb kökə bişirmək, mələfə ütüləmək mənlik deyil!

-Bəs o mələfədə yatmaq necə, xoşdu? Bəs özgə əlindən çıxan o kökələri yemək necə? Bəs sənin qızlarına kim öyrədəcək kökə bişirməyi? Onlar ev işlərini bəs kimnən öyrənməlidirlər, kimnən görüb-götürməlidilər?

-Bəsdi, ay ana, - Nazlı xala başını buladı, - bəyəm mən onları naz-nemət içində böyüdürəm ki, gələcəkdə paltar yusunlar, ya xəmir yoğursunlar?

Anamın cəsarəti yalnız bu münaqişəyə qarışmağa çatdı:

-Axı, nəyə lazım söz-söhbət? Nə iş lazımdı, mən görərəm, qoy Nazoçka dincəlsin!

Anam hər hansı bir ev işinin öhdəsindən gəlirdi, bir dəqiqə də bekar oturmurdu, işə canla-başla, həvəslə girişirdi, sübh tezdən gecə yarısına kimi əlləri işdən soyumayan nənələrim kimi.

Mənim anam işgüzar və gülərüzdü, görünür, buna görə də babamın hörmət-izzətini qazanmışdı, o, armudu stəkanda qabağına qoyulan ətirli seylon çayından bir qurtum alan kimi, razılıq hissilə səsini ucaldardı:

-Dərhal bilinir ki, bu çayı Qərinə dəmləyib!

Ağlım kəsəndən babam üçün məxsusi çayı yalnız mənim anam dəmləyirdi, sonralar isə bu ənənəni mən davam elədim, çünki həqiqətən də bir qədər diqqət tələb edən bu sadə işin öhdəsindən ailədə heç kim bizim kimi gələ bilmirdi.

Hərdən babam Nazlı xalanın gətirib süfrəyə qoyduğu çaydan bir qurtum alırdı və dərhal da stəkanı güldanın dibinə boşaldıb məni çağırırdı:

-Ey, axçi!

Babam yalnız məni belə səsləyirdi. Ermənicə qıza "axçi" deyirlər. İbrahim babam məni lap erkən yaşlarından belə çağırırdı və çox güman ki, atamın acığına, amma bu mənim xoşuma gəlirdi, çünki o, əmim qızlarına sadəcə "ay qız!" deyirdi və heç zaman adlarını dilinə gətirmirdi. Bu, hərdən anlaşılmazlığa səbəb olurdu, çünki babamın çağırışına bir ağızdan hay verirdilər və tələbkar babam isə fərqinə varmadan öz hikkəsini suçlunun yox, günahsızın üstünə tökürdü. Belə ki, əmim qızları ilə müqayisədə mən belə bir imtiyaza da malik idim.

Adətən babam məni çay dəmləmək üçün səsləyirdi, onu da həmişə yox, anam bağda olmayanda, atamla harasa gedəndə, onu da deyim ki, anam son zamanlar atama qoşulub tez-tez şəhərə gedirdi. Bunun səbəbini xeyli sonra mənə Fatimə bibim pıçıldadı və mən anladım ki, o, isti yay günündə anamın halsız-heysiz, ağappaq ağarmış halda bağa qayıtmasına və bütün gecəni atamın onun qulluğunda durmasına səbəb nə imiş? Yazıq anam! O, çox istəyirmiş ki, atama bir oğul da bəxş eləsin! Amma Allah uludur, valideynlərimin dünyaya yeni körpələr gətirmək istəyinə rəvac verməyib və ana bətnindən ölüsü çıxarılan o varlıqların haçansa çəkəcəyi acıları da məhkum kimi mənim çiynimə yükləyib.

-Bəsdir, əldən düşdün, dincəl, uzan bir az, qarnındakına yazığın gəlsin. - Ruqiyyə nənəm ərklə anama dedi, amma o, dərhal etirazını bildirdi:

-Mən bekar dayana bilmirəm, o ki qaldı qarnımdakına, Allah özü bilən məsləhətdir, qorusa da onundur, qorumasa da.

O ki qaldı çaya... Əşi, çay dəmləməyi anama da, mənə də, yaşlaşandan sonra daha bu incə əməliyyatı axıracan başa çatdırmağa hövsələsi qalmayan Ruqiyyə nənəm öyrətmişdi və çox keçməmişdi ki, biz son dərəcə diqqət tələb edən bu sahədə - yəni bütün qayda-qanunlara əməl etməklə çay dəmləməkdə onu üstələmişdik. Əvvəlcə çini dəm çaynikini qaynar su ilə yaxalamalısan, sonra ətirli çay puçalarını şırnaq altında, soyuq su ilə yumalısan və suyunu tamam axıdandan sonra çaynikə atıb qaynar su ilə doldurmalısan və yalnız bundan sonra çayniki qazın üstünə qoymalısan və çaynikdən aralanmamalısan və bir-iki dəqiqədən sonra çay puçaları üzə qalxırsa, bu o deməkdi ki, çay dəmlənib. Amma hələ iş bitməyib. Bundan sonra odu söndürürsən, çaya darçın, ya zəncəfil əlavə eləyirsən, qapağını qoyub çayniki dəsmala bükürsən və gözləyirsən ki, çay həm də yer dəmi alsın.

İbrahim babam mənim bu qayda ilə dəmlədiyim çayı armudu stəkanda kişmiş və ya ərik qurusu ilə içərdi və əgər bir saat sonra o, yenidən çay istəsəydi, gərək yenidən çay dəmləyəydik. Çünki, o, soyumuş çayı çay saymırdı, əgər bu qaydalarla çay dəmləməkdən təngə gəlmiş qadınlardan biri tənbəllik eləyib ona köhnə dəmlə çay süzsəydi, qışqırtısı bütün bağı lərzəyə salırdı:

-Ay Qərinə! Ay axçi! İkinizdən biriniz mənə çay gətirin, məni bu allahsızların umuduna qoymayın!

Və sonra da deyinməyə başlayırdı:

-Köpək qızları çay da dəmləyə bilmirlər! Əgər qadın çay dəmləyə bilmirsə, qovmaq lazımdı atasının xarabasına!

Amma yenə də axırda keçərdi zarafata:

-Amma mənim axçiyimi heç kim atasının xarabasına qovmayacaq, çünki o, evcanlı olacaq, elə indi də evdardır!

Mən anlayırdım ki, bu sözlər ailəni şənləndirmək üçündü, məzələnməkdi, amma bununla belə ürəyimdə sevinir, qürrələnirdim: demək, məni ər evində də anam, bibim Fatimə kimi sevib qiymətləndirəcəklər! Mən sevinirdim, əmim qızları paxıllıqdan haldan-hala düşürdülər, Azər isə mənə - gələcək arvadına görə qürrələnirdi.

## XII FƏSİL

Tək-tək bakılı tapılar ki, Abşeron bağlarının vurğunu olmasın. Burda insanlar cavanlaşır, gümrahlaşır, hiss eləyir ki, təbiətlə təmasdadır, onun bir parçasıdır. Ağac dirəklər üzərində yerdən xeyli hündürə qaldırılan, Abşeron sakinlərini istidən-bürküdən qoruyan külafirəngidə yatdığın, ya gözlərin yumulanacan göy üzünün ulduzlarına baxdığın gecələri necə unutmaq olar? Taxta pilləkənlə külafirəngiyə dırmaşandan sonra göy üzünə bir qədər də yaxınlaşırsan və sənə elə gəlir ki, əlini uzatsan ulduzları xışmalayıb cibinə də doldura bilərsən!

Nənəmi və anamı çıxmaq şərtilə biz küləksiz havalarda məmnuniyyətlə külafirəngiyə dırmaşırdıq və öz yüngüllüyünə, rahatlığına görə şəhərdə istifadə etdiyimiz atlaz, ipək yorğan-döşəkdən kəskin surətdə fərqlənən yaraşıqsız, biçimsiz çit yataqda yan-yana yatışardıq. O döşəkləri hələ günəşin istisini özündə saxlayan döşəməyə sərəndə, Azər aşağıdan mir-mitil tullayırdı və biz aşağıdan top kimi yuxarı atılan ağ balıncları tutduqca şaqqıldaşıb gülüşürdük. Kim harda gəldi, yanaşı yatardıq. Gecənin sərinliyindən yorğanın altında büzüşəndə, otaqlarda yatmış, könüllü surətdə özünü bu ilahi həzzdən məhrum etmiş qadınların halına acıyardıq.

Sürahiyə söykənib "altımızda" qalmış, birmərtəbəli evlərinin, işıqları göy üzünün ulduzları kimi bir-birinə qarışmış, üzüm kolları həyətlərdən həyətlərə adlamış bağ massivinə tamaşa eliyərdik. Sonra da gülə-gülə, zarafatlaşa-zarafatlaşa yuxuya gedərdik ki, bağ qonşumuzun xoruzunun birinci banında - hələ üfüqdə Günəşin işartısı da olmayanda yuxudan oyanaq. Biz şəhərlilər üçün o xoruzun səsilə açılan səhərdən gözəl nə ola bilərdi?..

Hərdən gecələr yay kinoteatrına yığışardıq. Bu ibtidai bir "sənət ocağı" olsa da, bizə xoş saatlar, dəqiqələr, anlar yaşadardı. "Yay kinoteatrı" deyilən ərazi klubun yanı idi, burda kinomexanik Əli kino qurğusunu quraşdırardı, klubun ağardılmış divarından isə ekran kimi istifadə olunardı və yeni tamaşaçıların marağını nəzərə alan kinomexanik əsasən Hindistan filmləri gətirərdi. Bağ camaatının əksəriyyəti bu kinoteatra özüylə stul, kətil, kreslo, hətta küləkli havalarda mələfə, adyal da gətirərdi və Əlinin ovcuna qəpikdən-quruşdan basıb tum çırtlaya-çırtlaya "Zita və Gita", "Ram və Şam", "Baycu Bavra", "Esenya" kimi dillər əzbəri olan filmlərə heyran-heyran tamaşa eləyərdilər.

Hind və Latın Amerikası melodramlarındakı qadın qəhrəmanların halına yana-yana mən arzulayırdım ki, onlar kimi böyüyüm, gözəl olum və günlərin birində özünəməxsus romantik duyğuları ilə qəlbim kimi cismimə də hakim olan Azərimi sevim.

Belə xoş saatlardan, dəqiqələrdən bizi tez-tez hər şeydə öz mənfəətini güdən Nazlı xala məhrum eləyirdi; o, hesab eləyirdi ki, bağda "vəhşicəsinə" dincəlmək -ildə bir dəfə nəsib olan məzuniyyətinin dörd həftəsini də bağda keçirmək həddindən artıq bayağı məşğuliyyətdir. Hər yay o, bir yeni marşrut fikirləşirdi və bizim atalarımız da itaətlə bizimlə yola çıxırdılar və bir-iki həftə ucsuz-bucaqsız ölkəmizin şəhərlərini dolaşırdıq. Bu səyahətlərdə Fatimə bibimin qızları da mütləq bizə qoşulurdu, amma o, özü belə səfərlərdən imtina eləyirdi, etirazını nə iləsə əsaslandırırdı, amma mən də başa düşürdüm ki, o, öz qardaşlarını artıq xərcə salmaq istəmir.

Əmim, bibim qızları xəbər tutanda ki, Moskvaya, ya Leninqrada, Kislovodsk və Tallinə, Riqaya, Lvova, ya Kiyevə gedəcəyik, şadlanar, ciy-ciy ciyildəyərdilər. Biz Azərlə bu şadyanalığa şərik olmazdıq - bizə bağda qalmaq xoşdu və bütün bu səfərlər hələ yola düşməmişdən qabaq gözümüzdən düşürdü. Üstəlik də bu səfərlərdə bizim analarımız günlərini əsasən mağazalarda keçirərdilər, "Jadran", "Leypsiq", "Vanda" kimi məşhur dükanlardan bir illik pal-paltar ehtiyatı alardılar, hələ bəzi şəhərlərdə mövcud olan "Beryozka", "Albatros" kimi xüsusi əskinasla işləyən mağazalara da girərdilər və yəqin ki, buna da səbəb xüsusi əskinaslara "bonna", "çekə" yiyələnməyi bacaran və bu pulları öz arvadlarından əsirgəməyən vəzifəli atalarımızın səxavəti idi. Bu səfərlərdə "alış-verişi" başlıca vəzifə sayan Nazlı xalaya anam dinməz-söyləməz tabe olurdu, axı, o, böyük qaynının arvadı idi. Görəndə ki, açıq-aşkar darıxırıq, günləri, saatları sayırıq, analarımız bizi iki dəfə muzeyə də aparardılar. Axşamlar isə biz dəstə ilə restoranları dolaşardıq ki, yeni xörəklər yeyək, amma o yeməklər bizə son dərəcə dadsız görünərdi. "Mədəni" dincəlmək üçün "turist putyovkası" ilə səfərə çıxanda isə başqa şeylər meydana çıxırdı. Onda bizi avtobusla qardaş şəhərlərin görməli yerlərinə ekskursiyaya aparırdılar, analarımızın da mağazalar gəzməyə macalı olmurdu, amma bu bizi qane eləyirdi. Hər halda, yenə də Bakıya qayıtmağa bir-iki gün qalmış analarımız yerli "tolkuçkaya", əntiq dükanlara və komisyon mağazalara baş çəkməyə, az tapılan şeylər əldə etməyə fürsət tapırdılar və Nazlı xalanın eyni açılırdı.

Biz də sevinirdik, amma getdiyimiz yolu təyyarə ilə geri qayıdanda, ağır-ağır, hədiyyələrlə dolu çamadanlarımız sovet laynerlərinə yük olanda və nəhayət, təyyarənin illüminatorundan doğma Abşeronun tanış mənzərələri, "bir-birinə göz vuran işıqları" görünəndə. Aeroportda təyyarədən düşəndə isə gözlərimizi dünyanın bu ən gözəl şəhərinin tozu, duzu, tanış neft qoxusu yox, müəmmalı bir göynəm, həsrət yaşardırdı. Öz istəkli dostları üçün qəribsəmiş xəzri, bizi salamlayırmış kimi, saçlarımızı qarışdırırdı. Ertəsi gün isə analarımızın çeşidli mağazaları dolanıb əldən salandan, saatlarla növbəyə durandan sonra aldığımız hədiyyələri iftixarla, nümayişkaranə bir tərzdə doğmalarımıza bağışlayırdıq, Fatimə bibimə çatası hədiyyələri isə şəxsən Azər özü seçib, özü təqdim eləyirdi.

Nə qədər ki biz böyük bir ölkədə yaşayırdıq, bu cür xoşbəxt günlər, aylar, illər davam elədi. Sovet İttifaqı dağılandan sonra isə qardaş respublikaya dincəlməyə getmək üçün yalnız viza yox, həm də cəsarət lazımdı. Kimdi canından bezən? Bəlkə də "qardaşlar"ın ayrılması xeyrə oldu, çünki bizim vəzifəli elita dərhal məsələ qaldırdı ki, doğma vətəndə kurort, sanatoriya üfüqlərini genişləndirsinlər və bu da çox tezliklə öz bəhrəsini verdi. Şəkidə, Şamaxıda, Qubada, Nabranda, Lənkəranda, Zaqatalada ailə istirahət mərkəzləri yarandı ki, Kislovodsk, Pyatiqorsk sanatoriyalarını da üstələdi. O ki qaldı mənə - qəfildən anasından məhrum olmuş bir qız uşağına, yayı harada keçirməyin heç bir fərqi yoxdur. Özünü dərk eləyəndən bütün yay tətillərini Azərlə keçirmiş, buna adət etmiş bir insan kimi məni yalnız bir fikir həyəcanlandırır: təki Azər yanımda olsun. Sonuncu olduğu sonralar bəlli olan o sehrli yay mənə unudulmaz, xoşbəxt dəqiqələr, anlar yaşatmış Azər...

# XIII FƏSİL

Axı, mən nəyə görə həmişə o yayı - uşaqlığımızın sonuncu yayını yadıma salıram? Niyə o günlər tez-tez yuxuma girir? Bəlkə unutmaq istədiyim o dəhşətli həqiqətləri yaddaşımdan silmək üçün? Nəyə görə o günlərə yuxuda da olsa qayıtmaqdan ötrü mən səhərlər yuxudan oyanmaq istəmirəm? Nə üçün mən o parlaq günəşli günlərin dadını unuda bilmirəm?

...O unudulmaz yay bürkülü keçdi. İstidən qaçan bakılılar bağlara can atırdılar, amma dənizin yüz addımlığında olan bağlarda da Günəş batanacan istidən, bürküdən nəfəs almaq mümkün deyildi. Biz isə İbrahim babamın yaşıllığa qərq olmuş bağında, qollu-budaqlı ağacların sərin kölgəsində gözəl günlər keçirməyə başlamışdıq. Babam evin dörd bir tərəfində də yeni ağaclar əkərək bağ mülkünü güllü-çiçəkli baxçaya çevirmişdi. Yalnız çarhovuzun yanında boş yer nəzərə çarpırdı və bir də xalça, palaz yumaq üçün nəzərdə tutulmuş meydança yalındı. Altı sal qayalıq olan bu maili meydançanın axarını babam elə bir yönə salmışdı ki, burdan çıxan sabunlu su ağaclara ziyan verməsin, bağdan kənara axsın.

Səhər tezdən hələ biz şirin yuxuda olanda diş fırçasından, diş pastasından heç vaxt yararlanmayan, bint doladığı barmağını duza batırıb dişlərini silən, üzünə su vuran İbrahim babam namaz qılardı. Sonra bağa girərdi ki, təzə tərəvəz, meyvə dərsin. Öncə qocalmış incir ağacına yaxınlaşardı və kəhrəba kimi saralmış incirləri bir-bir üzüb ağzına atırdı. O, deyirdi ki, incir mövsümündə əgər hər səhər acqarına beş-on dənə incir yesən qarnın sancı görməz. Özü doyandan sonra dərdiyi incirləri iri sinidə ortalığa qoyardı ki, kimin ürəyi istəsə, yesin.

Heyva, nar, xurma yetişəndə biz də babama kömək eliyərdik və bu payız nemətlərini evin həmişə sərinliyini saxlayan zirzəmisində quru otun üstünə sərərdik. İbrahim babam çalışardı ki, imkan daxilində soyuducudan heç nə götürüb yeməsin, bərkinə getsə, bunu bizə də yasaq eliyərdi. Amma öz etirazını bizə bir qədər yumşaq şəkildə çatdırırdı:

-Çox yaşamaq istəyirsinizsə, özünüzü üç ağ şeydən qoruyun: qənddən, unnan, duzdan və bir də çalışın ki, bu ağ tabutdan heç nəyi götürüb yeməyin, onsuz da siz yazıqları ximikatla bəs deyincə zəhərləyiblər...

Gözünü açandan babamın da, nənəmin də bir dəfə belə həb atdığını görmədim: nənəmin öz müalicə üsulları vardı və min illərdən gələn xalq təbabətinə əsaslanırdı. Doğrudanmı onları sağlam saxlayan xalq təbabəti qanunları ilə keçirdikləri həyat tərzi idi? Hələ heç onların dişləri də tökülməmişdi. İsti havalarda qarpız yemək həvəsinə düşəndə zirzəmidən iki sərin qarpız çıxartdırıb kəsərdilər: birini dilimləyən kimi nənəmlə babamın və babamın məsləhətindən çıxmaq istəməyən atalarımızın qarşısına, ikinci qarpızı isə ikikameralı soyuducuya qoyardılar ki, tamam soyusun. Hər şey bizim könlümüzcə olsun.

...O əlamətdar gündə bizim bağda turşməzə albalıdan və bal kimi şirin ağ gilasdan mürəbbə bişirirdilər. Ventilyator mətbəxdə ulayırdı. Ruqiyyə nənəm albalını bişirib hasilə gətirənə qədər anam bir ləyən ağ gi-

lasın tumunu çıxartdı, Nazlı xala isə o tumların yerinə qoz ləpəsi doldurdu. Bu qayda ilə bişirilmiş ağ gilas hər yerdə adamın üzünü ağ eliyər. Ağ gilasın tumunun yerinə qoz ləpəsi doldurub mürəbbə bişirmək-nənəmin kəşfi olmasa da, o bu sahədə həqiqətən kulinariya incəsənətinin şedevrini yarada bilirdi.

Biz qızlarla mətbəxin ətrafına dolanırdıq, şirəyə gələn acgöz arıları qovalayırdıq, səkini sulayırdıq; bir sözlə, mətbəxdən aralanmırdıq. Bütün ailənin sevimlisi, duzu-məzəsi Azərdən başqa, mətbəxə girmək hamıya yasaqdı. Harda olur-olsun, nənəmin balağından tutmağa, ətrafında dolanmağa yalnız onun ixtiyarı var idi və o da bizim kimi səbirsizliklə gözləyirdi ki, nənəmin kəfkirlə aldığı və ayrıca boşqaba tökdüyü çəhrayı mürəbbə köpüyünün dadına baxsın. Özünəməxsus rəngi kimi, ətri, tamı olan bu köpüklü şirniyyatı biz mürəbbənin özündən çox xoşlayırdıq və bu şirniyyatı əsasən barmağımızla yalayırdıq. Azər nəlbəkidə hələ buğlanmaqda olan köpüklü şirniyyat payını alan kimi mətbəxdən çıxardı, bacılarına o şirniyyata yalnız bir dəfə barmaq batırmağa icazə verərdi, sonra əlində nəlbəki, bağçaya girib gözdən itərdi ki, heç kimin ağlına heç nə gəlməsin, amma o bilirdi ki, mən onu hansı ağacın altında gözləyirəm, özü də iştahla.

O gün Azərin ortancıl bacısı Fidanın ad günü olduğundan, qonaq gözləyirdilər. İbrahim babam Xristofor babamla birlikdə kabab bişirmək üçün quzu ətini doğrayıb, duz, soğan, istiotla qarışdırıb kabab çəkmək üçün basdırma hazırlayırdılar. Qreta nənəm ərklə deyişən, bir-birini tənbeh eləyən qocalardan gözünü ayırmadan soğan doğraya-doğraya gülümsəyirdi.

-Sənin kabab deyilən şeydən başın çıxmır. Kababda əsas şərt basdırmanı qayda-qanunla hazırlamaqdı, bu işi də sənə etibar etmək olmaz, - İbrahim babam dedi.

Babam bir qayda olaraq, Xristofor babamı Xosrov, Qreta nənəmi isə İradə çağırırdı. Deyə bilmərəm ki, bu onların xoşuna gəlirdi, ya gəlmirdi, amma açıq şəkildə hələ etirazlarını bildirməmişdilər.

- Xətrimə dəyirsən, İbrahim can, vallah xətrimə dəyirsən, -Xristofor babam dedi, -niyə bu işi mənə etibar etmək olmaz, axı? Mən ki kababı səndən yaxşı bişirirəm, -və üzünü arvadına tutdu, -elə deyilmi, Qreta?

Qreta nənəm sadəcə gülümsədi, İbrahim babam isə deyəsən, fikrini bir qədər də əsaslandırmaq qərarına gəldi:

-Bəyəm mən pis kabab bişirirəm? Amma basdırma qayda-qanunla hazırlanmayıbsa, yaxşı kababı necə bişirmək olar? Sən deyirsən ki, körpə quzu ətinin üstünə sirkə tökək, amma üç illik qoç ətinin üstünə, sirkə nədir, heç soğan da səpməyə qıymırsan. Qoy İradə xanım özü desin, kababı kim yaxşı bişirir? Sən, yoxsa mən?

Qreta nənəm o qədər güldü ki, gözləri yaşardı.

-Siz özünüzü özündən razı uşaqlar kimi aparırsınız, -dedi, -istəyirsiz ki, sizi tərifləsinlər, hə?

Babam Xristofor babama göz vurub cavab verdi:

-Onu özümüz bilərik, ay İradə xanım, sən de görüm kababı kim yaxşı bişirir. Xosrov, yoxsa mən?

-And içə bilərəm ki, hər ikiniz!

Görünür, Qreta nənəm qocalardan heç birinin xətrinə dəymək istəmədi, amma İbrahim babam yenə əl çəkmədi:

-Bax, keçən bazar günü kabab necə çıxmışdı?

-Keçən bazar? -Qreta nənəm fikrə getdi, -bir az bərk idi...

-Gördünmü? -İbrahim babam sevincək səsini qaldırdı, -Mən deyirəm sənin basdırmadan başın çıxmır, sən höcət eləyirsən!

Xristofor babam da səsini qaldırdı:

-Bəs qışda yediyin xaş necə idi? Bəs kəllə-paça? Bəlkə deyəsən ki, kəllə-paçanı da məndən yaxşı bişirirsən?

-Bəlkə də yaxşı bişirirsən! - Babam gülümsədi, - sabah səhər bişirərsən, dadına baxarıq.

Qocalar ikisi də birdən ucadan gülüşdülər, soğan doğrayan nənəm isə başını bulaya-bulaya:

-Özlərini lap uşaq kimi aparırlar, - dedi, - düz sözümdü.

Axşamüstü açılan dəbdəbəli süfrədə yaxşıca kabablayandan sonra qonaqlar təzə mürəbbə ilə çay içməyə, anam isə yubilyarın şərəfinə hazırladığı, üstünə də nə üçünsə "Gündüz və gecə" yazdığı tortu kəsib dayaz boşqablarda paylamağa başlayanda Azər müəmmalı tərzdə məni bir kənara çəkdi və astadan:

-Sən sakitcə aradan çıx, qapıya səmt get,-dedi, -mən gəlib sənə yetişəcəm.

Mən qapının arxasında onu bir xeyli gözləməli oldum. Amma o, gəlib çıxan kimi dərhal belindəki çantanı barıdan bayıra tulladı, sonra özü də hasara dırmaşdı, barıdan aşmaqda mənə də kömək elədi. Amma mən heyrətlə soruşdum:

-Biz hara gedirik? Bu çanta nədən ötrüdü?

Azər çoxbilmişcəsinə gülümsündü:

-Bu sirdi. Tezliklə biləcəksən...

Mən şadlığımdan şitlik elədim: mənim doqquz, Azərin isə on bir yaşı vardı. Bəs görəsən kim bu yaşında macəra axtarmayıb, sirlərlə maraqlanmayıb?

## XIV FƏSİL

Dənizə səmt gedirdik və çox keçmədi ki, gəlib çıxdıq yalnız göy üzündə çır-çır çığırışan qağayıların ümidinə qalmış sahillərə. Əmoğlum dedi:

-Ayka, biz nə qədər ürəkdən istəsək də, valideynlərimiz bizi belə erkən evləndirməzlər, çünki sənin doqquz, mənim isə cəmi on bir yaşım var.

Mən gözlərimi döyə-döyə ona baxırdım. O öskürdü, udqundu və sözünə davam elədi:

-Amma ikimizin birlikdə iyirmi yaşımız var və bu da az deyil. Hesab edirəm ki, kifayət qədər uzun müddətdir və bu bizim öz taleyimizi həll edəcəyimizə zəmin yaradır. Bu səbəbdən də elə bu gün -bu gün həm də fövqəladə bir tarixdir- doqquzuncu ayın on birinci günüdür və biz bu gün evlənməliyik, bu simvolik gündə biz ər-arvad olmalıyıq və bunu sirr kimi saxlamalıyıq. Qoy bu sahil bizim adamız, qağayılar toyumuzun şahidləri olsun! Xoşuna gəlirmi belə toy?

Mən sevincimdən qışqırdım. Sahil boyu dəli kimi qaçmağa və sonra da dənizə baş vurub duzlu, ılıq suları bir-birimizin üzünə çiləməyə başladıq. Yorulub əldən düşəndən sonra hələ soyumamış qızılı qumların üstünə uzandıq. Dünyanın heç bir döşəyi qu tükündən də yumşaq Abşeron qumunun yerini verə bilməz. Bu qum o qədər təmiz, o qədər narındır ki, ılıq su şırnağı kimi insanın cismini oxşayır, yalnız bədəninə yox, həm də ruhuna hərarət gətirir...

Azər çantadan Ruqiyyə nənəmin meçidə gedəndən-gedənə büründüyü ağ şalı çıxardıb mənə sarı uzatdı:

-Sal başına!

Mən nənəmin qızılgül ətirli ətriyyatlarının qoxusunu həmişə özündə saxlayan ağ şalı çiynimə salıb öz istəklimə ram oldum. O mənim qarşımda diz çökdü və təntənə ilə dedi:

-Aida Murad qızı, səndən xahiş edirəm ki, mənim arvadım olasan. Söylə görüm razısanmı?

-Ra...zı...yam! - gözlərimi yumub bu sözü bir də dilimə gətirdim: - ra...zı...yam!

Biz öpüşdük, özü də lap kinolarda öpüşənlər kimi! Sən demə, Azər anamın evdə kəsib ona verdiyi tort payını çantaya qoyubmuş, ehmalca çıxartdı və mənə sarı uzatdı ki, bir dişdəm alım. Sonra mən də bu tikəni əlimdə tutub ona sarı uzatdım ki, o da dişləsin.

-İndi də şahidləri-qonaqlarımızı yedirdək,-həyat yoldaşım dedi və çantadan çıxartdığı qurumuş çörək tikələrini bizi dövrəyə almış, sanki təbrikə yığışmış, qıy-qışqırtıları bir-birinə qarışmış qağayılara sarı tullamağa başladıq.

Ürəyim sinəmə sığmırdı, sanki Yerdə yox, göyün yeddinci qatında idim.

Məni çox maraqlandıran sualı da, nəhayət ki, dilimə gətirdim:

-Bəs indi biz neynəyək?

-Necə yəni neynəyək? -Azər dərhal cavab verdi, -sən daha mənim arvadımsan, mən səni qorumalıyam, biz Allah qarşısında bir-birimizə söz vermişik və heç kim bizi öz niyyətimizdən döndərə bilməz.

-Bəs biz harda yaşayacağıq? -hər şeyə aydınlıq gətirmək istəyən bir təzəgəlin kimi soruşdum.

Azər inamla:

-Bu vadi bizim adamız olacaq,-dedi, -bax o gördüyün mağara da evimiz...

O mağaranı mən kənardan dəfələrlə görsəm də, içərisinə girməmişdim. Amma indi bunun fərqində deyildim. Çünki sevincimdən uçmaq istəyirdim.

-Onda gəl bu adaya ad qoyaq,-dedim, -Azər və Aida adası!

Azər yəqin ki, məndən belə bir təklif gözləmirdi.

-Sən necə söylədin? -dedi, - Azər və Aida adası? Necə də gözəl səslənir! Bu hardan ağlına gəldi?!

O, birdən-birə qollarını sahilə sarı yerdən qalxan qartal kimi açdı və qaça-qaça var səsilə bağırdı:

-Yaşasın Azər və Aida adası!

Mən həyəcandan titrəyə-titrəyə onun arxasınca götürüldüm. Mən də qollarımı sahilə sarı açıb Azərin sözlərini təkrar elədim və:

-Eşidin və yadınızda saxlayın,-dedim, -bu gündən bu ada Azər və Aida adasıdı və ancaq bizə məxsusdur!

İnsan səsinə bənzər səslər çıxaran qağayılar başımızın üstündə qanad çala-çala sanki bizi təqdir eləyirdilər, bizi bu adanın sahibi kimi tanıdıqlarını bildirirdilər və mənə elə gəlirdi ki, onlardan biri eynilə insan kimi qışqırır: "Azər... aida...aaa!!!" Biz hava qaralanacan Azəraida adasında gəzdik və sonra da üz tutduq mağaraya tərəf. Mağara sahildən bir qədər hündürdə, qayalıqda yerləşirdi və biz çal-çapıq daşların üstündən aşıb mənzilə çatanacan əlimizi-ayağımızı yaraladıq.

Bu yosun qoxulu, soyuq mağaranın qatı qaranlığı məni bir qədər vahiməyə saldı. Amma Azər kibrit yandırandan, içərini işıqlandırandan sonra biz mamırlı qaya parçasının üstündə oturduq və bir-birimizə qısıldıq. Bir qədər keçəndən sonra soyuq, aclıq və susuzluq bizi sınağa çəksə də, mənə elə gəlirdi ki, heç bir qüvvə bizi insan səltənətinə qaytara bilməz. Biz adımızla bağlı bu möcüzəli adada o qədər xoşbəxt ər-arvad

idik ki, yaşımızı unutmuşduq. Yox, yox, unutmamışdıq, ikimizin bir yerdə iyirmi yaşımız vardı. Və məncə, bu az yaş deyildi.

# XV FƏSİL

Bizi dan yeri qızaranda balıqçılar tapdılar. Sən demə, bizim yoxa çıxmağımız evdəkilərə gecə yarı bəlli olub. Və dərhal da bağ massivində, qəsəbədə bizi axtarmağa başlayıblar, hətta yaxın qonşuları da bu axtarışa cəlb eləyiblər. Bizi "gördüm" deyən olmayıb. Axı, qəsəbə camaatı nə biləydi ki, biz hardayıq? Bütün gecəni atalarımız, analarımız və qonşularımız, əllərində məşəl, fanar kənd arasında, sahil boyu bizi axtarıblar. Və birdən kiminsə nəzərini qumun üstündəki ağ şal cəlb eləyib. Nazlı xala nənəmin şalını tanıyan kimi qışqırıb:

-Evimiz yıxılıb!!!- Və saçını yola-yola çöküb, -Onlar batıblar! Evimiz yıxılıb! - və əllərini göyə açıb, -bu nə müsibətdi, bizə göstərdin, İlahi?

Nənələrim Nazlı xalanın gətirdiyi şalı görən kimi hönkürüblər. Bizim "nigah" gecəmizdə evimizdə kimsə yatağa girməyib. Bizim sahildə yoxa çıxmağımız barədə xəbər bütün qəsəbəni silkələyib və çox keçməyib ki, balıqçılar şalın tapıldığı yerdən dənizə baş vurublar, sahili ələk-vələk eləyiblər ki, meyidimizi tapsınlar.

-Onlar burdadır!!! -Yarıyuxulu olsam da, bu qışqırtını qulağım çaldı və dərhal anladım ki, bizi axtarırlar! Mağaraya girən balıqçıları tanımasaq da, dərhal onlara təslim olduq. Onlar əllərimizdən tutub bizi bayıra çıxartdılar, qayaların arasındakı cığırla aşağı endirdilər və sahildə cəmləşmiş adamlara əl eləyib bir ağızdan qışqırdılar:

-Tapıldılar! Gözünüz aydın! Sağ-salamatdılar! Muştuluq hazırlayın!

Mən bilmədim, qorxudan, təlaşdan həyəcanlanıb-havalanmış valideynlərim bu xəbəri eşitdilər, ya yox, çınki qulağım Azərdə idi. O, yalnız ikimizin danışdığımız və bir-birimizi anladığımız dildə "quş dilində" mənə tapşırıqlarını verirdi:

-Kane koqokavokarı kanikakokamu kapro kanakaşu kasvadkabu, katı kaproskato kamokalçi. Ka Ya kasam kaçto kanakado kaskakaju.

Azərlə mənim hər rus kəlməsinin başına bir "ka" əlavə etməklə yaratdığımız və neçə ildən bəri yaşatdığımız "quş dilini" təbii ki, balıqçılar başa düşmədilər və yəqin ki, hesab etdilər ki, biz dəli olmuşuq, bizə yazıq-yazıq baxdılar və bir də sahildə cəmləşmiş adamlara əl eləyə-eləyə qışqırdılar:

-Tapıldılar! Muştuluq hazırlayın! Sağ-salamatdılar.

Sevincdən gözləri yaşarmış atalarımız ciblərindəki pulların hamısını balıqçılara payladılar. Bizi evə gətirdilər və hər kəsi öz otağında çarpayıya uzadıb başladılar bizə əməlli-başlı qulluq eləməyə. Çünki mağaranın rütubəti canımıza hopmuşdu və biz həqiqətən də soyuqlamışdıq. Anam hərarətimi ölçəndə məlum oldu ki, qızdırmam da qalxıb.

Hər halda mən darıxırdım və şübhəsiz ki, bu halı Azər də keçirirdi: necə olar ki, evlənəsən və dərhal da ayrılığa məruz qalasan? Amma fikirləşirdim ki, heç eybi yox, qoy ərgən yaşına çataq, görüm bizi necə ayırırlar?!

Bizdən heç nə xəbər alan yoxdu. Sağ-salamat tapıldığımıza görə Allaha dua eləyirdilər. Amma ertəsi gün anam ehtiyatla məndən soruşdu:

-Qəşəng balam, de görüm o ilan çox böyük idi?

Elə mən də bu suala ehtiyatla cavab verdim.

-Belə də...

Sonra Azər mənə söylədi ki, o, bir xeyli baş sındırandan sonra, nəhəng bir ilanın arxamıza düşüb bizi qovması və bizim də məcburiyyət qarşısında o mağarada gizlənməyimiz barədə əfsanə uydura bilib. Bu cəfəngiyyata hamı inanmışdı, Ruqiyyə nənəmdən başqa. O arabir gülümsəyə-gülümsəyə məndən soruşurdu:

-Bəlkə mənim ağ şalımı da dəniz qırağına o ilan aparıb?

Bu macəranın bizim üçün xoş və həm də xoşagəlməz nəticələri oldu. Bizim üçün xoş o idi ki, yay tətili qurtaranacan kabab yedik, çünki atalarımız bizim tapılmağımızın şərəfinə yeddi qurban kəsdilər, xoşagəlməyən isə qarşımızdakı maneə idi. Bizi toyumuzun baş tutduğu məkana - Azər və Aida adasına getməyə qoymurdular və biz babamın bağındakı ağacların budaqları arasında gizlənərək, o gecəni yenidən yaşamaq istəyirdik, özü də o mağarada, o yosun iyi verən mamırlı qaya parçasının üstündə olduğu kimi...

## XVI FƏSİL

Biz necə də yanılmışıq! Biz mövcud qayda-qanunlara necə də sadəlövhcəsinə inanmışıq! Bu inamı bizdən necə də asanlıqla qopartdılar! Hərgah, o günlərə bir daha qayıda bilməyəcəyik. Sən demə, o yay xoşbəxtliyin sonuncu yayı imiş... Və onun yerini əbədi payız tutdu. Nə üçün əbədi? Çünki o bizim Yarımkürəmizə qədəm qoyanda heç kim bilmirdi ki, o bizim vətənimizin sonuncu dinc payızı olacaq...

...Oktyabrın birində biz məktəbə qayıdıb dərslərə başlayanda, hələ boyaq qoxusu verən partaların arxasında yerimizi tutanda, elm öyrənməyə girişəndə hər yerdə anlaşılmaz söhbətlər gedirdi, amma bizim (öz aramızda) Afonya adlandırdığımız coğrafiya müəllimi - coğrafiya kabinetinin rəhbəri Lyubov Afanasyevna Avdeyevanın başladığı dərsə elə bir sakitlik hakim idi ki, milçək uçsa vızıltısı eşidilərdi. Hərgah milçək də qorxusundan zalım Afonyanın dərsini pozmağa cəsarət eləməzdi...

Geyim-keciminə baxanda elə bilərdin ki, Sovet "Aeroflotu"nun styüardessasıdı, sadəcə qocalıb; dar, tünd rəngli yubkasını və bəyaz koftasını heç vaxt dəyişməzdi. Bu arıq müəlliməmizin nazik dodaqlı, qaşı bilinməyən "turşumuş" sifətinin yeganə bəzəyi heç yayın qızmar günlərində də başından düşməyən dəbdəbəli parik idi.

-Siklon-antisiklon...-Bu onun dilindən düşməyən söz idi. Bu qarımış qız biz uşaqları sevmirdi və deyəsən elə zənn eləyirdi ki, həyatdakı peşə seçimində də günahkar bizik. Mənim zənnimcə o məktəbə ona görə gəlirdi ki, şəxsi həyatında yaşadığı bütün acıların intiqamını günahsız uşaqlardan alsın. O özünə və eləcə də buraxılış imtahanına düşməyən "ikinci dərəcəli" dərsinə qarşı elə bir diqqət, qorxu yarada bilmişdi ki, uşaqlar hətta sadəcə coğrafiya kabinetinin qarşısından keçəndə də özlərini yığışdırırdılar.

-Bizim bəxtimiz gətirməyib. Biz şəhərlilər şəhərdə yaşamaqla həmişə sərt küləklərə, quraqlığa, istilərə məruz qalırıq, bu da ömrümüzü kəsir, iş qabiliyyətimizi aşağı salır, -deyə o, bütün zəhərini onun şəhərdə keçən həyatına heç bir dəxli olmayan biz günahsız uşaqların üstünə tökərdi, -elə bu səbəbdən şəhərlilər həftənin sonunda şəhərdən çıxırlar, bağlara-baxçalara üz tuturlar. Amma, bir fikir verin, görün bu azərbaycanlılar nədən ötrü təbiət qoynuna can atırlar? Kabab çəkməyə! Mədəni şəkildə istirahət etmək, voleybol oynamaq əvəzinə, kabab çəkməyə! Bəyəm bu qədər də ət yemək olar? Sovet hökuməti də bu vəhşi qafqazlılara mədəniyyət aşılayıb, mağara həyatından çəkindirə bilmədi!

Sözün bu yerində parta yoldaşım Elxan qulağıma pıçıldadı:

-Bu Afonya, Sovet müəlliminə verilən maaşla kabab çəkə bilsəydi, bu Allaha da xoş gedərdi.

Elə mən də bu fikirdə idim və fikirləşirdim ki, yerimdən qalxıb mənim xalqımı heç nədən təhqir edən Afonyaya sözümü deyim, amma hansı bir duyğusa məni özümü saxlamağa vadar elədi və mən çətinliklə də olsa, bu zəhərli ilanın kinayəsini, məsxərəsini udmalı oldum. Mən heç cür dərk edə bilmirdim ki, azərbaycanlıların həyat tərzinin o günkü dərsimizə nə dəxli var? Amma bu sualı Afonyaya vermək fikrimdən də vaz keçdim.

Fasilə zamanı sinfimizdəki azərbaycanlı uşaqlar Afonyanın milli heysiyyətimizə toxunan replikasını müzakirə etdilər, sərt sözlər işlətdilər və qət elədilər ki, Afonyadan qisas alsınlar. Mən həyəcanlanmış yoldaşlarımdan aralanıb müəllimlər otağına sarı getdim ki, bu məsələdən bizə rus dili və ədəbiyyatı fənnindən dərs deyən sevimli müəllimələm malakan qızı Valentina Alekseyevna Şişatskayanı və milliyyətcə erməni olan cavan tarix müəllimimiz Qurgen Xaçaturoviç Qriqoryanı da agah eləyim.

Mənim bu müəllimlərin hər ikisinə xüsusi rəğbətim vardı. Rus ədəbiyyatına qarşı ehtirası mənim qanıma yeridən xeyirxah və mülayim təbiətli Valentina Alekseyevna Montin qəsəbəsində, ayrıca bağı-baxçası olan xudmani bir evdə yaşayırdı və biz sinif yoldaşlarımızla bayramlarda məmnuniyyətlə onu təbrik etməyə gedirdik ki, onun qoca anası Katya xalanın bizim üçün kəsib bişirdiyi əriştənin dadına baxaq. Olduqca söhbətcil Qurgen Xaçaturoviç isə xeyirxah sifətli, sakit təbiətli bir ziyalı idi, hətta tarix fənni üzrə təşkil etdiyi fakultativ məşğələlər gec qurtaranda, məktəbdə ləngiyən aktiv şagirdlər kimi bizi də evimizə qədər ötürərdi.. Mən öz incikliyimi istəkli müəllimlərimə çatdırdım və onlar da öz növbələrində coğrafiya müəlliməsinin bizə qarşı milli zəmində atdığı atmacadan mütəəssir oldular və söz verdilər ki, onunla danışacaqlar.

Hiss və duyğularımın heç nədən təhqir olunmasını mən evdə də biruzə verdim və Afonyanın bizim millətimizə qarşı dilindən çıxanları sözbəsöz valideynlərimə söylədim.

-Nə üçün bu rus şovinistləri hesab edirlər ki, həmişə hamıya dərs keçməlidirlər? Özgəsinin milli əxlaqına və ənənəsinə üstdən aşağı baxmağa, alçaltmağa kimin nə haqqı var?! -Atam hirslə dedi, -gör bir kimlər yüksək mədəniyyətdən dəm vurur?! Mən çox görmüşəm, Rusiyada, ələlxüsus Rusiyanın dərinliklərində ruslar mədəniyyət deyəndə elə bilirlər ki, bu arağın küpünə girmək, keflənib mayallaq aşmaq və arvadlarını dəyişik, çaş salmaqdı. Heç eybi yox, mən o bambılıya hər şeyi qandıraram, bilər ki, çoxmillətli kollektivdə pedaqoq özünü necə aparmalıdı.

Atam, həqiqətən də, mütəəssir olmuşdu. Mən onu sakitləşdirmək istədim, dedim ki, bu barədə Valentina Alekseyevnaya da, Qurgen Xaçaturoviçə də danışmışam və söz veriblər ki, Afonya ilə danışsınlar. Mən atamı inandırdım ki, onun bu işə qarışmasına ehtiyac yoxdur və bu insidentin qarşısını müəllimlər özləri alacaqlar.

Mən hələ də bilmirəm ki, mənim istəkli müəllimlərim Afonya ilə danışmağa macal tapdılar, ya yox, amma sinif yoldaşlarımın "qisas" məqsədilə atdıqları addımının bir şahidi də mən özüm oldum: kimsə coğrafiya kabinetinin qapısına iri, qara hərflərlə ağ kağıza rusca bir kəlmə söz yazıb yapışdırmışdı: "Ostorojno, zlaya sobaka". Çox keçmədi ki, bu "elandan" bütün məktəb xəbər tutdu. Uşaqlar gülüşürdülər və bir-birilərindən soruşurdular: "görəsən həyatına risk eləyib bu yazını yazıb qapıya yapışdıran kimdi?"

# XVII FƏSİL

Mənim ad günüm -noyabrın yeddisi yaxınlaşırdı. Mən bayram günündə doğulmuşam. Hələ birinci, ikinci siniflərdə oxuyanda bizə öyrətmişdilər ki, bəs 1917-ci ilin 7-si noyabrında "Avrora" kreyseri Qış sarayının alındığını - əsası tarixi zərurət olan ilk proletar dövlətinin yarandığını - bütün dünyaya yaylım atəşilə bəyan eləyib "Yoldaşlar, Böyük Oktyabr Sosialist İnqilabı qalib gəldi!" xəbəri tarixdə yeni bir mərhələnin başlandığını bildirib. Bu səbəbdən də təqvim dəftərçəsində yeddisi və səkkizi Noyabr qırmızı hərflərlə yazılırdı və bu məni inanılmaz dərəcədə fərəhləndirib qürrələndirirdi.

"Den sedmoqo noyabrya

Krasnıy den kalendarya"

-Hələ uşaq bağçasında mən bu beytlə başlanan mənzum parçanı ucadan söyləməyi çox sevirdim.

Hətta bu beytin Azərin tərcümə etdiyi Azərbaycan variantını da hərdən dilimə gətirirdim:

"Yeddi noyabr günü

Təqvimin par-par günü".

Atam qərara aldı ki, mənim ad günümü təntənəli şəkildə bağımızda keçirtsin və məclisə bütün sinif yoldaşlarımı, həmçinin, müəllim kollektivini dəvət etsin. Etiraf edim ki, bizim böyük ailəmizdə yalnız Azərlə mənim ad günlərimiz hay-küylü, təmtəraqlı keçirilirdi. Çünki mən atamın-anamın "bir dənəsi" idim, Azər isə ailədə yeganə oğlandı, üstəlik də, yayda doğulan bacılarından fərqli olaraq o, dünyaya Yeni il ərəfəsində gəlmişdi.

O qədər xoş, mülayim bir payız günü idi ki, bir tiyə köynəkdə gəzsəm belə, payızın soyuğunu canımda hiss eləməzdim. Yeddisi noyabr möcüzə göstərirdi. Günortaya yaxın bayram nümayişi tamamlandı və əsil bayram başlandı. Nümunəvi şagirdlər və müəllimlərim atamın göndərdiyi avtobusa doluşdular və gündüz saat iki radələrində bu maşın məktəbin həyətindən tərpəndi.

Qonaqları bağın həyətində "Şahzadənin bütün əhli-əyalı" gözləyirdi. Mənim valideynlərim, əmimin ailəsi, babam, nənəm. Amma avtobusdan düşəndə mən burda tanımadığım üzlər də gördüm, hamısı da sevinc

içində. Atamın bu təntənəyə məxsusi dəvət etdiyi məşhur oyunbaz, müxtəlif etnosları təmsil eləyən sinif yoldaşlarımı duzlu lətifələrlə, gözbağlayıcı nömrələri ilə əyləndirməyə başlasa da, uşaqlar voleybol topunu, badminton raketkalarını görəndə ondan aralandılar və o, müəllimlərimin əhatəsində qaldı. Dünya xalqlarının populyar musiqi nömrələri bir-birini əvəz elədikcə oynayanların da sayı artırdı. Fatimə bibimin əri Yunis isə bu musiqilərin ahəngi altında qızarmış manqala quzu əti, ağ balıq, pomidor, badımcan, bibər çəkilmiş şişləri düzür, atamın sürücüsü Faiq isə gah külə kartof basdırır, gah da yelləyirdi. Anam, Nazlı xala və eləcə də əmim, bibim qızları süfrəyə çeşidli salatlar, içkilər, mer-meyvə dolu vazalar düzürdülər. Anam məni məhz bu təntənə üçün tikilmiş donu geyinməyə vadar elədi və mən tünd kostyumda ortaya çıxan Azərlə vals oynamağa başladım. Azər məni həsəddən yanan sinif yoldaşlarımın gözləri baxa-baxa elə fırladırdı ki, mənə elə gəlirdi ayaqlarım yerdən üzülüb, uçuram. Mən necə də bəxtəvər idim!!! Mənə elə gəlirdi ki, heç cənnətdə də bundan artıq səadətə qovuşmaq olmaz!..

Amma bu təntənədən bəxtiyar olan, qanad açıb uçan yalnız mən deyildim. Süfrə arxasında oturmuş, bizim çoxmillətli şəhərimizin əsil milli mənzərəsini təşkil edən müəllimlərim elə ucadan danışıb gülürdülər ki, uşaqlar onların yanında toya getməliydi. Atamın tez-tez coğrafiyaçı Afonyaya yaxınlaşması, manqalın üstündən götürdüyü şiş-şiş kababı onun boşqabına boşaltması gözümdən yayınmadı. Və mənə elə gəldi ki, heç nəyin fərqinə varmayan, sadəcə, atamın nəzakətindən məmnun qalan Lyubov Afanasyevna isti quzu, ağ balıq tikələrini çeynəmir, birbaşa udur.

Baxışlarımız toqquşanda atam mənə göz vurub gülümsədi; bu isə o demək idi ki, hər şey yadımdadır və neynədiyimi bilirəm. Məni fikir aldı. Doğrudanmı, atamın sinif yoldaşlarımın qarşısında yaratdığı bu təntənə, bu dəbdəbəli məclis çox incə şəkildə, yaramaz coğrafiyaçıdan qisas almaq üçündür? Sanki məni bu nigarançılıqdan qurtarmaq üçün atam müəllimlərimə yan aldı və əllərində raketka tutmuş əmim qızlarını nişan verib soruşdu:

-Bəs siz mədəni istirahətə necə baxırsınız? Badminton oynamaq istəmirsiniz?

-Biz onsuz da mədəni istirahət eləyirik, -Afonya ağzındakı tikəni udandan sonra razılıqla cavab verdi və atam yenə də mənə sarı çönüb gülümsədi. Mən də borclu qalmadım, atama bir "hava öpüşü" göndərdim. Axı, bu dünyada kimin belə qüdrətli atası var? Əhsən, atacan!

Mən xoşbəxtcəsinə gülümsəyir və çox sevilən bir uşaq mahnısını zümzümə eləyirdim: "K sojaleniyu, den rojdeniya, tolko raz v qodu". Amma mən mahnını oxuyub başa çıxmamış Azər məni səslədi:

-On dəqiqədən sonra gələrsən tut ağacının altına.

Tut ağacının altına gələndə gördüm ki, Azər boynundan gitara asıb. Məni görən kimi oxumağa başladı:

-Əqrəb bürcü altda doğulmusan sən

Səni illər boyu axtarmışam mən.

Toyumuzdan sonra mənə ürəkdən

Cumbulu əqrəblər əta edərsən.

Mən həyəcandan yerimdəcə donub qaldım.

-Özündən qoşmusan?

O, təmkinlə cavab verdi:

-Yox, təsadüfən eşitmişəm, yadımda qalıb.

Mən Azərə elə bağlanmışdım ki, nədənsə çəkinməyə ar eləmirdim, ona görə də nə ilə nəticələnəcəyinin fərqinə varmadan ona belə bir sual verdim:

-De görüm, sən neçə cumbulu əqrəb istəyirsən?

O, inamsız cavab verdi:

-Bilmirəm, yəqin ki, ikisini.

-Azdı! -Mən bu işdən başı çıxan adam kimi dilləndim, -gərək qızın bacısı, oğlanın da qardaşı ola.

O, məni dərhal anladı:

-Sən deyən olsun, -dedi, -dörd deyirsən, qoy dörd olsun...

Biz Azərlə payızın öz naxışlarını vurub saraltdığı çəmənlikdə yanaşı oturub laciverd göylərə baxırdıq və oyunbazın gitara çala-çala sinif yoldaşlarıma qoşulub oxuduğu vətənpərvər mahnılara qulaq asırdıq.

Широка страна моя родная,

Много в ней лесов, полей и рек.

Я другой такой страны не знаю,

Где так вольно дышит человек.

От Москвы до самых до окраин,

С южных гор до северных морей

Человек проходит, как хозяин

Необъятной Родины своей...

Azər bu misraları bədahətən tərcümə edəndə isə mən onun daha bir istedadını kəşf elədim:

-Ucsuz-bucaqsızdır bu vətən mülkü,

Meşələr tamaşa, dəryalar - ümman.

Mən elə məmləkət tanımıram ki,

Bunca azad nəfəs alaydı insan.

Moskvadan ucqar ellərə doğru,

Güney dağlarından dənizlərədək

Keçir iftixarla hər vətən oğlu,

Vətənin yiyəsi, sahibkarı tək.

Daha sonra oyunbazın dınqıllatdığı gitaranın sədaları altında uşaqlar elə bir pioner nəğməsini oxumağa başladılar ki, o mahnıda həm dünənimiz, həm də gələcəyimiz-əxlaqımız, tərbiyəmiz öz əksini tapmışdı. Bilirdik ki, yeddi yaşından oktyabryatıq - dahi Leninin nəvələriyik, on bir yaşından pionerə keçirik, oluruq Lenin pioneri, sonra da Lenin komsomolu sıralarında sınanıb kommunistlərə qarışmalıyıq. O pioner mahnısında da bütün bunlar tərənnüm olunur, yada salınırdı.

Мы - пионеры Советской Страны,

Нас - миллионы,

Родине, Партии славной верны

Наши знамёна.

Заветы Ленина храним мы с честью,

Идём за Партией с отцами в ряд!

Наша дружба вовек нерушима,

И костры наши ярко горят!

Мы идём за дружиной дружина,

Мы идём за отрядом отряд!

Yəni:

Sovet Yurdumuzun pionerləri;

Milyonlarıq biz.

Şanlı partiyamız, Vətən elləri,

Sizlərə üz tutan bayraqlarıq biz!

Lenin amalları yadigarımız,

Atalarla birgə addımlayırıq.

Sarsılmaz heç zaman düz ilqarımız,

Alışıb nur saçır tonqallarımız,

Bir vurur nəbzimiz, ürəyimiz də,

Gedirik səfbəsəf, dəstəbədəstə!

## XVIII FƏSİL

Azərin ad günündən sonra bizim həyatımızın altını üstünə çevirən o nisgilli 1988-ci il başladı. Fevral ayında səsi çıxan hadisələrin əks-sədası ucsuz-bucaqsız Sovetlər ölkəsinin hər bir sakinini düşünməyə vadar elədi. Dağlıq Qarabağ ermənilərinin tələbi çoxlarına gülməli gəlsə də, bu həqiqət idi. Ermənilərin harayına Krım tatarları da səs verdilər. Sonra milli zəmində münaqişələrə meydan açan, yüz minlərlə insanın məhrumiyyəti ilə sonuclanan dəhşətli hadisələr Moldaviyaya, Cənubi Osetiyaya, Abxaziyaya, Şimali Qafqaza yayıldı. Sovet beynəlmiləlçiliyinin ilğımı söndü və Sovet quruluşunun yeni təlxəyi demokratiyadan, yenidənqurmadan dəm vurduqca, bütün dünyanın sarsılmaz zənn etdiyi imperiya cırıltıyla şırımlandı.

Parçalanaraq ayrı-ayrı etno-siyasi dəstələrin kütləvi çıxışlarının meydanına çevrilən dövlətin aqibəti təəssüf doğururdu. Ölkəni hissələrə parçalamışdılar, əsas diqqət isə millətçi ünsürlərin çaldığı havaya oynayan, azərbaycanlıları düşmən sayan ermənilərlə üz-üzə qalmış Azərbaycana yönəlmişdi. Ekonomik maskalar altında, reforma tələbi ilə çıxış edənlər daha sonra qədim Azərbaycan torpaqlarının başqa bir dövlətə- qonşu Ermənistana birləşdirilməsini irəli sürdülər. Ehtiraslar işıq sürətilə öz məcrasından çıxırdı və Ermənistandakı qohumları və Qərbdəki erməni diasporları tərəfindən qızışdırılan Qarabağ erməniləri vilayətin Azərbaycanın tərkibindən çıxarılması üçün referendum tələb edəndə, Bakıda yaşayan yüz minlərlə erməni qorxusundan nə edəcəyini bilmirdi. Əslində də ən çətin vəziyyətə onlar düşdülər: bir tərəfdən, qonşu

respublikadakı qohumları onları satdılar, onlara xəyanət elədilər, faktiki olaraq onları öz siyasi məqsədlərinin girovuna çevirdilər, digər tərəfdən, həmişə onlara yaxın qonşu "kirvə" kimi yanaşan azərbaycanlıların qəzəbini, kinini duydular və anladılar ki, azərbaycanlılar Ermənistanın və Qarabağ ermənilərinin Azərbaycana vurduğu yaraların qisasını onlardan ala bilərlər.

Bizim etnik kökü qarışıq olan ailəmiz diqqət mərkəzində idi. Qohumlar və tanışlar bizə gəlirdilər ki, xoş sözlərlə valideynlərimə təsəlli versinlər, həmrəylik nümayiş etdirsinlər. Atam çox çətinliklə də olsa, özünü ələ almağa çalışırdı. Xristofor babamın beli bükülmüşdü, yumağa dönmüşdü. İbrahim babam ona ürək-dirək verdi:

-Xosrov, mən hələ ölməmişəm ki,-dedi,-sən kimdənsə qorxasan?

-İbrahim can, mən özümə görə qorxmuram, - dedi, - məni qorxudan uşaqların taleyidi. Necə olacaq bunların axırı? Amma işlər belə getsə, biz gərək köçək. Demək asandı. Amma mən başqa yerdə necə yaşayacam? Yox, yox, deməyimə baxma, mənim bu şəhərdən ancaq meyidim çıxa bilər, - Xristofor babam yana-yana dedi, -bütün aləmi qarışdıran o mənfur daşnaklardı. Bilmirsən kimə arxalanırlar, bu vicdansızlar?

-Bilmirsən kimə arxalanırlar, ay Xosrov? -İbrahim babam dedi, -doğrudanmı sən bunu başa düşmürsən? Qafqazda heç bir xalq ermənilər kimi axmaq şöhrətə malik deyil. Hələ bir sən də soruşursan ki, onlar kimə arxalanır? Əlbəttə, ruslara! Ruslar əvvəlcədən onların törətdikləri əməllərə göz yummasaydı, onlar bu dərəcədə cızıqlarından çıxa bilərdilər?! Balıq başdan iylənir. Əgər Moskva ermənilərin Azərbaycana qarşı əsassız tələbinə dərhal münasibət bildirsəydi, onlara öz yerini tanıtsaydı, indi biz də burda rahat oturmuşduq, sakitcə yaşayırdıq, həmişə olduğu kimi. Amma Mərkəz onların qanlı hadisələrə gətirib çıxaran alçaq əməllərinə barmaqarası baxır. Budurmu bizim haqqımız? Gör bir ömrümüz boyu kimə xidmət etmişik?!

-Bu düzdür, İbrahim can, amma yalnız Mərkəzi günahkar çıxartmaq olmaz, -Xristofor babam cavab verdi, -bəyəm ruslar onlara demişdilər ki, qiyam qaldırsınlar? Yox, seperatçılıq daşnakların başlıca niyyətidir, onlar həmişə altdan-altdan öz işlərini görürlər və həmişə siyasi məqam gözləyirlər ki, öz məqsədlərini həyata keçirsinlər. Məni ən çox yandıran odur ki, əsrin əvvəllərində azərbaycanlılarla ermənilər arasına vurulan yaranın qaysağını yenidən qopartdılar, yenidən o yaranı qanatdılar, -Xristofor babam hönkürüb ağladı, - hər şey unudulmuşdu, qardaş kimi yaşayırdıq. Bu ağılsız davanı yenidən başlamaq bu yaramazların nəyinə lazımdı, görəsən? Doğrudanmı onlar anlamırlar ki, əzab və işgəncə əsrlər boyu yaddan çıxmır? Bəyəm onlar anlamırlar ki, bu faciənin masştabı nə qədər böyüyə bilər? Gorun çatlasın, ay Stalin! Sağ olsaydı, bir göz qırpımında bu münaqişəyə son qoyardı, amma belə görünür ki, Qorbaçova bu münaqişəni qızışdırmaq sərf eləyir...

Qreta nənəm isə dizinə vururdu və başını bulaya-bulaya deyirdi:

-Belə də müsibət olar! Bəs biz nə edəcəyik?! Rubençik də daha bizə zəng eləmir.

-Şan dığa, -Xristofor babam dayımın qarasınca dedi, -Eşşək anqırar, tayını tapar... Bizi tamam unudub, özünü yad kimi aparır, elə bil anlamır ki, bizi burda hansı təhlükə gözləyir...

O dəhşətli günlərdə Azər hər gün məktəbə gəlirdi ki, məni qarşılayıb evə aparsın. Rəfiqələrimin mənə paxıllığı tuturdu, axı onların heç birisinin belə "təmkinli" müştərisi -"kavaleri" yoxdu.

-Sən heç yana getməyəcəksən, Balaca, heç yana! -Azər inamla dedi, əslində, heç mən də harasa getmək barədə fikirləşmirdim.

Mən hələ baş verən faciələrin mahiyyətini axıracan dərk eləmirdim, ona görə də mənim haçan gedəcəyimi soruşanda təəccüblənirdim?!

-Axı, nə üçün mən harasa getməliyəm?

O narahat, həyəcanlı günlərin birində atamın təkidilə anam işdən çıxdı.

-Sənin ünvanına bir ehtiyatsız söz desələr, sənə hardasa kəm baxsalar, bu bizim ailəmizə ömürlük ləkə olar, -atam anamı inandırmaq üçün dedi -mən necə rahatlıq tapa bilərəm ki, sənin bütün ətrafın, iş yoldaşların ermənilərin vəhşiliyindən danışır, sən də ağzına su alıb susursan, guya bütün bu fəlakətlərin baiskarı sənsən.

Anam da öz növbəsində atamı inandırdı ki, "fiktivnı" boşansalar yaxşı olar.

-Hər ehtimala qarşı bu lazımdı, əzizim, -anam dedi, -Aidanın xətrinə lazımdı, kim bilir sabah nə olacaq?

-Sabah heç nə olmayacaq, -atam cavab verdi və mənə elə gəldi ki, bu söz sadəcə təsəlli üçündü, çünki anamın eyni məzmunlu növbəti təklifindən sonra razılaşdı.

-Ehtiyat heç zaman zərər gətirməz!..

Bu da o arada anamın dilindən çıxan sözdü.

Məktəbdə dərslər öz əhəmiyyətini itirdi, müəllimlər işə ona görə gəlirdilər ki, günlərini keçirtsinlər və göstərsinlər ki, onlar hələ öz borclarını yerinə yetirirlər. İlk dəfə bizim beynəlmiləl sinfimizdə açıq, nümayişkaranə şəkildə şagirdlər dəstə ilə oturmağa başladılar: bir tərəfdə azərbaycanlılar, digər tərəfdə fağır, misgin görkəm almış ermənilər. "Yerdə qalanlar" bu "parçalanmada" neytral mövqe tutdular. Mən də tatar, rus,

yəhudi, gürcü, ləzgi xalqlarının nümayəndələrini birləşdirən bu "neytral"lara -"yerdə qalanlara" qarışmalı oldum, çünki məni nə azərbaycanlılar, nə ermənilər öz aralarına buraxmadılar.

-Aidanın metrikasını dəyişmək və onu başqa məktəbə keçirmək lazımdır, -anam dedi, -bu vacib məsələdir, təcili həll etməliyik, sonra gec olar...

Mən anamın atama təkidlə dediyi bu sözdən kövrəldim:

-Mən öz doğma məktəbimdən heç yana getməyəcəm!

Amma çox keçmədi, mənim doğma məktəbimdə münasibətlər o dərəcədə gərginləşdi ki, mən özüm də hiss elədim ki, daha burda mənə yalnız divarlar doğmadı. Sevimli müəllimlərimiz bir-birinin ardınca tez-tələsik öz mənzillərini sataraq Bakını tərk edirdilər. Sinif yoldaşlarımın bir qismi də ata-anaları ilə ucsuz-bucaqsız ölkəmizin ayrı-ayrı guşələrinə yola düşmüşdülər. Amma mənə ən çox yer eləyən, pərəstiş etdiyim sinif rəhbərim Yevgeniya Lvovna Ambartsumovanın Bakını tərk etməsi oldu. Çünki o, milliyyətcə erməni olsa da, əsil beynəlmiləlçi, sözün tam mənasında demokrat və köklü Bakılı idi. Dağlıq Qarabağ hadisələri onu sarsıtmışdı, bilmirdi neynəsin? Sonda isə, bütün erməni həmkarlarına üz tutdu: onlara yalvardı, xahiş elədi ki, erməni millətçiliyinə qarşı əlbir olub imza toplasınlar, amma sezəndə ki, onu başa düşməyənlər daha çoxdur, məyus oldu və o da köçmək qərarına gəldi. Elə o ərəfədə də bizim sinfin uşaqlarını başına cəm eləyib qüssə ilə dedi:

-Mənim əzizlərim, mən sizinlə vidalaşıram. Mən Stavropola-bacımın yanına köçürəm. Mən daha bu xalqın gözünə dik baxa bilmirəm. Mən bu qarışıq günlərdə müəllim adını doğrultmayan, əksinə, ara qızışdıran həmkarlarımın əvəzinə, xəcalət çəkirəm. Bu münaqişədə bütün Bakı erməniləri birləşib ləyaqət göstərməli idilər: millətçilərə, separatçılara "Yox!" deməliydilər, yalnız o zaman məsələni yoluna qoymaq olardı...

## XIX FƏSİL

Ölkədə başlanan anarxiya əhalinin o günə qədər görünməyən mühacirətinə meydan açdı. Sovet İttifaqında, xüsusən də antisovet Rusiyasında xor baxılan, lağa qoyulan yəhudilər yenidənqurma dalğasında "xalqlar həbsxanası"ndan xilas olmağa, nəhayət ki, öz doğma vətənlərinə qovuşmağa fürsət tapmışdılar. Çoxmillətli Sovet xalqı anlamağa başlamışdı ki, onların güvəndiyi Kommunist partiyası və hökumət daha ən adi insan hüquqlarını belə müdafiə etməyə qadir deyil. İnsanlar o yerə can atırdılar ki, orda onun həyatı üçün təhlükə olmasın. Bakının küçələrində, xüsusən Bakı vağzalının ətrafında Ermənistandan qovulan azərbaycanlıların ilk dəstələri çadır qurmuşdular, çadırlarda yaşayırdılar. Və bu, təbii ki, ehtirasları qızışdırırdı, insanlar ya ev dəyişməyə, ya ev satmağa can atırdı və beləcə, beynəlmiləl ənənələri ilə zaman-zaman öyünən Bakı qeyri-adi günlər yaşayırdı.

Məni diri-diri yandıran, ürəyimi partladan isə Qreta nənəmlə Xristofor babamın köçməyə hazırlaşmaları idi. Qəti şəkildə bildirdilər ki, Yerevana-oğullarının yanına getməyəcəklər. Mənə elə gəldi ki, bu addımın atılması da anamla mənim xətrimədir, məqsəd budur ki, biz onların yanına istənilən vaxt gəlib-gedə bilək, amma indi anlayıram ki, bu "qardaş" respublikada cızığından çıxarılmış qohumlara qarşı özünəməxsus etiraz aksiyası imiş.

-Nə üçün ermənilər əvvəllər Bakıda sakitcə yaşaya bilirdilər, amma indi yox?

Neçə gündən bəri məni düşündürən bu sualı Xristofor babama da verdim. O, əsəbi halda:

-Ona görə ki, ermənilər yenə də insan qanına susayıblar,-dedi, -ağrımayan yeri qaşıyıb, qaşıyıb qanatdılar, dünyanın bu düz vaxtında bizi də işə saldılar. Tfu! Soruşdum:

-Bəs buna səbəb nədir? Axı onlar azərbaycanlılarla çox mehriban idilər?

Xristofor babam yanıqlı-yanıqlı içini çəkdi. Qreta nənəm isə:

-Görünür, bu mehribançılıq üzdə imiş, - dedi, - görünür, daşnaklar sadə, zəhmətkeş ermənilərin də ürəyində azərbaycanlılara qarşı kin oyada biliblər. Millətçi virusu bütün milləti zəhərləyib. Onlar ilan kimidilər, fürsət gözləyirlər ki, zəhərlərini töksünlər.

Babam, nənəm çox dedilər, çox söyləndilər, amma bir məsələ mənə yenə də qaranlıq qaldı: nədən bu hadisələr qəfildən başlandı? Mən bu sualı dilimə gətirəndə isə Qreta nənəm söylədi ki, zaman-zaman erməni millətçiləri bu iki xalqı bir-birinə qarşı qaldırıblar. Mən nənəmin sözünü sualla kəsdim:

-Axı, nəyə görə?

Nənəm bu suala cavab vermədi. Amma:

-Bu çoxdan belədir, - dedi, -bir çox erməni ailələri əsil simalarını gizlədərək övladlarını azərbaycanlılara qarşı nifrət ruhunda tərbiyə eləyirlər ki, yeri düşən kimi onlar öz düşmənlərini sancsınlar.

Qreta nənəm birdən-birə gülümsədi və söhbəti bir qədər başqa məcraya yönəltdi:

-Yadıma Bakının "Neftçi" və Yerevanın "Ararat" komandaları arasında futbol oyunu düşür, onda sən doğulmamışdın. Biz Xristoforla Allaha dua eləyirdik ki, bu yarış heç-heçə qurtarsın, çünki "Neftçi" qalib gələndə erməni uşaqları başlayırdılar xuliqanlığa, şəhərə çaxnaşma salmağa və iş o yerə gəlib çatırdı ki, işə milis qarışırdı.

Maraq xatirinə soruşdum:

-Bəs babam Xristofor hansı komandaya azərkeşlik eləyirdi?

Nənəm kəsə cavab verdi:

-Dostluğa.

-Bunlar çoxdan yaddan çıxıb, nənə, -dedim, - bəs indi niyə sizə elə gəlmir ki, bu günlər baş verən hadisələr də unudulacaq?

Nənəm doluxsundu:

-İndi ermənilər o dərəcədə azğınlaşıblar ki, - dedi, -köhnə qonşuluğu bərpa etmək, ermənilərin törətdikləri vəhşilikləri unutmaq üçün əsrlər lazımdı, elə bu səbəbdən də bizim getməyimiz məsləhətdi, burda qızara-qızara, qorxu, təlaş içində yaşamağın nə mənası var? Mən ən çox Karinaya, sənə görə qorxuram.

Atam isə mənim sualımı bir qədər başqa cür qarşıladı:

-Bu hadisələrin arxasında böyük siyasi oyunlar gedir, - dedi, -o ki qaldı ermənilərin ərazi iddiasına, ola bilər ki, onlar yenə də qazansınlar və "ağlaşma" qurmaqla öz siyasi sınırlarını genişləndirsinlər; bu milli isteriyanın arxasında da, əslində, bu niyyət durur. Bu səbəbdən də bizim ümidsizliyə varmağımız məntiqi cəhətdən əsaslıdır.

Atam öz dostlarına xəbər yolladı ki, anamın valideynlərinə Moskvada yaxşı bir mənzil soraqlaşsınlar. Atamın yaxından köməyi sayəsində onların Zavağzalnidəki mənzilinə müştəri tapıldı, amma hələ Moskvada ev məsələsi həll olunmadığından, Xristofor babamla Qreta nənəm bizim evdə məskunlaşdılar. Onsuz da

onlar son zamanlar bizimlə qalırdılar, amma bu zaman kəsiyi şadlıqdan, şadyanalıqdan məhrumdu. Onlar son dərəcə məyusdular, hərdən saatlarla dinib-danışmır, susurdular. Aradabir anam danışırdı, amma əsas məsələ haqqında yox, elə bil valideynləri heç yana köçməli deyildilər.

Atamın dostları Moskvada mənzil soraqlaşanda məlum olmuşdu ki, Xristofor babamın Zavağzalnidəki mənzilinə görə aldığı pul heç Moskvada ailə yataqxanasında bir otaq almağa da bəs eləməz, ona görə də Moskvada alınan evə əsas vəsaiti atam qoymuşdu və anam da bundan mütəəssir olmuşdu. Atam üzünü anama tutub:

-Özünü ələ al, sən niyə fikir eləyirsən? - dedi, -sən hesab elə ki, mən pulumu paytaxtda daşınmaz əmlaka vermişəm və bu para heç zaman bata bilməz, ikincisi də, həmişə arxayın olacaqsan ki, qızının Moskvada yaşamağa yeri var, özün üçün də rahat olacaq Moskvaya gedib-gələndə.

Amma tezliklə mənə məlum oldu ki, anamı narahat edən vicdanıdı, çünki atam Moskvada Xristofor babamın adına alınmış mənzilə bütün yatırını - "ehtiyatını" qoyduğu halda, onun Yerevanda yaşayan doğma qardaşı öz valideynlərinin taleyinə tamamilə biganə idi. Anam telefonla ona öz narazılığını bildirəndə isə o, çox sərt tərzdə:

-Mən onlara təklif etdim ki, gəlsinlər mənim yanıma, - dedi, - amma etiraz etdilər.

Bu hadisədən sonra atam anama Yerevana zəng vurmağı qadağan elədi.

-Bu zənglər izlənilib qeyd olunur, - dedi, -biz bunun altını çəkə bilərik. Başa düş: sənin qardaşın uzaqdadır, amma mən yanındayam, buna görə də sənin valideynlərinin qayğısına mən qalmalıyam, bu mənim borcumdu.

## XX FƏSİL

Zavallı babam Xristofor gözümüzün qabağında şam kimi əriyirdi, o, köçmək söhbəti ilə heç cür barışa bilmirdi. Günlərlə pəncərənin önündə əyləşirdi, kim bilir nələr fikirləşirdi, amma hərdən dərindən ah çəkirdi. Ola bilsin ki, onu və ailəsini nə gözlədiyi ürəyinə dammışdı. Axı, o - mənim bədbəxt babam Xristik Bakını tərk etmək istəmirdi...

Heç ona Moskvaya köçmək qismət olmadı. Ona görə qismət olmadı ki, onların Moskvaya uçmasına üç gün qalmış işdən qayıdan Həsən əmim titrək səslə, ağappaq ağarmış halda evə gözlənilməz bir xəbər gətirdi; hamının yanında bildirdi ki, bəs respublikanın mərkəzi qəzeti erməni terror təşkilatı "Krunk"un fəaliyyəti barədə yazı çap eləyib və o materialda da mənim dayım Rubenin adı "Krunk"un ən fəal üzvləri sırasında çəkilir. Və mənim zavallı babam Xristofor bu xəbərdən necə sarsıldısa, səhərə sağ çıxa bilmədi, gecə ürəyi partladı və keçindi...

Onu təmtəraqsız, heç kəsə bildirmədən, xəlvətcə dəfn elədilər. O günlərdə tək-tək adam ola bilərdi ki, erməni qəbiristanlığına açıq-aşkar, izdihamla meyid aparsın, çünki bu çox qorxulu nəticələr verə bilərdi. Təxmin olunan nəticələrlə üzləşməmək üçün milislər gecə-gündüz erməni qəbiristanlığının ətrafında keşik çəkirdilər, amma buna baxmayaraq, varidatı yağmalanıb, Ermənistandan qovulan azərbaycanlı qaçqınlar da bu həndəvərdə tez-tez dolanırdılar ki, bəlkə əllərinə bir erməni keçdi. Bu o günlər idi ki, Azərbaycan ictimaiyyətinin nümayəndələri kütləvi informasiya vasitələrində yazırdılar ki, əgər taktiki və hüquqi cəhətdən muxtariyyətə malik olan Qarabağ erməniləri öz narazılıqlarını ifadə edərək, daha böyük hüquqlar tələb edirlərsə, bəs onda Ermənistanda kompakt halında yaşayan, amma heç bir hüquqi təyinat sahibi olmayan azərbaycanlılar niyə öz iddialarını irəli sürmürlər, nə üçün muxtariyyət istəmirlər? Niyə bu onların ağlına gəlmir? Bu və buna bənzər qəzet yazıları, çıxışlar erməniləri dərhal qıcıqlandırdı. Ermənistan vətəndaşı olan yüz minlərlə azərbaycanlı ölüm hədəsi altında bir günün içində öz ata-baba torpaqlarından qovulub çıxarıldı və məcburi köçkünlərin bu yeni dalğası bütün Bakını çalxaladı. Ermənilər öz yuvalarını tərk etmək istəməyənlərin başına min bir oyun açmışdılar, nələri varsa əllərindən almışdılar və onlar görəndə ki, soydaşlarını günün günortasında döyə-döyə, vəhşicəsinə öldürürlər və hüquq-mühafizə orqanları da buna göz yumur, canlarını götürüb qaçmışdılar. Onların danışdığı hadisələri hərdən mənim də qulağım çalırdı və mən təsəvvür edə bilmirdim ki, canını götürüb qaçan qıza, gəlinə, qocaya, uşağa necə atəş açmaq olar? Təqiblərdən xilas olanların bir qismi Qarabağa üz tutmuşdu ki, burda sığınacaq tapsınlar. Amma bu da onlara müyəssər olmamışdı. Əslində, bu mürəkkəb vəziyyətdə bu ən düzgün çıxış yolu idi; Ermənistandan pərən-pərən salınan azərbaycanlıları Qarabağda yerləşdirmək və bununla da mövcud problemlərin üstündən xətt çəkmək! Çoxları bu fikirdə olsa da, Azərbaycanın o zamankı rəhbərliyi bunu məqbul saymadı. Kremli razı salsın deyə, ağciyərlik edən hökumət imkan vermədi ki, azərbaycanlı qaçqınlar Qarabağda məskunlaşsınlar, bu insanları taleyin ixtiyarına buraxdılar, qəzavu qədər onları Bakıya gətirdi, bu iki milyonluq beynəlmiləl şəhər isə beynəlmiləlçiliyin ilğımdan başqa bir şey olmadığını gözləri görən bu insanları qəbul etmək iqtidarında deyildi. Respublika hökuməti var-yoxdan çıxmış hər qaçqına fidyə kimi əlli manat nağd yardım etməklə öz işini bitmiş saydı. Beləcə, hökumətdən qayğı, mərhəmət görməyən, əksinə, alçaldılan və təhqir edilən insan kütləsi şəhərdə yalnız bir məqsədlə dolaşmağa başladı: qisas almaq...

Əlbəttə, belə bir zamanda açıq-aşkar erməni qəbiristanlığına getmək, orda kimi isə dəfn etmək son dərəcə ağılsızlıq olardı. Dövlət aparatında işləyən atamın və əmimin orda görünməyi isə daha təhlükəli idi; deyilənə görə, nəinki erməni qəbiristanlığında, hətta erməni kilsəsində də mülki geyimli kəşfiyyatçılar fırlanırdılar ki, Azərbaycan torpağında yaşaya-yaşaya ikiüzlülük edən satqınları, provakatorları üzə çıxartsınlar.

Qapqara geyinmiş, dərddən-qəmdən son günlər şam kimi ərimiş anam qorxu və həyəcan içində səsini qaldırdı:

-Bəs indi biz neynəyək?

Atam dinməsə də, Həsən əmim etiraz səsini dərhal ucaltdı:

-Erməni qəbiristanlığına getmək çox təhlükəlidir!

Anam yenə heyrət və təəccüblə dilləndi:

-Belə çıxır ki, mən öz atamı dəfn edə bilməyəcəm?

Qreta nənəm isə susurdu. Xristofor babam keçinəndən sonra o, ümumiyyətlə, ağzına bir kəlmə söz almamışdı, sanki nitqini itirmişdi. Atam da başını aşağı salmışdı, susurdu, amma birdən-birə:

-Yox, əlbəttə ki, biz Xristofor dayını dəfn edəcəyik, amma bizim qəbiristanlığa getməyimiz təhlükəlidi, -dedi, -mən elə adamlar tapacağam ki, bu işi necə lazımdı başa çatdırsınlar, elə adamlar da var, puluna minnət.

Və birdən bayaqdan bəri susan İbrahim babamın qətiyyətli və amiranə səsi eşidildi:

-Heç kimə ağız açmaq lazım deyil! Onu son mənzilə özüm yola salacam! Amma bir şeyə yanıram ki, onun cənazəsinin altına öz oğlu girə bilməyəcək... O, qəbiristanlığa öz oğlunun çiynində getməyəcək...

Həsən əmim etiraz etmək istəsə də, İbrahim babam onu ağzını açmağa da qoymadı.

-Mən onun meyidini yad adamlara tapşıra bilmərəm! -dedi, -o, mənim qudamdı, neçə il çörək kəsmişik, duz dadmışıq, indi deyirsiz mən dovşan kimi gizlənim? Kimin nə haqqı var mənə nə isə deyə?

Babamın bu sözündən ruhlanan anam:

-Çox sağ ol, ata! -dedi, -Mən də sənnən gedəcəyəm!

O, babamın qarşısında diz çöküb əllərindən öpməyə başladı. Atam başını bulaya-bulaya arabir dərindən köks ötürsə də dinmirdi, sanki hiss eləyirdi ki, anamı niyyətindən döndərmək ona müyəssər olmayacaq... Atam hələ onu da bilmirdi ki, Xristofor babamın cənazəsini son mənzilə aparanlar arasında anamdan başqa da qadınlar olacaq və o, bu izdihamın önündə aciz qalacaq.

XXI FƏSİL

Yəqin ki, Bakı şəhəri heç vaxt belə qeyri-adi dəfn mərasiminin şahidi olmamışdı. İrəlidə İbrahim babam gedirdi, arxasınca da Azər. O, arabir meyidi aparanlara da kömək eləyirdi. Tabutu çiyinlərinə almış kişilərdən ikisini (atamın və əmimin sürücülərini) tanısam da, ikisi yaddı. Azər özünü bizə yolu yarı eləyəndən sonra çatdırmışdı. Qapıdan çıxanda Nazlı xala onu bizə qoşulmağa qoymasa da, görünür, aradan çıxmağa girəvə tapmışdı. Onların arxasınca gedən anam mənim əlimdən tutmuşdu. Qara geyinmiş Qreta nənəm də, Ruqiyyə nənəm də bizdən geri qalmamağa çalışırdılar.

Qəbiristanlığa yaxınlaşanda insan kütləsi ilə qarşılaşdıq. Bir qədər aralıda milis maşını dayanmışdı. Qəbiristanlığa daxil olmaq istəyəndə onlardan bir neçəsi dəstədən ayrılıb bizə yaxınlaşdılar:

-Kimi basdırmaq istəyirsiniz? Siz kimsiniz? -Bu sualı verənin üzündəki ifadə səsindən daha sərtdi.

Hər halda anamın qorxduğunu hiss elədim, dərhal qulağıma pıçıldadığı sözləri də apaydın eşitdim:

-Ara qarışsa, Azikin əlindən tut, qaçın burdan.

O, tir-tir titrəyən bədəni ilə aranı kəssə də, mən boynumu irəli uzatdım ki, baş verən hadisələri izləyə bilim.

-Bu adamlar kimdi, ay ana?

Anam mənim sualımı cavablandıranda səsinin də titrədiyini hiss elədim:

-Qaçqınlardı...

Mən bilirdim, eşitmişdim ki, Ermənistandan məcburi köçürülən azərbaycanlılara Bakıda məzəli-məsxərəli ad qoyublar: "Yeraz". Yəni Yerevan azərbaycanlıları. Buna görə də anamdan soruşdum:

-Yerazlardı?

Anam incik halda məni süzdü:

-Suss!

İbrahim babam irəli çıxdı və təmkinini pozmadan:

-Mən İbrahim kişiyəm, İbrahim Bağırovam, -dedi, - dostum Xosrovu torpağa tapşırmaq istəyirəm.

Orta yaşlı, bir əli sarıqlı, üzü şıramlı kişi vahiməli səslə, aşkarca sezilən kinayə ilə soruşdu:

-Xeyir ola, İbrahim kişi, sən nəyə görə dostun Xosrovu erməni qəbiristanlığında basdırmaq istəyirsən?

Babam onun cavabını dərhal, təmkinini pozmadan verdi:

-Çünki xristianı müsəlman qəbiristanlığında dəfn etmək olmaz!

Babamın hazırcavablığı ürəyimi dağa döndərdi və mən öz sevincimi anamla, nənəmlə bölüşmək üçün onlara səmt boylananda ağappaq ağarmış, sanki heykələ dönüb daşlaşmış bir sima ilə qarşılaşdım. Elə bil yırtıcıydı. Səsini çıxardanda o, daha amansız, daha qorxulu göründü:

-Nədən bu kişidən soruşmursuz ki, niyə bu xristianın adı Xosrovdur?

Babam yenə də cəsarətlə dilləndi:

-Mən cəbhə dostum Xristoforu əzəldən belə çağırıram.

Amma mən o günə, o anacan elə bilirdim ki, İbrahim babam Xristofor babamın əsil adını unudub, sən demə yanılırmışam...

Qoca, təvərə papaqlı bir kişi babama sarı yeridi:

-Sən erməniyə dost deyirsən?!

Havanın kifayət qədər soyuq olmasına baxmayaraq, bir tiyə köynəkdə var-gəl eləyən arıq, cavan oğlan da səsini qaldırdı:

-Sən necə müsəlmansan ki, erməninin qeydinə qalırsan, özün də bilə-bilə ki, onlar hər gün başımızı toyuq başı kimi kəsirlər?

Cavan görünməsinə baxmayaraq, ağzında nədənsə bir dişi də qalmamış, başı dazlaşmış kişinin səsi o qədər gur çıxdı ki, elə bil boğazında səsgücləndirici yerləşdirmişdilər:

-Doğrudanmı sizin zərrə qədər də vicdanınız yoxdur? Bəyəm siz bilmirsiniz ki, onlar bizi ordan it kimi qovublar? Bəyəm siz bilmirsiniz ki, onlar bizi qovanda burnumuzu, qulağımızı kəsiblər? Gözümüz baxa-baxa ata-babalarımızın gorunu mundarlayıblar?!! Biz Ermənistandan cəhənnəmdən qaçan kimi qaçmışıq, ayaqyalın, qarlı aşırımlar aşmışıq, gözümüz baxa-baxa ağbirçəklərimizi, ağsaqqallarımızı, uşaqlarımızı öldürüblər, amma siz hələ də bunlarla kirvə-kirvə oynayırsız?! Bəs hanı sizin milli heysiyyətiniz?

Hiss olunurdu ki, bu çıxışlar, bu çağırışlar qəzəblənmiş kütləni anbaan haldan çıxardır. Daha ağız deyəni qulaq eşitmirdi. Hiss olunurdu ki, onlar addım-addım bizə yaxınlaşırlar. Amma İbrahim babam yenə də təmkinini pozmadan dilləndi:

-Xosrov Vətənə sədaqətli xeyirxah bir insan idi. Amma oğlu yaramaz və qorxaq çıxdı. Mən onu son mənzilə yola salmağa borcluyam. Onun məndən başqa heç kimi yoxdur. Ölmüş insanı torpağa tapşırmaq Allahın qanunudur. Atalarımız da deyib ki, qəbiristanlıqdan ölü qayıtmaz!

Təvərə papaqlı kişi bizi nişan verib qorxunc səslə soruşdu:

-Bəs bunlar kimdi? Bəs bunlar niyə sənin arxanca düzülüb?

Babamın vəziyyətdən, şəraitdən asılı olmayaraq, yalan danışdığını görməmişdim və fikirləşirdim ki, görəsən o, yenədəmi öz əqidəsinə sadiq qalacaq? Qreta nənəmə sarı çöndüm və mənə elə gəldi ki, o, bir pa-

yız yarpağıdı, özü də küləklə təkbətək qalmış bir payız yarpağı. Babam anbaan üstümüzə gələn kütlədə heç bir şübhə oyatmamaq üçün bizi düppədüz nişan verdi:

-Bunlar mənim ailə üzvlərimdi, -dedi, - bax bu Ruqiyyə xanım uşaqlarımın anasıdır (maraqlıdır ki, babam bu gərgin anlarda da təmkinin pozmadan, milli-etik çərçivələr daxilində Ruqiyyə nənəmə "arvadımdır" de-mədi), bu da bacısıdır. İradə, bu onun qızı (anamı nişan verdi) Qərinədir, bunlar da nəvələrimdi: Azər və Aida. O ki qaldı bu iki nəfərə, (tabutu çiyinlərində saxlayan kişiləri göstərdi) tanışlarımdı, -dedi, -biri Faiqdi, biri də Şükür.

Dişləri tökülmüş kişi başını bulaya-bulaya qışqırdı:

-Ancaq dəli öz ailəsinə qarşı belə qəsd eləyər, onları təhlükə qarşısında qoyar, -dedi, -ancaq sən dəliyə oxşamırsan, de görək bu nə məsələdi? Sən niyə belə eləyirsən?

Babam da səsini qaldırdı:

-Çünki Allah hər şeyi görür: onları da, bizi də. Belə bir qanun mövcud deyil ki, bütün varlığınla sevdiyin adamı torpağa tapşırmağı sənə yasaq eləsin. Əgər ermənilər belə bir addım atırlarsa, demək Allaha qarşı çıxırlar, indi özünüz deyin, ey iman sahibləri, biz nədən onlara tay olmalıyıq?

Arıq oğlan var səsilə:

-O, bizim başımızı piyləyir, - dedi və yerə əyilib daş götürdü, - bizim dinimizin, imanımızın bura nə dəxli var? Bəyəm biz Ermənistanda ermənilərin başımıza açdığı oyunlara az dözmüşük ki, burda da satqınları-mız bizə tamaşa göstərsinlər, biz də göz yumaq?!

Anam astadan qulağıma pıçıldadı:

-Sən qaç...

Ancaq mən nəinki qaçmaq, heç yerimdən tərpənmək halında da deyildim. Ayaqlarım sözümə baxmırdı. İkincisi də, anam mənə "qaç" desə də, əlimdən elə bərk tutmuşdu ki, az qalırdım qışqıram.

Anam bir də dili topuq çala-çala:

-Tut Azərin əlindən, - dedi, - qaçın burdan!

Kütlənin arasından kiminsə bağırtısı eşidildi:

-Vurun satqınları!!!

İbrahim babam yenə kütlənin qarşısından çəkilmədi. Gözləri hədəqəsindən çıxmış adamlar isə anbaan bizə yaxınlaşırdılar. Aradakı məsafə tamam azalanda, tir-tir titrəyən anam qolunu boynuma salanda, kim bilir, Ruqiyyə nənəm irəli çıxmasaydı, başındakı ağ kəlağayısını açıb araya atmasaydı, nələr baş verəcəkdi? Amma mən o zaman başa düşə bilmirdim ki, Ruqiyyə nənəmin bu hərəkətində nə hikmət var? Nə hikmət var ki, üstümüzə gələn adamlar ayaq saxlayıblar?

Ruqiyyə nənəm kövrək, amma zabitəli səslə:

-Ağlınızı başınıza yığın, qardaşlar, - dedi, - Siz nə etmək istəyirsiniz? Kimə əl qaldıracaqsınız? Mənə, bu qoca kişiyə, ya bu uşaqlara? Allahdan qorxun! Ölünü qəbiristanlıqdan qaytarmazlar!

Nənəmin bir tikan kolunun üstünə düşən kəlağayısı yellənirdi və elə bil anbaan üz-üzə dayanmış "qüvvələr" arasında keçilməz sınıra, sərhəddə çevrilirdi. Nənəm özü də bizdən aralanıb ortalıqda dayanmışdı və onun əzəmətli duruşu yadıma Azərbaycan xalq dastanlarından tanıdığım əfsanəvi qadın qəhrəmanları - Nüşabəni, Nigarı salırdı.

Mənə sonralar bəlli oldu ki, Azərbaycan ənənələrinə görə, qadının başından açıb düşmən tərəflərin arasına atdığı yaylıq tam sülhə təminat verməsə də, o anda münaqişəyə son qoyur. O anda gördüklərim isə möcüzə idi; demək, dünyada üz-üzə gələn qüvvələrin qarşısını kəsməyə yalnız bir varlığın qüdrəti çatar! Qadının... Mən yerdə yellənən yaylığa baxa-baxa fikirləşirdim ki, görəsən bu və buna bənzər addımlar dünyada nə qədər qanın qarşısını alıb? Nə qədər qatı düşmən bu yaylığı görəndən sonra vuruş meydanını döyüşsüz tərk eləyib? Mən gözlərimə inana bilmirdim: mən inana bilmirdim ki, on bir yaşımın astanasında qarşılaşdığım bu hadisə, şahidi olduğum bu mənzərə hardasa, haçansa yaşanıb və bir qadının başından açılmış yaylığı nə qədər nahaq qanın qarşısını alıb?

Sanki kütlə bu qadın yaylığının önündə cadulanıb ovsunlandı, insanlar dağılışmağa, yavaş-yavaş aralanıb uzaqlaşmağa başladılar. Və beləcə hadisə yerində insanlar tamam seyrələndə, münaqişə tamam səngiyəndə, hardansa bir milis maşını gəldi və maşından düşənləri deyəsən burdakı sakitlik heyrətə gətirdi. Hətta onlardan biri təəccüblə soruşdu:

-Hər şey qaydasındadırmı?

-Qaydasındadır, - babam kinayə ilə cavab verdi, -Siz də özünüzü həmişə olduğu kimi vaxtında çatdırdınız , çox sağ olun.

Sən demə, bizi daha bir münaqişə də evdə gözləyirmiş. Azərin anası xəbər tutanda ki, oğlu aradan çıxıb, matəm "izdihamına" qoşulub, həyatını təhlükədə qoyub, az qalıb başına hava gələ.

-Azərnən işin olmasın! - İbrahim babam qalmaqalı çox da məcrasından çıxmağa qoymadı, -o sübut elədi ki, bu nəsildə məndən başqa da kişi var! Amma Ruqiyyə xatün olmasaydı, bu gün bu kişilərin də axırına çıxacaqdılar...

Sözün bu yerində atam da, əmim Həsən də başlarını aşağı saldılar. Amma ertəsi gün həmişə hər şeydən xəbərdar olan Azər mənə söylədi ki, o hadisə zamanı atam da, əmim də yaxınlıqda, amma xəlvət bir yerdə dayanıbmışlar ki, kütlə cızığından çıxsa, onlar da ortaya çıxıb bizi müdafiə eləsinlər. Sən demə, onlar o qədər yaxında imişlər ki, hər şeyi eşidirmişlər və Allaha dua eləyirmişlər ki, heç nədən qardaş qanı axmasın.

## XXII FƏSİL

Xristofor babama xeyrat vermədik. Tanışların ehsan barədə, xeyratın harda keçiriləcəyi haqqında ortaya atdıqları suallara anam qeyri-müəyyən cavablar söyləyərək bildirdi ki, guya mərhum özü vəsiyyət eləyib ki, ona xeyrat verməsinlər. Ruqiyyə nənəm, -ölü düşən evdən halva iyi çıxmalıdır, -dedi və halva çaldı. Babamın "üçündə" və "yeddisində" isə axşam anam plov dəmlədi və İbrahim baba bu anım günlərinə ailəmizə ən məhrəm adamları dəvət elədi. Həmin günlərdə mənzilimizin görkəmində də yenilik nəzərə çarpırdı. Bədənnuma güzgünün də, güzgülü servantın da üzünə ağ mələfə çəkirdilər, televizoru, radionu söndürürdülər, hər iki nənəm qara geyinirdi və nə üçünsə, o günlər məni məktəbə getməyə qoymurdular.
Hər şeydə uyğunsuzluq nəzərə çarpırdı. Qonaqlar gəlirdilər, sakitcə otururdular və sakitcə də qalxıb dağılışırdılar. Həyətimizdə yad, tanımadığımız adamlar peyda olurdular və hərdən bütün günü həyətdən aralanmırdılar. Ailəmizdə, demək olar ki, hamının əsəbləri tarıma çəkilmişdi. Xristofor babamın ölümündən düz on gün sonra Qreta nənəm Moskvaya yola düşdü. Sanki onun gedişilə mən yaşa doldum. Əgər sənin baban dünyasını dəyişirsə və sən buna qanunauyğun hal kimi baxırsan, fikirləşirsən ki, bu dünyada -bir gün gələn, bir gün də getməlidir, amma bir də var ki, sənin sevimli nənəni göz yaşları içində -zorla səndən ayıralar... fikirləşirsən, biz bir də haçansa görüşə biləcəyikmi? Görəsən o qərib, qürbət diyarda mənim bədbəxt nənəmi nə gözləyir? Mən indi-indi anlamağa başlayırdım ki, Xristofor babam öz ölümü ilə canını daha böyük acılardan qurtarıb, amma İbrahim babamdan başqa onun haqqında danışan yoxdu.
- Yazıq Xosrov, bədbəxt Xosrov, - İbrahim babam öz dostunu belə oxşayırdı. - o Bakıdan getmək istəmirdi, ona görə də aramızdan getdi ki, bütün məsələləri birdən həll eləsin. Mən onu doğma qardaşım kimi istəyirdim. Nə olsun ki, erməni idi? Kişi adamdı, namuslu, etibarlı, daşnakları da, bizim kimi, görən gözü yoxdu. Hayıf ki, belə nəcib insanlardan nanəciblər də törəyir, neynəyəsən? Kimin ağlına gələrdi ki, Xosrovun Bakıda böyümüş oğlu Yerevana çatan kimi daşnaka çevrilər və bütün aləmi iylədər? Mənə elə gəlir ki, Xosrovu elə onun dərdi öldürdü. Belə bir dərd, şübhə etmirəm ki, hamını öldürər!
Babamın dizi üstündə mürgü vuran Tutu da elə bil öz sahibinin nədənsə narazı olduğunu anlayıb ona çəp-çəp baxdı, amma babam öz fikirlərini bir qədər də uca səslə əsaslandırmaq qərarına gəldi:
- Belə də şey olar, sapsağlam oğlun ola-ola yeddi dağdan o yanda sığınacaq axtarasan? Tək, yalqız qalasan? Bəs o, oğlu nədən ötrü böyüdüb? Əgər bu qoca yaşında da bu oğul ona yiyə durmayacaqsa, onu taleyin ixtiyarına buraxacaqsa, ona oğul demək olarmı? Təsəvvür edə bilmirəm ki, bütün ömrünü Bakıda yaşamış qoca arvad orda necə baş çıxardacaq? Bəlkə də Xosrovun bəxti gətirdi, vaxtında bu dünyanı tərk elədi? Nə biləsən, hər halda heyif Xosrovdan, yazıq, zavallı...
Hətta mən də İbrahim babamın acılarını anlayırdım, axı, onlar sadəcə quda deyildilər, yoldaşdılar, əqidə dostu idilər, hər ikisi Böyük Vətən müharibəsinin əzablı yollarını keçmişdilər. Mən hər iki babamın cəbhə xatirələrinə qulaq asmaqdan yorulmurdum. Onların ikisi də Qızıl ordunun sıralarında Ukrayna, Belorusiya, Latviya, Moldaviya, Rumıniya, Şərqi Prussiya, Polşa, Almaniya kimi ölkələrin torpağına ayaq basmışdılar, "Qızıl ulduz" ordeni, "Qələbə naminə" medalları ilə təltif olunmuşdular və bütün ömürləri boyu saxta kommunist sisteminə, beynəlmiləlçilik təliminə, böyük və qüdrətli Sovet İttifaqının xoş gələcəyinə, utopik ideallara inanmışdılar. Böyük Vətən müharibəsində "Vətən-Stalin naminə" ölümün üstünə atılmışdılar və son nəhayətdə isə anlamışdılar ki, yanılıblar, bu dünyada kor kimi yaşayıblar... Milli və dini ayrı-seçkiliyi qəbul

etməyən, xalqları xüsusi bir millətə çevirən, yüksək əxlaqi dəyərlər üstündə köklənən bir nəslin nümayəndələri idilər və onları da elə bu ideallar doğmalaşdırmışdı. Onlar aza qane olmaqla yaşamağa alışmışdılar və var-dövlət toplamaq barədə düşünməmişdilər. Bir-birini bütün müsbət keyfiyyətləri və çatışmazlıqları ilə qəbul etmişdilər, öz övladlarını dözümlü olmağa öyrətmişdilər, əlbəttə, işıqlı gələcək naminə dözümlü olmağa! Amma ömür boyu xəyallarında yaşatdıqları bu "işıqlı gələcək" onları qoca yaşında qaranlıq bir dünya ilə üz-üzə qoymuşdu. Gün-gündən ağır gəlirdi.

## XXIII FƏSİL

O qorxulu günlərdə qohumlar axşamlar bizə toplaşırdılar. Amma az danışırdılar, daha çox xəbərlərə qulaq asırdılar. Televiziya ilə demokratiya və aşkarlıq pərdəsi altında maskalanmış "Krunk" və "Qarabağ" kimi mühafizəkar təşkilatların başında duranların, milli münaqişəni daha da alovlandıran qorxunc çıxışlarından parçalar səsləndirirdilər. Ekstremistlərin xalqlar arasında yaranmış uçurumu daha da dərinləşdirmək məqsədilə təşkil etdikləri mitinqlər cavanların ürəyində bəd xassəli yoluxucu xəstəliklər meydana gətirmiş, onların hələ bərkdən-boşdan çıxmamış dünyagörüşünə təsir eləmişdi. Millətin "başçıları" öz populist çıxışlarında müəmmalı faktlara istinad edirdilər, mövcud tarixi, iqtisadiyyatı saxtalaşdırırdılar ki, gərginlik bir qədər də şiddətlənsin. Yerevanda Teatr meydanında baş verən hadisələrə cavab olaraq Bakının Lenin meydanında da yüz minlərlə adam toplaşırdı və onlar da bu münaqişənin ədalətli həllini, separatçıların məsuliyyətə cəlb olunmasını tələb eləyirdilər. Amma Sov. İKP MK -nın baş katibi Qorbaçov öz çıxışlarında baş verən qanlı qarşıdurmalardan dəhşətə gəlmiş və ümidsizləşmiş xalqa yalançı vədlər verirdi, əslində isə, laqqırtı vurur, açıq-aşkar ifadəbazlıq eləyirdi:
- Novoye - eto xoroşo zabıtoye staroye!
Həsən əmim sözünün əvvəlini rus dilində gətirdi və sonra da söylədi ki, 1905, 1918-20-ci illərdə ara qarışanda, inqilab tufanları gəlib Qafqaza çıxanda ermənilər eyni ssenari ilə meydana atılıblar. Elə indi də bizim xalqın unutqanlığından istifadə edən erməni "rəhbərlər" sadə xalqın arasına düşmənçilik toxumu səpirlər ki, rusların əli ilə Azərbaycanın daha bir parça torpağını qopartsınlar... Dünyada qloballaşma, inteqrasiya prosesləri gedir, xalqlar, millətlər qaynayıb-qarışır, bunlar da guya "ağıllı" çıxıblar, fikirləşirlər ki, özlərinin müstəsna bir millət olduqlarını necə sübut etsinlər ki, özgələrin hesabına yaşasınlar. Ümumi gücü xeyirxah əməllərə yönəltmək əvəzinə bu acgöz insancıqlar yenə öz köhnə xəstəliklərinə mübtəla olublar; qərarlaşıblar ki, bir zaman Azərbaycanın Sisyan, Qafan, Masis kimi əzəli, ata-baba torpaqlarını "qopartdıqları" kimi indi də Qarabağa "barmaq qoysunlar". Ruslar demişkən, kakov pop-tokov i prixod! Kəndxudanı gör - kəndi çap! Onlar bu biabırçılığı yalnız Qarbaçov kimi bir təlxəyə arxalanıb törədə bilərdilər. Onun yeri siyasət yox, sirkdi. Belə də dövlət başçısı olar?! Biz nə üzlər görməmişik?
Atam da əmimin sözünə qüvvət verdi:
- Bəyəm hakimiyyətə bizim Əliyev gəlsəydi, heç belə biabırçılıqlara yol verərdi? Kremldə ikinci şəxsiyyət o idi, amma hakimiyyətə onu yox, təlxək Mişkanı gətirdilər, niyə? Çünki Əliyev azərbaycanlı idi, Sovet İttifaqının azsaylı xalqlarından birini təmsil eləyirdi. Amma bizim partiya xadimlərimiz Qərbi rasizmdə qınayanda ağızlarına çullu dovşan sığmır. Hələ harasıdı, Qorbaçov onları quru yerdə qoyacaq, xoruzun quyruğu indidən görünür. Qoy dərsinlər əməllərinin bəhrəsini.
Kimsə dinib-danışmasa da, bu söhbətə müdaxilə etməsə də atam kətan kimi ağarmışdı. Arada siqaret çəkmək üçün eyvana çıxdı və tez də qayıtdı:
- İnanın mənə, burdan barıt qoxusu gəlir! - Atam dedi, - ermənilər Qorbaçovu da ələ alıblar, onun acgöz arvadı Raisanı da! Erməni lobbisi boş yerə ona dünyanın ən qiymətli brilyantlarından birini bağışlamayıb ki? Onlar bilirlər, əllərini hara uzadırlar, iştahalanıblar, bu gün Qarabağın davasını eləyirlər, sabah Naxçıvanı istəyəcəklər. Çox maraqlıdır, qəfildən məlum oldu ki, onların pul fondu da var. Bir soruşan da olmadı ki, hardandı bu fond? Belə çıxmırmı ki, rusların adını "Xalq hərəkatı" qoyduğu bu bəla çoxdan düşünülmüş bir ssenarinin bir bölümüdür?! Bəs biz neynəmişik? Susmuşuq, ya da xalqlar dostluğundan dəm vurmuşuq...
Son günlər keçirdiyi sarsıntılardan tamam solub-saralmış anam da söhbətə qarışdı:
- Baxanda adamın ürəyi bulanır, artistdi hamısı, - dedi, - boş yerə Yerevanın mərkəzini Teatr meydanı adlandırmırlar ki?
İbrahim babam da dərindən köks ötürəndən sonra öz sözünü dedi:
- Hə, belə məlum olar ki, bizim qonşularımız ağıllarını tamam itiriblər, nahaq yerə demirlər ki, ağıldan kor olunca, gözdən mayıf olum...
Televiziyanın xəbərləri ermənilərin əsasən son günlər törətdikləri vəhşiliklər haqqında idi. Məlum oldu ki, onlar Şuşaya gedən su kəmərini, Xocalıya gedən körpünü partladıblar, içərisində azərbaycanlılar olan avtobusu girov götürüblər, sərnişinlərin bir neçəsini diri-diri yandırıblar. Ən son xəbər isə nadir ağacları ilə Qırmızı katiba, tarixə düşən Topxana meşəsinə ermənilərin od vurması ilə bağlı idi. Və təbii ki, ermənilər də bilirdilər ki, Qarabağın əfsanəvi hakimi Nüşabə öz qoşunlarını bu meşədə gizlədibmiş ki, Makedoniyalı İsgəndərin qoşununu mühasirəyə alsın. Topxana meşəsinin tarixi önəmi Bakı camaatını şəhərin Leninin adını daşıyan mərkəzi meydanına tökdü. Bir zamanlar bu meydanda ildə iki dəfə nümayiş keçirilərdi; 1 mayda və 7 noyabrda. Son zamanlar, son günlər isə bu meydan demək olar ki, boşalmırdı, hamı dərdinin əlacını burda axtarırdı. Hamını da bir dərd birləşdirirdi. Qarabağ dərdi!

Hadisələr ildırım sürəti ilə inkişaf edirdi. Ermənilər, demək olar ki, hər gün bir insan məskənində qan axıdırdılar. Amma nə üçünsə ermənilərin əməllərinə göz yuman Kreml Yerevanda, Xankəndində yox, Bakıda fövqəladə vəziyyət elan etmək qərarına gəldi. Sovet rəhbərliyinin əmri ilə Bakıda erməni "boevik"lərinin at oynatdığı Qarabağda, Yerevanda yox, məhz Bakıda yanvarın 19-dan 20-nə keçən gecə dinc nümayişçilər güllələbaran olundu. İkili siyasət yeridən Mərkəzin göstərişilə Sovet qoşunları tərəfindən silahsız insanlara - qocalara, uşaqlara, qadınlara atəş açıldı; "rəşadətli" Qızıl Ordunun tankları fərqinə varmadan o gecə harda canlı gördüsə, tırtılların altına saldı, Bakını al qana boyadı.
O gecə Azərbaycan tarixinə Qara Yanvar kimi düşdü. XI Qızıl Ordu meydanında qızıl ordu bölmələrinin o gecə axıtdıqları qanlar, törətdikləri vəhşiliklər bu tarixi ərazinin adını dəyişdi. XI Qızıl Ordu meydanı bayramdan bayrama yada düşürdü, 20 Yanvar xiyabanına isə hər gün əklil qoyurlar. Məhz o gecədən sonra bakılıların ən sevimli istirahət guşəsi -Dağüstü Park nəhəng qəbiristanlığa çevrildi, adını xalq verdi: Şəhidlər Xiyabanı! Azərbaycan matəm içində idi; düşmən isə aşkarca sevinirdi. Erməni millətçiləri azərbaycanlıları Sovet hökuməti ilə üz-üzə qoya bilmişdi, günahsız insanlar sovet əsgərinin nişangahına çevrilmişdi.

## XXIV FƏSİL

Vəziyyətin belə gərginləşdiyi bir zamanda arvadı erməni, arvadının qardaşı erməni terror təşkilatının üzvü olan vəzifə sahibi kim bilir nələr çəkirdi? İbrahim babam həm atama, həm də qardaşının ailəsinə görə hər an təqib, təzyiq gözləyən əmim Həsənə görə həyəcanlanırdı. Atam özü də etiraf edirdi ki, qardaşı ona görə təzyiqə məruz qala bilər, amma o, Qreta nənəmi Moskvaya yola salandan sonra ya bir xeyli yüngülləşmişdi, ya da qəsdən özünü şən, nikbin aparırdı, hər halda hamımız bilirdik ki, bizim ailəni gözləyən təhlükə Ruben dayımın satqınlığı ilə bağlıdır; o, erməni terror dəstəsinə qoşulmaqla bizim ailəyə elə bir ləkə gətirib ki, hamını çıxılmaz vəziyyətdə qoyub. Anam evdə kölgə kimi dolanırdı, bəli, kölgə kimi-səssiz, səmirsiz. Tez-tez məni qucaqlayırdı. Elə o günlərin birində bizim dəmir qapılara yeni qıfıllar saldılar və atam, anam bu barədə heç nə söyləməsələr də, mən dərhal anladım ki, bu nədən ötrüdür? Amma biz özümüz də çalışırdıq ki, evdən çıxmayaq.
Bir dəfə gecə yarı yuxudan oyanmağıma səbəb atamla anamın deyişməsi oldu. Gözümü açan kimi bildim ki, tam anlaşılmayan səslər mətbəxdən gəlir. Mən sakitcə dəhlizlə mətbəxə yaxınlaşdım və açıq qapıdan onlara göz qoymağa başladım. Mətbəx şkafına söykənmiş anam atama elə zəndlə baxırdı ki, sanki onu birinci dəfə idi ki, görürdü. O ana qədər arada nə söhbət olmuşdu, Allah bilir, amma o anda anam soruşdu:
- Düzünü de, erməni qızına evləndiyinə peşman deyilsən ki?
Atam bu suala dərhal cavab vermədi:
- Kişi atdığı addıma görə peşman olmamalıdı, -dedi, -sən yaxşı qadınsan və biz qarşılıqlı məhəbbətimizə cavab olaraq ailə qurmuşuq, səncə, özgə mən neynəmişəm ki, hələ bir peşman da olam?
- Yox, mən başqa şeyi öyrənmək istəyirdim, - anam dedi, - sualı başqa cür qoyuram və yalvarıram ki, düzgün cavab verəsən? Xahiş edirəm ki...
Atam hikkələnmiş halda, incik səslə anamın sözünü kəsdi:
- Bəyəm mən birdən-ikiyə sənə yalan söyləmişəm?
- Onda məni agah elə görüm, bu gün... yəni bütün bu hadisələrdən sonra sən erməni qızıyla evlənərsən?
Atam masanın üstündəki qıpqırmızı qızardılmış suxarılardan birini götürüb fikirli-fikirli ağzına qoydu, amma elə bil məqsədi bu suxarını yemək yox, dişləri arasında ovula-ovula çıxartdığı səsləri narahat düşüncələrinə qarışdırmaqdı. Atam bu sualın cavabını o qədər yubatdı ki, anam şkafdan aralanıb yanını mətbəx kətilinə qoydu. Nəhayət ki, atam dilləndi:
- Əgər söhbət məndən gedirsə... Və sən xahiş edirsən ki, mən düzünü söyləyim, o da gözümüz üstə. Heç vaxt evlənməzdim erməni qızıyla!!! Birinci, ona görə ki, mən bu gün heç bir erməni qızını sevə bilmərəm, lap dəlicəsinə vurulsam belə, o eşqi qəlbimdən çıxartmaq üçün vurub ürəyimi partladaram, heç o eşqin izi-tozu da qalmaz! İkincisi də, bu gün açıq-aşkar insan qanına susayan bir xalqın qızını necə sevmək olar?
Atam güclə nəfəs alırdı. Birdən başını aşağı salıb ovucları arasına aldı və mən bu zaman onun başında xeyli ağ tüklər gördüm və mənə elə gəldi ki, bu ağ tüklər bir gün qabaq atamın başında olmayıb, atamın saçları bir gecənin içində ağarıb.
Anam astadan:
- Səmimi danışdığına görə sağ ol, - dedi, - səmimi danışdığına görə.
Atam da astadan dilləndi:
- Mən sənin qəlbinə dəymək istəmirdim, Karina, - dedi, - axı, sən gözəl bilirsən ki, məndən ötrü kimsən.
- Mən əsla incimədim, -anam dedi, -sən başqa cür cavab verə bilməzdin. Əgər sən başqa cür cavab versəydin, üzünə də baxmazdım inan ki! Sən tamamilə haqlısan...
- Bilirsənmi, əzizim, mən sənə aşiq olanda güzəranı ilə diqqət çəkən çoxmillətli bir dövlətin adi tələbələrindən biri idim və "qardaş" erməni xalqının qızına qarşı sevgidə heç bir qəbahət görmürdüm; axı, üstəlik də, bu erməni qızı da mənim kimi köklü bakılı idi. Və mənim valideynlərim də milli ənənələrə, dini etiqada nə qədər bağlı olsalar da, axırda səni qəbul elədilər, -atam gülümsündü, - hətta atam dedi ki, su ki girdi qaba, oldu içməli...

Bu atalar sözünü çəkəndə anam da gülümsədi:
- Yadımdadır, - dedi, - hamısı yadımdadır.
Atam sözünə davam elədi:

- Mən hardan biləydim ki, bizim Sovet dövlətimizi elə bu erməni "qardaşlarımızın" əməlləri dağıdacaq? Onlar tarixi şəraitdən yararlandılar və öz qonşularına qəbir qazmağa başladılar. Çünki dişlərində şirə qalmışdı, hələ əsrin əvvəllərində bolşeviklərin təzyiqi ilə Azərbaycan onlara öz ata-baba torpaqlarını bağışlamışdı. Əgər o zaman azərbaycanlılar bilsəydilər ki, ermənilərə güzəştə getdikləri İrəvan xanlığında ruslar yeni erməni dövləti yaradacaqlar və öz gələcək məqsədlərini həyata keçirmək üçün bu dövlətin cəlladlığına arxalanacaqlar, yəqin ki, bolşeviklər heç cür onları yola gətirə bilməzdi. Buna görə də mənə elə gəlir ki, bu hadisələrdən sonra nə bir azənbaycanlı cavan erməni qızına vurular, nə onunla ailə qurar, əgər bizdə beləsi peyda olsa, demək, onun nə qeyrəti var, nə vicdanı, nə də ürəyi. Ermənilərin mənim xalqımı düçar etdikləri bu fəlakətlərdən sonra biz onlara ən qatı düşmən kimi yanaşmalıyıq. Və bu nifrət, kin-küdurət başa düşüləndir.
Bu sözün tamamında o, gözlərini iri açaraq bir xeyli anamın gözlərinə zilləyəndən sonra sözünə davam elədi:
- Səncə, ikinci dünya müharibəsindən sonra yəhudilər bir yəhudinin alman qızına evlənməsinə necə baxardılar? Bu sualın cavabı mənsiz də sənə aydındı... Amma bir millətin məhvinə aparan o dəhşətli hadisələrə qədər mövcud olan nigahlara başqa gözlə baxmaq lazımdır. Təbii ki, mən özümə ömür-gün yoldaşı seçdiyim istəkli qadınımı son nəfəsimə qədər müdafiə etməliyəm. Sən və eləcə də bizim dostlarımız, tanışlarımız, Bakı ermənilərinin çoxu ləyaqətli insanlardı, mən buna əminəm, millət ucdantutma ağıldan bəla ola bilməz. Daşnakların azərbayanlılara qarşı törətdiyi vəhşiliklərə görə bütün milləti qınamaq, bütün milləti damğalamaq olmaz! Mən tam əminəm: azərbaycanlılarla ermənilərin qohumluğuna gətirib çıxaran bütün qarışıq ailələr bu gün bizim indi çəkdiyimiz acıları çəkirlər: bütün insani duyğular, düşüncələr pərən-pərən olub. Necə yaşamalı, nə etməli? Aşağı baxırsan saqqaldı, yuxarı baxırsan bığ...
Anam atama yaxınlaşdı və onu qucaqladı. Onlar bir xeyli beləcə qaldılar və birdən-birə mənə elə gəldi ki, bu məsələlərin gəlib belə bir həddə çıxmasına görə atam anamdan daha çox əzab çəkir. Ürəyimdən keçdi ki, özümü üstünə atım və onu sakitləşdirim, amma dərhal da bu fikirdən daşındım, axı, ən gərgin anlarda belə təmkinini itirməyən, hadisələrin mahiyyətini incələyə-incələyə bir qayda olaraq "bu birincisi, bu ikincisi, bu da üçüncüsü" deyə məqsədini sübuta yetirən atam ola bilməzdi ki, çıxış yolu tapmasın, söhbətə işıqlı bir nöqtə qoymasın...
Araya çökmüş dərin sükutu anam pozdu:
- Murad, əzizim, hər halda belə yaşamaq olmaz...
Atam dillənmədi.
- Biz çıxış yolu tapmalıyıq, -anam astadan dedi, - nə isə etməliyik.
Atam qüssə ilə cavab verdi:
- Bizim bir yolumuz var: ümidlə yaşamaq və gözləmək!
Anamın gözləri yaşardı:
- Nəyi gözləmək? - dedi, - hansı ümidlə yaşamaq? Başa düş ki, keçən günləri qaytara bilmərik. Amma gərək ailəmizin şərəfini qoruyaq. Rəsmi olaraq, biz onsuz da çoxdan ayrılmışıq, elə isə bizim bir yerdə yaşamağımızın nə mənası? Bəyəm bu yaşamaqdı? Sənin bir saniyə də dincliyin yoxdur, dəli ola bilərsən, axı? Mən vaxtında sənə söylədim ki, xaricə gedək, Avropa ölkələrinin birindən sığınacaq istəyək, sən qəti şəkildə etiraz elədin, dedin ki, Vətəni tərk edə bilmərəm. İndi də deyirəm Moskvaya gedək, heç məni eşitmək də istəmirsən. İndi isə sənə yalvarıram, ayaqlarına düşürəm, qarşında diz çökürəm ki, nə qədər ki, gec deyil, heç olmasa, bizi Moskvaya göndərəsən!
Atam heyrətlə gözlərini anamın üzünə zillədi:
- Başa düşmədim, necə yəni bizi? -dedi, -bəyəm sənin anan Moskvada deyil?
Anamın gözlərindən gilələnən yaşlar yanaqlarında bir-birini tapanda anam deməyə söz də tapdı:
- Mən "biz" deyəndə, qızımla özümü nəzərdə tuturam.
Atam mövqeyini dərhal bildirdi:
- Karina, bir də məndən belə xahiş eləmə, -dedi, -birinci və axırıncı dəfə olsun. Yadında saxla: birincisi, mən o kişilərdən deyiləm ki, arvadımı və uşaqlarımı qürbətə göndərəm, ikincisi, bizi nə gözləyir, bizə nə olacaq bilmirəm, amma mənim qızım doğma vətənində böyüyəcək!
O, birdən-birə yumruğunu düyünləyib masaya elə çırpdı ki, üstündəki kofe fincanlarının hərəsi bir səmtə dığırlandı. Atam cəld yerindən qalxıb qarşısına çıxan nə varsa hamısını təpikləyə-təpikləyə eyvana çıxdı. Mən hələ heç zaman onu belə qəzəbli, belə kinli görməmişdim. Qorxmuş, ağarmış anam için-için ağlayırdı. Mən qət elədim ki, öz otağıma keçim, amma qəfildən eyvanda elə bir tappıltı, şappıltı eşitdim ki, ürəyim düşdü. Qorxdum: "Doğrudanmı, atam bu dərəcədə özündən çıxıb ki, eyvanı dağıdır?" Amma birdən qulağıma atamın iniltisi gəldi. Dərhal eyvana atılıb özümü ona yetirəndə, onu yerə sərilmiş halda, özü də sınıb-dağılmış bankaların, şüşə qabların arasında gördüm. Birdən-birə onun sifətində elə dəhşətli ifadə

yarandı ki, üzündə həyat əlaməti qalmadı; o bomboz bozardı. O anda anamın necə qışqırması hələ də qulaqlarımdan çəkilmir...
Atamı infarkt - miokard diaqnozu ilə xəstəxanaya yerləşdirdilər. Onun müalicəsi qırx gün çəkdi və bu qırx gın ərzində anam onun yastığının yanından çəkilmədi; sanki şamın başına dolanan pərvanə-mələk idi. Gündə bir dəfə Fatimə bibim gəlirdi və iki saatlığa onu əvəz eləyirdi. O müddət ərzində anam ox kimi evə qaçırdı, yuyunub-daranıb qayıdırdı və atamla bağlı suallarını bir-birinə calayırdı; sanki iki saat yox, iki ay idi atamın yanından ayrıldığı. O, mənə qətiyyən fikir vermirdi. Nənəm, babam çalışırdılar ki, məni qüssələnməyə qoymasınlar, amma mən atama görə içimdə çəkirdim və özümü çox bədbəxt hiss eləyirdim...
Atam sağalıb xəstəxanadan çıxanda professor anamın fədakarlığını xüsusilə qeyd elədi: dedi ki, tibbi personalın xidməti öz yerində, xəstəni belə tez sağaldıb-dirçəldən arvadı oldu. Atam anamın üzünə baxıb gülümsədi: anamın da gözləri işıqlandı, atamı xəstəxanadan aparmağa gələn əmim Həsənin də, bibim Fatimənin də. Onların sevinməsi təbii idi, amma kimin ağlına gələrdi ki, bir ay sonra anam heç kimə bildirmədən uzun bir namə yazıb masanın üstünə qoyandan sonra xəlvətcə evdən qaçacaq.
O, demək olar ki, son həftəni məndən aralanmamışdı; mənə kitab oxumuşdu, toxumaq öyrətmişdi, mənimlə şəkillər çəkdirmişdi, mənə ət qutabı bişirmişdi, üstünə sumax səpmişdi... Bir dəfə isə o məni gecə yarı yuxudan oyatmışdı, ortalıqdakı zərfi göstərib qulağıma pıçıldamışdı:
- Heç kimə göstərmə bunu, gizlət, mən haçan desəm şəxsən atanın özünə verərsən, danışdıq?
Mən razılıqla başımı tərpədəndən sonra anam elə bil tamam sakitləşdi. Yenə də məni harasa gəzməyə apardı. Hiss eləyirdim ki, məni əyləndirmək, şənləndirmək istəyir. Mən onunla o qədər xoşbəxt idim ki, heç Azər üçün də darıxmırdım. Və təbii, ağlıma da gəlmirdi ki, bu-anamla keçirdiyim son saatlar, son dəqiqələrdir...

## XXV FƏSİL

Anam evdən qaçandan sonra atam elə bil qəfəsə salınmış şir idi, özünə yer tapa bilmirdi. Nə qədər əsibcoşsa da, qəribə idi ki, anamın dalınca getmək barədə bir kəlmə də danışmırdı. Kim bilir, bəlkə də ona elə gəlirdi ki, anam ər evini xəlvətcə tərk etməklə onun qürurunu, mənliyini sındırıb. Mən bu barədə dəqiq bir nəticəyə gələ bilmirdim...
Atamın, anamın qoyub getdiyi məktubu ovcunda xışmalayaraq Həsən əmimə küdurətlə nələr söylədiyini öz qulağımla eşitdim:
- Mən inana bilmirəm, mənə sadəcə elə gəlir ki, belə şey ola bilməz!!! Axı, biz xüsusilə son günlər xoşbəxt yaşayırdıq, o, demək olar ki, şikayətlənmirdi... İnana bilmirəm, inana bilmirəm ki, bu məktubda yazılan sözlər gecə-gündüz üstümdə yarpaq kimi əsən bir qadının dilindən çıxıb!
Atam məktubu barmaqları arasında tutub zəndlə bir xeyli baxandan sonra astadan:
- Amma fakt faktlığında qalır, - dedi, - bu Karinanın xəttidir... Mənim arvadım xəlvətcə evdən qaçıb... Bu nə deməkdi? Deməli, mən ömür-gün yoldaşımı çox pis tanımışam! Mənim övladımın anası, həyat yoldaşım qoyub getdiyi məktubunda daşnak qardaşına tam bəraət qazandırır, yazır ki, erməni milləti üçün çox gərəkli olan bu günlərdə o, mənim yox, öz millətinin arasında olmalıdır!!! Doğrudanmı Karina üzümüzə gülə-gülə belə riyakar bir düşüncə ilə yaşayırmış? Doğrudanmı mən onu tanımamışam, onun haqqında bu qədər yanılmışam? Mən terrorçulara rəğbət bəsləyən və onlarla əməkdaşlıq etməkdən çəkinməyən bir qadını necə sevmişəm? O, öz ailəsini, yeganə qızını daşnakların sərsəm ideyalarına necə qurban verə bilər? Bircə şey kəsinliklə aydındı: onun yazdıqları bizim aramızda əbədi uçurum yaratdı! Ə... bə... di!!!
- Özünü ələ al, Murad! - Həsən əmim onu sakitləşdirmək istədi, - axı sənə həyəcanlanmaq olmaz, ürəyin narahatdı, Allahdan xeyirlisi, görünür, belə məsləhətdi...
Mənim üçün çox maraqlı idi; görəsən anam atama o məktubda nə yazıb ki, o, bu dərəcədə haldan çıxıb? Amma bunu araşdırmaq mənə üstündən uzun illər keçəndən sonra nəsib oldu. Hələ ürəyimdən keçirdi ki, anamın mənə verdiyi məktub haqqında atama danışım, amma anamın tapşırığını və anama verdiyim vədi pozmaq istəmirdim, daha doğrusu, o vədi pozmağa qorxurdum. Mən xəlvətcə o zərfin o üzünə, bu üzünə tez-tez baxırdım, orda yazılanlardan xəbərdar olmaq istəyirdim, amma fikirləşirdim ki, yox, hələlik o məktubu gözdən uzaq bir yerdə gizlətsəm yaxşıdır, onsuz da evdən xəlvətcə qaçdığına görə anam ailədə hamının gözündən düşmüşdü...
Mən yenidən babamgildə yaşamağa başladım. Atam hər axşam işdən qayıdırdı, gecədən xeyli keçənə qədər bizdən ayrılmırdı və bir əli mənim saçlarımı sığallayırdı. Çox qəribə günlər idi; elə bil ailəmizdə sözləşib bu qənaətə gəlmişdilər ki, öz duyğu və düşüncələrini gizləsinlər. Hətta yaşlıların bu hərəkəti mənə - on bir yaşlı uşağa da sirayət eləmişdi: qəfildən anasız qalmağıma baxmayaraq, mən nəinki inləyib ağlamırdım, heç səsimi də çıxarmırdım. Mən özümü toxtaq aparırdım. Sevinirdim ki, nənəmin, babamın yanındayam, yoxsa anamdan sonra geniş və işıqlı mənzilimizə elə bir qaranlıq yol tapmışdı ki, tək qalsam dəli ola bilərdim. Düzdür, atam mənimlə idi, amma o, tezdən işə gedirdi, bir də axşam qayıdırdı, amma ən acınacaqlısı o idi ki, o, bir ata kimi anasız qız böyütməyə yaramırdı, çünki o, qəfildən anasız qalmış övladına görə daha çox sızlayırdı. Əvvəllər olduğu kimi səhərlər işə gedirdi və özünü elə qələmə verməyə çalışırdı ki, guya ona heç nə olmayıb. Amma alnında, ağzının kənarlarında gündən-günə dərinləşən qırışlar onun içində çəkdiyi acılardan xəbər verirdi. Atam ovuc-ovuc dərman atırdı və Fatimə bibim onun beləcə dava-dərmanın umuduna qaldığını görəndə dərindən köks ötürürdü və astadan pıçıldayırdı:

- Bacın ölsün...
Anam müəmmalı tərzdə bizi atıb gedəndən sonra elə dəhşətli hadisələr baş verdi ki, bəlkə insanın yuxusuna da gəlməzdi elə şeylər. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələrinin Qarabağda yerləşən 366-cı Sovet motoatıcı alayı ilə birlikdə əhalisi dinc azərbaycanlılardan ibarət olan Xocalını yağmalaması, qəsəbədə soyqırım aparması, uşaqlara, qocalara, qadınlara divan tutması bir daha erməni-daşnak siyasətinin iç üzünü açdı. Məlum oldu ki, qətliam zamanı erməni yaraqlıları dinc əhali ilə vəhşicəsinə davranıblar, körpə uşaqları zorlayıblar, hamilə qadınların qarnını süngü ilə cırıblar, meyidlərin burnunu, qulağını kəsib eybəcər hala salıblar. Demək olar ki, min nəfərdən artıq dinc əhalisi qətlə yetirilən, yaralanan və itkin düşən Xocalı yer üzündən silinmişdi. Xocalı faciəsi bizim dərdimizin üstünə elə bir dərd gətirdi ki, biz elə bir bəla ilə üz-üzə qaldıq ki, öz dərdimizdən danışmaq cinayət sayılmasa da, bizə ar olardı.
...1992-ci ilin mayında dağlar qoynunda yerləşən qala şəhəri, Qarabağ xanlığının paytaxtı Şuşa da yağmalandı. Öz şanlı tarixində Şuşa qalasını fəth etmək heç bir yadelli sərkərdəyə nəsib olmamışdı və bu səbəbdən Şuşa Azərbaycanın namus, şərəf simvolu sayılırdı.
İbrahim babam yanğı ilə səsini qaldırdı:
- Necə? Qarabağın çələngini - Şuşanı ermənilər işğal eləyib?! - dedi, - Yox, Allah bu ədalətsizliyi götürməz! Onlar bunun altını çəkəcəklər...
Sonralar mən eşidəndə ki, hansı yollasa Vaqifin, Natəvanın, Bülbülün güllələnmiş bürünc heykəllərini Şuşadan Bakıya gətiriblər və İncəsənət muzeyinin həyətində yerləşdiriblər, gedib o büstlərə baxanda elə bildim dünyanın axırıdı; heykəli də güllələyərmişlər?

## XXVI FƏSİL

Sovetlərin dağılması ilə çox şeylər dəyişdi, Leninin nəhəng heykəli qoyulmuş, Leninin adını daşıyan ərazini də yeni adı ilə çağırmağa başladılar: Azadlıq Meydanı.
1918-ci ildə Məmməd Əmin Rəsulzadənin rəhbərliyi ilə Azərbaycan Demokratik Respublikası öz bağımsızlığını elan eləyəndə, müstəqil hökumət kimi tanınanda iki imperiya dövləti - 10 fevral 1828-ci ildə Türkmənçay müqaviləsi ilə Azərbaycanı iki yerə parçalamış Rusiya və İran Azərbaycanın suverenliyini tanımadılar və "əl-ələ" verib bu yeni hökuməti yaşamağa qoymadılar və heç iki il keçməmiş rus bolşevik ordusu ermənilərin dəstəyi ilə yenidən bizim Vətənimizi işğal eləyib öz nəzarəti altına aldı. Və bu nəzarət, nə az, nə çox, düz yetmiş il sürdü. Bəyəm tarixin təkərini geri döndərmək mümkünmü? 1990-cı ildə Azərbaycan Respublikası yenidən öz müstəqilliyini elan elədi: amma bu dəfə həmişəlik.
Biz yeni dövlətdə və yeni siyasi quruluşda yaşamağa başladıq. Yarandığı gündən insan bərabərliyindən dəm vuran sosialist nizamının pioner qalstuku, komsomol və partiya iclasları, beşillik planlar kimi atributları ilə birlikdə izi-tozu da qalmadı. Yeni həyat tərzinə uyğunlaşa bilməsək də, mən deyə bilmərəm ki, başdan-başa saxtakarlıqla idarə olunan bir dövlət quruluşunun xiffətini eləyirdim. Mənə əzab verən başqa şeydi: Sovetlərin dağılması məni ona görə yandırırdı ki, bunun nəticəsində mən hələ nə qazandığımı dərk etməsəm də, anamı itirmişdim; və sözsüz ki, bu ümumiyyətlə insan həyatında ən acı itkidir.
Ailəmizdə anamın haqqında demək olar ki, heç nə danışmırdılar. Heç elə bil bizim həyatımızda o, olmamışdı, sanki mənim anam yox, evdən bir milçək uçub getmişdi. Əgər əvvəllər anamın evdən qaçmasına ailə üzvlərimizin belə laqeyd yanaşması məni qorxutsa da, sonradan cırnatmağa başladı. Anamın bütün şəkillərini ailə albomlarından çıxarıb gizləmişdilər ki, mən onları görüb qəhərlənməyim, ancaq bu çox dəhşətli idi, elə bil onun surəti günbəgün məndən uzaqlaşırdı. Belə anlarda gözlərimi yumanda onu elə bil daha aydın görürdüm. Anam isə bir dəfə də olsun mənə zəng eləmirdi. Mən də öz keçmişimə vida deyə bilərdim, amma onda hələ bilmirdim ki, onun xilas olmağımız naminə atdığı bu addım məhvə aparır, özü də birinci elə onun özünü.
Etdiyi xəyanətə görə gündüzlər mən ona nifrət eləyirdim, amma gecələr yatağa girəndən sonra yadıma evdən qaçmamışdan bir neçə gün öncə mənimlə necə mehriban davranması düşürdü; o necə də xoşqılıq, mülayim, həssas idi. Səhərlər yuxudan oyananda və gecə anamla bağlı gördüyüm yuxuların yuxu olduğunu anlayanda özümə yer tapa bilmirdim. Bu dünyada yaşayan Qreta nənəmin, anamın yoxluğuna alışmaq isə mümkün deyildi...
Ancaq doğmalarımın itkisinə görə məni tapan acılar məni üzə bilmirdi, çünki mən diqqət mərkəzində idim, hamı çalışırdı ki, nə iləsə məni sevindirsin; ailədə yaşlılar o qədər qayğıma qalırdılar, o qədər məni əzizləyirdilər ki, əmim, bibim qızları paxıllıqdan bilmirdilər neyləsinlər, Azər isə mənə göstərilən nəvazişdən məmnundu.
Qabaqlar heç zaman İbrahim babam məndən ötrü almanın qabığını soymazdı, məni belə tez-tez qucaqlayıb saçlarımı tumarlamazdı. Maraqlı idi ki, dəymədüşər Tutu İbrahim babamın yalnız mənə diqqət göstərdiyini sezsə də qısqanmırdı, əksinə, mənim də böyrümə-başıma fırlanırdı. Hərdən məni yuxudan ılıq bir hərarət, isti təmas oyadırdı, gözümü açıb görürdüm ki, Tutudur, qarnını dünyanın ən gözəl qrelkası kimi söykəyib ayaqlarıma.
O günlərin birində İbrahim babam mənim otağımdakı pəncərəyə bir saxsı dibçək qoydu, içində də ətri adamı beş addımdan vuran ətirşah kolu və sonra da başladı bu bitkiyə necə qulluq etmək yollarını mənə öyrətməyə. O söylədi ki, çiçəklər üzərində calaq əməliyyatlarına başlayıb, tezliklə qeyri-adi bir gözəlliyə

malik olan çiçək növü yaradacaq və adını da "Aidagülü" qoyacaq. O zaman mən rica elədim ki, onda bu çiçəyi ağ rəngdə yaratsın, amma nə üçünsə bu xahişimdən sonra məni bərk-bərk qucaqladı və ağladı...
Hər səhər İbrahim babam əlimdən tutub məni evimizlə üzbəüzdə yerləşən təzə məktəbə aparırdı, amma mən o təhsil ocağına könülsüz gedirdim, bu yeni məktəbə heç cür alışa bilmirdim və mənə elə gəlirdi ki, bu məktəb heç zaman mənə doğmalaşmayacaq; çünki mənim ürəyim köhnə məktəbdə qalmışdı. Sinfimizdə qalmışdı, anam, Qreta nənəm kimi mənim dünyamdan qeyb olan müəllimlərimin yanında qalmışdı. Səbirsizliklə dərslərin sona varmasını gözləyirdim ki, özümü bayırda məni gözləyən İbrahim babama yetirim. O günlər məni təəccübləndirən şeylərdən biri də İbrahim babamın məni dərsdən aparmağa gələrkən orden və medallarını taxması idi, axı o, adətən sinəsinə müharibədə və müharibədən sonra aldığı bu nişanları bayramdan-bayrama düzərdi.
Ruqiyyə nənəm çalışırdı ki, məni həm də bişirdiyi ləzzətli yeməklərlə ovutsun, bütün günü mətbəxdə əlləşirdi, boş vaxt tapan kimi isə Azərlə mənə corab toxuyurdu. Mən nənəmin yanını kəsdirib toxumaq öyrənəndə, babam bir gözü qapıda krossvord həll eləyirdi, bizim evin daimi qonaqlarını gözləyirdi: hamıdan öncə hər saat, hər dəqiqə, hər an mənsiz darıxdığını etiraf eləyən Azər gəlirdi və biz onunla "prokat" köşkündən götürülmüş videokasetlərə tamaşa eləyirdik, ya da sadəcə mırt vururduq. Sonra Fatimə bibim gəlirdi, özü də əliboş yox, hökmən nə isə ləzzətli bir şey bişirib gətirirdi və bizi, gözünü üstümüzdən çəkməyən, bizi kölgə kimi izləyən babamın acığına gəzməyə göndərirdi. Biz İçərişəhərin küçələri ilə aşağı enirdik və az vaxtda şəhərimizin simasının necə dəyişdiyini görəndə heyrətə gəlirdik; hara baxırdın kəndçi qiyafəsində adamlardı, üzlərində də qəm, qüssə, ölüm, matəm xofu...
Həsən əmim həftədə bir dəfə gəlirdi, zənbil-zənbil ərzaq gətirirdi və yalnız məni yox, nənəmlə babamı da nə isə bir hədiyyə ilə sevindirirdi. Nazlı xala hərdənbir görünürdü, o ki qaldı əmim, bibim qızlarına, onlar da nadir hallarda gəlib-gedirdilər, deyirdilər ki, dərsləri ağırlaşıb. Onlara inanmaq olardı, axı ali məktəbə girməyə hazırlaşırdılar, müəllim yanına gedib-gəlirdilər, imtahanlara isə az qalırdı.
Beləcə, illər keçirdi və mən də, demək olar ki, yeni bir həyat tərzinə alışırdım. Mən Qreta nənəmin və anamın yoxluğunu daha çox ad günlərimdə hiss eləyirdim. Nədənsə məhz ad günlərimdə kəsinliklə anlayırdım ki, qədər-qismət məni anamdan və Qreta nənəmdən məhrum eləyib. Bəlkə də bunun səbəbi məhz bir zamanlar mənim ad günlərimdə anamın və nənəmin xüsusi canfəşanlıq etmələri ilə bağlı idi, nə bilim? Anamın Qreta nənəmlə məhz ad günlərimdə məni necə geyindirib-kecindirmələri yadıma düşürdü. Məni gəlincik kimi bəzəyirdilər və mən səmimi qəlbdən inanırdım ki, yeddisi noyabrda bütün ölkə təntənəli şəkildə məhz mənim ad günümü bayram eləyir...
Anam və Qreta nənəm həyatımda yalnız xatirələri ilə yaşamağa başlayandan sonra, atam mənim ad günlərimi restoranda keçirməyə başladı ki, qoca anasını əziyyətə salmasın, yəni mənim Ruqiyyə nənəm bişdüş eləməsin, qonaq qarşılamasın.
Qəribə idi ki, torpaqlarımızın günbəgün yağmalanmasına, qocaların, qadınların, uşaqların əsir aparılmasına, bir sözlə, millətin bu acılarla yaşamasına baxmayaraq, dəbdəbəli ad günləri öz yerində, toylar da, ad günləri də ara vermirdi.

## XXVII FƏSİL

Bəli, Qarabağ müharibəsi bizim həyatımızı tamam başqa məcraya saldı. Mən yalnız Qarabağ müharibəsinə qədərki ömrümü həyatımın işıqlı hissəsi sayıram, sonra qara günlər başlanıb. Hətta Qarabağ hadisələrinin başlanması ilə bizim bir qayda olaraq səbirsizliklə gözlədiyimiz bağ həyatı da gözdən düşdü, gözəlliyini itirdi. Amma bu ona görə deyildi ki, mən anamı, ana babamı, ana nənəmi itirmişdim. Elə bil ağaclar da qüssə-kədər içində idi. Hava da açılmırdı, külək səngimirdi, mənə elə gəlirdi ki, buludlar göy üzündə azıblar. Amma dünyada zahiri sakitlik hökm sürürdü, əslində isə hər şey, hamı dəyişmişdi, münaqişə uzandıqca, bu ağrı-acı adiləşirdi, bu ağrı-acı həyat tərzimizə çevrilirdi; bu münaqişə barədə susmağa üstünlük versələr də, əslində müharibənin yaraları bir an belə unudulmur, yaddan çıxmırdı...
Əvvəlki gözəl və xoş günlərdə olduğu kimi, Nazlı xala növbəti məzuniyyətinin bitməsinə bir həftə qalmış şəhərə qayıtdı ki, bu həftənin sonunda da bağa öz vacib qonaqlarını gətirsin.
Budəfəki qonaqlar respublikanın tanınmış rəssamı Vahid Rəhimzadə və onun ailəsi idi. Etiraf etmək lazımdır ki, Nazlı xala, ümumiyyətlə, şəhərin məşhur adamları, tanınmış ailələri ilə əlaqələr yaratmağa və təbii ki, gələcəkdə bu əlaqələr nəticəsində iş qurmağa, bununla da öz övladlarına gün-güzəran ağlamağa böyük önəm verirdi. Bu səbəbdən də o elan eləyəndə ki, çox məşhur bir adamı qonaq çağırıb, hətta mən də dərhal kəsdirdim ki, söhbət adı son zamanlar Nazlı xalanın dilindən düşməyən Vahid Rəhimzadədən və onun ailəsindən gedir. Hətta onu da hiss elədim ki, bu qonaqlıq əmim qızlarının - Aynurun, Fidanın, Könülün yox, birbaşa mənim Azərimin gələcək taleyi ilə bağlıdır!
...Bizim bağa öz yeganə qızları ilə gələn ər-arvad bir-birinə yaraşırdılar və zahirən də çox xoş təsir bağışlayırdılar; rəssamın arvadı Sevinc xanımın yerişindən, duruşundan, danışığından kübarlıq yağırdı. Vahid bəy Nazlı xalaya laləli bir çölün təsvirini əks etdirən gözəl bir sənət nümunəsi bağışladı. Onlar par-par parıldayan yeni bir minik maşınıyla gəlmişdilər ki, bu avtomobili də onların adamı heyrətə gətirən yeganə

qızları Aysel sürürdü. Elə bu Ayselin də ucbatından mən öz rahatlığımı itirdim, çünki o, son dərəcə gözəl idi, üstəlik də ağıllı-kamallıydı. Özünü bizim ailələrin qızları kimi yox, çox sərbəst aparırdı, düşüncəli surətdə az danışmağa, əsasən susmağa üstünlük verən bizim qızlardan fərqli olaraq, nə istəsə, söyləyirdi və bu mənim xoşuma gəlirdi.
Uca boylu, mütənasib bədənli, qartal qanadı kimi qara saçlı, qara xallı, qara gözlü, əsmər üzlü bu skripkaçalan qızın əyni-başı da bizi heyrətə gətirdi, "Vranqler" firmasına məxsus şalvar onun uzun ayaqlarını, mütənasib əndamını bir qədər də qabarıq şəkildə nəzərə çarpdırırdı. Və o son dərəcə gözəl, ağıllı danışırdı. Düzdür, biz qızlar da kifayət qədər mükəmməl-təhsil almışıq, kimi pianinoya getmişdi, kimi baletə, kimi rəqsə, əsla kifir də deyildik, amma bununla belə gözümüzə ilahə kimi görünən Ayselin yanında nə üçünsə qonaqların qarşısına çıxmaq istəmədik.
Bədbəxtlikdən mənim əmoğlum, Aysel skripkada bir klassik musiqi örnəyini ustalıqla ifa edəndən sonra heyrətini əl çalmaqla, "Bravo" deyə qışqırmaqla ifadə elədi. Azər onaltı, Aysel isə on yeddi yaşın içində idi, amma bu yaş fərqinə baxmayaraq, Nazlı xala o məclisdəcə açıq-aşkar şəkildə oğluna elçilik elədi və elə bu da məni dəhşətə gətirdi, havalandırdı.
Ayselin isə heç nə eyninə deyildi; o, ədəblə, kamalla dünyəvi söhbətlər eləyirdi, böyüklərlə öz tay-tuşu kimi danışırdı, hətta qıçını qıçının üstünə aşırırdı ki, bu da bizim ailədə ədəbsizlik sayılırdı. O hətta şampan şərabı da içdi. Elə bil Aysel ilahinin yerdəki nümayəndəsi idi və nə istəsə eləyə bilərdi. Məclisin ortasında o, cins jiletini də əynindən çıxartdı və qolsuz tül köynəkdə demək olar ki, çılpaq qaldı...
Mən çaşmışdım: bizim evdə öz bədən quruluşunu və yaraşığını nümayiş etdirmək, alt paltarını kiməsə göstərmək məqbul sayıla bilməzdi. Hətta qadınlara məxsus alt paltarları yuyulanda da onları qurutmaq üçün elə xəlvət bir yerə sərirdilər ki, kişi tayfası, xüsusən qonaq-qara oraya girib-çıxmırdı. O ki qaldı necə geyinməyə, öncə nənəm, sonra da analarımız, bibimiz Fatimə bizə çox dəqiq şəkildə başa salmışdılar ki, necə geyinmək lazımdır ki, ailənin adına ləkə gəlməsin. Ancaq belə görünürdü ki, Ayselgilin ailəsində belə qaydalar, geyim-kecimə qarşı hər hansı bir yasaq mövcud deyildi və Aysel nə istəsə eləyə bilərdi, amma burda da məni təəccübləndirən məqam bizim böyüklərimizin Ayselin bu hərəkətlərini çox təbii qarşılamaları idi, sanki heç nə olmamışdı...

## XXVIII FƏSİL

Özümdən necə də zəhləm gedirdi! Birdən-birə mənə elə gəldi ki, gözəllər gözəli Aysellə müqayisədə, ana qayğısından məhrum olmuş idbar bir ördək balasıyam və Ayselin mənə qarşı saymamazlığı da çox təbiidir. O, hamıya və hər şeyə qarşı etinasızlığını bir daha nümayiş etdirərək gözlənilmədən üzünü əmim oğluna tutdu:
- Mən təbiət vurğunuyam, -dedi, -məni bağınızla tanış etməzsən ki?
Əlbəttə, biz qızlar da onu bağımızda gəzdirə bilərdik, amma bu gözəlçə heç bizi tərpənməyə də qoymadı, bir süzgün, çəpəki baxışla bizə öz yerimizi tanıtdı. Mənim üzüdönmüş əmoğlum isə elə bil bu anı çoxdan gözləyirdi, dərhal qızın yanına düşdü, nəzakətlə:
- Buyurun, - dedi, - gedək...
Onlar ağacların arasında gözdən itəndə isə Nazlı xalanın işlətdiyi söz ürəyimi para-para elədi:
- Allah bədnəzərdən saxlasın! Gör bir necə də bir-birinə yaraşırlar!
Dərddən sarsılmış halda öz otağıma qaçdım və başımı balıncın altına soxub qürub çağına kimi hönkürhönkür ağladım. Qonaqlarımız gedənə qədər mən aşağı düşmədim və ən acınacaqlısı o idi ki, kimsə bunun fərqinə varmadı; kimsə maraqlanmadı ki, mən hardayam! Yox, yalan dedim, Ruqiyyə nənəm bir neçə dəfə otağımın qapısını döyüb mən səslədi. İçki içənlər arasında oturmağı xoşlamadığından, məclisi erkən tərk edən babamın da ucadan məni səslədiyini, nənəmə "Aida gəlsin mənə çay dəmləsin" söylədiyini eşitdim, amma hay vermədim, ürəyimdə isə dedim ki, qoy çayı sənə gələcək gəlinin Aysel dəmləsin! Mən məşğulam, Azərlə Ayselin nişanını necə keçirmək barədə fikirləşirəm. Amma bir qulağım bayırda idi.
Hər şeyi eşidirdim.
- Axı, Siz bilirsiz ki, mən gecə maşın sürməkdən qorxuram,-Aysel birdən-birə səsini qaldırdı, - biz getməliyik, tələsmək lazımdı!
Ayselin amiranə səsi dərhal valideynlərini qalxmağa və bağ sahibləri ilə vidalaşmağa məcbur elədi. Məşhur rəssam da, onun xanımı da ziyafətə görə ürəkdən təşəkkür eləyirdilər, amma mənə elə gəlirdi ki, bu minnətdarlıq ləyaqətli süfrəyə görə deyil, məhz o məclisdə təməli qoyulmuş körpü onları qane eləyir, onların ürəyincədir!
Mən pəncərəyə yaxınlaşıb möhtərəm qonaqların necə yola salınmasına üst mərtəbədən tamaşa eləyərkən qəzəbdən titrəyirdim, Ayselin əlində bizim bağdan toplanmış gülləri görəndə, biləndə ki bu gülləri fövqəladə qonaqlar üçün mənim əmoğlum dərib, lap özümü itirdim. Fikirləşdim ki, bəs mənim taleyim necə olacaq? Bəs onun mənə verdiyi vəd harda qaldı? Uşaqlığımızın sonuncu yayında baş tutan toyumuz unuduldumu? Doğrudanmı, o məni dul qoyacaq?!

## XXIX FƏSİL

Mən xiffətdən o qədər üzülüb hikkələnmişdim ki, ertəsi gün səhər yeməyinə də getmədim, öz amansız

aşiqimin həmişə olduğu kimi pəncərəmdən içəri atdığı ağ qərənfili isə ovcumda xışmalayıb bayıra tulazladım. Nədənsə, mənə elə gələrdi ki, rəqibim Azərin qəlbini fəth eləyib, o ki qaldı yenə mənə ağ qərənfil göndərməsinə-onun rəhminə, bu mənə gərək olmayan bir davranışdı.
...O bazar günü biz hamımız qərarlaşmışdıq ki, şəhərə qayıdaq, çünki ertəsi gün kimi işə getməli idi, kimi də dərsə. Ancaq birdən-birə İbrahim babam qəti şəkildə bildirdi ki, bizi kəndə, öz qohumugilə qonaq aparacaq. Heç kimin etiraz etməyə cürəti çatmadı və beləliklə də atalarımızın və eləcə dəymədüşər Nazlı xalanın etirazına baxmayaraq, İbrahim babamın dədə-baba kəndinə yola düşdük.
Şüvəlan qəsəbəsində babamın kiçik qardaşı Mirkazım yaşayırdı, bizi də elə azərbaycanlılara məxsus qonaqpərvərliklə o qarşıladı. Bir göz qırpımında toğlunu soydular, manqalı yandırdılar, amma süfrə arxasına keçməmişdən öncə babam öz qardaşından xahiş elədi ki, cavanlara öz at damını göstərsin. Ağsaqqaların ardınca təəccüblə, maraqla tövləyə girəndə, atlardan biri kişnədi, görünür, sahibinə nə isə anlatmaq istəyirdi. Mirkazım dayının güvənc yeri bir-birindən yaraşıqlı atlarına tamaşa eləyəndə babam birdən-birə tövlədəki balaca ulağı göstərib:
- Siz bu heyvana da bir diqqət eləyin, - dedi və əlini bu məzlum duruşlu heyvanın belinə çəkdi, -indi deyin görüm, bu yazığın bu cins atdan nəyi kəmdi?
Mən başa düşmədim ki, o nəyə işarə vurur, nə demək istəyir, ona görə də susdum, əmim qızları, həmçinin bu ulaqdan gözünü çəkməyən Azər kimi gözümü döyməyə başladım. Babam isə bu qəfil sorğu-sualına davam elədi.
- Mənim balalarım, mənə deyin görüm, bu ulağın gözləri gözəl deyilmi?
Biz hamımız bir ağızdan cavab verdik ki, eşşəyin gözləri həqiqətən gözəldi, hətta yanaşı dayanmış atın gözlərindən də gözəldi.
- Onda mənə söyləyin görüm, heç eşitmisinizmi ki, kimsə gözəl bir qızın şəninə xoş sözlər deyəndə, onun gözlərini eşşəyin gözlərinə bənzətsin?
Yox, biz həqiqətən də belə bir şey eşitməmişdik, bu səbəbdən də gülüşməyə başladıq, amma babam bizə məhəl qoymadan yenə sözünə davam elədi:
- Kimsə sizin yanınızda belə komplimentlər söyləyibmi; məsələn, eşşək kimi təmizkar, ya eşşək kimi vəfalı?
Əsla, biz belə şeylər də eşitməmişdik, ona görə də şaqqıldayıb gülüşməyimizə davam elədik.
- Çox maraqlıdı, -babam dedi, -axı nəyə görə eşşəyin şəninə belə komplimentlər deyilməsin? Axı, eşşək heç vaxt bulanıq su içmir və sahibinə ölən gününə qədər sədaqətlə xidmət eləyir, yük daşıyır. Üstəlik də, işləyəndə bərk tərləyən adam deyir ki, lap eşşək kimi işlədim. Bir məsələ də var: tərbiyəsiz, xam adam görəndə onu eşşəyə bənzədirik! El arasında necə deyirlər? Hə, söyləyirlər ki, eşşəyi ləl-cəvahiratla yükləyəndə, bəyəm yükü yüngül olur? Ya da deyirlər, eşşək nədi, döşək nədi?
İndi mənə deyin görüm bu heyvan insanlara bu qədər fayda verə-verə, nədən adı bir yerdə yaxşılığa çəkilmir?
Bu sual mənə də maraqlı gəldi:
- "Doğrudan da, axı nəyə görə?"
Azər dilləndi:
- Bəlkə ona görə ki, eşşək inadcıldı?
Babam onunla razılaşmadı:
- Axı, bu dünyada eşşəkdən də inadcıl heyvanlar var. Bəs onların adı niyə hallanmır?
Bu suala başqa cavab verən olmadı, babam bizi bir-bir diqqətlə süzdü və axırda da üzünü Azərə tutub asta-asta niyyətini vurğulamağa başladı:
- Sizə agah olsun: bu dünyada eşşəkdən başqa elə bir heyvan yoxdur ki, anasından qabaqda getsin. Təbiətdə bütün heyvanların balaları analarının arxasınca gedirlər, analarının yolundan çəkilirlər. Yalnız eşşək balasından başqa, o özündən böyüyün hörmətini o dərəcədə saxlamır ki, hətta anasından qabağa düşür?!
Bizim təəccübləndiyimizi görən İbrahim babam bir də dilləndi:
- Bəli, bəli, təəccüblənməyin, bu yeganə heyvandır ki, öz böyüklərini saya salmır, onların qabağına düşüb yüyürür. Bax elə bu xidmətinə görə də eşşək belə xoşagəlməz bir şöhrət qazanıb və onun yerdə qalan xidmətləri də kolgədə qalıb, ona görə onunla müqayisə olunan insan özünü təhqir olunmuş sayır.
Mən hələ də fikirləşirdim ki, görəsən, axı babam nəyə işarə vurur, nə demək istəyir, kimin bostanına daş atır? O yenə də üzünü Azərə çevirdi:
- Həyatda özünə tay seçəndə, onun gözəl gözləri, mütənasib ayaqları, al yanaqları səni aldatmasın, fikir ver, gör o özündən böyüklərə qarşı necə münasibət bəsləyir! Əgər qız öz valideynlərinə danışmağa aman vermirsə; addımbaşı onların sözünü kəsirsə, əgər qız valideynlərinin yanında onların əvəzinə söz deyirsə, qərar çıxardırsa, onun yerdə qalan keyfiyyətləri də bir qara qəpiyə dəyməz, gec-tez o, valideynlərinin başını yerə soxacaq!
Və mən qəlbimdə İbrahim babama səcdə elədim!!! Elə bir səcdə ki, ruhlanıb oxumaq istədim.

XXX FƏSİL

Bu ərəfədə həyat Bakıda müəyyən bir axara düşsə də, Qarabağdan dəhşətli xəbərlər gəlirdi: dişindən dırnağına kimi silahlandırılmış erməni yaraqlıları nəinki Qarabağı, hətta Qarabağa yaxın digər Azərbaycan rayonlarını da zəbt etmişdilər. Nə qədər qıvraq olsa da, bütün bu anlara tab gətirməyən İbrahim babam birdən-birə xəstələndi və düz iki ay yataqdan qalxa bilmədi. Tutu bir an da olsun babamın çarpayısından aralanmırdı, yatanda da çarpayının ayaq ucunda, qarnını babamın ayaqlarına söykəyib yatırdı və elə qərib-qərib, qəmgin-qəmgin miyoldayırdı ki, hamını qüssələndirirdi. Biz İbrahim babamı itirməkdən çox qorxurduq, amma Allaha şükür olsun ki, isti havaların başlanmasıyla o da gözlənilmədən yaxşılaşmağa başladı və dərhal da bildirdi ki, yaxın günlərdə bağa köçəcək, yenidən bəs deyincə torpaqla əlləşəcək.
Ailə ənənələrinə sadiq qalaraq, yayda biz yenə də ömrün qürub çağında ata-baba torpaqlarımızın ermənilər tərəfindən işğalına dözə bilməyən və bunu özünə böyük dərd eləyən İbrahim babamın başına cəm olduq. O yay günlərində babamı, sən demə, daha bir qəfil zərbə gözləyirmiş, o, son illər tamam ağırlaşmış, gözləri işıqdan qalmış sevimli Tutusunu itirdi. Babam Tutunun ölüsünü həmişə kölgəsində yatdığı ərik ağacının dibində torpağa quyladı. Babam sevimli pişiyinin xatirəsini üstünə "Tutu xanım" yazılmış başdaşıyla əbədiləşdirdi...
Qayğılar, acılar içində üzülməsinə baxmayaraq, bağ həyatı öz əzəlki ləzzətini itirsə də, babam bizi başına cəm eləyib həyatımızın ən işıqlı anlarını özündə yaşadan bu bağı yenə yaraşığa gətirməyə çalışırdı. O günlərdə bizim bağda cəm olmağımız elə bir bəlalı zamana düşmüşdü ki, bütün qonşu bağlardan vay-şivən səsi gəlirdi; çünki o bağlarda Ermənistanlı, Laçınlı, Qarabağlı qaçqınlar-köçkünlər yerləşib məskunlaşmışdılar. Nə üçünsə onlar bizim bağa girməmişdilər, görünür, babamın şəxsiyyətinə hörmət eləmişdilər. Bəlkə də ona görə ki, babam min bir əziyyətlə hasilə gətirdiyi bu bağın mer-meyvəsini onsuz da onlara paylayırdı. Yeri gəlmişkən qeyd edim ki, babam bu alçaldılmış və təhqir edilmiş insanlara öz bağının mer-meyvəsini paylamaqdan böyük ləzzət alırdı.
Babam, demək olar ki, hər naharda dərddən-qəmdən üzülən yeni "qonşu"larımızdan birini, ya ikisini külfəti ilə bağımıza dəvət eləyirdi və təbii ki, qonaqpərvərliyini əsirgəmirdi. Nazlı xala, Fatimə bibim, Ruqiyyə nənəm isə belə məclislərin tamamında bu fağır, utancaq qonaqlara bizim köhnə paltarlarımızı paylayırdılar. Mən bu atılmış, var-yoxdan çıxmış insanların arasında əzab çəkirdim və şübhə eləmirdim ki, onların taleyində bizim də günahımız var, şəxsən ağ qarğa kimi onlardan seçilməyim məni ağrıdırdı. Daha uşaq oyunlarına, əyləncələrə baş qoşmurduq, bütün günü babama kömək eləyirdik ki, bağın əvvəlki yaraşığını qaytaraq. Çoxdan idi ki, manqalımız tüstülənmirdi, amma bunun səbəbi quzu ətinin, ağ balığın bahalanması ilə bağlı deyildi, kababın dərhal ətrafa yayılan qoxusuna görə yeni qonşularımızdan utanırdıq, onların hamısına kabab bişirib paylamaq isə, hətta bizim də imkanımız xaricində idi. Çünki onlar bir, iki, ya üç ailə olsaydılar, yola vermək - hərəsinə beş-altı şiş pay göndərmək olardı, amma qismətdən dörd ətrafımız qaçqınlardı, hələ də başlarına gələn fəlakəti yuxu hesab eləyən məzlum insanlardı.
Biz - qəfildən böyüyən uşaqlar bağa elə gəlmişdik ki, sanki hərbi borcumuzdan çıxırdıq, amma fikirləşəndə ki, haçansa bu bağ babamsız yetim qalacaq, şəxsən mən sarsılırdım... Bir sözlə, həyat öz axarından çıxmışdı, hətta nadir hallarda getdiyimiz Azər və Aida adası da bizi ovuda bilmirdi, içimizdə çəkdiyimiz acılara məlhəm olmurdu.
Heç babamın səhhəti də yaxşı şey vəd eləmirdi. O, heç zaman ürəyindən şikayətlənməsə də, son zamanlar tez-tez ürək tutmaları olurdu, qan təzyiqi qalxırdı.
Təcrübəli ürək həkimi Nazlı xala əlindəki tonometri qutusuna qoyandan sonra canıyananlıqla qayınatasına:
- Sizə çox iş görmək olmaz, siz dincəlməlisiniz, atam, -dedi, -üstəlik də Sizə lazımdı ki, mütləq hansısa bir diuretik dərman qəbul edəsiniz.
- Mən tamam sağlamam, -babam cavab verdi, - Tutuxanım sağ olsaydı, heç diuretik dərmanlar da axtarmazdıq, pişik saxlayan adamın heç zaman qan təzyiqi olmaz!
Atam elə bil bu sözə bənd idi:
- Bəlkə sənə təzə pişik alıb gətirək? - dedi.
İbrahim babam qətiyyətlə cavab verdi:
- Yox, oğlum, yox, mən Tutuxanımın xatirəsinə xəyanət edə bilmərəm!
Heç nəyə baxmayaraq, babam bütün günü bağda işləyirdi. Bir dəfə necə oldusa şaftalı dərməkdə babama kömək edəndə özümdən asılı olmayaraq dilimə belə sual gəldi:
- Necə etmək olar ki, zaman dayansın? Axı gün gündən ağır gəlir...
Babam dərindən köks ötürəndən sonra:
- Heç zaman ümidi itirmək olmaz, qızım, - dedi, - gələcəyə inanmaq lazımdı, dünya xali deyil...
O, mənə daha "axçi" demirdi, amma yenə də hərdənbir babamın dilindən son dərəcə şirin səslənən bu sözü eşitmək ürəyimdən keçirdi.
- Baba can, -mən xahiş tərzində ona müraciət elədim, - söz ver ki, mən nə qədər sağam, sən məni tərk etməyəcəksən...
- Əlbəttə, mən səni heç zaman tərk etməyəcəm, - babam cavab verdi və gülümsədi, -nə zaman olur-olsun, sən ağacdan şaftalı, ya incir dərəndə mən səninlə olacam; hər bahar alma, albalı ağacları çiçəkləyəndə sən görəcəksən ki, mən səninləyəm; mən çiçəkləmiş budağa dönüb sənin üçün gülümsəyəcəm,

mənim balam...
Mən ona qısıldım və biz bir xeyli beləcə rahatlıq tapdıq, sonra o məni bağın ayağına, gül-çiçək şitilliyinə apardı və mənə öz əli ilə ən gözəl çiçəklərdən bir dəstə bağladı.

## XXXI FƏSİL

Üzü payıza dönəndə şəhərə yığışdıq. Havalar sərinləmiş, yağışlar başlamışdı və belə yağmurlu günlərin birində uzaq qohumlarımızdan birinin yas məclisinə gedən babam orda köhnə tanışlarından birinin atdığı atmacadan öz payını götürür. Babamın o tanışı babamın gözü baxa-baxa kiməsə göz vuraraq deyibmiş ki, bizim aramızda elələri var ki, erməni ilə qohum olmaları cəhənnəm, hələ onları öz evlərində də gizlədib saxlayırlar və bu insanlar da özlərini vətənpərvər, müsəlman sayırlar, ayıbdı, Allah özü cəzalarını versin...
İbrahim babam o yas məclisindən evə dönəndə bıçaq vursan qanı çıxmazdı. Hikkəsindən tir-tir titrəyirdi, öz dərdinə Ruqiyyə nənəmi də ortaq elədi:
- Niyə belə oldu, Ruqiyyə xanım? Bəyəm mən haçansa bu dünyada ləyaqətsiz bir hərəkət etmişəm ki, övladlarım mənə görə əzab çəkələr? Mən haram tikə yeməmişəm, bu evə haram gətirməmişəm, bütün həyatımı qoymuşam ki, təki Vətən çiçəklənsin. İkinci Dünya müharibəsində mən neft buruqlarında yorulmaq bilmədən çalışırdım, çünki inanırdım ki, düşmən üzərində qələbə üçün neft lazımdır. Bizim Bakı neftçilərinin fədakar əməyi və Bakı nefti olmasaydı, Sovet İttifaqı heç zaman düşmən üzərində qələbə qazana bilməzdi! Hitler Qafqaza soxulanda və "Barbarossa" əməliyyatını keçirməyə başlayanda mən könüllü cəbhəyə yollandım və döyüşə-döyüşə gedib Berlinə çıxdım. Müharibədən sonra da mən qolumu qoltuğuma qoymadım, ölkənin bərpası naminə çalışdım. Hanı o ölkə? Nə üçün o bizə xəyanət elədi? Mənim rəhmətlik atam Azərbaycanda Sovet hökuməti zor gücünə qurulanda deyirmiş ki, nə fərqi, əcdadlarımız uyuyan torpağı kim tapdalayacaq; rus ayısı, ya fars çaqqalı? İkisi də yırtıcıdı: ətimizi yeyəcəklər, sümüyümüzü gəmirəcəklər, nə qalsa, onu da çığnayacaqlar... Yazıq atam, elə bil bu günü görürmüş...
Ruqiyyə nənəm güclə eşidilən bir səslə:
- Allah rəhmət eləsin ona, -dedi, - qəbri nurla dolsun.
- Allah ölənlərinə rəhmət eləsin, Ruqiyyə xanım, - babam cavab verdi və sözünə davam elədi, - rəhmətlik həmişə bizi inandırmağa çalışırdı ki, qonşu imperiyalar bizim yurdumuza xoş məramla can atmırlar. Onlara bizim neftimiz lazımdır! Şərqdə ilk dəfə Məmməd Əmin Rəsulzadənin başçılığı ilə Demokratik Respublikanı biz yaratmadıqmı?! Rəhmətlik necə də nüfuzlu Nazirlər Kabineti yaratmışdı; hamısı zadəgan, ziyalı, dərrakə sahibləri... Bizim ölkəmizin tarixində Azərbaycan ancaq onların hakimiyyəti zamanı sözün əsl mənasında çiçəkləyib... Heyif ki, erməni millətçiləri, rus şovinistləri o hökuməti çox yaşamağa qoymadılar-ikisinə də qardaş dedik, amma başımıza bəla oldular!
İbrahim babam gözlərini yumdu və başını bulaya-bulaya:
- O hökumət cəmi iyirmi üç ay yaşadı, - dedi, - ermənilər aranı qarışdırmasaydılar, bolşeviklər gəlməsəydilər, indi kim bilir biz nələrə nail olmuşduq. Onlar satqın ermənilərin dəstəyi ilə Bakıya soxuldular və gənc Respublikanı boğdular...
Onun səsi titrədi və birdən-birə uşaq kimi ağlamağa başladı. Son zamanlar o, ümumiyyətlə, çox tez kövrəlirdi. Dəsmalını çıxarıb gözlərinin yaşını siləndən sonra sözünə davam elədi:
- Biz ağsaqqallarımıza inanmırdıq, amma sən demə onlar Rus imperialistlərinə nifrət bəsləməkdə haqlıymışlar! Ruslar burda ermənilərin dəstəyi ilə bolşevik hökuməti yaratdılar. Quldurbaşı Stepan Şaumyan ən ləyaqətli oğullarımızın başını yedi, əvəzində ruslar bizi məcbur elədi ki, bu qatı daşnaka heykəl qoyaq... Onlar Qarabağ xanlığını ləğv eləyib Rusiyanın malikanəsinə çevirmişdilər bəs olmamışdı, hələ xanın kəndinin-Xankəndinin də adını dəyişib bu caninin şərəfinə Stepanakert qoydular!!! Və biz də kor kimi yetmiş il bu hakimiyyətə səcdə elədik!!! Nə üçün? Onun üçün ki, onlar bizi milli-əxlaqi dəyərlərimizdən, tariximizdən, mədəniyyətimizdən, dinimizindən uzaqlaşdırmışdılar. Onun üçün bizi iki yerə parçalamışdılar. Farslarla bölüşdürmüşdülər. Ruslar bizi ermənilərin Qarabağ tələsinə salmışdılar, farslar isə Cənubi Azərbaycanda yaşayan otuz milyonluq azərbaycanlıya göz verib, işıq vermirdilər, öz əcdadlarının torpağında, öz ana dilində danışan azərbaycanlıları məsxərəyə qoyurdular! Doğrudan da gülməlidi!!! Təbriz xalçalarını dünya bazarına fars xalçası adıyla çıxarırlar, biz də susuruq nədi-nə deyil, Təbriz fars imperiyasına daxildir. Onlar Nizami Gəncəvini fars şairi kimi təqdim edəndə də səsimizi çıxarmırıq! Hətta İran təbliğatı o yerə çatdırıb ki, mənim zavallı pişiyim Tutuxanıma da, fars cinsi deyirdilər, halbuki o adicə Azərbaycan pişiyi idi, amma bunu kim bilir? Əlbəttə, biz xırdaçı-çərçi deyilik: ürəyimiz böyük, qəlbimiz genişdir, nə istəyirlər "peşkəşdi!" deyirik. Belədə də kimi xalçalarımıza, şairlərimizə sahib çıxır, kimi musiqimizə, mətbəximizə, kimi də torpağımıza!!!
Sözün bu yerində İbrahim babamı nəfəs kəsən bir öskürək tutdu. O, hərdənbir belə hala düşəndə, yalnız bircə şey kara gəlirdi: dəfələrlə sınaqdan çıxmış sərin nabat şərbəti. Ruqiyyə nənəm ehtiyatlı arvaddı, o qabaqcadan şəffaf nabat dənələrini suda əridər və soyuq bir yerdə saxlayardı ki, babamın öskürəyi tutanda əl-ayağa düşməsin. O, yenə də dərhal bir fincan nabat şərbəti gətirdi və babam bu içkidən bir-iki qurtum alıb sözünün ardını gətirdi:
- Mən özündən savayı kimsəyə yamanlıq etməyən tərbiyəli övladlar böyütmüşəm, amma daha vacib məsələ odur ki, bütün ömrüm boyu İslamın müqəddəs şərtlərindən biri olan müsəlmançılığımı saxlamışam... Murad erməni qızına evlənməyə hazırlaşanda mən cəhd elədim ki, onu bu ölçülüb-biçilməmiş hərəkətdən

çəkindirim, amma o vurulmuşdu: üstəlik də cavanlar cızıqlarından çıxmışdılar, sərhəddi aşmışdılar... mən də məcbur oldum ki, geri çəkilim... Qərinə İslamı qəbul eləyib ailəmizə qarışandan sonra isə elə bilmişəm öz balamdı, valideynlərini də bir Allah bilir ki, həmişə əziz tutmuşam, qızım Fatimə ilə Qərinəyə fərq qoymamışam. Atası Xosrovu isə qardaşım bilmişəm. Mən o ağır illərdə Xosrovu, ya onun arvadını necə tək qoya bilərdim? Mən çörək kəsdiyim, duz daddığım adama - o lap erməni də olsa, arxa durmasaydım, qadir Allah özü məni cəzalandırardı! Yaxşı, indi sən mənə söylə görüm, ömür boyu məşuqələri erməni olan o zinanın, o zinakarın mənə gülməyə, mənə atmaca atmağa haqqı var, ya yox?
Nənəm dillənmədi, babam isə təsbehini çevirə-çevirə bir xeyli fikrə getdi və birdən:
- Tutalım ki, mən tarixin çarxını geri qaytara bilmərəm, -dedi, -tutalım ki, mən Ana yurdun taleyini həll eləyə bilmərəm... Öz ailəmdə ki mənim sözüm keçməlidi! Öz ailəmdə ki mən deyən olmalıdı! Mən belə şeylərlə barışa bilmərəm, Ruqiyyə xanım, barışa bilmərəm... Gör bir Murada neçə dəfə demişəm ki, Qərinənin arxasınca getsin, mən deyirəm, mən eşidirəm, tutub bir məktubun yaxasından! Məktub belə gəldi, məktub belə getdi. Nə fərqi var ki, hər şeydən əli üzülən anda qadın nə yazıb? Gedib onu tapmaq, gözünün içinə baxmaq lazımdı. Bütün sualların cavabını kağız parçasında yox, onun gözlərində axtarmaq lazımdır! Gör bizim kişilər, Qafqaz ərənləri ruslaşa-ruslaşa nə günə qalıblar? Sovet dəymədüşəri olublar! Ərlə arvadın arasını hansı məktub kəsə bilər? Doğrudanmı, bir parça kağıza insandan artıq inanmaq mümkündür? Bəyəm bu mədəniyyətdir?!
Ailəvi şam yeməyindən qabaq İbrahim babam, həmişə olduğu kimi, namaz qılmağa getdi. Açılmış süfrə arxasında onu bir xeyli gözləsək də, gəlib çıxmırdı ki, çıxmırdı. Mən də bilirdim ki, namaz qılan adama mane olmaq böyük qəbahətdi, amma buna baxmayaraq, axşamlar, əsasən, bizimlə bir yerdə şam edən atam bir qədər də gözləyəndən sonra yerindən qalxıb babamın namaz qıldığı otağın qapısını açdı və birdən-birə qəhərqarışıq səslə qışqırdı:
- Ata!!!
Biz nəslin başçısını itirdiyimizə inandıq, yerimizdəcə donub qaldıq və anladıq ki, bu ölüm bizim ocağa çevrilən bağımızdan ötrü nə deməkdir! Mənə elə gəldi ki, bu sehrli bağın qapıları həmişəlik bağlandı.

## XXXII FƏSİL

Babamı itirməyimlə mən sındım və anladım ki, heç zaman belə sarsılmamışam. Azərlə mən bir-birimizə qısılıb hönkür-hönkür ağlayırdıq və mənə elə gəlirdi ki, babamın ölümü, ailəmizə üz vermiş bu kədər bizi bir daha yaxınlaşdırır. Bəs necə olmalı idi? Axı biz o bağda keçirdiyimiz günlərə görə məhz İbrahim babama borclu idik. O bizim nəslin qalası, hamını öz ətrafında birləşdirən məhvəri idi. "Yaxşı nə vardısa, hamısı onunla getdi", - Azər söylədi... Bu həqiqətdən ən çox dəhşətə gələn də bəlkə elə o idi...
Matəm günlərində mənə elə gəlirdi ki, bütün dünya qara geyinib, həyat öz mənasını itirib. Babamın birinci cüməaxşamında bizimlə üzbəüz binada yaşayan Camal dayı mərasimin axırında atama yaxınlaşdı və üzünü Həsən əmimə tutub dedi:
- Mənim sizdən bir xahişim var...
Mən də bilirdim ki, arıq, ağbaş Camal əmi bir neçə ay qabaq oğlu Tərlanı nişanlayıb. Onu da eşitmişdim ki, qız evi oğlan evini tələsdirir ki, gəlini tez aparsınlar... Onu da deyim ki, babamın yeddisi çıxana kimi Camal əmi də, oğlu Tərlan da yas mağarından çıxmamışdılar, özlərini yas yiyəsi kimi aparmışdılar.
Həsən əmim:
- Buyur, ay qonşu, - dedi, - sözünü de.
Camal dayı əmimin üzünə baxmadan: xeyir işimiz var, yaxın qonşu kimi mərhumun qırxını gərək gözləyək, ancaq bu ona görə mümkün deyil ki, dəvətnamələri paylamışıq, Moskvadan belə qohumlarımız gəliblər, gərək bizi başa düşəsiz, toyu təxirə salmaq imkanımız xaricindədir.
Atam böyük qardaşının üzünə baxdı, Həsən əmim dedi:
- Xeyirlə şər qardaşdılar, - dedi, - gedin toyunuzu eləyin, bizə göstərdiyiniz diqqətə görə də çox sağ olun.
İki gündən sonra Tərlanın toyu oldu, amma babamın xatirəsinə hörmət naminə maşınlarla gəlini gətirməyə gedəndə maşınlar uzun-uzadı siqnal çalmadılar, çox da hay-haray salmadılar. Toy sahibləri - yəni bizim qonşularımız çalğıçılara necə təpinmişdilərsə, onlar öz zurna-balabanlarını qız evinə çatandan sonra qoltuqlarından çıxartdılar və "Vağzalı" çalmağa başladılar. Bizim ailəmizdə qərara aldılar ki, qonşu toyuna Azəri göndərsinlər, amma o, atamın ona cavanların toyuna kömək məqsədilə uzatdığı ağzı bağlı konverti əlinə alandan sonra üzünü mənə tutdu və pıçıltıyla soruşdu:
- Mənimlə toya gedərsən?
Bu təklif məni diksindirdi:
- Sən nə danışırsan? - dedim, - mən dünən nəslimizin ağsaqqalını-babamı itirmişəm, bu gün toya gedim?
Azər incik halda cavab verdi:
- Doğrudanmı, sən elə fikirləşirsən ki, mən ora əylənməyə, deyib-gülməyə gedirəm? Mən sakitcə bu konverti bəy evinə çatdıracam və qayıdacam, tək getməyə həvəsim yoxdu...
Amma mənə elə gəldi ki, yox, həvəs bəhanədi, Azər məni tək qoymaq istəmir, ona görə də yerimdən qal-

xıb ona qoşuldum. Azər taksi əyləyib "8-ci kilometrə" - "Xarı bülbül" restoranına sürdürdü. Hələ toy başlamasa da, toyxananın girəcəyində ağız deyəni qulaq eşitmirdi: geyinib-bəzənmiş qadınlar-kişilər içəri girirdilər və toy sahibini təbrik eləyirdilər. Azər də gətirdiyimiz konverti "toy pulu" yazanın qarşısında açdı və üç yüz dollarını ona verdi və sonra da öz əli ilə "toy dəftərcəsinə" yazdı: "İbrahim kişinin oğlanlarından - 300 dollar". Qulaqbatırıcı musiqilərin sədaları altında restorandan çıxanda mən dözə bilmədim:
- Bizim elə bir toyumuz çatmırdı, -dedim, - konvert təqdim etmək üçün taksi tutub "8-ci kilometrə" maşın sürdürməyə dəyərmi?
- Əlbəttə, dəyər, Balaca, - Azər inamla cavab verdi, - bizim gücümüz də elə bundadır; insana hörmət, çətinə düşənə, ehtiyacı olana qayğı və heç nədən asılı olmayaraq, qarşılıq gözləmədən...

XXXIII FƏSİL

Babamın vəfatından sonra atam təkid elədi ki, Ruqiyyə nənəm onun yanına köçsün və bu da o demək idi ki, mən də yenidən öz evimizə qayıtmalıyam. Ruqiyyə nənəm bir qədər tərəddüd etsə də, nəhayət ki, bütün ömrünü İçərişəhərdə babamla bir yerdə yaşadığı mənzilin qapısını bağlamalı oldu və biz bir axşam yığışdıq hər qarışı mənə anamı andıran mənzilimizə. Bu ərazi mənim bir zamanlar oxuduğum köhnə məktəbə yaxın olsa da, mən ora qayıtmadım. Atamın sürücüsü hər səhər məni məktəbə aparır və dərsdən sonra da qarşılayırdı. Mən dərsdən çıxanları qarşılayanlar arasında, əvvəllər olduğu kimi, məğrur baxışlı, əzəmətli babamı görməyəndə gözlərim yaşarırdı və evə çatan kimi özümü xeyli arıqlamış, bir dəri, bir sümük qalmış Ruqiyyə nənəmin qucağına atırdım.

Babamın ölümündən sonra Ruqiyyə nənəm çox təsirlənib sıxılmışdı, elə bil boyu da balacalaşmışdı. Axı, onun çiyninə daha bir ağır vəzifə düşmüşdü, nəinki övladları, hətta yaxın qohumlar da ona ağbirçək kimi yanaşırdılar, onunla hesablaşırdılar və nənəm də babamdan sonra çiyninə düşən bu adın məsuliyyətini hiss eləyirdi və hərdən mənə deyirdi ki, daha ona yanılmaq, səhv etmək olmaz, çünki ağbirçəkdi.

Əvvəllər olduğu kimi, Novruz bayramı ərəfəsində bütün qızlar, gəlinlər nənəmin başına cəmləşirdilər, şorqoğalı, paxlava, şəkərbura bişirərdilər. Payızda isə ona görə bizə yığışırdılar ki, nənəmin məsləhəti ilə badımcan, bibər, kələm turşusu qoysunlar. Yay aylarında nənəm, bir qayda olaraq, mürəbbə bişirərdi; həm özümüzə, həm Həsən əmimgilə, həm də Fatimə bibim üçün. Amma əvvəllər olduğu kimi əzəldən boynuna düşən bu vəzifənin öhdəsindən, darmacallığa baxmayaraq, evdə gəlirdi, çünki daha bağa köçmək söhbətini arabir biz uşaqlar yada salsaq da, səsimizə səs verən olmurdu. Babam kimi bağımız da unudulurdu. Ola bilsin ki həyat elə bu sayaq da davam edəcəkdi, əlbəttə, qəfil bir məsələ meydana çıxmasaydı... Babamın vəfatından iki il keçəndən sonra Nazlı xalanın təkidləri, təhdidləri qarşısında aciz qalan atam qərara aldı ki... evlənsin.
Öz qaynının evlənməsini dönə-dönə israr edən Nazlı xalanın bu işin təməlini qoyması, arvad axtarması, elçiliyə getməsi məni çox pərişan elədi. Münasib qadını da o özü tapmışdı. Axı, Nazlı xala bir zamanlar mənim anamla çox mehriban idi. (Sonralar mənə bəlli oldu ki, o özü üçün, öz xeyrinə çalışırmış, çünki Həsən əmimin vəzifə pillələri ilə yüksəlməsində arvadı erməni olmuş qardaşının ictimai durumu böyük maneə ola bilərdi). Bu qarışıqlıqda mənim anamın "boş qalmış yerini" tutmaq üçün namizədi Nazlı xala özü seçmişdi, bu Füzuli rayonundan qaçqın kimi Bakıya gələn, Qarabağ müharibəsində nişanlısını itirmiş Dilbərdi. Otuz yaşında olan Dilbər xanım zahirən kifayət qədər məlahətli görünürdü. Və ilkin məlumata görə gözləri işıqlı olmasa da olduqca incə sifət cizgilərinə malik olan bu qadın hələ də nişanlısına yas saxlayırmış, başında qara yaylıq gəzdirirmiş və ikinci dəfə taleyini sınamağı ağlına da gətirmirmiş. Amma qohumlarının söz kəsənliyi nəhayət ki, onu təslim olmağa vadar eləyib və bu da onunla nəticələnib ki, o, bizə gəlib çıxıb və yorulmaq bilməyən Nazlı xalanın, onun şərəfinə təşkil etdiyi gecədə müttəhim misalında bizim qarşımızda dayanıb. Məlahətli qonaqla, mənim o gecə səliqə-sahmanına xüsusi diqqət vermiş, üzünü təraş eləmiş atam, demək olar ki, bir-birilərinin üzünə də baxmırdılar, amma mən onların ikisinə də göz qoyurdum və görürdüm ki, hərdən ani, ötəri də olsa, bu məclisdə onların ikisinin də üzünə təbəssüm qonur, görünür, elə bu səbəbdən də, sabahısı gün bizim evdə toya hazırlaşmağa başladılar. Amma atam sözünü qətiyyətlə dedi:
- Heç bir toydan söhbət gedə bilməz!
Amma Nazlı xala etirazını bildirdi:
- Necə yəni? Bu nə sözdü? Nəzərə almaq lazımdır ki, Dilbər qızdır, başına fata qoyulmayıb, biz də müsəlmanıq, adət-ənənəyə hörmətlə yanaşmalıyıq, axı bu, insan həyatında bir dəfə olur.
Mən sonralar başa düşdüm ki, Nazlı xalanın bu canfəşanlığı nədən ötrü imiş? Sən demə o istəyirmiş ki, bu hadisədən hamı xəbər tutsun, ələlxüsus daərini tanıyanlar.
Amma toy söhbətini atam çözələnməyə qoymadı. Qəti şəkildə, israrla:
- Öz rayonumuzun zaqsına gedərik, bununla da məsələ bitər, - dedi, - artıq heç nə lazım deyil.
Nazlı xala bu dəfə incik halda səsini qaldırdı:
- Yəni bu bədbəxtə gəlinlik donu geyindirib, Səadət Sarayına aparsaq, dünya qopar? Heç olmasa, rəsmi qeydiyyatdan sonra yaxınları bir restorana yığaq, qoy onlar da bilsinlər ki...
...Heç kim bilməsə də, Nazlı xala nə elədiyini bilirdi. O günlər mən ona necə də nifrət bəsləyirdim. Axı nə

üçün mənə və mənim anama qarşı yönəlmiş bu alçaqlıq onun əliylə-mənim Azərimin anasının əliylə həyata keçirilməli idi?! Amma Fatimə bibim və Ruqiyyə nənəm mənim tərəfimi saxlayırdılar. Mən deyəndə ki:
- Mənim anam daha gözəldi! -Onlar dərhal mənimlə razılaşdılar.
Mən açıq-aşkar hiddətimi bildirib söyləyəndə ki:
- Bu yaşda toy etmək camaatı özünə güldürməkdi! -Onlar dərindən köks ötürdülər, bir-birinin üzünə baxdılar və bir xeyli için-için ağladılar...
Atam isə o günlərdə çeşidli hədiyyələrlə mənim gözümə kül üfürürdü. Əsl tərbiyə isə onunla ölçülür ki, gərək öz colma-cocuğunla həddindən artıq məzələnməyəsən; bu, yazılmamış qanundu, amma büsbütün unudulmuşdu. Bir-birinin ardınca atamın mənə bağışladığı hədiyyələr - bahalı zinət əşyaları, dəbdə olan kostyumlar, donlar, çəkmələr. Bir sözlə, hər hansı bir cavan qızın həsrətində olduğu şeylər qətiyyən könlümü açmır, məni sevindirmirdi...

## XXXIV FƏSİL

...Və beləliklə, toya hazırlaşmağa başladılar. Məni ən çox təəccübləndirən o oldu ki, bizim evdən ilk növbədə servizləri, qab-qacaqları, mətbəx dəstlərini, işlənməmiş mələfələri, süfrələri - bir sözlə, anamın illərlə alıb topladığı şeyləri qutularda yerbəyer eləyib aparmağa başladılar.
Atamın sürücüsünün sözündən bildim ki, o bu əşyaları nənəmin İçərişəhərdə boş qalmış evinə aparır. Nənəm isə bütün günü Fatimə bibimlə əlləşirdi ki, sınmaq ehtimalı olan şeyləri karton qutulara elə yerləşdirsin ki, sonra peşmançılıq olmasın. Amma mən anlaya bilmirdim ki, bu həngamə nədən ötrüdür. Ona görə də Fatimə bibimdən soruşdum:
- Siz neynəyirsiniz?
Bibim ortalıqdakı dolu qutuları nişan verib:
- Bunlar sənin cehizlərindi, gözümün işığı, - dedi, - bunları ögey ananın ümidinə qoymaq düz olmazdı.
Mən bibimin sözünə qarşı çıxdım:
- Burda mənim atam yaşayacaq, -dedim, - ev sahibi də atamdır, o yox ki...
- Elə atan da tapşırıb ki, evi qaydaya salaq, - nənəm izahat verdi, - sənin cehizlərinin innən belə qorunduğu yer mənim evim olacaq.
Mən cehizlərimi səliqə ilə qablaşdıran nənəmə və bibimə göz qoyurdum və içimdə ikili bir duyğu oyanırdı. Bir yandan baxanda, xoşdu, sənin qayğını çəkirlər, digər tərəfdən isə, anamın illərlə mənim adıma alıb topladığı bu şeylər doğma evdən həmişəlik çıxarılırdı.
Məni daha çox heyrətə gətirən isə, o gecələrin birində Ruqiyyə nənəmin qətiyyəti oldu: şübhəsiz ki, o məni yatmış zənn eləyirdi, yoxsa atamla o tərzdə danışmazdı, o ki qaldı mənə, mən o günlərdə atamla nənəmin gecə söhbətlərinə xüsusi maraq göstərirdim, bağlı qapı arxasından hər şeyi eşidirdim.
- Murad, qurban olum sənə, mənim ən böyük arzum odur ki, bu nigah sənə xoşbəxtlik gətirsin. Bu cür həyat sənin qismətindi, çalış ki, məni düzgün anlayasan. Mən təzə gəlinlə bir yerdə yaşayan deyiləm. Mən qət etmişəm ki, köçüm öz evimə, demək, bu məsələ həll olunub, məni yumşaltmağı ağlına da gətirmə, o ki qaldı Aidəyə, bu məsələ də müzakirə oluna bilməz: qızı mən burda qoymayacam, o mənimlə gedəcək. Çünki...
Atam onun sözünü kəsdi:
- Sən nə danışırsan, ay ana? Necə yəni burdan köçürsən? Bu nə söhbətdi?
- Burda qəribə heç nə yoxdu, -nənəm cavab verdi, ayrı yaşayanda söz-söhbət də meydana çıxmır, hörmətli olursan. O ki qaldı Aidəyə, nə qədər ki sağam, qız mənimlə yaşayacaq, mən gözüm baxa-baxa onu ögey ana əlinə verə bilmərəm!
- Ana, - atam mütəəssir halda başını buladı, - Siz nə vaxta qədər gəlinə belə yanaşacaqsınız? Sən onu ötəri görmüsən, tanımırsan, niyə sənə elə gəlir ki, Dilbər pis gəlin olacaq, nədən sənə elə gəlir ki, o bir ögey ana kimi mənim qızımı incidəcək? Doğrudanmı, sən başa düşmürsən ki, qıza ana lazımdır?
- Mən bu həyatda çox şeylər görmüşəm, - nənəm cavab verdi, - sənə bəri başdan söyləyim ki, yığışdır bu səfsəfəni, heç kim Aidəyə anasının yerini verə bilməz. Çalış ki, özün xoşbəxt olasan, qızı isə yaralama!
Atam, deyəsən, yenə nənəmlə razılaşmadı:
- Sən nə danışırsan, ay ana, -dedi, - anasız qız olmaz, qıza ana vacibdir! Dilbər çalışacaq ki, evdə rahatlıq yaratsın, mənim qızıma da elə bu lazımdı, ona böyük bacı, bəlkə də ana olar.
Ruqiyyə nənəm səsini qaldırdı:
- Bəyəm onun anası yoxdur?
Atam yenə narazılıqla:

- Axı onun anası bizi atıb, qaçıb, qız da tək böyüyür, - dedi, - niyə sənə elə gəlmir ki, qız əsl ailədə böyüsə, daha çox görüb-götürər, xoşbəxt olar?
- Belə de! - Nənəm inamla cavab verdi, - yad qadının hökmranlıq etdiyi evdə-baxmayaraq ki, onun öz evidir, - o yaşaya bilməz, hər şey ona anasını xatırladacaq. Dilbər çox cavandı, təcrübəsizdi, Dilbər, ola bilər

ki, Aidəni təsadüfən yaralasın, mən bunu bağışlamaram. Fəlakəti görmək və xəbərdarlıq etmək -indi mənim vəzifəm, borcumdu.
Əvvəl qonaq otağında atamın atdığı addımların, sonra özünün səsi eşidildi:
- Bəs tanıyan-bilən mənə nə söyləyər, ana? Deməzlərmi ki, bu necə kişidir ki, doğma anasını, balasını bir damın altında tək qoyub?..
- Doğrudanmı, bu səni narahat eləyir? - nənəm dedi, - amma bu əsas məsələ deyil, şərt odur ki, hər kəs ürəyi istədiyi kimi yaşasın...
Gözlənilmədən, nənəmin mənim tərəfimi necə saxladığını hiss etdiyimdən içimdə toy-bayram başlamışdı. Əlbəttə, ata evində onun yeni arvadı ilə bir yerdə yaşamaq qətiyyən ürəyimcə deyildi, Ruqiyyə nənəmin inamla məni müdafiə etməsi, halıma yanması o anlarda məni bəxtiyar eləmişdi.
Beləliklə də biz nənəmlə yenidən İçərişəhərə qayıtdıq. Və mən məktəbə tək getməyə başladım, çünki Əliyev Respublika prezidenti seçiləndən sonra şəhərdə vəziyyət sakitləşmişdi, ictimai asayiş bərpa olunmuşdu, quldurluq, soyğunçuluq kimi anarxiya hallarına son qoyulmuşdu.

## XXXV FƏSİL

Biz nənəmlə İçərişəhərə köçəndən sonra atam hər axşam bizə baş çəkirdi. Mütləq gündəliyimi açıb baxırdı, ev tapşırıqlarımla maraqlanırdı, sonra soyuducunun qapısını açırdı ki, görsün nəyə ehtiyacımız var. Həftənin sonunda isə o gəlirdi ki, bizi öz evinə qonaq aparsın. Belə günlərdə, baxmayaraq ki, Dilbər var gücü ilə çalışırdı ki, mehriban ev sahibəsi rolu oynasın, mən başa düşürdüm ki, bu məndə və xüsusən də Ruqiyyə nənəmdə özünə qarşı xoş təəssürat yaratmaq üçündü və bu səbəbdən bu görüşlər mənim üçün işgəncəyə çevrilirdi.
Bir dəfə şam yeməyindən sonra biz həmişə olduğu kimi televizorun qarşısında oturmuşduq. Dilbər ailəmizdə peyda olandan sonra biz çalışırdıq ki, mavi ekranda narahatçılıq gətirən verilişlərə, qada-qırğına baxmayaq. Amma televizorda iki qrossmeysterin, dünya çempionu keçmiş bakılı, yarısı erməni Qarri Kasparovun, bakılı, 13 yaşlı dünya çempionu azərbaycanlı Teymur Rəcəbovla keçirdiyi oyun translyasiya olunurdu.
Əvvəllər mən heç vaxt atamı belə coşqun görməmişdim: bizim yeniyetmə Teymur təcrübəli dünya çempionuna qalib gəldiyinə görə uşaq kimi qışqırırdı, sevincindən ağlayırdı. Mən də öz həmyerlimizin şərəfinə sevincimdən əl çalırdım. Müxbir müsahibə almaq niyyətilə Qarri Kasparova yaxınlaşanda, Qarri öz imicinə baxmayaraq, kobud tərzdə, qəfildən jurnalistin üstünə qışqırdı ki, ondan əl çəkib aralansın.
- Hiddətlənirsən, eloğlu? Sənə hələ bu da azdı! - Qəfildən atam səsini qaldırdı. - Gərək çoxdan sənin burnun beləcə ovulaydı! Bakıda doğulub böyümüsən, burdan adam arasına çıxmısan, amma bu münaqişənin nizamlanması üçün barmağını barmağına toxundurmamısan. Yaşasın bizim Teymur! Qoy bu bizim erməni işğalçıları üzərindəki qələbəmizin ilk işarəsi olsun!
Bir cavan Azərbaycan şahmatçısının anası erməni Qarri Kasparov üzərində qələbəsini təntənə ilə coşqunluqla qeyd etsək də, Dilbər xanım özünü çox toxtaq, səbrli aparırdı, heç ermənilərin adını çəkmirdi və məhz elə bu da məni haldan çıxardırdı. Kaş elə o da bütün adi azərbaycanlılar kimi açıq şəkildə onların arxasınca tüpürəydi, onları lənətləyəydi, bir sözlə, hansı bir yollasa ədalətsizliyə qarşı öz münasibətini nümayiş etdirəydi! Baxmayaraq ki, bütün telekanallar erməni terrorçularının Azərbaycan kəndlərində müsibətlər törətməsi barədə xəbərlər yayırdı, Qarabağın hüdudlarından çıxaraq Azərbaycan kənd və qəsəbələrini yağmalayan qatı düşməni yamanlayırdı, mənim ögey anam inadla susurdu və mənə elə gəlirdi ki, Dilbərin özünü belə aparması, ermənilərin ünvanına bir kəlmə də söz deməməsi mənə görədi və bu saxtakarlıqdı. "Guya mənə görə danışmağa qıymır?!" Mən baxışlarımı onun üzündən çəkmirdim və onu beləcə əzmək istəyirdim. Axı birdən-birə qocalmış, son illərin hadisələri qara saçlarına dən salmış atamın yanında ona nə deyə bilərdim? Sözümü ürəyimdə, öz-özümə dedim: "Təki sən xoşbəxt ol, atacan, mən hər şeyə dözəcəm, təki sənə xoş olsun".

## XXXVI FƏSİL

Ancaq çox keçmədi ki, mən xoş simalı Dilbərin qarnının dikəldiyini görəndə məyus oldum və atamdan bərk incidim. Bundan sonra sanki məni əlaltından dəyişdilər. Mən təsəvvürümə gətirəndə ki, mənim ciddi görkəmi ilə başqalarından seçilən atam cavan arvaduşkası ilə nə oyunlardan çıxır, gecələr yuxum çəkilir, yata bilmirdim. Mən göz yaşı axıda-axıda dişlərimi qıcayıb onun qarasına bircə kəlmə söz dedim: "Xəyanətkar".
Çox keçmədi ki, onların ilki dünyaya gəldi. Oğlan doğmağın da yolunu yaxşı bilən Dilbər son dərəcə məğrur və ədalı idi. Məni xəstəxanaya-onun yanına aparmırdılar, amma Ruqiyyə nənəm, Fatimə bibim, Nazlı xala və əmim, bibim qızları kimi qundağı əldən-ələ ötürülən balaca eybəcərin bürüşmüş sevimli üzünə baxmaq mənə də nəsib oldu. Amma mən onların sevincinə şərik olmadım, əksinə, kədərləndim ki, bizim evimizdə Dilbərin anası Kübra xala-mən ürəyimdə ona Kobra xala deyirdim -tam hökmranlıq eləyəcək. Çağanı öncə Ruqiyyə nənəmə təqdim etdilər. Qundağı ehmalca nənəmin qolları üzərinə qoyan, gözlərində tamahkarlıq qaynayan, saçlarını səliqə ilə arxaya darayan, xırda boylu, ütük Kübra xanım əda ilə:
- Al öz nəvəni, nənəsi, - dedi, - axı o, istəyir ki, onun gələcək adını onun qulağına şəxsən sən pıçıldaya-

san, xeyir-dua verəsən, adını mən verdim, bəxtini Allah versin deyəsən.
Kübra xala dildən də zirəkdi, Ruqiyyə nənəm kimi dilsiz-ağızsız deyildi, amma o anda üzünün-gözünün işıqlandığı, həyəcanlandığı hiss olunsa da, Kübra xalanın cavabını verdi:
- Qoy cavanlar özləri ad qoysunlar, - dedi, - necə istəyirlər, mən heç zaman belə anlarda öz övladlarımın işinə qarışmamışam.
Ağzı tikiş tutmayan Kübra xala sözünə davam elədi:
- Onda icazə verin körpənin valideynlərinin razılığı ilə adını ata babası İbrahim kişinin şərəfinə İbrahim qoyaq!
Kübra xala balaca eybəcərin qundağını nənəmin qolları üstündən götürüb Fatimə bibimə uzatdı və bibim nə üçünsə kövrəlib ağladı. Astadan:
- Atam!-dedi və sonra üstündə sonuncu rus imperatorunun şəkli olan qızıl sikkəni çağanın anasına təqdim elədi, Ruqiyyə nənəm isə barmağındakı brilyant qaşlı qədim üzüyü çıxardıb Dilbərin barmağına keçirtdi:
- Üzün ağ olsun, qızım, - dedi, - adı ilə böyüsün!
Kobra ətrafını əda ilə süzüb özündən müştəbeh halda gərnəşdi. Mənə heç gözünün ucu ilə də nəzər salmadı və mən bir xeyli bu hadisələri kənar adam kimi izlədim və hiss elədim ki, atamın oğlu olması münasibətilə qadınlar, qızlar dil boğaza qoymasalar da, hütüləyə-hütüləyə, kəkələyə-kəkələyə özlərini gözə soxsalar da, mən bir kənarda qalmışam və tamam unudulmuşam! Mən hiddətimdən yanırdım: dünənəcən bu evin ən sevimli uşağı ola-ola, büsbütün yaddan çıxmışdım! Əslində isə, atamın evlənməsinə görə hamı mənə minnətdar olmalıydı, axı atam evlənməyə razılığı məndən almışdı. Fikirləşirdim ki, mən bu izdivaca razılıq verməsəm, Dilbər oğlan doğa bilərdi? Hələ də heç kim bilmirdi ki, atamın evlənmək söhbəti ailəmizdə çözələnəndə, o məndən nə soruşub?
- Aidam! Körpə balam, inan mənə, əgər sən narazı olsan, mən heç vaxt evlənməyəcəm! Heç vaxt!Yadında saxla: bu dünyada sənin ürəyimdəki yerini heç kim tuta bilməz...
Bu, atamın ikilikdə mənə dediyi sözdü. Bəs nə oldu? Bir bürüşmüş soxulcana görə mən yaddan çıxdım, keçdim arxa plana?
Deyəsən, nələr çəkdiyimi Ruqiyyə nənəm hiss elədi və məni səslədi:
- Gözümün işığı, bəs sən öz qardaşını qucağına almaq istəmirsən?
Bir anda hamı susdu, maraq dolu baxışlar mənə sarı yönəldi.
- Bizim Ayka uşaqları çox sevir, - Fatimə bibim dedi və görünür, bununla da Dilbərin anası balaca insancığazı anasından alıb mənə yaxınlaşanda diqqəti mənə sarı yönəltmək istədi.
...Mən dinməzcə, sir-sifətimin ifadəsini dəyişmədən balaca İbrahimin qırmızı üzünə tamaşa eləyirdim və qulağımın ucuyla eşidirdim ki, qadınlar nədən qürrələnirlər:
- Dörd kilodu! Əsil Qerkulesdi!
Bu anda körpə balaca ağzını açaraq yorğançasına sürtdü, içini çəkdi və hələ heç vaxt belə balaca uşaq görməsəm də, mənə elə gəldi ki, o, döş istəyir! Buna görə də gülümsədim və gözlərimi Dilbərə zillədim ki, körpə qardaşımın nə istədiyini sezməyimi ona anladım. Amma elə bu anda da gördüm ki, əda ilə pərqu döşəkdə uzanıb dirsəklənmiş Dilbər narazılıqla məni süzərək anasına göz-qaş eləyir ki, körpəni məndən alsın. O da dərhal üstümə elə gəldi ki, sanki gülməşəkər nəvəsi zalım, üvey bir qızın əlinə düşmüşdü. Mən qəlbimi didib-parçalayan bu münasibətdən təsirləndim və demək olar ki, qundağı Kobraya vermədim, qucağına tulladım. Birbaş anamın keçmiş yataq otağına sarı qaçdım, içəri keçdim və Nazlı xalanın mənim ünvanıma dediyi sözü apaydın eşitdim:
- Onu da anlamaq lazımdır. Amma eybi yox, gün gələcək ki, qısqanclığı da tərgidəcək!
"Qanmaz!" - az qalmışdı ki, mən bu sözü var səsimlə dilimə gətirim, amma özümdə qüvvə tapa bildim.

## XXXVII FƏSİL

...Və sonra da naxoşladım. Əminəm ki, mənim xəstəliyim o anda başladı. O anda ki, mənim öz evimdə iki yad insafsızcasına xətrimə dəydilər; guya mən körpəyə xətər yetirə bilərdim... Dərindən yaralansam da, təhqir olunsam da, içimdə çəkdiyim acıları heç kimlə bölüşmədim və hiss elədim ki, körpəyə qarşı da tamamilə biganəyəm. Mənə düşməncəsinə yanaşılandan sonra mən bu körpəni necə sevə bilərdim? Üstəlik də büsbütün unudulduğum halda, bu körpənin doğulması xəbərini hər yana yaymışdılar, hətta uzaq qohumlar belə zəng vururdular, gözaydınlığına gəlirdilər. Hətta, hərdənbir bizə baş çəkən atam da bir qədər oturan kimi körpəni yada salıb bəxtiyar bir insan kimi onun haqqında danışırdı. Bir dəfə isə təbəssümlə soruşdu:
- Qaqaşın yanına gedəkmi? Darıxmırsanmı ondan ötrü?
Mən cavab vermədim, başladım dərslərimi oxumağa, atam hesabını götürdü və yerindən qalxıb oğlunun yanına tələsdi. Göz yaşlarım üzümə çıxmadı, onları damla-damla uddum: mənə elə gəldi ki, heç vaxt belə yalqız olmamışam.
Körpə üçaylıq olan gün Ruqiyyə nənəm hələ bir neçə gün öncə aldığı toxunma kostyumu, alabəzək oyuncaqları və bir sini şəkər-çörəyini götürüb uşağı görməyə getdi. Mən çox çətinliklə də olsa, üzürlü səbəb tapıb evdə qala bildim, yalandan söylədim ki, dərslərimlə bağlı ciddi problemlərim var və oturub hazırlaşmalıyam.
Oxumağa həvəsim olmadığından vaxtı öldürmək üçün televizoru açdım. Mən o axşamı tənha keçirməli

idim, çünki Azər də müəllim yanına getmişdi. Televizorda da bir fərli veriliş tapmadım və bərk darıxmağa başladım. Birdən mənzilə çökmüş sükutu şəhərlərarası telefon xidmətinin uzun-uzadı zəngi pozdu. Mən dəstəyi qaldırdım və anamın son dərəcə doğma səsini eşidib sarsıldım. Yerimdəcə mıxlanıb qaldım...
- Aida, canım mənim, bu sənsən?
Mən onun göz yaşlarını görməsəm də, səsindəki qəhərdən hiss eləyirdim. O sözü sözə, sualı suala calasa da, mən cavab vermirdim, susurdum. Heç gözlərim də yaşarmırdı, sanki qəlbim buz bağlamışdı. Mən hədsiz dərəcədə sarsılmışdım, bilmirdim özümü necə aparım. Kaş heç o zəng etməyəydi!
Anam isə əlaqəsiz şeylər danışırdı, bir zamanlar, hələ lap körpə olarkən məni səslədiyi, əzizlədiyi adlarla çağırırdı, haçansa məni ovutmaq üçün zümzümə elədiyi melodiyanı yada salırdı ki, bəlkə o qaçandan sonra aramıza çökmüş ayrılıq buzlarını əridə bilsin.
- Ayka! Ayım-günəşim mənim! - Məni harayladı, -mənim balam, doğrudanmı sən məni unutmusan? Mən bütün bu illər ərzində səninlə olmuşam. Sənə dua etmişəm, hər dəqiqə səni düşünmüşəm!
Nəhayət ki, dözməyib səsimi çıxartdım ki, yüngülləşəm:
- Nə üçünsə mən bunu hiss etməmişəm!
- Vaxt gələr, mənim balam, sən hər şeyi başa düşərsən, bilərsən ki, mənim öz doğma ocağımdan qaçmağım sənin xətrinədir.
Mən onun sözünü hirs-hikkə ilə kəsdim:
-Sənin təzə uşaqların var?
Amma deyəsən o məni başa düşmədi. Soruşdu:
- Bu nə sözdü? Sən nə danışırsan?

- Sən məni atmısan, ona görə yox ki, sonradan mənim üçün göz yaşı axıdasan, ona görə ki, yenə balalayasan! Onlarıdamı atacaqsan, quş balası kimi?
- Gözəl balam, mənim heç zaman nə yeni ailəm olacaq, nə yeni uşağım. Mən bir dəfə sevmişəm. İndi mən sənə görə yaşayıram. Bakıdan qaçmaq cəhdim də sənə görədi. Ayka, inan mənə, mən nə etmişəmsə, sənin gələcəyini, sənin xoşbəxtliyini düşünmüşəm. Mən sizi əvvəlki kimi sevirəm. Səni, nənəni, bütün qohumları, atanı...
- Nahaq yerə sevirsən, - mən bir qədər də amansızcasına səsimi qaldırdım, - qohumlar səni çoxdan unudublar, atam isə evlənib.
Sözün bu yerində anam susdu, mən isə bu xəbərlə onu nə hala saldığımı hiss etdiyimdən qərara aldım ki, güzəştə getməyim, onu kəsinliklə sındırım:
- Onun uşağı olub. Özü də oğlan. Adını da bilirsən nə qoyublar? İbrahim. Babamızın şərəfinə.
Mən ucadan gülməsindən onun necə sevindiyini, şadlandığını hiss edəndə heyrətə gəldim.
- Bilirəm, canım-gözüm, elə buna görə də zəng etmişəm, - anam dedi, - yadındadımı, sənə verdiyim məktubla bağlı dediyim söz? Hə, indi o məktubu atana çatdırmağın məqamıdır. Qoy oxuyub həqiqəti bilsin, qəlbi iztirabdan qurtarsın. Yaz mənim Moskva nömrəmi ki, mənimlə əlaqə saxlaya biləsən...
Bizim telefon söhbətimiz bir saata qədər uzandı. Mənə məlum oldu ki, mənim anam daşnak-kirvələrlə qohumluğa görə bütün nəslə qarşı təhlükə yarandığından, o, xəlvətcə qaçmaq qərarına gəlib, yazdığı o dəhşətli məktubda da qəsdən elə ifadələr işlədib, terrorçulara qoşulan qardaşının yanında olmaq istədiyini bildirib ki, atam onu axtarmasın. O, atamdan dönə-dönə xahiş edibmiş ki, onu rahat buraxsın və o öz həyatını yaşasın. O ki qaldı mənim o günəcən açmadığım, sirr saxladığım məktuba, sən demə, o məktubda anam öz hərəkətini bütün incəliklərinə kimi xırdalayırmış ki, lazımlı məqam yetişəndə o, anamın sədaqətinə inansın. Anamın fikrincə, lazımi məqam deyəndə, elə o atamın təzə arvadının dünyaya övlad gətirməsini nəzərdə tuturmuş. Atamın onun ardınca Moskvaya yollanmasını arzulamasa da, sən demə, anam bütün bu illər ərzində səbrlə gözləyib, çünki anam tam əmin imiş ki, atam öz ailəsini atmağa qadir adam deyil. Bircə şey yalnız Allaha məlumdur: axı o necə görə bilərdi ki, müəyyən vaxt keçəndən sonra atam evlənəcək, bu yeni izdivacdan dünyaya körpə gələcək və bu uşağın doğulması xəbərini də ona, sən demə, bütün bu ötən illər ərzində vaxtaşırı ona zəng edən Fatimə bibim yetirəcək...

## XXXVIII FƏSİL

Anamın və onun valideynlərinin fotoşəkillərini, həmçinin o müəmmalı məktubu müqəddəs ayə kimi qoruyub saxladığım sandıqçanı açıb naməni götürən kimi qərara aldım ki, özümü Fatimə bibim gilə yetirim. O, keçmiş Basin, son illər isə Füzulinin adını daşıyan, qədim Bakının arxitektura örnəklərindən olan yüksək tavanlı evdə yaşayırdı. Bakı milyonçusu Hacinskinin əsrin əvvəllərində tikdirdiyi bu bina, köhnə zamanların inşası olmasına rəğmən, ikimərtəbəli evlərin arasında əsl malikanə təsiri bağışlayırdı. Amma indi məni o evə aparan o binanın gözəlliyi deyildi. Mən tələsirdim. Fikirləşirdim ki, o ünvana gedib çıxmaq üçün ən azı onbeş dəqiqə nəqliyyat gözləməliyəm, onbeş dəqiqəyə də avtobus mənzil başına ancaq çatar, ona görə də küçədən keçən ilk taksiyə əl elədim.
Artırmaları iki-iki tullana-tullana, döngəli pilləkənlə üçüncü mərtəbəyə qalxdım və yalnız qapının düyməsi-

ni basandan sonra rahat nəfəs aldım. Onun ağır-ağır qapıya yaxınlaşdığını, addım səslərini eşidəndə isə bir qədər də sakitləşdim. Etiraf etməliyəm ki, mən bu qəfil gəlişimlə bibimi qorxuya saldım. Mən dəlicəsinə onun çiyinlərindən yapışdım, başımı sinəsinə çırpıb havalı kimi qışqırdım. Bir xeyli beləcə hönkürüb ağlayandan sonra sakitləşdim və məni divana uzadıb balla limonlu çay gətirən bibimə başımı yüngülcə tərpətməklə təşəkkür elədim. Ayaqlarımı yun şalla bükəndən sonra da altına qrelka qoyan bibim əllərimi, ayaqlarımı ovcalaya-ovcalaya atama zəng elədi, amma onların nə danışdığını eşitmədim, bir də gözümü açdım ki, atam mənim uzandığım divanın ayaq ucunda oturub anamın məktubunu oxuyur.
O bir xeyli başını ovucları arasına alıb sussa da, qəfildən yerindən qalxdı və yeyin addamlarla dəhlizin o başındakı masanın üstünə qoyulmuş telefona yaxınlaşdı.
- Sən neynəmisən, Kara? - O, bir xeyli nömrə yığandan sonra dəstəyə pıçıldadı, - Mənə belə əzab vermək hardan ağlına gəldi?
Mən sevincimdən xoşallanıb gözlərimi yumdum. Axı, o, anama əvvəllər olduğu kimi "Kara" demişdi! Fikirləşirdim ki, əgər atam anama belə müraciət eləyirsə, demək, ötən günləri də qaytarmaq mümkündür. Fatimə bibim dəhlizdəki ara qapını örtəndən sonra yenə yanımda əyləşdi, əllərimi ovcuna aldı və atamın anamdan nə soruşduğunu, o nə söylədiyini eşitmədim.
- O, onun ardınca gedəcək, elə deyilmi?
Amma nə üçünsə Fatimə bibim mənim bu sualımın kəsə cavabından qaçdı. Amma:
- Qurban olum sənə, elə bilirsən ki, bu məsələ qəlizləşməyib? - dedi.
- Burda qəliz nə var ki? Əgər mənim anam meydana çıxıbsa, izah eləyib, hər şeyi anladıbsa, qoy yad qadın öz uşağını da götürüb onun yerini boşaltsın! O zaman ona da, anası Kobraya da aydın olacaq ki, valideynlərindən ayrı düşmüş uşaq nələr çəkir!
Mənə elə gəldi ki, valideynlərim keçmişdən danışıblar, keçən günləri yada salıblar. Çünki sonra atam otağa qayıdan kimi mənim yanımda oturdu, üzümə günahkar kimi baxdı, baxdı... və deyəsən gücü yalnız ağlamağa çatdı. Mən güclü və inamlı bir kişinin necə ağlamasına tamaşa eləyirdim və fikirləşirdim ki, mənim nəyə isə ümid bəsləməyimin heç bir əsası yoxdur, çünki baş verən yanlışlıqları düzəltmək mümkün deyildi.
Mən pəjmürdə halda divandan qalxa-qalxa atamdan soruşdum:
- Mən gərək məktubu sənə elə o vaxt - anam bizi tərk edəndə verəydim, elədimi?
Sanki bu sualdan sonra atama ayan oldu ki, mən onun yanındayam, üzgün halda, qüssəli baxışlarla məni süzdü və qəmli-qəmli:
- Sən hər şeyi düz eləmisən, mənim balam,-dedi, - hər şeyi tərsinə edən bizik, biz! Görəsən, sən haçansa bizi bağışlaya biləcəksənmi?
Atam məni köksünə sıxdı və bu dəfə ikimiz də ağladıq... Doğrudanmı biz uzun illər keçəndən sonra bir-birimizi tapmışıq ki, yenidən ayrılaq?

## XXXIX FƏSİL

- Uşaq bərk sarsıntı keçirir! - doktor İsmizadə dedi, - o, tamamilə yaşlı adam kimi əzab çəkir, el təbirincə söyləsəm, şam kimi əriyir, əgər onun müalicəsinə ciddi yanaşılmasa, ağır nəticələrə gətirib çıxarda bilər.
Həyəcanlanmış qohumlar günahkarcasına mənə baxırdılar. Üstümə salınmış ağ mələfə hərdən gözüm baxa-baxa qaralır, rəngini dəyişirdi. Arıqlamağım, gündən-günə sozalıb-saralmağım hamını çaşdırmışdı, mənim isə daha yaşamağa həvəsim qalmamışdı.
Gecə-gündüz yatağımın yanını kəsdirən atam əzab, iztirab içində soruşdu:
- Bu nə oyundu sən mənim başıma açırsan, qızım?
"Bəs siz mənim başıma nə oyun açmısınız, xəbəriniz var?" Beləcə bu sualın cavabını ürəyimdə bəlağətlə verdim və bildim ki, müsahibim aciz qalacaq. Bu mənim aləmimdə özünəməxsus qisas üsuludur. Qoy girinc olsunlar, tapsınlar görüm, mən nə düşünürəm, nə barədə fikirləşirəm? O ki qaldı Azərə, o məni bircə dəfə üzümə baxmaqla anlayırdı. Və mən bunu dərhal hiss eləyirdim.
Anamla uzun-uzadı telefon danışıqlarımız arxada qalmışdı və təbii ki, mən onu inandırmağa çalışmışdım ki, o, beynəlmiləl ənənələrinə yenə də sadiq qalan Bakı şəhərində ömrünün axırına kimi rahatca yaşaya bilər.
Telefon söhbətlərimizin birində mən:
- Ay ana, bizim Bakı, faşist Yerevanın tayı deyil, - dedim, - ordan ermənilər bütün azərbaycanlıları, eləcə də digər millətləri qovdular, Ermənistanı çevirdilər birmillətli dövlətə, bizim Azərbaycanda, bizim Bakıda isə o hadisələrdən sonra məlum oldu ki, iyirmi min erməni yaşayır. Bu faktdı və bu gün də Bakıda o ermənilərə gözün üstdə qaşın var deyən yoxdu. Bu faktı bu yaxınlarda bizim prezidentimiz də hamıya bəyan elədi. Ərazisinin iyirmi beş faizi ermənilər tərəfindən işğal olunmuş Azərbaycanda bu gün də ermənilər yaşayır və işləyir! Bu, tarixdə görünməmiş hadisədir. Azərbaycan xalqı bu fakta - sülhsevərliyə və tolerantlığa görə Nobel mükafatına layiq görülməlidir!
Mən belə alovlu monoloqlarımla anamda əminlik yaratmağa çalışsam da, anam ciddi şəkildə, yorulmadan məni inandırmaq istəyirdi, deyirdi ki, dayım Ruben erməni terror təşkilatının liderlərindən biridir və aradakı qohumluğa görə, ola bilər ki, yalnız sənin rəhbər vəzifədə olan atan yox, həm də Həsən əmin, həm də sən cəzalanasan.

"Doğrudanmı, bir Rubenə görə bu qədər adam bədbəxtliklə üzləşə bilər?"
- Bəli, qızım, təəssüflər olsun ki, bu belədir. Bir də görürsən ki, bir başdanxarab manyaka görə yüzlərlə, minlərlə günahsız adam məhv oldu.
Növbəti telefon söhbətində isə:
- Ay ana, mən sənin yanına gəlmək istəyirəm, - dedim, - əlbəttə, tək yox, Azərlə, nənəmlə, atamla.
Anam nə üçünsə inamsız halda cavab verdi:
- Baxarıq...
Atam mənim təklifimə "yox" deməsə də, Moskvaya getmək imkanı olmadığını dərhal bildirdi, qocalıb əldən düşmüş anasını da mənə qoşmağa qıymadı, qaldı Azər, onu da valideynləri mənə qoşulub Moskvaya getməyə qoymadılar, xahişimi də yerə saldılar.
Bu zaman mən Fatimə bibimə ağız açdım, amma onun həmişə balıqdan danışsa da, "nə ət, nə balıq olan" salyanlı əri bu dəfə iradə nümayiş elətdirdi, sinəsini qabağa verib dedi ki, arvadını Moskvaya getməyə qoymur. Mövcud rədd cavabı da, məlum oldu ki, dayım Rubenlə bağlıdı, sən demə o, heç cür razı ola bilməzmiş ki, arvadı erməni terrorçusunun bacısı ilə görüşsün.
- Qoy yay tətili başlasın, mən özüm səni Moskvaya aparacam, - Azər dedi, -özün bilirsən ki, Murad əmi artıq orda görünə bilməz!
Fatimə bibim xəlvətcə mənə bildirdi ki, anamdan xəbər çıxan gündən atamın ailəsində başlamış münaqişə ara vermir. Qısqanc Dilbər tamaşalar göstərir, atamın ciblərini yoxlayır ki, görsün Karinadan məktub almayıb ki? Bu gedişlə, əlbəttə, atam məni Moskvaya necə apara bilərdi? Son zamanlar mən o ağızdanyava sağsağana-Nazlı xalaya bir də ona görə nifrət bəsləyirdim ki, anamın telefon zəngi və məktub haqqında Dilbəri o məlumatlandırmışdı. Yabançı ki, yabançı. Bizim ailədə hamı sirr saxlamağı bacarırdı, ondan başqa.
Uzun illər keçəndən sonra doğma ananın harda olduğu sənə ayan ola, amma onu görməyə gedə bilməyəsən... hələ nəyi isə gözləyəsən... bax, elə bu səbəbdən də mən sarsıntı keçirdim, depressiyaya uğradım...

## XXXX FƏSİL

Nahar fasiləsində bizə gəlib çıxan atam gözlənilmədən:
- Mən səni Antalyaya aparacağam, - dedi.
Bu xəbər hər hansı bir yeniyetmə qızı bəlkə də heytərə gətirər, sevindirərdi, ancaq məni yox, çünki harada olmağın həqiqətən də məndən ötrü heç bir fərqi yox idi. Onu da bilirdim ki, ən məşhur Türkiyə kurortu kimi adı hallanan Antalyada dincəlməyə, rifah içində yaşamağa qadir olan bütün azərbaycanlılar can atırdılar. İnamla irəliləməklə bizim ölkəmiz inkişafda idi, ancaq azad bazar iqtisadiyyatın bütün sahələrini sarmışdı. Televiziyada Ərəb Əmirliklərinin, Türkiyənin, Yunanıstanın, İspaniyanın kurortları reklam edilir, yeni azərbaycanlılar bu istirahət ocaqlarına dəvət olunurdular.
Biz yola çıxmağa hazırlaşanda əmim qızları mənə necə qibtə etdiklərini, necə həsəd apardıqlarını gizlədə bilmirdilər, mırtdanıb-deyinirdilər. Azər də mənim kimi onların bu hərəkətini soyuqqanlılıqla qarşılayır, çalışırdı ki, heç söhbətə qoşulmasın. Amma vidalaşanda mənə dedi:
- Əminəm ki, sən Antalyadan sonra tamam yaxşılaşacaqsan.
Mən səmimi-qəlbdən dilləndim:
- Mən belə düşünmürəm.
Bizi aeroportdan yola salmağa bütün ailə gəldi, yalnız bu məqamda Dilbər bizi bəxtiyar eləmədi, o da uşaqla məşğul idi.
Biz mənzil başına çatanda günorta idi və o yerlərin ilahi gözəlliyi məni heyrətə gətirirdi.
- Sən bir o səmtə bax, Ayka!-Atamın mənə heyrətlə nişan verdiyi yerin mənzərəsi dərhal diqqətimi çəkdi: dağlar zümrüd dənizin qoynundan dikəlirdi.
- Hə, gözəldi! -Mən dodaqucu mızıldandım.
Bizim yerləşdiyimiz beşulduzlu hoteldə hovuz, tennis kortu, gözəl restoranlar, sauna və massaj kabinetləri vardı.
Atam mənə iki yerlik nömrəni nişan verib:
- Sən bu otaqda yaşayacaqsan, - dedi, - mən də üzbəüzdə, etiraz etmirsən ki?

O həqiqətən də şeylərini qarşıdakı üzbəüz nömrəyə yığdı və elə o andan da, demək olar ki, istirahətə başladı, üzü-gözü gülür, necə deyərlər, işıq saçırdı. Düzü, atamın belə açıq-aşkar şadlanıb sevinməsinə görə mən xəcalət çəkirdim.
"Hamıya bəyan eləyirdi ki, xəstə qızını müalicəyə aparır, amma sən demə kefə gəlirmiş..." Elə bu düşüncə ilə də aranı qatmaq istədim, amma atam mənim ovqatımdan xəbər tutmadı.
- Gedək şam eləyək, sonra dincələrsən, sabahdan yeni həyata başlayırıq,-atam təntənə ilə dedi, -hələ düz dörd həftə burdayıq.

"Bu dörd həftədə mən burda qüssədən ölə bilərəm!" -amma mən narazılığımı dilimə gətirmədim, bu qənaətə gəldim ki, heç eybi yox, belə bir şey baş versə, lap yaxşı, planetin ən gözəl bir guşəsində ölərəm; və elə bu düşüncə də məni sakitləşdirdi.
Sabahısı gün səhər yeməyindən sonra atam mənə məsləhət gördü ki, su ən xeyirli müalicədi, özümü vurum hovuza, o isə çox vacib bir işi olduğu üçün beş-on dəqiqəliyə məni tək qoyacaq.
"Yenə başladı, - ürəyimdə incidim, - hətta kurortda da işsiz keçinə bilmir. Görünür, özüm özümü müalicə etməliyəm".
Atam şən halda mənimlə xudahafizləşdi və restoranı tərk elədi. Mən otağa qayıdıb yumşaq divanda bir qədər uzanandan sonra əynimi dəyişib hovuza getdim ki, nahara qədər vaxtımı orda keçirim: çimim, günəş vannası qəbul eləyim. Göz yaşı kimi hovuza baş vuranda və sərin sudan ləzzət alanda, fikirləşdim ki, hər halda, yaşamaq o qədər də pis şey deyil; əlbəttə, müharibə görmədən, belə dilbər guşələrdə gününü keçirə bilirsənsə...
Artıq mən saçımı qurulayıb otağa qayıtmışdım, aram-aram koka-kola içirdim və fikirləşirdim ki, daha neynəyim, qapı döyüldü. Mən yerimdən qalxmadan:
- Buyurun! - dedim.
Ağır-ağır aralanan qapı içəri mənim anamı ötürdü! Qocaldığı hiss olunsa da, əvvəllər olduğu kimi gözəl və şux idi.
- Ayka! - O, qollarını mənə sarı açdı.
- Ana! - Mən ona sarı atıldım, onun qolları arasında, qoynunda özümə yer elədim və mənə elə gəldi ki, keçirdiyim bütün sarsıntıları, depressiyanı saçlarımda gəzən, tellərimi oxşayan əlləri bircə anda canımdan çıxartdı. -Bəs bu vaxtacan sən harda idin?
Üzündən, gözündən şadlıq, şadyanalıq yağan atamdan dəstək alan anam qarşımda diz çökmüşdü, dayanmadan məni öpürdü, ağır-ağır, aramla, nəfəsini dərə-dərə bədənimin bütün əzalarına toxunurdu. Atam isə hələ də anamın iri çantasını yerə qoymamışdı və deyəsən heç fərqində də deyildi ki, ağappaq qar kimi köynəyinə göz yaşları iz salır...

## XXXXI FƏSİL

İlahi səadət anları başladı: biz yenə bir yerdə idik! Biz yenidən ailə olmuşduq; baxmayaraq ki, bu ailə cəmi dörd həftə mövcud olacaqdı, mən yetərincə razıydım. Atam mənim otağımda yerləşdi və elə bu da mənim xoşuma gəldi, çünki atam onu danışdıranda belə, mən onun üzünə baxa bilmirdim. Ancaq restorana üçlükdə gedirdik, dəniz sahilinə gəzintiyə də bir yerdə çıxırdıq və yəqin ki, hotel sahiblərinin həsəd dolu baxışları da bizim mehribanlığımızla bağlı idi, yəqin ki, sadəlövhcəsinə, bizə ən nümunəvi ailə kimi qibtə eləyirdilər...
Hotelin xidmətçiləri anama "yengə" deyə müraciət edəndə mən sevinirdim, çünki bilirdim ki, onlar yalnız qardaşın arvadına "yengə" deyirlər və atamdan tələb eləyirdim ki, onlara bəxşiş versin. Deməliyəm ki, atam bütün şıltaqlıqlarıma məmnuniyyətlə əməl eləyirdi, ərköyün uşaq hərəkətlərimə səmimi-qəlbdən gülürdü. Bizdən "Siz Azərbaycandansınız?" deyə soruşanda, mən ona görə heyrətləndim ki, bu suala öncə anam cavab verdi, özü də türkcə: "evet..." Mənimlə yanaşı dayanmış atam mənim müdaxiləm olmadan, yalnız gülümsəməklə kifayətləndi. Amma mən özümü lap şıltaq uşaq kimi aparırdım, sanki bununla səhhətimin bərpa olunması üçün, anasız olduğum illərdə içimdə yaranmış boşluğu dolduracaqdım.
Bizim otaqlarımızı silib-süpürən, dolu bədənli, incə səsli Merel abla atamdan bəxşiş alanda son dərəcə sevinirdi.
O, təmizkar olduğu qədər də, çoxbilmişdi.
- Nədən sizin eşiniz sizinlə yok, konşu odada əglənmiş? Nədən sizin yalnız bi tanə cocuğunuz var?
O, bu və buna bənzər suallarla bizə üz tutanda anam rəng verib, rəng alırdı. Nəhayət ki, onun cavabını mən özüm verdim:
- Atamın ürəyi xəstədir, həkimlər məsləhət görür ki, o, ayrıca yatsın...
- Vay... Yazıq... Geçmiş olsun! - Xadimə canıyananlıqla dedi. Amma mən bilmədim ki, o, kimin halına acıyır? Ər nəvazişindən məhrum olmuş anamın, yoxsa zahid həyatı keçirməyə məcbur olmuş "xəstə" atamın? Baş sındırmadan, acıqcan bu ehtiramı öz ünvanıma götürdüm.
Mən atamın xəstə olduğunu uyduranda anam fəxarətlə məni süzdü, görünür, hiyləgərlik sahəsindəki inkişafım onu məftun eləmişdi, amma bununla belə, mən bu sahədə nə qədər irəli getsəm də bizim xadimənin bütün suallarına cavab verə bilməzdim.
- Eşinin həp yalnız dolarla hesablaşmasının nədəni nə? Sizin öz paranız yokmu? - Merel abla soruşdu.
Anam tərtəmiz Azərbaycan dilində:
- Əlbəttə var, adı da manatdır, - dedi, - amma nədən bizim ölkədə dollar geniş yayılıb, mən bilmirəm...
Amma, atam yenə də hər gün dollar səpələyirdi və mən onu anlayırdım: matəmdən sonra gələn bayramda qazanc güdmürlər. Xoşbəxtlikdən üzü-gözü işıq, nur içində üzən atam şam yeməyi zamanı restoranda tost deyəndə boynuna aldı, etiraf elədi ki, bu dünyada ondan ötrü ən sevimli qadınlar bizik. Mən bu sözdən qanadlandım, çünki bütün cismimlə-canımla hiss elədim ki, o, düzünü deyir. Və mənə elə gəldi ki, nəhayət ki, mənimlə əzəldən qəddarcasına davranan Dilbərdən və onun Kobra anasından öz intiqamımı aldım. Amma yenə də, hər halda, qəlbimin dərinliyində anlayırdım ki, mövcud vəziyyətdə başıbəlalı Dilbər

də günahsızdır, bizim kimi o da həyat tərzinin, şəraitin qurbanıdır. Və bütün bunları anlaya-anlaya mən yenə də ona haqq qazandıra bilmirdim, əksinə, aramıza girdiyinə görə ona nifrət eləyirdim.
Atam isə hər yerə girib-çıxırdı ki, mənə, anama yaxşı şeylər alsın. Sanki anamın, bilərəkdən özünü saldığı ağır və kədərli günlərinin əvəzini qır-qızılla qaytarmaq istəyirdi:
- Məni məzələndirmə, Murad, - anam şaşqın halda dilləndi.
- Bəs səni mən yox, kim məzələndirsin? - Atam cavab verdi və olduqca zərif, qızıl boyunbağını onun boynuna keçirdi.
Mən aralıdan onlara baxırdım və xoşbəxt anlar yaşayırdım...
Amma iki həftədən sonra bizim coşğunluğumuz əriyib dibinə çatan şam kimi öləziməyə başladı. Və biz söhbətləşməkdən yorulmadığımız ilk günlərdən fərqli olaraq, axşamları müəmmalı sükutla keçirməli olduq. Keçirdiyim sarsıntıdan-depressiyadan əsasən xilas olmağım, məndə yeni duyğular oyadırdı; hiss eləyirdim ki, bir-birinə son dərəcə məhəbbət bəsləyən, ikilikdə qalıb bir-birilərinə canlarını vermək istəyən iki nəfərin cəmiyyətində artığam.
Onları ikilikdə qoyub yenə dəniz sahilinə getdim. Sahildə bir xeyli veyillənəndən sonra doğma sahillər üçün qəribsədim. Ağ dənizin isti, mavi sularına baş vuranda isə fikirləşirdim ki, dənizlər də ölkələr kimi fərqlidir. Mən Baltik dənizində də, Qara dənizdə də çimmişdim və indi fikirləşirdim ki, heç biri bizim Xəzər qədər gözəl ola bilməz. Nə üçün? Yəqin ona görə ki, o, ana kimi doğmadı.

## XXXXII FƏSİL

Bir dəfə yenə dənizə baş vurub çıxandan sonra anamın mənə Moskvadan gətirdiyi, üstündə iki öpüşən delfinin təsviri, Çin məhsulu olan iri dəsmalın üstündə nə görsəm yaxşıdır? Ağappaq bir qərənfil. Cin vurdu təpəmə. Ürəyim döyünməyə başladı, mənə elə gəldi ki, döyüntüsünü ətrafımdakılar da eşidir. Sağımda, solumda isə Avropa ölkələrindən dincəlməyə gəlmiş cavanlardı. İki öpüşən delfinin arasına qoyulmuş qərənfilə baxa-baxa fikirləşirdim: bəlkə mənə aşiq olan var? Öz-özümə deyirdim: yaxşı, belədirsə, bu adam hardan bilir ki, mən ağ qərənfilin dəlisiyəm?
Əllərim əsə-əsə qərənfili yerdən qaldırdım və ətrafıma, yaxınlığımdakı cavanlara göz gəzdirməyə başladım. Hərə öz işində idi: kimi uzanıb kitab oxuyur, kimi nə isə toxuyur, kimi də öz istəklisi, rəfiqi ilə mırt vururdu, heç mənə gözünün ucuyla da baxan yoxdu. Bəs onda bu ağ qərənfili mənim dəsmalımın üstünə kim qoyub? Mənim ağ qərənfil dəlisi olduğum kimə məlumdur? Bu dünyada bir adam bilir ki, mən ağ qərənfil vurğunuyam, o da Bakıdadır...
Ağlıma qəribə fikirlər gəldi. Yəni belə şey ola bilər? Doğrudanmı bu təsəvvüfdü? Mən uzandım, qərənfili dodaqlarıma yaxınlaşdırdım və nəhayət, anladım ki, bu günlər mənim nəyim çatmır? Birdən-birə Azərdən ötrü bərk darıxdım və hiss elədim ki, daha evə qayıtmaqdan savayı heç bir istəyim yoxdur. Baxmayaraq ki, neçə illər anamın həsrəti ilə yaşamışdım və nəhayət, onu tapmışdım, indi dostum üçün darıxırdım; ona zəng etməyə də imkan yoxdu, çünki atamın yanında əmioğluma zəng vurmağım nə dərəcədə anlaşılardı? Üstəlik də Ruqiyyə nənəm də, Fatimə bibim də bu zəngdən xəbər tuta bilərdilər və çox haqlı olaraq fikirləşərdilər ki, xeyir ola bu qızın Antalyada otura-otura Bakıda Azəri axtarması? Fikirləşirdim bu tale, bu qismətdi; kimi sevirəmsə, onun xiffətini çəkməliyəm, nə üçün bütün adi adamlar kimi anamın və istəkli dostumun yanında olmaq mənə qismət deyil?!
Bir damla acı göz yaşı yuvarlandı yanağıma; və onun izilə biri də gəldi... Ancaq məni hər deyəndə tapa bilməyən göz yaşlarımın yanağımda açdığı izi qəfildən isti, odlu-alovlu öpüşlər qurutdu. Yerimdən dikəldim və heyrətə gəldim: mənimlə yanaşı qumun üstündə oturan özgəsi deyildi!
- Doğrudanmı, sən Azərsən? - Heyrət içində soruşdum, - Sən bura necə gəlib çıxmısan? Yoxsa, mən yuxu görürəm?
Özümü çimdiklədim ki, özümə gəlim, inanım, əmin olum ki, bu yuxu deyil. Amma o, əlimi ovcuna alıb bərk-bərk sıxandan sonra dedi:
- Xoş gördük, Balaca!
Sevincdən həyəcanlandığımdan, bilmirdim özümü necə aparım, nə söyləyim. Amma Azər mənim bu halıma məhəl qoymadan bir işbaz səriştəsi ilə:
- Gəl burdan gedək, - dedi, - Murad əmi ilə Karina xala məni görməsinlər.
Bu söz də məni heyrətə gətirdi, astadan soruşdum:
- Sən mənim anamın burda olduğunu bilirsən?
Azər gülümsədi:
- Ayka, mən iki gündür ki, burda sənin keşiyini çəkirəm, - dedi, - amma sən heç zaman tək olmursan.
Onun sözündə həqiqət vardı: atam mənə ciddi şəkildə tapşırmışdı ki, hotelin istirahətə gələnlər üçün nəzərdə tutulmuş ərazisindən çıxmayım və özü də məni bir ailənin mənimlə yaşıd qızları ilə tanış etmişdi və bu səbəbdən də mən demək olar ki, tək qalmırdım.
- Sən dükanlara tərəf get, - Azər dedi, - mən arxadan gəlib sənə yetişərəm.
On dəqiqə sonra biz səkidə yanaşı oturmuşduq və Azər mənim suallarıma cavab verirdi.
Yox, yox, evdə onun Türkiyədə olduğunu bilmirdilər. Sən demə, valideynlərini aldadıb ki, guya dostları ilə Nabrana gəzməyə gedir. Yox, o, burda cəmi bir həftə qala bilər. Yox, o, Murad əmisi ilə ona görə görüşmək istəmir ki, onu çaşdırıb şübhəyə sala bilər. Bəli, o, başa düşür ki, anamın Antaliyaya gəlib çıxması

hamı üçün sirr olaraq qalmalıdır. Hələ sən demə, o, Bakıda məndən ötrü dəlicəsinə darıxıb...
Beləcə, öz maraqlarıma son qoyandan sonra mən onun ağuşuna atıldım:
- Sən igidsən, - dedim, - bəs sən bizi necə tapdın?
- Sənin hələ on altı yaşın tamam olmasa da, mən çoxdan yetkinlik yaşına çatmışam, - Azər cavab verdi, - mən sadəcə onu bilirdim ki, bizim valideynlərimizə putyovkanı kim verir. O ki qaldı hoteli tapmağa, bu çətin iş deyil.
Bu anda məni bir məsələ də narahat elədi:
- Bəs sən harda yatacaqsan?
- Qonşu hoteldə, üçulduzluda, - Azər gülümsədi, - Axı, mən sehrbaz deyiləm, mən yalnız öyrənirəm...

XXXXIII FƏSİL

Azər bizim ailəni tapmaqda ona kömək etmiş türk dostlarını mənimlə tanış elədi. Bacı-qardaş Xəlil və Selda Qaya turistlərə bələdçilik eləyirdilər və pis qazanmırdılar. Mən bilmirəm Azər onlara nə qədər bəxşiş vermişdi, amma ertəsi gün incə, zirək Selda mənim valideynlərimə yaxınlaşdı və onları inandırdı ki, məni Antalyaətrafı ekskursiyadan sağ-salamat qaytarıb gətirəcək. Atam ürəyi əsə-əsə, razılıq versə də, Seldanın pasportunu alıb o üzünə, bu üzünə baxdı, bəzi qeydlər və Seldanın mobil telefonunun nömrəsini götürəndən sonra soruşdu:
- Haçan qayıdırsınız?
Heç bilmədim necə oldu ki, mən Seldadan qabaq cavab verdim:
- Axşamtərəfi!
Biz ekskursiya səfəri barədə yalan uydurub vicdanımız qarşısında bir balaca xəcalətli qalsaq da, biz yaddaqalan bir həftə keçirtdik və Azərin icarəyə götürdüyü maşınla Antalyaətrafına da səfər elədik. O, çoxdan maşın sürmək üçün sənəd almışdı, o ki qaldı pul-paraya, Həsən əmim yeganə oğluna qarşı çox səxavətli idi. Biz yalnız Ağ dənizin sularında bir az üzmək niyyətinə düşəndə maşını əyləyirdik, təbii ki, çiməndən sonra iştaha da gəlirdik və yol qırağında bir-birindən səliqə-sahmanlı kafelərdə qovrulmuş şabalıd qarışdırılmış, türk mətbəxinin özünəməxsus qaydaları ilə hazırlanmış isti qamburgerləri, dönər kabablarını, lahmacunları barmaqlarımızı yandıra-yandıra yeyirdik.
Azərin Bakıya yola düşməsinə bir gün qalmış Xəlil Qaya bizi Ağsəki deyilən yerə gətirdi. Məni əhalisi sənətkarlıq və ovçuluqla məşğul olan bu qəsəbənin yaranışdan gələn gözəlliyi - bakirəliyi məftun elədi. Ağsəki qəsəbəsi, adına Gedən-gəlməz deyilən azman dağların ətəyində yerləşir.
Mavi gözlü Selda danışırdı ki, bu qəsəbədə yaşayan hər ailənin əfsanəsi var və hekayətlərdə dağların qoynuna gözəl dərisi olan heyvanları ovlamaq üçün gedən və müəmmalı şəkildə geri dönməyən insanlar zaman-zaman anılır və elə bu səbəbdən də bu yerlər Gedən-gəlməz adlanır.
O, cəsur insanları düşünə-düşənə ovçulara öz qoynunda əbədilik sığınacaq vermiş, o dağlara baxanda özümdən asılı olmayaraq ağzımdan belə bir söz çıxdı:
- Mənə elə gəlir ki, mən öz vətənimdə, mənim doğmalarıma artıq öz qoynunda sığınacaq verən "Gedən-gəlməz" dağı ilə çoxdan üz-üzə gəlmişəm...
Azər məni dərhal anladı və ehmalca çiyinlərimdən tutub özünə sıxdı.

XXXXIV FƏSİL

Azər gedəndən bir həftə sonra biz aeroporta gəlmişdik ki, anamı Moskvaya yola salaq.
- Yenidən məni xoşbəxt günlərə qaytardığına görə çox sağ ol, Murad!
Bilmirəm anamın səsindəki titrəyişi atam da mənim kimi hiss elədi, ya yox? Amma günahkar kimi başını aşağı saldı:
- Sən sağ ol, əzizim, -dedi, -sədaqətinə görə. Bacarırsansa, bağışla...
Anam məni sinəsinə sıxdı, gülümsədi və mənə də elə gəldi ki, onun təbəssümündə bir özgə çalar da var.
- Mən həmişə səninləyəm, səninlə də olacam, -anam dedi, - mənə zəng elə və söz ver ki, yaxşı oxuyacaqsan, qəbul imtahanlarında başımızı ucaldacaqsan...
Mən arxadan ona baxırdım; o, incə, zərif olduğu qədər də zirəkdi və mənə elə gəlirdi ki, o, mənim ürəyimin bir parçasını məcazi yox, sözün həqiqi mənasında özüylə aparır.
Biz atamla Bakıya yaxşıca dincəlmiş, qaralmış, gümrah qayıdırdıq və mənə elə gəlirdi bizim ümumi sirrimiz öz işini görüb, atamın evlənməsilə bağlı aramızda yaranmış buz divarlar əriməyə başlayıb. Ailənin sevimlisi olduğumu sezdiyimdən içimdə özümə qarşı böyük inam yaranmışdı və ikiqat həvəslə dərslərə başlamaq olardı.
Sovet İttifaqı dağılandan, Azərbaycan müstəqil Respublikaya çevriləndən sonra çox şeylər dəyişdi. Hətta şəhərin siması da; cəmiyyət də təzələndi, yeni qəzetlər, jurnallar meydana gəldi, Bakıda xarici firmalar, kompaniyalar bərqərar oldu. Mövcud dəyişikliklər təhsil sistemində də baş verdi; şəxsi liseylər, kolleclər, ali təhsil ocaqları yarandı. Yaxşı təhsil vəd etməyən adi məktəblər gözdən düşdü və atam məni "Vətən" adlı bahalı şəxsi gimnaziyaya düzəltdi ki, burda da dərslər həm Azərbaycan, həm də ingilis dilində keçirilirdi.
Gimnaziyada cəmi səksən, hər sinifdə isə on gimnaziyaçı vardı. Gimnaziyanın zahirən mötəbər ziyalı təsi-

ri bağışlayan direktoru Salam müəllim öz şagirdləri üçün fərdi proqram seçmişdi və gimnaziyaçıların bilik səviyyəsi üçün şəxsən məsuliyyət daşıyırdı. Müəllimlər şəhərin ən yaxşı universitetlərindən dəvət olunmuşdu. Sən demə, o təhsil ocaqlarında bu istedadlı müəllimlərin əməyi onların biliyi ilə müqayisədə lazımınca qiymətləndirilmirmiş. Amma biz pedaqoji kollektivimizin səviyyəsi ilə öyünməyə bilməzdik.
Əsl bioloq Aydın müəllim, kamil kimyaçılar Əlipaşa müəllim və Aliyə xanım, istedadlı alim-riyaziyyatçı Fuad müəllim, dahiyanə fizik Ədalət müəllim bizi öz bilikləri və bacarıqları ilə məftun eləmişdilər. Afonyanın yüz ildən qalma qaydalarla keçdiyi dərslər unudulmuşdu. Yeni qaydalarla tədris olunan, sərbəst düşüncəyə meydan açan, təzə pedaqoqların fundamental biliyinə əsaslanan öyrətim qaydaları nəticəsində elm öyrənmək Sovet zamanının əzablarından fərqli olaraq fərəh gətirirdi.
Əgər Ədalət müəllim astronomiya elmini əyani şəkildə anlatmaq üçün bizi Bakıdan Pirquluya, Şamaxı dağlarında yerləşən astrofizika rəsədxanasına aparırdısa, buna necə şadlanmayasan? Ədalət müəllim bizə söyləyirdi ki, məhz dahi Azərbaycan alimi Nəsirəddin Tusinin tərtib etdiyi xəritə Kolumba imkan verib ki, Amerikanı kəşf etsin. Öz pedaqoqlarımızla necə öyünməyəydik ki, onların sayəsində gedib "Ulduz" elektrik cihazları zavodunu da gəzdik. Bakı Dərin özüllər və hələ 1975-ci ildən məhsul buraxmağa başlayan məişət kondisionerləri zavoduna da gedib çıxdıq. Yapon texnologiyası ilə təchiz olunan bu istehsalat müəssisəsi hələ Sovetlər zamanında Azərbaycanın iqtisadiyyatını qaldırmışdı...
- Sovet iqtisadiyyat sistemi elə hiyləgərcəsinə qurulmuşdu ki, o kondisionerin hansı bir vinti, ya boltusa qonşu respublikalardan gəlirdi və bu, əslində ona görə idi ki, bütün ölkə bir-birindən asılı olsun, - zavodlarımızın nə üçün dayanması ilə bağlı sualımıza Aydın müəllim cavab verərkən dedi, - Respublikalar arasında tarazlıq yaratmaq Sovetlərin əlində idi, məsələn, iqtisadi cəhətdən kasıb Ermənistan varlı Azərbaycanın təbii resursları hesabına yaşayırdı.
Gimnaziyanın pedaqoqları bizi düşünməyə səsləyirdilər, keçilmiş yollarla getməyə yox. Biz dünyanı yenidən dərk etməyə başlamışdıq.
- Siz harda yaşayacaqsınız və hansı şəhərdə işləyəcəksiniz, bu mühüm deyil, - Əlipaşa müəllim dedi, - əsas məsələ odur ki, qazandığınız bilgiləri öz xalqınızın və insanlığın xeyrinə sərf edəsiniz. Haçansa ideoloji zəncirlərlə çidarlanmağımıza baxmayaraq, mənim bütün ümidim sizədir.

Yenə də müəllimlərimdən biri istəklimə çevrildi. Bizə tarix dərsi deyən Ülviyyə Hikmət qızına vuruldum. Biliyi aşıb-daşan, çox gözəl danışıq qabiliyyəti olan Ülviyyə xanım çox keçmədi ki, bütün məktəbin sevimlisinə çevrildi. Onun təşəbbüsü ilə yazda bir sıra dərsləri məktəbin avtobusu ilə getdiyimiz Qobustan Tarix və İncəsənət Qoruğunda keçdik.
Biz artıq bilirdik ki, Bakının altmış kilometrliyindəki, tarixin müxtəlif kəsimlərinin - mezolit, neolit, tunc, dəmir dövrlərinin izlərini özündə yaşadan açıq səma altındakı bu muzey-qoruq Azərbaycan maddi mədəniyyətinin ən qiymətli abidələrindən biridir. Dağlar arasındakı Böyükdaş, Kiçikdaş, Çingirdaş və Yazılı təpələrinin üzərində alimlər minlərlə insan, heyvan təsvirləri üzə çıxartmışdılar ki, bunlar da ibtidai insanın gündəlik həyat tərzindən xəbər verirdi. Bizim qürur hissilə əcdadlarımızın həyatını əks etdirən Qobustan qayalarına baxırdıq: savaş, ovçuluq müqəddəs ənənələrdən soraq verən qurbanlıq səhnələri ilə üz-üzə dayanırdıq. Daşlar üzərində bizim ulu babalarımızın həyatını əks etdirən şəkillər bu torpaqda incəsənət növlərinin-musiqinin, rəqsin, təsviri sənətin mövcudluğundan, qədim azərbaycanlının dünyagörüşündən xəbər verirdi. Biz təsvirlərlə zəngin qayaları aşa-aşa heyrətimizi ifadə eləyirdik:
- Tur Heyerdal boş yerə Azərbaycanı qədim insan məskənlərindən biri adlandırmayıb ki, - Ülviyyə müəllimə fəxrlə söylədi və sözünə davam elədi, - uşaqlar, deyin görüm bu qayalarda elə təsvirlər varmı ki, bizim bugünkü həyatımızı əks etdirsin?
- Əlbəttə var, - Qasım cavab verdi, - bax bu təsvir bizim oyun havası "Yallı"nın eynidir.
Ülviyyə müəllimə gülümsədi:
- Elədir ki, var, - daha nə müşahidə etmisiniz bugünkü həyatımızla bağlı?
Sərdar səsini qaldırdı:
- Bax o şəkildə bir qızın necə qaçırılması təsvir olunub, - hamı ucadan güldü və Sərdar sözünün ardını gətirdi, - indi məlum olur ki, Azərbaycanda sevdiyi qıza qovuşmağın tarixi ilə bağlı ənənə nə qədər qədimdir.
- Ülviyyə müəllimə, - mən də ona üz tutdum, - ancaq təsvirlərdə məni məftun eləyən kollektiv işlərə-əkinə, biçinə qadınların rəhbərlik etməsidir, amma bu bizim həyatımızdakı bugünkü gerçəkliklə uyğun gəlmir, biz kişilərin rəhbərliyinə öyrənmişik, bu gün vəziyyət başqa cürdü.
- Nahaq elə düşünürsən, - Ülviyyə müəllimə gözlərini qıyıb mehribancasına dilləndi. Ayaqlarında krosovka, cins şalvarda qayanın üstündə oturmasına baxmayaraq, o qədər gözəl görünürdü ki, zərifliyinə görə onu gözəllik etalonu hesab etmək olardı, -öz aramızdı, haçansa bu torpaqda əfsanəvi amazonkalar, bizim ən qədim əcdadlarımız yaşayıblar və o zaman da tayfa idarəçiliyi qadınların əlində olub və indi demək olmaz ki, onlar bunu kişilər qədər bacarmayıblar.
Bizim sinfin güclü cinsdən olan nümayəndələri bu xəbəri müsbət qarşılamadılar, qızlar isə aşkarca qürrələndilər. Müəlliməmizin söylədiklərindən məlum oldu ki, amazonkalar dağlarda yaşayıblar, ovçuluqla məş-

ğul olublar. İldə bir kərə onlar dağlardan arana enirmişlər ki, bu əkin-biçinlə məşğul olan kişilərin arasından özlərinə ər seçsinlər, onlardan uşaq doğsunlar və yenidən dağlara qayıtsınlar. Amma ən şaşırdıcı xəbər amazonkaların yaxşı ovçu olmaq üçün gözəlliklərinə qəsd etmələri idi; onlar kamanın çəkilməsinə mane olan sağ döşlərini kəsib atırdılar.
Bunu təsəvvürümə gətirəndə məni üşütmə tutdu; gör bir qadınlar nədən ötrü özlərini eybəcər hala salırmışlar? Və yalnız ondan təsəlli tapdım ki, başqa bir zamanda yaşayıram. Nə üçünsə Azər həmişə məni amazon qızı adlandırırdı, amma cəsur əcdadlarımızın xatirəsinə rəğmən mən heç cür razı ola bilməzdim ki, Azərdən aralı əlimdə ox, kaman dağlarda yaşayım və onu yalnız ildə bir dəfə axtarıb tapım ki, dünyaya yeni insan gətirək... Yox, yəqin ki, məndən Amazon qızı olmazdı, çünki hələ o da məlum deyil ki, Amazon qızları bu cür həyat tərzini xoşlayırdılar, ya yox... Bir də hansı Amazon qızı razı olardı ki, Azər kimi gözəl oğlanla ildə yalnız bircə dəfə görüşsün?

## XXXXV FƏSİL

Mən gimnaziyada eşitdiklərimi Azərə böyük həvəslə söylədim. Ən çox da ona sevinirdim ki, Qobustan və Gəmiqayadakı ibtidai incəsənət örnəkləri bizim ölkəmizin ərazilərində yaşayan sivilizasiyaların nələrə qadir olduqlarından xəbər verirdi. Ən çox məni heyrətə gətirən isə süjeti səmavi kitablardakı əfsanələrdən qaynaqlanan Nuh peyğəmbər və onun dünyanı su basan zaman insanlığı xilas eləyən gəmisi ilə bağlı idi. Bizə söylədilər ki, hətta Gəmiqaya təsvirlərində Nuhun özünün də şəkli var! Müəllimlərimiz təklif etdilər; bu barədə yeni mənbələrə baş vuraq. Və bizim axtarışlarımız da onunla nəticələndi ki, başqa xalqların dastanlarına, o cümlədən Bilqamıs eposuna müraciət elədik.
- Siz bir fikir verin, Sovet dönəmində adı "Naxıçevan" yazılan Naxçıvan dünya mədəniyyəti tarixində nə kimi rol oynayıb! Axı Naxçıvanın adı Nuhun adı ilə bağlıdır, əvvəllər Naxçıvan "Nuhçu Ban" adlanırmış, yəni Nuhun banı - Nuh yüksəkliyi! Fikir verirsiz, məhz Azərbaycanın bu ərazisində Nuhun gəmisi lövbər salıb, nəhayət ki, su basmış dünyada bir parça quru yer tapıb, -məmnun halda məlumat verdim, - Amma biz bunu heç yerdə danışmırıq, di gəl ki, tarixi saxtalaşdırmaqda mahir olan ermənilər, dünyaya çatdırmağa çalışırlar ki, o zaman Nuhun gəmisinin əyləndiyi ərazi onlara məxsus olub.
Mənim tarixi-elmi düşüncələrimin əsas hissəsinə biganə qalan Azər, yalnız ermənilərin adı hallananda qımıldandı və başladı məni sorğu-suala tutmağa.
- Yox, mən daha bu boş şeylərə qulaq asa bilmirəm, bunların bir elmi əsası var, ya yox? - Və o yerindən qalxıb əsəbi halda otaqda var-gəl etməyə başladı. Onu belə görən Ruqiyyə nənəm mətbəxə səslədi ki, təzəcə bişirdiyi yarpaq dolması ilə onu doyursun. Amma Azərin o dolmadan dadmaq üçün ağzının suyu axsa da, nənəmə səs vermədi, nə isə içində onu elə tərpətmişdi ki, rahatlana bilmirdi, görünür, elə zənn eləyirdi ki, məni mübahisəyə cəlb etməkdənsə, bu əzabı içində çəksin.
- Axı sənə birdən-birə nə oldu? - Mən dedim, - mənə də söyləmək istəmirsən?
- Sən öz burnunu hər yerə soxma! - Azər cavab verdi, -imtahanlara hazırlaş, bu gün mühüm məsələ budur.
Mən onsuz da elmin qranit ənginliklərini cırmaqlaya-cırmaqlaya imtahanlara hazırlaşırdım və özümə inamım bir qədər artsa da, Azər günbəgün səbrsiz olurdu. Məni son dərəcə narahat eləyən, həyatımı zəhərləyən yeganə şey anamla bağlı idi, axı biz ona söz vermişdik ki, hər yay Türkiyədə görüşək. Yadımdadır, Antalya aeroportunda ayrılanda atam:
- Bu cür istirahəti gələn yayda da təkrar edərik,-dedi, -mən qabaqcadan putyovka sifariş verəcəm, özü də ya İspaniyaya, ya Yunanıstana.
- Yox, yox, - anam onun sözünü kəsdi, - ancaq Türkiyəyə...
O, bizim heyrətimizi yəqin ki, gözlərimizdən sezdi və,-Türkiyədə hər şey mənə Vətəni xatırladır, -dedi, -insanlar da, xörəklər də, dil də...
- Təki sağlıq olsun, - atam dedi, - biz bütün Türkiyəni dolanarıq, gələn yay da Alaniyada bənd alarıq, sonra da Bodrumda, Mərmərədə...
Amma sonrakı yay onun daha bir varisi-mənim ikinci qardaşım dünyaya gəldi və ona da cavan yaşında bu dünya ilə vidalaşan və iki damla su kimi atamla bir-birilərinə oxşayan əmim Hüseynin adını qoydular. Sonrakı yay isə məni qəbul imtahanları gözləyirdi. Və beləcə anamla görüşmək baş tutmurdu...

## XXXXVI FƏSİL

Universitetin ən nüfuzlu fakültələrindən birində - beynəlxalq əlaqələr fakültəsində təhsil almaqda olan Azər son zamanlar M.F.Axundov adına mərkəzi kitabxanadan çıxmırdı, ordan qayıdanda isə əlində mütləq görkəmli alimlərin ermənilər haqqında gəldiyi nəticələr, ya bəzi fotoşəkillərin surəti olardı.
- Axı, bütün bunlar sənin nəyinə lazımdı? - soruşdum.
Azər:
- Bilirsən, - dedi, - Sovet İttifaqının dağılması nəticəsində meydana gələn siyasi çəkişmələrin nəticəsində torpaqlarımızı yağmalayan və işğal altında saxlayan ermənilər təntənə ilə qeyd edirlər ki, guya bu "qələbə" onlara qan bahasına başa gəlib. Bizimkiləri isə, əksinə, "döyüşmək bacarmırdılar" deyə alçaldırlar... Bu səbəbdən də Babək, Koroğlu, Qaçaq Nəbi, Qaçaq Kərəm kimi qəhrəmanlar yetirən, bəşəriyyətə Niza-

mi, Füzuli, Nəsimi kimi dühalar verən bir xalqın torpağının iyirmi beş faizinin işğal olunmasına elə don geyindirmək istəyirlər ki, bunu yalnız düşmən eləyər. Yayılan xəbərlərə görə isə heç kimi günahlandırmaq olmaz. Azər rus şairi Puşkindən də ermənininin iç-üzünü açan sitat gətirmişdi: "Tı trus, tı rab, tı armyanin!" Yəni "sən qorxaqsan, sən kölesən, sən ermənisən!"
Azərin məşhur fransız səyyahı qraf de Şolledən seçdiyi və tərcümə elədiyi sitat isə məni heyrətə gətirdi: "böyük müsibətlərə düçar olmalarına, aclıq, səfalət içində yaşamalarına və elə bu səbəbdən içimdə bu millətə qarşı bir rəhm duyğusu oyanmasına baxmayaraq, heç zaman ermənilərə yaxınlıq vermədim, çünki onlar iyrənc dərəcədə hiyləgər və yaramazdılar, onlar öz alçaqlıqlarına və riyakarlıqlarına görə ad çıxardıblar".
Mən qraf de Şolledən Azərin gətirdiyi bu sitatın rus dilindəki variantına da baxdım və dedim:
- Yaxşı tərcümə etməmisən, rus dilindəki variant daha sərtdi.
Azər mehribancasına burnumun ucundan tutub sıxdı və:
- Sən mənə rus dili öyrətmə, Balaca, gör hələ alman səyyahı Alfred Kyorte bir zamanlar Türkiyədə yaşamış siyasi xadim Kolman Tonder Qaltsa həsr etdiyi məşhur "Anadolu eskizləri"ndə nə yazır, - dedi, - o yazır ki, bu əyalətə gəlib çıxan, xalq kütləsi ilə ünsiyyətdə olan hər hansı bir adam yunanlarla müqayisədə türkləri sevir və rəğbət bəsləyir, ermənilərə isə nifrət eləyir. Burda belə bir atalar sözü məşhurdur: "bir yunan iki yəhudini aldadır, bir erməni isə iki yunanı".
Mən təəccüblə başımı buladım, Azər isə məni ermənilər haqqında tapdığı yeni sitatlarla dəhşətə gətirdi:
- Eski-Şəhərli məşhur iş adamı isə yazır: "mən haçan türklə iş qururumsa, heç bir yazışmaya ehtiyac olmur, türkün sözü bəsdi. Yunanla isə yazılı müqavilə bağlayıram, çünki bu vacib və xeyirlidir; ermənilərlə isə heç yazılı müqavilə də bağlamıram, çünki onların fırıldağının qarşısını heç yazılı şərt də ala bilməz".
Mən dərindən köks ötürəndən sonra:
- Təəssüf ki, elədir, - dedim, - onların bizim başımıza açdığı son oyunlardan sonra belə şeylərə niyə təəccüblənəsən ki? Çox təbii olaraq bu millət belə tanınır.
- Mən ümumiyyətlə pis xalq, pis millət məfhumunun qatı əleyhinəyəm, -gözlənilmədən Azər dedi, - sən elə bilirsən, mən öz vaxtımı kitabxanalarda itirirəm ki, erməni boynundan ucuz yarlıq asım? Doğrudanmı, biz də primitiv millətçilik səviyyəsinə enə bilərik?
O, divana çökdü və başını əlləri arasına aldı.
- Əlbəttə, yox, yox... mən sadəcə çalışıram anlayım ki, millətçilik nə üçün bizim qonşularımızı bu dərəcədə azğınlaşdırıb. Mən araşdırmaq istəyirəm, görüm axı nə üçün onlar bu dəhşətli virusla zəhərləniblər? Bilirsən, mən nə qərara gəldim? Mənə elə gəlir ermənilərin dünyada hiyləgər, yaramaz kimi tanınması da, bu gün azərbaycanlılara qarşı aparılan işğalçılıq siyasəti də öz xalqını uçuruma sürükləyən bir dəstə daşnakın adıyla bağlıdır. Erməni xalqının bir düşməni varsa, o da daşnaklardı. Ən iyrənci o oldu ki, bolşeviklər bu daşnaklara elə böyük səlahiyyətlər verdilər ki, SSRİ Elmlər Akademiyasından dəstək alıb tarixi yenidən yazmağa başladılar. Baxmayaraq ki, hələ 1904-cü ildə məşhur rus tarixçisi, qafqazşünas Vasili Veliçko onların haqqında yazmışdı:
- Onların tarixini varaqlayanda erməni tarixindən başqa heç bir tarixi məxəzdə anılmayan "nəhəng" adlara rast gəlirsən, keçmişi müəmma doğuran bir sıra tarixi fiqurlar da həddindən artıq şişirdilir. Əgər erməni tarixinin səhifələrində "uydurma" sözündən başqa erməni həqiqətini sübut edən daha hansı kəlmənin altından xətt çəkməli olsaq, "xəyanət" sözündən də yan keçmək olmaz. Şübhəli erməni amirləri bir qayda olaraq sərhəd-sınır qovğası salsalar da, həmişə güclü qonşularından asılı olublar və onlara zaman-zaman xəyanət eləyiblər. Əsilzadələri-onlara naxarar deyillər-şahlara, sadə camaat isə həm şaha, həm xalqa satqınlıqda, dönüklükdə ad çıxardıblar.
Mən:
- Sən yenə düz tərcümə etməmisən, - dedim, - tarixi faktı bədii əsər kimi tərcümə etmək olmaz!
Bəlkə də mənim etirazıma səbəb damarlarımda axan erməni qanı idi, nə bilim. Deyəsən Azər də bunu sezdiyindən məni qucaqladı:
- Bu sözlər xalq haqqında yox, xalqı uçuruma aparanlar haqqında söylənilib, - dedi, - xalq qəddar və amansız olmur, bir dəstə yaramaz hələ xalq deyil.

Mən Azərə bir də ona görə minnətdar olmalıyam ki, mənə qarşı münasibətdə son dərəcə səmimi idi. Başqalarından fərqli olaraq, o dərhal anlayırdı ki, mənim əhvalımdakı dəyişikliyə səbəb nədir...
Bir dəfə isə Azər məni Bakının beynəlmiləlçi ruhunu özünə qaytarmaq üçün tələbələrin yaratdığı "Oyanış" dərnəyinin növbəti yığıncağına dəvət elədi:
- Biz bakılılar həmişə qürur hissilə söyləmişik ki, millətçilik bizə yaddı. Biz uşaqlıqdan zəngin etnik tərkibli məktəblərdə oxumuşuq, müxtəlif millətlərin nümayəndələri yaşayan ümumi həyətlərdə böyümüşük. Azərbaycanlılar, ruslar, yəhudilər, ermənilər, gürcülər, ləzgilər bu şəhərdə yüz illərlə yanaşı yaşayıblar, necə deyərlər, bir qazanda qaynayıblar, fəxrlə çəkiləsi bir adla, "Bakılılar" kimi tanınıblar, - deyə Bayıllı Saşa tərtəmiz Azərbaycan dilində öz nitqinə başladı, - bizi həmişə ortaq mənəvi dəyərlər birləşdirib, sual olunur, bəs onda nə üçün Dağlıq Qarabağda yağ-bal içində yaşayan ermənilər həyat şəraitinin "dözülməz"liyin-

dən dəm vurdular?! Mən hesab edirəm ki, bu xəyanətdir, alçaqlıqdır! Axı, Qarabağ ermənisi niyə ermənistanlı siyasi intriqantların oyununda peşkaya çevrilsin? Bu da onların Azərbaycana "çox sağ ol"u idi? Mən dərk edə bilmirəm, yüz illərlə bir yerdə yaşayandan sonra necə demək olar ki, bu Vətən sənindi, yoxsa mənim? Azərbaycanlıların bir yaxşı sözü var: yersiz gəldi, yerli qaç?! Bəlkə mən düz demirəm, ay Syoma?
Syoma yəhudi idi. Öz mühakimələri ilə dostunun çıxışını davam elədi:
- Keçən əsrin əvvəllərində Abşeron yarımadası dünyanın neft hasilatı mərkəzinə çevriləndə, Bakıya dünyanın hər yerindən insan axını başlandı və beləliklə də çoxmillətli şəhərin əsası qoyuldu. Etiraf edim ki, Sovet İttifaqının heç bir şəhərində Bakıdakı qədər asudə yaşamayıblar. Bu şəhərdə tolerant münasibət, tolerantçılıq hökm sürüb. Sual olunur: nə üçün bu şəhərdə yaşayan yəhudilər, ruslar, gürcülər, malakanlar, almanlar, tatarlar yox, ermənilər başladılar "dözülməz" həyat şəraitindən dəm vurmağa? Cavab sadədir: məqsəd daşnakların siyasi ambisiyalarını hansı yolla olur-olsun, həyata keçirməkdir. Xahiş edirəm: əlinizi ürəyinizin üstünə qoyub mənə cavab verin: bizim erməni dostlarımızdan hansının haqqı var ki, Azərbaycanda həyatın "dözülməzliyindən" şikayətlənsin? Mümkündürmü onların xəyanətinə haqq qazandırmaq?
- Onları da aldatdılar! - Azər gözlənilmədən yerindən qışqırdı, - doğrudanmı siz başa düşmürsünüz ki, bizim düşmənimiz ermənilər deyil, lənətə gəlmiş daşnak ideologiyasıdır. Erməni xalqını qızışdıranlardır. Yəni siz də anlamırsınız ki, erməninin başına gələn bəlaların kökündə bu ideologiya durur? Axı, nə qədər günahsız erməni qanı axıbsa, burda birbaşa daşnakların əli olub! Əslinə baxanda, daşnak ideologiyası elə ermənilərin məhvinə yönəlib, necə ki, bir zamanlar faşizm az qalmışdı alman xalqının axırına çıxsın. İndi baxın Almaniyaya: millətçilik zəhərini axıtmış, faşist ideologiyası ilə vidalaşmış ölkə necə də sürətlə tərəqqi eləyir? Belə bir zəhər bizim qonşuların da başını xarab eləyib, amma artıq anlamalıdılar ki, onların düşməni nə bizik, nə də türklər, öz ideologiyalarıdır. Ermənilər daşnak partiyasının onları hara apardığını nə qədər tez anlasalar, bir elə qazanacaqlar. Mən əminəm ki, bizim qonşularımız, sinif yoldaşlarımız, müəllimlərimiz və dostlarımız, əlaqələrimizin kəsilməsinə baxmayaraq, bizim kimi düşünürlər. Bəyəm biz dünənə qədər dostluq elədiyimiz adamları bu gün düşmən kimi qələmə verə bilərikmi? Gördünüzmü; daşnaklar Bakı ermənilərini öz iyrənc maraqlarını həyata keçirmək üçün düşüncəli surətdə qurban verdilər. Doğrudanmı sizə elə gəlir ki, Bakını tərk etmək məcburiyyətində qalan erməniyə indi hardasa qürbətdə, qəribçilikdə yaşamaq xoşdur? Onlar bu hadisələrin qurbanı oldular, onların nə günahı?
- Bəs nəyə görə o zaman onlar ümumi işin xeyrinə heç bir faydalı addım atmadılar? Nə üçün susmağa üstünlük verdilər? Siyasi səhnələrə atılanlar nə düşünürdülər? Yoxsa elə bilirdilər öz soydaşlarının gözündə ucalacaqlar? Deyin görüm bu hadisələr ərəfəsində Ermənistandan qovulmuş yüz minlərlə bədbəxt azərbaycanlının nə qəbahəti var? Və burda bizim suçumuz nədir? - deyə universitet tələbəsi Səbinə Azərin sözünü kəsdi, -bir baxın. Bizim şəhər nə kökə düşüb: həmişə şəfəq saçan, çiçəkləyən ziyalı Bakısı qaçqın sığınacağına dönüb. Küçələrə çıxmaq olmur. Hanı bizim şöhrətli şəhərimiz? Hanı gözəl geyimli, deyib-gülən, zarafatlaşan şux insanlar?! Ölkənin paytaxtı, ziyalılar şəhəri indi iri bir kəndi xatırladır...
- Elədi ki var, amma bu, gülməli deyil, - əmoğlum qüssə ilə ürəyindən keçəni söylədi və əlavə elədi, -indi biz daha çətin vəziyyətdəyik, amma unutmaq olmaz ki, əsas məsələ şəraitdən asılı olmayaraq, insan olaraq qalmaq və heyvani instinktlərdən uzaqlaşmaqdı. Əgər insan başqasına hörmət bəsləmək hissini itiribsə, demək, özünə də hörmət etmək haqqından məhrumdur.
Və Azər, həqiqətən də mənim anama, Qreta nənəmə, Xristofor babama hörmətlə yanaşırdı və mən hiss eləyirdim ki, bu, içdən gəlir, saxta deyil. Bir dəfə erməni qəbiristanlığına, Xristofor babamın qəbrini ziyarət etməyə gedəndə, başdaşına gül qoyanda Azər:
- Onlar başqa məsələ, ola bilsin ki, elələri ermənilər arasında azlıq təşkil edir, - dedi, - amma bu gün də onlar başa düşürlər ki, bütün bu olayları bu dərəcədə gərginləşdirən onların mənfur əqidədaşlarıdı. Onlar və eləcə də bütün ağlı başında olan, müharibəyə nifrət bəsləyən insanlar öz soydaşlarının əməllərinə görə xəcalət çəkirlər. Mən ümidvaram: indi bizim bütün əski erməni dostlarımız etnik təmizləmə siyasəti aparmaqla öz siyasi sərhədlərini genişləndirmək niyyətinə düşən millətçiləri günahlandırır və lənətləyirlər. Bu gün mən onları da - o yalançı satqınları, provokatorları da görmək istəmirəm.
İndi bu mürəkkəb vəziyyətdən necə baş çıxardasan? Bəyəm ermənilər özləri anlayırlarmı ki, öz cəfəngiyyat əməlləri ilə nələr törədiblər? Dünyanın bir-birinə qaynayıb-qarışdığı bir zamanda, ən yaxın qonşusu ilə cəngə girmiş, öz xalqını növbəti fəlakətə sürükləmiş erməni millətçiləri indi nəyə ümid bəsləyirlər görəsən? Qaniçən və iyrənc daşnakların bu iki xalqı qovub saldığı uçurumdan çıxara bilən bir qüvvə peyda olacaqmı? Əgər burda bir çıxış yolu görünmürsə və onda mənim anamın taleyi necə olacaq, görəsən? İndi, görəsən o, atam üçün kimdi?
Anamla növbəti telefon mükaliməsindən sonra Azərdən soruşdum:
- Sən necə düşünürsən, indi mənim atama ikiarvadlı demək olarmı?
Mən axır zamanlar anama tez-tez zəng eləyirdim, fikirləşirdim ki, yəqin buna görə bir gün atam mənə sözünü deyəcək, axı o, günaşırı gedib telefon pulu verməli olurdu, amma o, bu barədə bir dəfə də olsun narazılığını bildirmədi və mən də onun qəlbigenişliyindən bir qədər də sui-istifadə etməyə başladım. Hərdən dəstəyi Qreta nənəm götürürdü, amma o qətiyyən mənimlə danışa bilmirdi, dərhal ağlamağa başlayırdı və elə bu üzdən də söhbətimiz alınmırdı.
- İmtahanların burnuna dirəndiyi bir zamanda sən niyə belə şeylərə burnunu soxursan? - deyə Azər nara-

zılığını bildirdi, ancaq görəndə ki, mənim dodaqlarım titrəyir, sözünə düzəliş verdi, -incimə. Bilirsən, Balaca, mən Murad əmim haqqında belə söyləməzdim, mənim öz qadınlarını aldadan, xəlvətdə də daha bir ailə saxlayan kişilərə ümumiyyətlə rəğbətim yoxdur, o ki qaldı sənin atanın başına gələn hadisəyə, bu nadir haldı, zərurətdən doğub. O, günahkar deyil, nə biləydi ki, belə olacaq...
-Yəni sən hesab etmirsən ki, atam anamla görüşməklə Dilbər xalaya xəyanət eləyir?
- Əsla yox, - Azər inamla cavab verdi, - xəyanət başqa şeydi, mövcud şəraiti nəzərə almaq lazımdır, o bu addımı sənə görə atıb və nə qədər ki, Dilbər xanım bu məsələdən xəbər tutmayıb, onun ananla hər gün görüşməyə də haqqı var. Sənin anan onun keçmişidi, kölgəsi kimi onu tərk eləyib və qəfildən qayıdıb. O isə yeni bir həyat başlayıb, yeni ailə qurub. Belə olan təqdirdə, bəyəm o fələyin ucbatından itirilmiş sevgisinə qarşı biganə olmalıdır? Əlbəttə, o, yeni ailəsini də ata bilməz. Bu, həyatın qanunudur. Günəş də bütün planeti eyni vaxtda işıqlandıra bilmir, elə buna görə də gecə ilə gündüz bir-birilərini əvəz eləyirlər. Mənə elə gəlir ki, indi sənin ananın həyatında gecə başlayıb və o narazı deyil, çünki bilir ki, bu gecə nə qədər uzansa da, onun qismətinə günəşdən pay düşəcək, - dedi, - bütün günahlar lənətə gəlmiş müharibədədir...
Mən köks ötürdüm. Bəli, mənim zavallı anam anadan səbrsiz doğulsa da, indi uzaq Moskvada səbrlə öz günəşini gözləyir. Həkimlik oxuyacam, işləmək üçün Türkiyəyə gedəcəm, anam da mənim yanıma gələcək. Bəs Azər? O bizimlə Türkiyədə yaşamaq istəyəcəkmi? Haçansa biz arzulayırdıq ki, köçümüzü Azər və Aida adasına salaq... fikirlərim qarışdı və elə bu səbəbdən də qərara aldım ki, müvəqqəti olaraq, hər şeyi unudum, imtahanlardan başqa. Mənə elə gəlirdi ki, ali məktəbə qəbul olandan sonra biz Türkiyəyə özümüzü yetirib, anamla birlikdə tələbə biletimi "yuya" bilərik, amma hardan biləydim ki, gözəl anların ardınca taleyimdən elə bir zərbə alacam ki, ikiqat əyiləcəm...

## XXXXVII FƏSİL

Qəbul imtahanlarında ən yüksək bal toplayanlardan biri mən oldum. Şad xəbəri hamıdan qabaq eşidən Azər bizə bir zənbil ağ qərənfil və zanbaq göndərmişdi və bu səbəbdən də mənzilimiz o gün gül şitilliyini xatırladırdı, ətir saçırdı. Mənim tibb institutuna girməyim münasibətilə atam dəbdəbəli qonaqlıq verdi. O, xoşbəxtlikdən işıq saçırdı, Dilbər isə həsəddən qaralmışdı, yəqin hesab eləyirdi ki, qonaqlığın pulu və ögey qızın hədiyyələrinə çəkilən xərc onun kisəsindən gedir. Banketdə mənə bir-birindən qiymətli hədiyyələr bağışladılar; atam mənə göz yaşı biçimində brilyant sırğalar almışdı, nənəm mənim şəhadət barmağıma almaz qaşlı incə bir üzük keçirtdi, Həsən əmim məni platin qolbağıyla sevindirdi, Fatimə bibim isə mənə ağ italyan qızılından hazırlanmış boyunbağı təqdim elədi. Ruqiyyə nənəm bütün axşamı mənimlə rəqs eləyən, məni çox sevdiyini və mənimlə fəxr etdiyini dilinə gətirən Azərlə məzələnirdi. Mən sevincimdən bilmirdim neynəyim!
Ertəsi gün səhər mən çarpayıya sərələnib əlimdə telefon anama testin sualları və banketin təfsilatı haqqında məlumatlar verirdim. Anam və Qreta nənəm dəstəyin o biri ucunda məni hay-küylə təbrik edirdilər və mən fikirləşirdim ki, bir-iki həftəliyə gedib onlara baş çəksəm pis olmazdı. Və elə bu arada da qapımız döyüldü.
- Aida, aç qapını! - Nənəm mətbəxdən səsləndi, - mən burdan aralana bilmərəm. Qutab yanar.
Sübh tezdən istəkli nənəm mətbəxdə tər tökürdü ki, çox sevdiyim göyərti və kədi qutabı ilə ağzımı dada gətirsin.
Mən telefonda anama daha bir neçə xoş söz deyib, onunla xudahafizləşib qaçdım qapıya. Göz yerindən baxıb gördüm ki, Azərdi və onun belə qəfil gəlişinə təəccübləndim. Sevinclə qapını onun üzünə taybatay açanda yerimdəcə donub qaldım: əmoğlumun rəngi avazımışdı və son dərəcə həyəcanlıydı. Qorxulu duyğular çulğaladı məni...
- Sənə nə olub? - həyəcanla soruşdum.
- Gəl əyləş, Balaca, - Azər dedi, - biz danışmalıyıq.
- Danış...- güclə eşidilən bir səslə yalnız bu kəlməni dilimə gətirdim, artıq mən ən dəhşətli xəbərə belə hazır idim.
Hər halda əmoğlumdan eşitdiyim xəbər məndən ötrü çox gözlənilməz oldu.
- Balaca, mən səbrlə sənin ali məktəbə qəbul olunmağını gözləyirdim, çünki bu, sənin taleyində çox mühüm bir addım idi və bu vacib dönəmdə mən sənin qəlbini yaralaya bilməzdim. Amma indi bir halda ki, hər şey arxada qalıb; imtahanlar da, banket də, uşaqlıq da, səni bəzi şeylərdən agah etmək istəyirəm, ümid edirəm ki, məni başa düşəcəksən. Mən ona görə sənin yanına gəlmişəm ki, sən bizim nəsildə yeganə insansan ki, mənim atmaq istədiyim addımı düzgün qiymətləndirə bilərsən və məni anlayarsan.
Azər aramla danışırdı, hiss olunurdu ki, daha münasib sözlər axtarır. Mən isə lap siçan kimi oturmuşdum, nəfəs almağa da qorxurdum.
- Ayka, baxmayaraq ki, bu hələ yalnız bizim özümüzə məxsus sirrdi, bizi ulu göylər qarşısında verdiyimiz vədlər bağlayır və elə bu səbəbdən də səni incitmək mənə çox ağırdı. Amma inan: əgər mənim sənə inamım olmasaydı, heç zaman bu addımı atmaq qərarına gəlməzdim. Bilirsən, Balaca, mən könüllü ərizə vermişəm ki, Qarabağa döyüşə gedim. Sabah, ya birisi gün yola düşürəm. Bilirsən, mən daha hər gün Qarabağdan gələn xəbərlərə dözmək iqtidarında deyiləm. Bu müharibə çox uzandı və mən qorxuram ki, zaman keçdikcə biz bu biabırçılığa alışaq. Mən şəhərdə cavanların şadlıq içində gəzdiklərini görəndə xə-

calət çəkirəm: fikirləşirəm ki, bizim bu gün buna haqqımız varmı? Axı Qarabağdan hər gün cavanlarımızın meyidi gəlir, düşmən yeni ərazilərə yiyələnir. Bəs bizim telekanallarda nə göstərirlər? Ulduzların iştirakı ilə məzhəkələr, yüngül verilişlər. Bu gün bütün ölkə düşmənə qarşı səfərbər olunmalıdır. Biz düşməni yerində oturtmaq üçün yumruq kimi birləşməliyik. Əgər mən getməsəm, bir başqası da boyun qaçırsa, üçüncüsü də gizlənsə, bəs onda bu Vətəni kim qoruyacaq? Nazim Hikmət necə deyib? Hə, söyləyib ki, mən yanmasam, sən yanmasan, biz yanmasaq, necə çıxar qaranlıqlar aydınlığa?
Azər yerindən qalxdı və əsəbi halda otaqda gəzinməyə başladı. Birdən ayaq saxladı və astadan:
- Mən iki gündən sonra yola düşürəm, - dedi, - səndən savayı bunu heç kim bilmir. Sən bu xəbəri atama mən cəbhəyə yola düşəndən bir gün sonra çatdırarsan və o vaxta qədər çalış ki, özünü toxtaq aparasan, oldumu, Balaca? Yəni sən bu vəzifənin öhdəsindən gəlməyəcəksən?
Mən cavab vermədim. Ağlamadım, hönkürmədim, şivən qoparmadım. Susdum və ürəyimdə bu sözü bir neçə dəfə təkrarladım: "Bu da axırı... Bununla da mənim həyatım bitdi".
...Ruqiyyə nənəm bizi təzə bişirdiyi, üstünə sumax səpdiyi namnazik qutaba qonaq etsə də, mən heç bir ləzzət almadım. Azər isə, əksinə, zarafatlaşır, gülür, gah da nənəmi qucaqlayırdı. O çalışırdı ki, ixtiyarında olan iki günü ailə üzvlərinə qayğı göstərsin, artıq ər evində olan, hətta körpə böyüdən bacılarına zəng eləsin.
- Bu gün mən qohumlarla gəzməyə çıxacam, -Azər dedi, -bizim dəstəyə qoşulmaq istəməzdin ki?
Mən onun təklifini qəbul etmədim, qorxdum ki, işləri korlayam...
- Amma mən sabah bütün günü sizinlə bir yerdə olacam, -Azər dedi, -amma saat yeddiyə qədər, sonra evə gedəcəyəm. Sən məni başa düşməlisən, Balaca, son axşamı mən istəyirəm ki, valideynlərimlə bir yerdə olum... Sabaha qədər, Balaca!-dedi və əlini yanağıma çəkib getdi.

## XXXXVIII FƏSİL

Ayaqlarım İçərişəhərin çaylaq daşı döşənmiş küçələrinə dəyirdimi, dəymirdimi, bilmirdim. Uçurdum, ox kimi süzürdüm və Qız qalasının lap yaxınlığında özümü Azərə çatdırdım və var səsimlə bağırdım:
- Azər!!!
O çevrildi və bəzək kollarının üstündən sıçrayıb mənə tərəf addımladı.
- Mən səni heç yana buraxan deyiləm, eşidirsən? -Köynəyinin yaxasından yapışıb onu silkələdim, - eşidirsən?!
Yoldan ötənlər heyrətlə bizə baxırdılar.
Azər incik halda dilləndi:
- Gəl, dənizə sarı gedək!
Biz bulvara düşdük. Yanımızdan gözəl geyinib-kecinmiş şən insanlar keçirdilər: tələbələr, bir-birinə vurulanlar, beşik arabalarını dığırladan analar... Təqaüdçülər skamyalarda oturub kürəklərini günə verə-verə mürgüləyirdilər və kimsənin vecinə də deyildi ki, bir bədbəxt qızcığazı sevdiyi oğlan tərk eləyir və müharibəyə gedir...
- Nə üçün müharibəyə sən getməlisən, onlar yox? - Qəddarcasına pıçıldadım və şəhadət barmağımı qarşı skamyada oturan, zövqsüz geyimləri ilə yadda qalan, tum çırtlayan və səkidən keçənlərə altdan-altdan baxan alyanaq kənd uşaqlarına tuşladım, -onların anası ildə bir uşaq doğur, amma sən ailədə yeganə oğlansan!
Azər üzünü turşutdu:
- Sən də belə düşünürsən? Bir o çatmır ki, sən də anam kimi məni dilə tutasan.
- Mən düz deyirəm: Ermənistanda iki yüz mindən artıq azərbaycanlı yaşayırdı. Onları ordan qovublar, amma indi onlar gedib qisas almaq əvəzinə, bulvarda oturublar. Demək, indi onlar tum çırtlaya-çırtlaya şəhəri zibilləyəcəklər, şəhər qızlarına girişəcəklər, sən də gedəcəksən onların əvəzinə vuruşmağa? Mən səni buraxmayacam, başa düşürsən, buraxmayacam!!!
Alyanaqlı cavanlar maraqla bizə baxırdılar, onlardan biri nə söylədisə, o birilər dərhal qəhqəhə çəkib gülüşməyə başladılar və mən Azərin qaşlarının çatıldığını, yumruqlarının düyünləndiyini görəndə başa düşdüm ki, arada dava-dalaş da ola bilər. Çünki mənə yaxşı məlum idi ki, əmoğlumun beyni qandı, əsl ailə tərbiyəsi görsə də, görəndə ki, kimsə onun yanındakı qadına başqa gözlə baxır, özünü ələ ala bilmir, davaya girişirdi. Mən inanırdım ki, Azər süddənyanıq, başdanxarab bu alyanaqların hamısının dərsini təkbaşına verə bilər, amma mən dəhşətli dərəcədə davadan, dartışmadan, münaqişədən qorxurdum.
Mən Azərin onları necə süzdüyünü görüncə qoluna girdim:
- Gedək kafeyə, - dedim.
O cavab verməyəndə mən bir qədər də ona qısıldım:
- Mən çay içmək istəyirəm, - dedim, - susamışam.
Mənim yalanım Azəri almayanaqlara baş qoşmağa qoymadı və incə bir təəssüf hissilə qeyd etməliyəm ki, hələ başlamamış döyüşdə meydan boş qaldı və o məni kafeyə apardı.
Biz hələ də hirsi soyumayan Azərlə yanaşı əyləşib dənizin səsini dinləyirdik. O, birdən dərindən köks ötürüb soruşdu:
- Gördünmü o yelbeyin debilləri? Sən doğrudanmı, elə fikirləşirsən ki, bu vətəni onların ümidinə qoymalıyıq? Mən elələri ilə bir yerdə vuruşmaq istəməzdim.

- Unut onları. Mən səni sevirəm-dedim və mənə də elə gəldi ki, o mənim səsimdəki xiffəti hiss elədi, -mən səni itirməkdən qorxuram... Atma məni...
Gözlənilmədən o, mənalı-mənalı gülümsədi:
- Balaca, haçansa mən sənə söyləmişəm ki, səni nəyə görə sevirəm? Ona görə ki, sən başqalarına bənzəmirsən, cəsursan, mübarizsən, dəli kimisən və bütün bunlar səni bənzərsiz eləyən xüsusiyyətlərdi.
O mənim soyuyub buza dönmüş əlimi ovcuna aldı və ehmalca üzünə söykədi.

- Bilirsən, Ayka, mən çoxdandı, özlüyümdə götür-qoy eləyirdim ki, -dedi, -döyüşə kiminlə gedə bilərəm, mənimki kiminlə tutar? Belə ki, nə qədər tanıdığım qadınlar varsa, üçünün surəti gözlərim önünə gəldi; Ruqiyyə nənəmin, Fatimə bibimin və bir də sənin. Qəribədir ki, bizim nəslin son nümayəndələri arasında Ruqiyyə nənəm kimi, Fatimə bibim kimi qəlbən sevməyi bacaran, cəsurluq etmək üçün həmişə hazır olan yalnız sənsən. Nə mənim bacılarım, nə Fatimə bibimin qızları son nəfəsə qədər mübarizə aparmağa qadir deyillər. Mən bilirəm ki, onlar hamısı ləyaqətlə papalarının gül balalarına ərə gedəcəklər və doğma ailə ocağının istisini əzmlə qoruyacaqlar, ailə büdcəsini artıracaqlar. Onlar bu sayaq həyat tərzinə önəm verirlər, amma mən öz amazonkamı sevirəm: məğrur, cəsur, kişi kimi-tapdanmış cığırla getməyi xoşlamayan amazonkamı...
- Biz cəsurların ağılsızlığı haqqında mahnı oxumuruq ki? - Mən soruşdum, - Mən amazonka-zad deyiləm, səni itirməkdən dəhşətli dərəcədə qorxan adi bir qızam. Mən sənsiz yaşaya bilmərəm, bunu başa düşmürsənmi sən? Əgər sən müharibəyə getsən, mən də ardınca gələcəm!!!
- Yox, Aida, sən məni burda gözləyəcəksən, özü də mənim yoxluğuma dözə bilməyən Ruqiyyə nənəmə ürək-dirək verə-verə. Mənə görə qorxma, Allah məni sənə görə qoruyacaq. Axı, niyə sənə elə gəlir ki, mən özümü güllənin qabağına verəcəm?
- Getmə, qurbanın olum, - mən tir-tir əsirdim, dilim söz tutmurdu, amma bu sözü təkrar etməyə gücüm çatdı, - getmə, qurbanın olum...
- Ayka, axı biz səninlə dörd uşaq böyütməyə hazırlaşırıq, elə deyilmi? İllər keçəcək, bu uşaqlar böyüyəcək və bir gün onlar məndən soruşacaqlar ki, şəxsən mən Qarabağın və eləcə də ona yaxın Azərbaycan rayonlarının mənfur düşməndən təmizlənməsində neynəmişəm? Nə cavab verəcəyəm? Deyəcəm ki, ailədə yeganə oğlan idim, nəslin varisi sayılırdım, ona görə mamam məni müharibəyə getməyə qoymadı? Sən istiyirsənmi ki, sənin ərinə öz uşaqları nifrət bəsləsin?
Mən bunu necə istəyə bilərdim?! Və geri çəkildim... Təslim oldum.

XXXXIX FƏSİL

İki gündən sonra Azər getdi. Ürəyim titrəyə-titrəyə Həsən əminin xidməti telefonunu yığdım ki, bu müdhiş məlumatı ona çatdırım. Əmimi mən həqiqətən çox istəyirdim və elə bu səbəbdən də bu dəhşətli xəbərlə onu yaralamaq istəmirdim; amma bir xeyli tərəddüd eləyəndən sonra özümü topladım və mövcud həqiqəti bir neçə kəlmə ilə ona çatdırdım.
- Aidacan, qızım. Otur evdə, heç yana da çıxma, eşidirsən? İndi mən gəlirəm sizə!
Azərin valideynləri, o cümlədən nənəm və bütün yaxın qohumlarımız dəhşət içində idilər. Üzü axşama bizim evə o qədər adam toplaşdı ki, oturmağa da yer olmadı, evimiz arı pətəyinə oxşadı. Mən son dərəcə yorulub usanmışdım. Axı, nə qədər təkrar etmək olar ki, bəs, Azər gəlmişdi bizimlə vidalaşmağa, xahiş elədi ki, cəbhəyə getməsi barədə sizə məlumat verək.
Fidanla Aynur dönə-dönə deyirdilər: "dünən gəlib uşaqları gəzməyə apardı". Fatimə bibim dünən Azərin onlara gəlməsini və onun ərdə olan qızları Xədicə ilə, Zəhra ilə, nəvəsi Nəzakətlə şəkil çəkdirməsini xatırlayırdı.
Nazlı xala birdən-birə mənim üstümə düşdü:
- Nə üçün sən dərhal zəng eləyib bu barədə bizə xəbər vermədin?
O, aşkarca özündən çıxmışdı.
Həsən əmim onun havasını aldı:
- Qızla işin olmasın, o qardaşına verdiyi sözün üstündə durub, - dedi, - burda nə var ki?
Mən birinci dəfə idi ki, Həsən əmimi qalstuksuz və yaxasıaçıq görürdüm.
- Sən mənim sözümü kəsmə!-Nazlı xala vay-şivən qopartmağa başladı. - Mənim oğlum daşnak snayperi üçün mişen ola bilməz! Get, mənim balamı qaytar gətir!
- Bəsdir, Nazlı, belə yaramaz! Uşaq yoldadır, Allaha ağır gedər, - Fatimə bibim dedi, əlindəki valerian həbini ona sarı uzatdı, amma Nazlı xala onun əlini dala itələdi, qəzəblə səsini qaldırdı:
- Sənin də oğlun olsaydı və başına belə bir iş gəlsəydi, onda bilərdin mən nə çəkirəm, danışmağa-özgəsinin oğlunu cəbhəyə göndərməyə nə var ki?
- Bəyəm o mənim üçün özgədi? -Fatimə bibim onun sözünü kəsdi, - Allahdan qorx, ay Nazlı!
Fatimə bibim Nazlı xalanı ram etməyə çalışsa da, o heç kimi eşitmək istəmir, heç kimlə hesablaşmırdı.
O, yenə də sanki daşa dönmüş Həsən əmimin üstünə düşdü və daha sərt hücuma başladı:

- Allaha and olsun, Həsən İbrahimoviç, əgər sən günü bu gün öz əlaqələrindən istifadə eləyib, mənim balamı qaytarıb gətirməsən, bunu sənin başının üstündən mən özüm eləyəcəm. Lazım olsa, lap parlamentə teleqram vuracam! Qayda var: ailədə olan tək oğlanları cəbhəyə göndərmirlər!
Gözlənilmədən Həsən əmim də səsini qaldırdı:
- Ay Nazlı, hələ sən bu günə qədər öz oğlunu tanımırsan? Əgər o, döyüşmək qərarına gəlibsə, heç kim evə qaytara bilməz, lap mən özüm də...

## XXXXX FƏSİL

Üzücü və mənasız günlər bir-birini əvəz etməyə başladı. İndi mən o günləri yadıma salıram və mənə elə gəlir ki, heç o günlər mən mövcud olmamışam; o günlər şəhərdə tənbəl-yorğun dolaşan, mühazirələrə tələsən, sövq-təbii yeyib-içən mənim kölgəm olub...
Həyat öz mənasını itirmişdi; zaman məndən ötrü dayanmışdı. Hətta televiziya ilə cəbhə yenilikləri haqqında verilişlər veriləndə məni qorxu bürüyürdü və dərhal televizoru söndürürdüm ki, Azərin də bir əsgər kimi xidmət etdiyi cəbhə bölgələrini görməyim. Hər gecə mən Allaha dua eləyirdim ki, Azəri qorusun, sağ-salamat qaytarsın... Həftələr, aylar keçirdi, amma Azər nəinki evə qayıtmırdı, heç bir əlcə məktub da yazmırdı, zəng də eləmirdi...
Mən, demək olar ki, daha Moskvaya-anama da zəng eləmirdim, kənar mühitdən təcrid olunmuşdum. İlbiz kimi öz qınıma çəkilmişdim. Mən əldən düşmüş canımın imtahanlarda nə kökə düşdüyünü, sessiyadan - sessiyaya nələr çəkdiyini sanki öz gözlərimlə görürdüm, baxmayaraq ki, mənim cismim ruhumdan tamamilə ayrılmışdı, təbiətin mövcud qaydaları ilə öz üzgün bir həyatı yaşayırdı və beləcə məni diri hesab etməmək də olardı. "Hayım gedib, vayım qalıb" deyə mən acı-acı gülümsədim və neynədiyimin fərqinə varmadan diş fırçasını dişlərimə çəkdim.
Amma bir dəfə ruhum özümə qayıtdı və mən bu gözlənilməz imkandan istifadə eləyib, sirlərimin üstünü açdım, amma heç kimə yox, özümə və... nənəmə! Yaşamağın və sevməyin nə qədər böyük bir səadət olduğunu hiss etdiyimdən mən yenidən canlanıb özümə gəldim.
Öz otağında yorğan salan Ruqiyyə nənəm necə oldusa, məni yanına çağırdı.
- Aida, sən necə düşünürsən, bu ipəyin rəngi, - dedi, - Azərin xoşuna gələcək? Yoxsa, sizə çəhrayı çexol tikim?
- Necə yəni bizə? - Mən kəkələyə-kəkələyə soruşdum.
Nənəm əlini yellədi:
- Eh, ay qızım, - dedi, - siz lap dəvəquşu misalındasınız, başınızı soxmusunuz kolluğa elə bilirsiz ki, heç kim sizin yelpazəyə dönmüş quyruğunuzu görmür...
Məni tər bassa da, titrək səslə soruşdum:
- Sən nədən danışırsan, ay nənə?
- Nənən sənə qurban, - Nənəm cavab verdi, - mən hər şeyi bilirəm, mən xeyir-duamı çoxdan vermişəm. Allah özü xoşbəxt eləsin sizi, ay bala!
Əvvəlcə əlim-qolum uyuşdu, dilim batdı, amma sonra həyəcanımı üstələyib onu öpməyə başladım:
- Demək, sən narazı deyilsən, ay nənə? - dedim, - sən bizimləsən? - Və qışqırdım, - Yaşasın mənim ipək nənəm!
- Ay səfeh qız, - nənəm dedi, - Allah özü sizi bir-birinizdən ötrü yaradıbsa, mən necə narazı ola bilərəm? Düzdür, həkimlər camaatı inandırmaq istəyirlər ki, yaxın qohumların nigaha girməsi riskdir, amma Allaha şükür ki, bizim nəsildə keçici xəstəlik olmayıb. Bax, əvvəllər necə idi? Yad yerdən, özgədən nadir hallarda qız alırdılar, yad ailəyə də qız verməyə qorxurdular. Bax, elə bu iki səbəbdən də çox nadir hallarda boşananlar olardı - o, bir qədər sözünə ara verdi və gözlərini yumub astadan dedi: - Mən də o dünyaya rahat gedərəm, bilərəm ki, sən etibarlı əldəsən və heç kim sənin milli mənşəyini üzünə vurmayacaq...
Soruşdum:
- Sən bu fikrə haçandan gəlmisən, ay nənə?
- Siz ələkdən çıxanda, -nənəm gülümsədi, - Allah xeyir versin, sevginizi qoruyun, xoşbəxt olun!
Biz yenə qucaqlaşdıq.
- Sizə hansı rəngi seçim? Sən yəqin ki, Aynur kimi, Xədicə kimi öz ərinlə ayrı yatmayacaqsan? -Nənəm dedi və bic-bic gülümsədi.
Bəxtiyarcasına gözlərimi yumdum və cavab verdim:
- Mavi yaxşıdı, o həm səmanı, həm dənizi əks etdirir, o bizim əlçatmaz arzularımızın rəngidi!
- Eh, gün o gün olaydı, Azərin qayıdan gününü, sonra toyunuzu görəydim -nənəm dərindən köks ötürdü - özüm öz əlimlə sizə gərdək quymağı çalaydım, dərdim olmazdı...
Qəlbimə xoşagəlməz bir duyğu ilan kimi girib sürünməyə başlayanda soruşdum:
- Bəs bütün bunlar indi niyə sənin yadına düşdü, ay nənə? İndi niyə girişmisən bu işlərə?
Nənəm mən gözlədiyim cavabı vermədi, sualdan qaçdı:
- Tezliklə cəbhədən qayıdacaq, - dedi, - şad günə də gərək qabaqcadan hazırlaşasan.
Mən ona daha bir zarafatyana sual verdim:
- De görüm, sən bizim toyumuzda qız evini təmsil edəcəksən, ya oğlan evini?
Nəhayət ki, o günəcən mənə yasaq olunmuş şeylər barədə danışmaq imkanı qazanmışdım, qaçırardımmı

şansımı?
- Mənim ağıllı balam, mən qız evini təmsil eləyəcəm, - nənəm cavab verdi, -oğlan evinin onsuz da adamı çoxdu.
Mən yenidən xəyallar aləminə vardım və elə bu möcüzəli dünyada da yuxuladım. Ürəyimdən alovlu bir istək keçdi: Azəri yuxuda görmək.

## XXXXXI FƏSİL

İnsan çox qəribə xəlq olunub. Onun möcüzələrindən biri də sirli-sehrli yuxu aləmi, yuxu dünyasıdır. Nəhayət ki, Azər yuxuma girdi, amma onu elə aydın gördüm ki, elə bil həyatda görürəm, yuxuda yox.
O, minalanmış çöllə mənə sarı qaçırdı, dəhşətli toz-torpaq sovuran minalar partlayırdı. Heyrətdən donub var səsimlə qışqırdım:
- Ehtiyatlı ol!
Azər artıq mənə yaxınlaşmışdı, qarşıdakı arxı adlasa, əli mənə çatardı. Amma o, birdən-birə dayandı:
- Tullan! - Mən yalvarmağa başladım, - Tullan da, niyə dayandın? - Amma o heysiz, yorğun halda otların üstünə çökdü və astadan:
- Mən gecikdim, - dedi...
Mən buz kimi soyuq tər içində ayıldım və nənəmi harayladım ki, yuxumu yozsun, axı o bu sahədə də mahirdi, amma o nəinki mənə cavab vermədi, heç mənə yaxınlaşmadı da. "Yəqin namaz qılır". Mən yataqdan qalxdım, alt paltarımdaca onun otağına qaçdım. Amma nənəm otağında deyildi, onun namazlıq xalçası isə həmişəki yerində idi. Onun çarpayısı həmişə olduğu kimi son dərəcə səliqə-sahmanla yığılmışdı. Saata baxdım: onikinin yarısı idi. "Gör bir nə qədər yatmışam?" fikirləşdim. Öz otağında yoxdursa, demək, ya mətbəxdədir, ya eyvanda.
Onu mətbəxdə də görməyəndə, fikirləşdim ki, yaxşı bəs bu arvad hara getmiş olar? Qab-qacaq ortalıqda, qazan qazın üstündə. Amma qazanın altı söndürülmüşdü, təzə bişirilmiş xaşıl qazanı dəsmala büküldüyündən mənim sevimli xörəyim hələ isti idi. Tut doşabını da nənəm hardansa çıxarıb ortalığa qoymuşdu ki, onu çox axtarmayım.
Mən bilirdim ki, nənəm xaşılı, bir qayda olaraq, sübh tezdən bişirir. Mətbəxə xoş rayihə yayılmışdı, amma bu xaşılın qoxusu deyildi. "Duxovka"nı açıb baxdım: elədir ki, var; sən demə, nənəm dolma da bişirməyə vaxt tapıbmış. Bir tavada hasilə gələn pomidor, bibər, badımcan dolmalarının ətri bir-birinə qarışmışdı. Amma məni kuşkulandıran dolmanın qoxusu deyildi, nə isə kənar iydi, amma yadıma sala bilmirdim ki, bu şirintəhər qoxu niyə mənə belə tanışdır.
Eyvana çıxanda gördüm ki, burda da bir qazan halva var. Nənəm hərdənbir cüməaxşamlarında halva çalıb imkansızlara paylayırdı, hətta qəbir üstünə də aparırdı. Elə bu gün cümə axşamı idi. Demək nənəm bu müqəddəs gündə ərinin qəbrini ziyarət etməyə getmişdi. Bəs görəsən, niyə bunu mənə bildirməmişdi? Tək getmişdi?
Mən Fatimə bibimə zəng vurdum, o da öz növbəsində mənim atamı məlumatlandırdı və iyirmi dəqiqə keçməmiş biz artıq ikimiz də atamın xidməti maşınında oturmuşduq. Sürücü bizdən heç nə soruşmadı, o, babamın "Qurd qapısı"ndakı məzarını bəlkə də bizdən yaxşı tanıyırdı...

## XXXXXII FƏSİL

Cümə axşamı qəbiristanlıqda qələbəlik olurdu: əlindəki təsbehini şaqqıldada-şaqqıldada, ağacların kölgəsində, yanını daşın üstünə qoyub oturan mollalar hər an hazır idilər ki, qəbir üstə gələnlərin-əzizlərinin ruhuna yasin oxutmaq istəyənlərin arzusunu yerinə yetirsinlər. Bir qədər onlardan aralıda əllərilə daima tər güllərin üstünə su çiləyən gülsatanlar düzülmüşdü, lap aşağıda qara fəhlələr və dilənçilər toplaşmışdılar ki, onların da çörəyi, demək olar ki, burdan çıxırdı. Biz bir qucaq qırmızı qərənfil almışdıq.
Babam İbrahimin vəfatından sonra bizim hamımızı üzdən tanıyan, həmişə qulluğumuzda dayanan Molla Qurbanəli bizi görən kimi yerindən qalxdı və hələ heç bizə çatmamış ucadan salam verdi:
- Səlamin-əleyküm!
Onun salamını Fatimə bibim aldı:
- Əleykuməs-səlam! - və dərhal da soruşdu, - Molla əmi, bizim anamızı bü gün burda görməmisən ki?
- O hələ buralarda olmalıdır, - Molla Qurbanəli həvəslə cavab verdi və sonra da təfsilatıyla nağılladı ki, nənəm ona necə yanaşıb, nə xahiş eləyib və deyib ki, tək gəlib ki, elə mərhum ərinin yanında bir qədər tək otura.
- Mənim Ruqiyyə xanımdan aralanmağım yarım saat olar, - Molla Qurbanəli dedi, - çox olmaz ki, az olar...
Atamın sürücüsü onun sözünü kəsdi:
- Bəlkə o çıxıb gedib, siz onu görməmisiniz?
- Bu ola bilməz, - Molla Qurbanəli inamla cavab verdi, - axı, mən heç yerimdən tərpənməmişəm, o da geri qayıtmayıb.

Biz dinib-danışmadan, tələsə-tələsə Molla Qurbanəlinin arxasınca tanış cığırla babamın məzarına sarı addımlayırdıq və nənəmin qəbiristanlığa tək gəlməsində mən də özümü suçlu sayırdımsa, yəqin ki, Fatimə bibim lap əzab çəkirdi. Ancaq bir məsələ də var: nənəmin heç bir xahişi ailədə etirazla qarşılanmamışdı. Bəs onda nə səbəbə, o, bu gün buraya tək gəlməyi qərarlaşdırmışdı?
Mən Ruqiyyə nənəmi aralıdan gördüm. O, babamın başdaşı ilə üzbəüz qoyulmuş skamyada-qızmar günəşin odlu şüaları altında oturmuşdu. Bir qayda olaraq meçidə və yas yerlərinə gedəndə çiyninə saldığı, Şərq naxışlarını özündə yaşadan tünd boz kəlağayı da başında idi.
- Nənə! - Mən ona çatmamış səsləndim və ondan səs çıxmayanda heyrətə gəldim. Elə bil məni skamyanın önündə yerə mıxladılar: Ruqiyyə nənə yatmamışdı, gözləri baxırdı, amma sən demə axirət dünyasından baxırmış. Mən qorxumdan Fatimə bibimin arxasına keçdim.
- Can anam! - Bibimin ürək parçalayan fəryadı qayaların arasında salınmış bu azman qəbiristanlıqda əks-səda verdi. Bibim nənəmin önündə diz çökdü, Molla Qurbanəli isə iniltiylə nə isə söylənə-söylənə əlini nənəmin sifətinə apardı və onun gözlərini sığamağa başladı. O, astadan dua oxuyanda atamın sürücüsü bizdən aralanıb maşına səmt qaçdı. Görünür, atamla əlaqə saxladığı xüsusi telefon maşında idi.
"Nə olub bunlara?" - Mən heyrət içində idim. "Nə olub nənəmə, görəsən?" Mən bibimi səsləsəm də, deyəsən o məni eşitmədi, daha doğrusu, o məni eşitmək halında deyildi. O, dəli kimi nənəmin yaxasından tutmuşdu və elə səslər çıxardırdı ki, deyərdin bəs indicə canını tapşıracaq. Mən yenidən nənəmin üzünə baxmağa özümdə qüvvə tapdım, o, hələ də oturduğu skamyada, bibimin qolları arasında idi, amma indi gözləri yumulmuşdu. "Nə üçün görəsən molla onun gözlərini sığadı? Yoxsa, bizim nənəmiz..." Elə ürəyimə daman bu düşüncədən də huşumu itirdim...
Mən ayılanda özümü çoxlu sayda qohumlarımızın və eləcə də tanımadığım adamların arasında gördüm. Əmiqızım Könül üzümə su çiləyirdi, ögey anam kürəyimi ovurdu. Tanımadığım ağxalatlılar xərəkdə kimisə aparırdılar, xərəyin arxasında ağır-ağır addımlayanlar isə ağlaya-ağlaya skamyadan aralanırdılar. Mən nənəmi bu skamyada görmüşdüm, amma indi skamya boşdu. Və elə bil o anda dərk elədim ki, nə baş verib və xərəkdə kimi aparırlar. Yerimdən qalxıb xərəyi aparanların arxasınca qaça-qaça var səsimlə qışqırdım:
- Məni kimə tapşırıb gedirsən, ay nənə?
Və o anda mən bir həqiqəti də dərk elədim: deyəsən, daha Ruqiyyə nənə bu dünyada yalnız mənə lazım idi. Amma mənim fəryadım atamı da kövrəldib uşaq kimi ağlatdı, əmimi, Fatimə bibimi də.
Ağxalatlılar isə xərəyi anbaan bizdən uzaqlaşdırırdılar. Qəfildən başlayan xəzrinin nənəmin kəlağayısını ruh kimi havaya qaldırdığını görəndə mən bir daha səsimi ucaltdım:
- Məni kimə tapşırıb gedirsən, ay nənə?!
Atam qollarımdan yapışmasaydı, mən yəqin ki, xərəyi aparanları da ötüb keçəcəkdim, küləyin ruh kimi havaya qaldırdığı kəlağayını da.
- Özünü ələ al, qızım, belə yaramaz! -Bu sözü dilinə atam gətirdi və mənim qoluma girdi.

## XXXXIII FƏSİL

Məni, artıq xeyli adamı qonaq kimi qəbul eləmiş evimizə gətirdilər və öz otağımda yatacağıma uzadıb kəsif qoxulu, duru, zəqqutun kimi dərman içirtdilər. Nənəmi yumaq üçün meçidə aparmışdılar. Qapının arasından eşidirdim ki, qonaq otağındakılardan kimsə arabir eyni sözü təkrarlayır:
- Allah rəhmət eləsin, öz boxçasını da özü hazırlayıb. Rəhmətlik nadir insan idi: bu dünyadan gedəcəyi günü Allah yalnız ən sevimli bəndələrinə əyan eləyir.
Qadınlar qonaq otağında ucadan ağlaşırdılar. Müsəlman ənənələrinə görə mərhumu əvvəlcə yumalıydılar, sonra da kəfənləməliydilər ki, son mənzilə yola salsınlar. Nənəm də sən demə boxçasına hər şey yığıbmış: sabun, kisə, hamam dəsmalı, yeddi arşın ağ, hətta cənazəni bağlamaq üçün yaşıl ipək parça da.
Nazlı xalanın qonaq otağına mətbəxdən necə daxil olduğunu mən öz gözlərimlə gördüm. Səsi titrəsə də sözünü aramla dedi:
- Görün bir mənim qayınanam necə nadir insan imiş ki, öz yas halvasını da özü öz əliylə çalıb.
Mən ətrafıma baxırdım və fikirləşirdim ki, doğrudanmı nənəm bilirmiş ki, öləcək? Bəyəm, bu mümkündürmü? Hər şey elə gözlənilməz tərzdə baş verdi ki, inana bilmirdim ki, daha nənəm bu dünyada yoxdur.
Mən heç nə anlamırdım. Gözüm atamı, Həsən əmimi axtarırdı və fikirləşirdim ki, bəs onlar hanı görəsən? Bu arada qulağım bir kəlmə söz çaldı:
- Gətirdilər...
Mənzili dərhal qadınların ağlaşma səsi, vay-şivən bürüdü, amma mənim ürəyimi dağlayan Fatimə bibimin fəryadı oldu və yalnız onun harayını eşidəndə mən tam əmin oldum ki, daha Ruqiyyə nənəm yoxdur...
Mən gözlərimi yumdum və başımı da balıncın altına soxdum ki, heç nə görməyim, heç nə eşitməyim. Amma çox keçmədi ki, kimsə əlini telimə çəkdi. Başımı qaldırdım ki, ağlamaqdan gözləri qızarmış atamdı. Ailəmizdə baş vermiş bu fəlakət onu o dərəcədə sarsıtmışdı ki, əli, ayağı titrəyirdi. O, əlini yanağıma çəkəndə isə kövrəldim və hönkürtüylə ağlamağa başladım: daha mənim bu dünyada ondan savayı kimim qalmışdı ki? Mən atamın boynuna sarıldım:
- Apar məni onun yanına...
Üzü nənəmin öz kəlağayısı ilə örtülmüş cənazəni otağın tən ortasına qoymuşdular, qadınlar meyidin ətra-

fında dövrə vurub oturmuşdular. Hamı yaş içində idi, amma ən çox qəhər dolu fəryadı eşidilən, aradabir bayatı, oxşama deyən və hamını kövrəldən Fatimə bibim idi, başdan-ayağa qara geyinmiş əmim qızları da onu tək qoymurdular, öz hönkürtüləri ilə ona dəstək verirdilər. Hamının Xədicə xanım deyə müraciət etdiyi yaşlı qadın heç kimin anlamadığı ərəb dilində öz yanıqlı səsilə mərsiyələr söyləməyə başlayanda, elə bil mən də toxtayıb sakitləşdim. "Bəs indi mən neynəyəcəm? Məni kimin ümidinə qoyub getdin, ay nənə?".
Dilbər xanımın zabitəli, amiranə baxışlarının atamın üzünə necə zilləndiyini görəndə göz yaşları nəfəsimi kəsdi. Dərdə-qəmə qərq olmuş atamın ətrafında ögey anamın necə dolandığını, hökmlə onu sakitləşdirməyə can atdığını, atamın da onun bu hərəkətini narazılıqla qarşıladığını sezəndə içim içimi yeyirdi. Birdən-birə heç kimdən, heç nədən utanmadan atam hönkürdü:
- Yetim qaldıq, - dedi, - yetim...
Hamı kiriyib susdu. Hətta Həsən əmim də bu sözdən duyğulanıb başını aşağı saldı. O özündən ən azı iyirmi il yaşlı görünürdü. Bəlkə də bu ona görə idi ki, İbrahim babamdan sonra ailənin ağsaqqallığı onun çiyninə düşmüşdü, nə biləsən?
Gözlənilmədən otağın sükutuna onun səsi hakim oldu:
- Bu gün anamızı dəfn etməyəcəyik!
Adamlar heyrət içində əmimə baxırdılar. Və elə, görünür, bu səbəbdən də o, dərin hüznlə izahat verməli oldu.

- Ruqiyyə xanımın sevimli nəvəsinə xəbər göndərmişik, o gəlməlidir. Biz Azəri gözləyəcəyik.
"Azər?" - Sanki beynimdə şimşək çaxdı. "Azər gələcək???"
- Bəlkə birdən o yubandı? - Xədicə xanım narazılıqla soruşdu, - ölünü torpağa tapşırmayınca, ruhu sərgərdan qalır, nə qədər tez dəfn olunsa, bir elə Qibleyi-aləmə xoş gedər.
Həsən əmim ötkəm səsini qaldırdı:
- Mən dedim ki, gözləyəcəyik!
Otağa elə bir sakitlik çökdü ki, qədim, zəncirli divar saatının səsi də apaydın eşidilməyə başladı. Hamı susurdu, görünür, nəzakətli adam kimi tanınan Həsən əminin öz mövqeyini qəfildən belə sərt şəkildə ortaya qoyması onları təəccübləndirmişdi. O sanki üzrxahlıq və həm də özünə bəraət məqsədilə:
- Azər nənəsi Ruqiyyənin tabutunun altına girmək üçün mütləq gələcək, - dedi, - yoxsa anamızın ruhu heç vaxt dincəlməz...

## XXXXXIV FƏSİL

Qohum-əqrəba yuyulub kəfənlənmiş nənəmin başına cəmlənmişdi və Azəri gözləyirdilər. Mən qorxurdum: "Bəlkə heç Azər gəlmədi, demək, onda nənəmin ruhu əbədi sərgərdan qalacaq?"
Əlbəttə, nənəmi müvəqqəti "qoynunda" uyudan xalça-cənazə ilə bir otaqda gecələmək məni qorxudurdu, amma məni daha çox dəhşətə gətirən onun daha bu dünyada mövcud olmaması idi. Azər gələndən sonra onu torpağa tapşırmağa aparacaqlar söhbəti məqsədə uyğun deyildi. "Bəlkə Azər bir həftədən sonra gəlib çıxdı, görəsən onda Həsən əmim verdiyi hökmü dəyişəcək?" "Nə üçün xeyirxah amal insana baha başa gəlir?" Bu və buna bənzər fikirlər mənə rahatlıq vermədən başımda dolanırdı.
Amma Azər çox yubanmadı, ertəsi gün səhər gəldi. Sakitcə, hüzünlə otağa keçəndən sonra kişiləşmiş, qaralmış, saçlarını dibindən qırxdırmış, ona çox yaraşan hərbi libasının üstündən yaxasını nişanlar bəzəyən pencəyini çiyninə salmış Azər cənazəyə yaxınlaşdı və:
- Bağışla məni, nənə... - dedi.
Azəri dövrəyə almış valideynləri və bacıları onu ara vermədən bir-bir qucaqlayıb öpməyə başladılar. O bu öpüşlərə görə borclu qalmırdı, amma hiss eləyirdim ki, gözləri məni axtarır.
Onun gəlib çıxması, qarşımda dayanması məni o qədər sevindirirdi ki, hətta istəkli nənəmin ölümü də mənim üçün anbaan adiləşirdi. Göz yaşlarım yanaqlarımı islatsa da, mən əlimdəki dəsmalla gözlərimi ona görə qurutmaq istəmirdim ki, onun surəti bir anlıq da olsa, gözlərimdən itməsin. Azər qüssə dolusu, amma işıqlı gözlərilə mənə ani nəzər saldı və mən o anda Azərin gözlərindən bir kitablıq söz oxudum və elə bu sözlər də məni sakitləşdirdi. Bir qədər sonra isə Azər iki daşın arasında bu bir kitablıq sözün bir cümləsini qulağıma pıçıldadı:
- Mən səninləyəm, Balaca, hər şey yaxşı olacaq.
Azər Ruqiyyə nənənin otağında peyda olandan sonra mən həqiqətən sakitləşmişdim və inanırdım ki, doğrudan da hər şey yaxşı olacaq. Daha bir ümdə məsələ: cənazəsinin altına oğlanları və sevimli nəvəsi girən nənəmin xoşbəxtliyinə şübhə eləmirdim. Ruqiyyə nənəmi İbrahim babamla yanaşı basdırdılar və mərhumun ilinin çıxmasını, qəbrin yatıb yerlə bərabərləşməsini gözləmədən hələ heç qəbrin torpağı soyumamış və əbədi ayrılığın beşinci həftəsində məzarın üstündə elə bir mərmər abidə ucaltdılar ki, bu qara daşa çəkilən xərci eşidəndə Azər də, mən də heyrətə gəldik... Amma o gün də Azərlə mən nənəmin ətraf qəbirlərdən dərhal seçilərn məzarına qoymağa qırmızı qərənfillər apardıq.

## XXXXXV FƏSİL

Ruqiyyə nənəmin qırxı çıxanacan elə bir gün olmadı ki, tanıdığımız, ya heç tanımadığımız dəstə-dəstə qadınlar, kişilər bizə başsağlığı verməyə gəlməsinlər. Bir də, axı, elin adəti var: yas düşmüş ailəni gərək tək qoymayasan; hər dərdinə-oduna şərik olasan. Bizim evin həyətində nəhəng çadırlar qurmuşdular: özü də ənənəyə uyğun tərzdə: kişilər üçün ayrı, qadınlar üçün ayrı. Çadırlara gəbə döşənmişdi, işıq çəkilmişdi, bütün qab-qacaq, samovarlar, stollar, stullar birovuz məntəqələrindən gətirilmişdi. Xüsusi dəvət olunmuş aşpazlar iri qazanlarda plov, dolma, halva bişirirdilər. Birovuz xidmətinə daxil olan xörəkpaylayanlar süfrəyə qoyun pendiri, xiyar, pomidor, lavaş, yuxa, şorqoğalı, bardaq-bardaq şərbət, ayran düzürdülər. Ehsan yeyilib fatihə veriləndən sonra süfrədə kəllə qənd, xurma, dilimlənmiş limon, halva və qoğal qalırdı ki, süfrəyə çay verildikcə bu nemətlər də təzələnirdi.
Ənənəyə görə hər hansı bir adam, bizim ailənin üzvlərindən kimisə tanıdı, ya tanımadı - fərqi yoxdur, çadıra girib mərhumənin şərəfinə verilən ehsandan dada bilərdi. Bütün gün ərzində mollalar dua oxuyurdular, fatihə verirdilər, hədislər danışırdılar və belə bir ağır yası yüngülləşdirirdilər.
Bəlkə, belə məsləhətdi?
Gəlib-gedən qadınları yola salmağa, qarşılamağa başım qarışsa da, necə deyərlər, başımı qaşımağa vaxtım olmasa da, hərdən fikirləşirdim ki, bu qırx gün də gəlib keçəndən, bu adamlar evlərinə dağılandan sonra, mən neynəyəcəm bu evdə, görəsən? Daha bir adətimizə görə mərhumun, ya mərhumənin qırxı çıxanacan gərək yas evinin kişiləri üzlərinə ülgüc vurmasınlar, amma atamla əmim, daşıdıqları mötəbər vəzifələrlə əlaqədar olaraq, cəmi yeddi gün üzlərini qırxmadılar, Azəri isə bu qırx gün ərzində əməlli-başlı saç-saqqal basdı.
Bizi tək qoymayan doğmaların və tanışların dəstəyi ilə qırx gün sürən matəm keçib-getdi. Qırx gün öncə qəbirstanlıqda baş vermiş o dəhşətli hadisədən sonra köçünü bizə salan Fatimə bibim bu ağır günlər ərzində mənimlə gecələdi ki, məni qara basmasın. Təəssüflər olsun ki, qırx gündən sonra daha Fatimə bibim mənimlə qala bilməzdi, onu öz evində əri gözləyirdi... əri və bir evin qayğıları.
- Köç bizə! - O, dedi, - qızlar ər evindədilər, ayda bir dəfə gəlirlər, ya gəlmirlər, bir kişidi, bir də mən, sənə heç kim mane olmayacaq: kitablarını tök qabağına, oxu, mənim də bir qulaq həyanım olar, - gülümsədi, - nə istəsən də bişirərəm...
Fatimə bibimin mövcud imkanları və təklifi məni şad elədi, çünki mən bu dünyada ən çox ondan qorxurdum ki, atamın ailəsində yaşamalı olaram, hər gün ögey anamla üz-üzə gələrəm. Təəssüf ki, bibimin mənə elədiyi təklifi qorxa-qorxa atama çatdıranda, mən daha çox atamın səsindəki qəddarlıqdan qorxdum.
- Mənim meyidimin üstündən keçib gedə bilərsən onlarda qalmağa! - Atam incik, küskün səslə dilləndi, - bir o çatmırdı ki, mənim qızım bir salyanlının evində yaşasın! Xeyir ola, mənim evim yoxdu, bəyəm?
Təsadüfən gəlib bu söhbətin üstünə çıxan bibim də sözünü dedi:
- Dədəsinin oğludu. Dədəsi nə töküb, bu da yığışdırıb! - Və üzünü atama tutdu, - bəlkə uşağa mənim yanımda qalmaq münasibdi?
Atam qətiyyətlə onun sözünü kəsdi:
- O, öz evində də rahat olacaq! O daha yekə qızdı, şıltaqlıq yaşı da keçib. - Mənə sarı çöndü və sözünə davam elədi, - daha bu mövzuda müzakirə açmaq arzusunda deyiləm: Aida evə qayıdacaq!
Ancaq atamın ailəsində bir həftə yaşayandan sonra deyəsən atam özü də hiss elədi, başa düşdü ki, mən qəribə hallar keçirirəm və qorxdu. Bütün günü mən öz otağımdan çıxmırdım, heç kimlə danışmırdım, heç bir-birindən toppuş uşaqlarla da oynamırdım, bütün günü fikirləşirdim ki, mən bu dünyada ən bədbəxt qızam...
Atam bir axşam rəhmdilliklə soruşdu:
- De görüm, mən sənin üçün neynəyim ki, sən yenə gülümsəyəsən?
- Məni köçürt İçərişəhərə - nənəmin, babamın evinə, - dedim, - mən əzab çəkirəm, mənə elə gəlir o evi hamı tərk eləyib, hamı da həmişəlik tərk eləyib, bax buna dözmək olmur.
Bu fikirləri dilimə gətirəndə mən son dərəcə səmimi idim, ürəyimə xəyanət eləmirdim, çünki mən düşünürdüm ki, babamın və nənəmin ocağı sönməməlidir.
- Ancaq bu mümkün deyil! - Atam başını buladı, - Axı sən orda tək yaşaya bilməzsən!
- Onda sən mənə dayə tut! - Mən istehza ilə söylədim, amma ağlıma da gətirmədim ki, atam bu sözü ciddi qəbul eləyər və hətta arvadı ilə müzakirəyə də çıxarar.
Ertəsi gün səhər hər şeyin yolunu bilən Dilbər xanım "Birja" qəzetinə elan verdi. Və bir həftədən sonra bizim evin qapısını hər əlində dolu bir çemodan tutmuş altmış yaşlı alman qadını Lida döydü. Mən sifətində daha çox çilləri nəzərə çarpan bu qadının artıq yerə qoyduğu çemodanlara baxa-baxa fikirləşirdim ki, görəsən bunları həmişə gəzdirir? Əlbəttə, çemodanların içindən də xəbər tutmaq maraqlı olardı.

## XXXXXVI FƏSİL

Və beləliklə, mənim həyatım yenə axarına düşdü. Mən yenə İçərişəhərdə - babamın, nənəmin evində yaşamağa başladım və Ruqiyyə nənəmin sağlığında olduğu kimi atam bizə günaşırı, əmoğlum isə hər gün gəlirdi. Bir dəfə isə Azər məni təşvişə saldı: saçını-saqqalını taraş etdirməsinə baxmayaraq, yenə də bir qədər yad təsiri bağışladı. Heç nəyin fərqində deyildi, dinib-danışmırdı, o deyib-gülən Azərdən əsər-əla-

mət qalmamışdı, halbuki, onunla mırt vurmağa günlərlə söz tapırdın, gülməkdən isə uğunub-gedirdin, yıxılırdın.
- Keçib-gedəcək, - Fatimə bibim mənə toxdaqlıq verdi, - o müharibə görüb, qoy bir özünə gəlsin.
Fatimə bibim isə nənəmin ölümündən sonra demək olar ki, özünü tamamilə mənə həsr eləmişdi, doğma qızlarını və nəvələrini unutmuşdu.
- Onlara göz qoyan var, mən səni o nemkanın ümidinə necə qoya bilərəm? - Bibim dedi.
Lidanın bizim evdə peyda olmasının elə birinci günü Fatimə bibim ona anlatdı ki, bu evin əsil sahibəsi o özüdür və evdə öz qanunlarını həyata keçirmək istəyən Lida hesabını götürdü, vəziyyətlə barışmalı oldu. Fatimə bibimin həqiqətən də ev sahibi kimi söylədikləri ona xoş gəlsə də, gəlməsə də o sakitcə qulaq asırdı.
- Siz bu evə dəvət olunmamısınız ki, mənim tələbə balama analıq eliyəsiniz, mürəbbiyəlik hüququna da malik deyilsiniz, sizin işiniz ev təsərrüfatını idarə etməkdi, o da mənim rəhbərliyim altında, - dedi, - unutmayın bunları.
Lidanın mənə hər gün baş yumağı yasaq etmək cəhdinin qarşısını da bibim aldı. Lida mənə söyləyəndə ki, sənə görə atanın qarşısında məsuliyyət daşıyıram, sən mənə qulaq asmağa borclusan, Fatimə bibim dinmədi və Lida xala sözünün mabədini gətirdi: "mən sənə saçını tez-tez yumağa icazə verə bilmərəm, bu yalnız həftədə bir dəfə mümkündür". Bibim yenə dillənmədi. Amma daha sonra Lida söyləyəndə ki, saçın hər gün yuyulması keçəlliklə nəticələnir, bibim özünü saxlaya bilmədi, əvvəlcə ucadan güldü, sonra isə:
- Əgər siz saça belə qulluq etməyi bacarırsınızsa, - dedi, - nədən bu yaşınızda, başınızda bir tük belə qalmayıb?
Lida pərişan halda cavab verdi:
- Mən çox ağır günlər yaşamışam, elə bu səbəbdən də saçım tökülüb.
- Yox, Lida, belə şeylər nəsilnəndi, - bibim dedi - bizim nəsildə nə mənim, nə anamın saçı tökülmüşdü, saçım hələ də seyrəlməyib, özüm də gərgin bir ömür yaşamışam, bizim Aykanı da saç sarıdan qorxulu heç nə gözləmir, dazlıqdan isə söhbət gedə bilməz, bu səbəbdən də, Lida, səndən xahiş edirəm ki, uşağın başını dəng eləmə, sən öz işlərinlə məşğul ol, o da neynədiyini bilir...
Amma, sən demə, məsələ, saçı həftədə neçə dəfə yumaqda deyilmiş, həddindən artıq mütəsəllif-pedant Lida qarşısına məqsəd qoyubmuş ki, əzizlənmiş, dəymə-düşər qızı ələ alsın və öz istədiyi kimi tərbiyə etsin.
- Bu qız bütün günü çarpayının üstündə eşələnir! Günün günorta çağı da çarpayıya uzanarlar?!
Bir dəfə harasa bərk tələsən atama Lida bu sözləri söyləyəndə, atam münaqişənin təfsilatına varmadı, çox güman ki, buna sadəcə vaxtı çatmadı.
Mən öz "dayəmdən" belə satqınlıq gözləmədiyimdən, nitqim qurudu, yəni bu da ifritədir?
Mən ev işlərindən heç vədə yayınmırdım, çox şeyləri də bacarırdım. Yatacağımı özüm yığışdırırdım. Alt paltarlarımı yumağı da nə Lidaya etibar eləyirdim, nə də paltaryuyan maşına və hərdən şkafların tozunu alırdım, gülləri sulayırdım, fincanları yuyurdum, stolu yığışdırırdım, həvəsim olanda nə isə bişirirdim, çünki bu sahədə Ruqiyyə nənəm kimi üstadım olmuşdu, hələ Fatimə bibimi demirəm.
Evimizə qonaq çağırılanda heç kim mənim kimi süfrə salmağı bacarmırdı: mən salfet kağızlarını elə düzəldirdim ki, onlardan yelpazə kimi də istifadə etmək olurdu. Bir sıra tərəvəz nümunələrindən elə gül kompozisiyaları kəsib hazırlayırdım ki, baxanın ağzı açıla qalırdı. Yeni il süfrəsinə isə göy noxuddan və adicə kökdən istifadə etməklə yolkayabənzər, əqrəbi-filanı öz yerində elə bir saat düzəldirdim ki, yalnız çıqqıltısı eşidilmirdi. Əqrəblərin duruşundan da bilinirdi ki, yeni ilin tamamına düz beş dəqiqə qalıb. Mən evdarlıqda elə şeylər bilirdim ki, heç Lidanın yuxusuna da girə bilməzdi: məsələn, mənə çoxdan məlum idi ki, balığı qızardanda quru apelsin və limon qabıqları balığın kəsif iyini götürür, soğan təmizləyəndə başa qoyulmuş soğan qabığı gözü yaşarmağa qoymur. Necədi, yenə sayım? Amma bu Lida da cəhd eləyir ki, məni bacarıqsız, tənbəl bir qız kimi qələmə versin, sən bir dünyanın işinə bax...
- Sizin qızınız gecələr də yatmır, saatlarla telefonla danışır!
Beləcə, o mənə qarşı iftira atmaqda davam edirdi. Bir dəfə isə dözə bilmədim:
- Yığışdırın bu xəbərçiliyi, bu yaxşı hal deyil, - dedim, - siz öz narazılığınızı mənim özümə də bildirə bilərsiniz.
- Mən öz narazılığımı bir dəfə bildirirəm, uzaqbaşı iki dəfə, üçüncüdə fikirləşirəm ki, qoy atası ölçü götürsün, bütün günü çarpayıya sərələnib telefonla mırt vuran onun qızıdır da, mənim yox ki?
Qəfildən otağa girən Fatimə bibim də münaqişəyə qarışdı:
- Yaxşı eləyir, çarpayıya sərələnir!
Evimizin bir açarı da bibimdə idi və o istədiyi vaxt qapını açıb öz evi kimi içəri girə bilərdi. Mən bibimi görəndə ürəkləndim və xəbərçi Lidaya ürəyimdən keçənləri söylədim. Bu dəfə də bibim hücuma mən tərəfdən keçdi:
- Bura onun mənzilidir. Harasında, haçan istəsə uzana da bilər, oynaya da, amma yaxşısı budur ki, siz burda at oynatmayasınız, bura sizinçün konslager deyil!
Lida söz altda qalmaq istəmədi:
- Mən ona görə çalışıram, - dedi, - doğrudanmı siz bunu başa düşmürsünüz?
Fatimə bibim heç elə bil Lidanın bu sualını eşitmədi:
- Sizə qəti şəkildə bildirirəm ki, - dedi, - heç bir məsələ ilə bağlı mənim qardaşımı narahat etmiyəsiniz,

onun bəs deyincə qayğıları var, qıza görə mən cavabdehəm, bu sahədə hər hansı bir narazılığınız olsa, mənə müraciət eləyin.
Deyəsən elə bu xəbərdarlıq da ətiacı Lidaya bərk toxundu və o:
- Məni bura dəvət edən Murad müəllimdi! - Dedi, - Pulumu da o ödəyir. Nə qədər ki, o şəxsən mənə bildirməyib ki, burda ev sahibi sizsiniz, mən onun atası ilə hesablaşacağam, sizinlə yox.
Lidanın bu dərəcədə həyasızlığını heç mən də təsəvvür eləməzdim, Fatimə bibim də çaşdı, amma yenə deməyə söz tapdı.
- Əri döymüş arvadı it də tutdu bir yandan! Gör nə günə qalmışam ki, qulluqçu da başıma dırmaşmaq istəyir.
Bibim atama zəng elədi və şikayətini əsaslı şəkildə ona bildirməyə başlayanda, Lida qəsdən, sanki yanıq vermək üçün güzgünün qabağına keçib gözlərinə sürmə çəkməyə başladı.
Atam dəstəyin o biri başında nə cavab verdisə, bibim qəfildən səsini qaldırdı:
- Qov getsin bu cızığından çıxmışı!
Mən birdən-birə anladım ki, bu dava-dalaş mənim başımda çatdaya bilər və mən yenə ögey anamla bir yerdə yaşamalı olaram, ona görə də ehmalca bibimin qolundan yapışdım və qulağına pıçıldadım:
- Qurban olum, bibi, Dilbərdənsə, yenə Lida!
Bibim atamla telefon mükalimısini sakit tərzdə bitirdi. Axşam isə atam mənə baş çəkməyə gələndə Lidaya dedi:
- Bu dəqiqədən etibarən bu evin sahibəsi kimi yalnız mənim bacım Fatimə xanıma müraciət edə bilərsiniz. Sizin zəhmət haqqınızı da o ödəyəcək. Sizin borcunuz onun tapşırıqlarını yerinə yetirməkdi.
Beləliklə, Lidanı yerində oturda bildik, amma bu bizə asan başa gəlmədi...

## XXXXXVII FƏSİL

Mən yavaş-yavaş bu dünyada sonuncu dayağım, Ruqiyyə nənəm olmadan da yaşamağa alışırdım, özü də həmişə dayanacaq axtarışında-ailəsiz! Hətta Lida ilə bir yerdə keçən son günlərim mənə o qədər də əcayib görünmürdü.
Nənəmin vəfatından sonra haçansa İbrahim babamın onun razılığı ilə yazdığı və Dövlət Notarius idarəsində təsdiq etdirdiyi bir vəsiyyətnamə də üzə çıxdı və bu sənəddən də bəlli oldu ki, babamın bağ mülkü Fatimə bibimə, İçərişəhərdəki evi isə mənə çatacaq.
Babamın halıma yanması məni kövrəltsə də, bu vəsiyyətnamə ətrafında ailədə yaranan dedi-qodu hamını sarsıtdı. Sən demə vəsiyyətnamə bütün ailəni çaxnaşmaya salıbmış. Nazlı xala hikkəsindən yanırdı, o hesab eləyirdi ki, adət-ənənəyə görə daşınmaz əmlak yalnız ailədə qalan oğlanlara çatmalıdır. Bərk qəzəblənən, hirsindən dilini-dodağını çeynəyən Dilbər isə fikirləşirdi ki, qanuni ərinin valideynlərinə məxsus mənzil mənə yox, onun oğlanlarına çatmalıdır.
Nazlı xala içindəki zəhəri belə tökdü:
- Gərək o, bir mömin müsəlman kimi var-dövlətini oğlanlarına vəsiyyət edəydi: bağı - böyük oğluna, mənzili kiçiyinə.
Dilbər yenə sözünü təkrar elədi, amma bir qədər başqa biçimdə və ilan kimi fısıldaya-fısıldaya:
- Mən birinci dəfəmdir, eşidirəm ki, böyük oğlanları sağ-salamat ola-ola valideynləri öz bağlarını qızlarına, evlərini isə nəvələrindən birinə vəsiyyət etsinlər!
Bir gözü atamda olan Həsən əmim də bu üzücü söhbətə qarışmalı oldu:
- Mənim valideynlərimin gəldiyi qərar, məncə, müdrik və ədalətlidir. Allah onlara rəhmət eləsin. Ədalət naminə deyin görüm o bağda ən çox zəhməti olan kimdi? Əlbəttə, Fatimə. Bəs onda bağ nədən Fatiməyə qismət olmasın? Gəlin əyri oturaq, düz danışaq: o bağda o heç zaman bizim kimi dincəlməyib, o bağda o tər dabanından süzülənə kimi işləyib. Və innən belə o bağı saxlamağa, hər ağacdan, hər koldan ötrü can qoymağa hansımız hazırıq Fatimədən başqa? Hələ bütün bunlar öz yerində, biz istədiyimiz vaxt hökumət sanatoriyalarının ən yaxşı nömrələrində yer alıb dincələ bilərik. O ki, qaldı İçərişəhərdəki mənzilə, Aidadan başqa onu kimə vəsiyyət edə bilərdilər? Bizim uşaqlarımızdan hansı Aida qədər o mənzilə bağlı olub? Belə ki, yığışdırın, son qoyun varisliklə bağlı bu danışıqlara! Heç kimin haqqı yoxdur ki, mənim valideynlərimin çıxartdığı qərarı müzakirə eləsin!
Və beləcə Həsən əmim bircə dəfə sözünü qətiyyətlə söyləməklə Nazlı xalanı da susdurdu, mənim ögey anamı da.
Mən Həsən əmimi öpməyə hazır idim! O haqlı idi. Babamın övladlarından heç biri bağa Fatimə bibim kimi cani-dildən qulluq edə bidməzdi. İçərişəhərdəki mənzil isə məndən ötrü böyük məna kəsb eləyirdi... O evin dəyəri məndən ötrü faktiki qiymətindən qat-qat yuxarı idi. O mənzili mən daşınmaz əmlak kimi qəbul edə bilməzdim, çünki ora məndən ötrü həm sığınacaq, həm də qəlbimə ən yaxın insanlarla keçən şüurlu həyatımda ocaq olmuşdu.
- İnşallah, tezliklə müharibə qurtaracaq, biz torpaqlarımızı geri alacağıq. Bədbəxt qaçqınlar, özləri elə bir milyonluq qoşundu, qayıdacaqlar ata-baba torpaqlarına... Onda bu zavallılar bizim bağımızdan da çıxacaqlar, onda mən dərhal köçümü ora salacam, o ötən günlərdə olduğu kimi, yenə də hamını bir damın altına yığacam.
Bu, Fatimə bibimin sözüdür. Son günlər tez-tez dilinə gətirirdi.

Bağ mülkünün ona qismət olmasına görə mən çox sevinirdim. Səmimi söyləsəm, elə mənə olunan varislik də ürəyimcədi, onlar İçərişəhərdəki mənzili mənə bağışlamaqla, quşu gözündən vurmuşdular, daha doğrusu, bir gülləynən iki quş vurmuşdular: mənim ən böyük arzum Azərlə toyumuzdan sonra o mənzilə yığışmaqdı. Və orda o evin mərhum sahibləri kimi şərəflə, saçı-saqqalı ağardanacan yaşamaqdı.

XXXXXVIII FƏSİL

İçərişəhərdəki ev qabaqlar olduğu kimi ailənin "baş qərargahı" rolunu saxlayırdı - yorulmaq bilməyən Fatimə bibimin sayəsində. O, təkid eləyirdi ki, bütün bayramlarla bağlı hər cür hazırlıq, bu ailənin bünövrəsini qoyanların sağlığında olduğu kimi bu ocaqda keçirilsin.
- Qoy qabaqlar olduğu kimi bizim evlərimizə gedən bərəkət onların ocağından çıxsın, - bibim dedi və yaşla dolu gözlərini siləndən sonra salavat çevirdi.
Eynilə Ruqiyyə nənəmin sağlığında olduğu kimi, bibim Novruz bayramına hazırlığa bir ay qabaq başlayırdı və bunun da nəticəsində ilin axır çərşənbəsində bizim evlərimizi Novruzun rəmzi olan qırmızı bantlı səməni bəzəyirdi. Yaxşı yadımdadır, enli, nazik boşqaba, ya siniyə nəm kətan sərərdi, üstünə də sıx halda buğda səpərdi və çox keçməzdi ki, ilk cücərtilər alınardı, cuna dolanmış butulkaların üstündə isə küncüt toxumunu cücərdib elə bir formaya salardı ki, adamın ağzı açıla qalırdı.
Novruz bayramı ərəfəsində bizim evimizdə löyün-löyün ləzzətli şirniyyatlar bişirilərdi: şəkərçörəyi, şəkərbura, paxlava, şorqoğalı. Bayram biş-düşünə başlamamışdan bir neçə gün qabaq Fatimə bibim iri siyahılar tutardı və verərdi atamın, əmimin sürücülərinə və çox keçməzdi ki, onlar əmim və bibim qızlarının gülüşləri sığmayan evimə zənbil-zənbil ərzaq daşıyardılar. Başlıca şərt də bu idi: Fatimə bibim bu şirniyyaiların hazırlanmasına öz cibindən bir qara qəpik də xərcləməməlidir.
- Bir o çatmırdı ki, salyanlı çörəyi yeyək, - Həsən əmimlə atam bir ağızdan dilləndilər, özü də eynilə İbrahim babam kimi.
Bir dəfə isə dözmədim və soruşdum:
- Nə üçün bizim kişilər Salyandan çıxanlara xor baxırlar?
Fatimə bibim mənim bu sualıma ucadan güldü və:
- Məsələ Salyanda deyil, - dedi. - Heç bilirsiz Salyandan nə kişilər çıxıb?! Təəssüf ki, siz onlardan yalnız birini tanıyırsız: mənim Yunusumu.
Hamı güldü. Mən baş aça bilmədim bibimin bu atmacalı sözünün arxasında nə gizlənib? Hər halda mən bilirdim ki, onun ürəyi bulaq suyu kimi safdı, təmizdi...
Bir neçə gün sərasər, gecə-gündüz bilmədən Fatimə bibim xəmir yoğururdu, kündələyirdi, ləpə ovurdu, bişirirdi. Mən ona əlimdən gələn köməyi eləyirdim. Baxmayaraq ki, şirniyyatlar hamı üçün bişirilirdi - həm Həsən əmimin ailəsinə, həm mənim atamın ailəsinə və ərdə olan Fidanın, Aynurun, Xədicənin, Zəhranın ailəsinə. Nə Nazlı xala, nə də Dilbər, mənim evimin qapısını da açmırdılar ki, birdən Fatimə bibim onları harasa, nəyəsə buyurar.
Onu da söyləyim ki, Dilbər iki oğlan doğub ailədə öz yerini bərkidəndən sonra iç üzünü göstərməyə başlamışdı, hətta ailə "divanında" hökmranlıq iddiasında olan Nazlı xalanın da qabağından qaçmırdı, bir eşidəndə, beş eşitdirirdi. Hərdən onların "qiyabi" deyişməsinə mən də şahid olurdum.
- Quzu dərisinə bürünmüşdü, elə ki, yerini bərkitdi, dişini göstərdi. Yadından çıxıb ki, kimin sayəsində arvad olub, ev yiyəsi olub?! Mən böyük qardaşın arvadıyam, hamı da mənimlə hesablaşmalıdır. Mənim sözüm keçməlidir!
Amma bu hənək, o hənəkdən deyilmiş. Dilbər kənək qoz imiş. O, dedi - qodulardan çəkinmədən öz qayınarvadına daha sərt simariş göndərdi:
- Onun nəyi məndən artıqdı? Ərim də onun ərindən aşağı vəzifədə oturmayıb, özüm də onun kimi bir yox, iki oğul anasıyam, o mənə nə hökmranlıq eləyə bilər?
Zaman keçdikcə "hakimiyyət" üstündə ölüm-dirim savaşına atılan, bir-birini didib-parçalamağa hazır olan iki dişi aslanın bağırtısı bütün ərazini vəlvələyə salıb sarsıtdı.
- Onlar savannada ərazi və hakimiyyət iddiasında olan iki dişi aslan misalındadılar, - mən məsxərə, məzə ilə dedim, - yaxşı ki, bizim aslanlar hakimiyyət uğrundakı bu savaşda öz ərazilərini tanıtmaq üçün öz qoxuları ilə mundarlamırlar!
Amma mənim bu müqayisəm bibimin xoşuna gəlmədi:
- Dişi aslanlar savannada boğuşmurlar, əksinə, bir yerdə ov eləyirlər. O ki qaldı sərhədləri müəyyənləşdirməyə, bu, savannanın sahibkarı - Pələngin, ailə başçısının işidir. Belə ki, bu iki dişi aslanın - daha doğrusu, iki ilanın niyyəti bir-birini çalmaqdı! Daha bərk çalmaq!
Bahalı geyimləri ilə bir-birinə meydan oxuyan, çarpışmaqdan-qarpışmaqdan yorulmayan rəqiblərin mübarizəsini təsvir etmək üçün istifadə olunan hər cür müqayisə, onların qarşıdurması qədər ifadəli deyilmiş.
Hər sahədə, hər işdə bəhsə girdikcə, hərdən lap gülməli hadisələr baş verirdi, məsələn, Xədicənin toyunda onlar ortaya eyni yerdən, eyni adamdan alınmış eyni donda çıxdılar. Halbuki bir-birindən seçilmək istəyirdilər, amma nə biləydilər ki, ayaqlarını basdıqları körpüdə taxtalar çürüyüb.
Qayın arvadları - biz əl-ələ verib bayram şirniyyatı bişirən zaman bir-iki saatlığa içəri girib bibimə kömək etmək əvəzinə, görülən işi gözdən salmaq üçün ay sözlər tapırmışlar ha!
- Mən bu şirniyyatı bir başqasına da sifariş verə bilərdim, - Nazlı xala yekə-yekə dedi, - amma...

Əlbəttə, onun sözünün "amma"sı aydındı, amma Fatimə bibim necə yol verə bilərdi ki, istəkli qardaşları, qardaşı oğlanları, qardaşı qızları xalqın ən sevimli bayramında yad əllərdən çıxan şirniyyatı yesin?
Bu dəfə isə ö sözünü qəti şəkildə söylədi:
- Nə qədər ki, canım sağdı bütün nəsil üçün özüm bişirəcəyəm.
- Bişir, əgər özünə iş tapmırsansa... amma mənim daha vacib işlərim var, - Nazlı xala yenə istehzasından qalmadı, - öz aramızdı, Dilbər sənə kömək edə bilər ha, onsuz da uşaqlara anası Kübra baxır, hələ dayəsini demirəm.
- Bizim evdən orda kömək eləyən var, - Dilbər Nazlı xalanın sözünü kəsdi, - yaxşı olar ki, sən ora öz qızlarını göndərəsən, şəkərbura bəzəməyə, əsil qız işidi.
Görünür, elə bu təklif də Nazlı xalanı haldan çıxartdı, o qızlarının ünvanına deyilmiş sözü qulaqardına vurub hiyləgərcəsinə soruşdu:
- Kimdi Sizin evdən orda kömək eləyən?
Dilbər fikirləşmədən, gözlərini qırpmadan cavab verdi:
- Aida! Bəyəm Aida bizim evdən deyil?
Dilbərin bu həyasızlığından damarımda qanım donsa da, Fatimə bibim mənə göz basıb altdan-altdan gülməyə başladı:
- İki ilan tutaşıblar-anakonda ilə gürzə. Qoy qırsınlar bir-birini! Mən yavaş-yavaş özümə gəlib əlimdəki şəkərbura kündəsinə naxış sala-sala bibimdən soruşdum:
- Sən onları heç sevmirsən?
- Yox, onlar məni sevmirlər, - bibim cavab verdi, - axı mən onların baldızıyam, daha doğrusu, qan düşməni. Onlar həmişə çalışırlar ki, kasıb olduğuma görə məni alçaldalar. Qabaqlarını alan olmasa, bu evdə kəsdiyim hər tikəni başıma qaxarlar! Unudublar ki, qardaşlarımın çörəyini yeyirlər və qardaşldarımın sayəsində belə dəymədüşər xanım olublar!
- Mənim anam da səni sevmirdi?
Bibim, deyəsən, məndən belə qəfil sual gözləmirdi. Bir qədər fikrə gedəndən sonra:
- Yox, əlbəttə yox, sənin anan öz üstünlüyünü heç zaman gözə soxmazdı, məni buyurduğu da yadıma gəlmir, -dedi, -lazım gələndə qalxıb mənə yer də verirdi, bir yerdə qalxırdıq, işlərimizi qurtarandan sonra da bir yerdə otururduq. O da mənim kimi sadə idi. Amma bu iki görməmişin bir-birini görən gözü yoxdu...
Fatimə bibimin gəlinlərdən zəhləsi getsə də, öz mahir əlləri ilə bişirdiyi bayram şirniyyatını, ləziz yeməkləri qazanlara-qablara doldurub özü onların qoltuğuna verdi. Fikir verirdim: heç "sağ ol" da demədilər. Onlar hesab eləyirdilər ki, əgər ərzağın xərcini onların ərləri çəkibsə, demək, mənim bibimin əməyindən utanmadan yararlana bilərlər.
Böyük ürəkli Fatimə bibim isə işsiz dayana bilmirdi. Novruzdan sonra, üzü yaya gedəndə başlayırdı cürbəcür mürəbbələr bişirməyə, kompot bağlamağa, qızılgülü şəkər tozu ilə qarışdırıb günəşin istisində bişirməklə qülqənd hazırlamağa, üzü payıza gedəndə isə bütün doğmalar üçün turşular tutardı: kələm ayrı, xiyar ayrı, sütül pomidor ayrı. Mən Fatimə bibimi anlayırdım və çalışırdım ki, ona kömək eləyim, hərdən Azərin kiçik bacısı Könül də bizə qoşulurdu. Biz sarımsağı, göyərtini xırda-xırda doğrayıb badımcanların, bibərlərin içinə doldururduq. İşlək əl azdı-əmim, bibim qızlarının başı öz ailələrinə qarışmışdı, ancaq mən işdən qorxmurdum, bibimlə bir yerdə olanda həzz alırdım, dincəlirdim. Yəqin ki, boş evdə Lida ilə tək qalmağımın nəticəsi idi ki, Fatimə bibimlə keçən bu günlər mənim üçün əsil bayrama, şənliyə çevrilirdi, elə bil ki, bom-boz yağışlardan sonra göy üzündə qövsi-qüzeh doğulurdu.

## XXXXXIX FƏSİL

Bir dəfə yenə bibimlə mətbəxdə bir kisə kələmi qarşımıza töküb doğrayırdıq ki, bankalara, qablamalara dolduraq. Dəfnə yarpağının və sarımsağın qoxusu bütün mətbəxə, hətta dəhlizə də hopmuşdu. Görünür, elə incə-mincə Lida xalanı da qıcıqlandıran, tez-tez üz-gözünü turşudaraq yanımızdan ötüb eyvana çıxmağa məcbur edən bu idi. Bər-bəzək içində olan Lida əlində bir qazan biqudi yenə eyvana çıxmaq istəyəndə qapının ağzında ayaq saxladı və üzünü bibimə tutdu:
- Siz necə düşünürsünüz, Fatimə xanım, mən bu firuzə broşkanı hardan asım: sağdan, yoxsa soldan? Onun sifətinə olduqca ciddi bir ifadə hakimdi.
Məni gülmək tutmuşdu. Bibim isə Lidanın sualını bir xeyli başını bulayandan sonra cavablandırdı.
- Kaş elə mən də sən çəkən dərdləri çəkəydim, ay Lida, -dedi, -hərçənd sənin bu alabəzək qoftan özü həddindən artıq diqqət çəkəndi, broşkaya ehtiyac yoxdur, amma bir halda ki, taxmaq istəyirsən, sağ yaxşıdı.
- Siz nə danışırsız! Bu indi sizə elə gəlir, - Lida qız ədası ilə dedi, - hələ saçlarımı sahmana salmamışam, indi saçlarımı buracam, qurudacam, bax sonra siz mənə öz fikrinizi deyərsiz.
Amma o bizdən aralanan kimi bibim sözünü onun qarasınca dedi:
- İlahi, bunun başında üç cüt bir tək tük var, nəvə-nəticə saçı hörməlidi, öz qotur tükləriynən oynayır...
Ürəyimdə bibimlə həmrəy olsam da, bunu bildirmədim, əksinə soruşdum ki:
- Bibican, sən niyə heç vaxt saçlarını düzəltdirmək üçün gözəllik salonuna getmirsən?

Cavabı kəsə oldu:
- Dəyərmi? Yudum, qurutdum, bəsdir də...
- Yox, bibican sən qətiyyən özünə qulluq eləmirsən. Sən pianoçusan, amma sənin əllərini, barmaqlarını tyorka cadar-cadar, didim-didim eləyib!
O başının sərt hərəkətilə gözünün üstünə düşən birçəklərini yana itələdi, sıx kipriklərin əhatəsində qalmış beçə balı kimi şəffaf gözlərini mənə zillədi:
- Nə olsun ki?
- Ay bibi, axı nə üçün sən belə gözəl ola-ola daha artıq gözəl görünmək istəmirsən? Nazlı xala, Dilbər nələr eləmirlər! Sən onlarla müqayisədə dünya gözəlisən, amma özünə fikir vermirsən!
Bibim gülümsədi:
-Axırı ki, sən mənə verdiyin sualı özün cavablandırdın: demək, mənim bəzənməyə ehtiyacım yoxdur.
- Mən ciddi deyirəm.
- Onda mənə qulaq as. Bilirsən onlarla mənim aramda fərq nədi? Biz toya çağrılanda, məni sancı tutur ki, toya salmağa yüz dolları hardan alacam? Amma onlar fikirləşirlər ki, o toya hansı bahalı, hansı əntiq şeyi alıb geysinlər ki, camaatın ağzı açıla qalsın, diqqət çəksinlər, adamları heyrətə gətirsinlər. Onlar bütün günü arzulayırlar ki, bir toy olaydı, bəzənib-düzənib ortaya çıxaydılar, mən isə o toya gedə bilmirəm. Özün fikirləş: cüzi maaşla musiqi məktəbində dərs deyən musiqi müəllimində artıq yüz dollar hardan ola bilər? Yəqin ki, qardaşlarım qolumdan tutmasaydı, mən çoxdan məhv olmuşdum...
Bu həqiqətdi: bacılarını son dərəcə çox istəyən Həsən əmim və eləcə də mənim atam heç zaman əllərini Fatimə bibimin üstündən çəkməmişdilər. İçkiyə qurşanmış Yunus maaşını son qəpiyinəcən içdiyindən ailənin bütün yükünü bibim o xırda çiyinlərində daşıyırdı. Ağlıma da gətirə bilmirəm ki, qayğıkeş qardaşları olmasaydı, o neyniyərdi? Arvadlarından xəlvət, Azərnən mənim atalarımız bibimin Sovet küçəsindəki uçuq-sökük daxmasını böyük pullar hesabına Basin küçəsindəki geniş, yaraşıqlı mənzillə dəyişmişdilər, hələ sonra da o evi əməlli-başlı təmir etdirmişdilər. Qızlarının təhsil haqqını, həmçinin cer-cehiz pulunu, toy xərcini Həsən əmimlə atam qoşa çəkmişdilər.
Mən Həsən əmimlə atamı bir də ona görə çox istəyirdim ki, onlar həqiqətən bacı yolunda fədakar qardaşlar idilər! Axı, onlar bacılarını atmamışdılar, bacılarının uşaqlarını taleyin ümidinə qoymamışdılar, həmişə əsil ata kimi onların qayğılarına qalmışdılar. Bibim mənə bir dəfə atamın onlara xəbərdarlıq etmədən, əlində də bir ağ balıq gəlməsindən danışırdı, amma bacısı evində Yunusun butulka yoldaşları ilə qarşılaşanda və görəndə ki, bacısı bu alkaş dəstəsinə qulluq eləyir, bacısı evinə lov salıb, alkaşları qovalayıb, Yunusu da qarşısında oturdaraq deyib:
- Sən hər araq düşgününü öz evinə gətirirsənsə, nə kişisən?! Əgər bir də eşitsəm və görsəm ki, mənim bacım sənin alkaş dostlarına qulluq eləyir, bir də onun üzünü görməyəcəksən!!!
O gündən sonra Fatimə bibim sözün tam mənasında demək olar ki, dirçəldi, özünə gəldi, çünki daha Yunus "butulka yoldaşları"nı evə gətirmədi, o ki, qaldı içməyinə, yox, içməyi tərgitmədi...
Mən hesab eləyirdim ki, tale mənim bibimə qarşı çox amansızdı, amma anlaya bilmirdim ki, o bu cür həyat tərzini niyə davam etdirir? Çox fikirləşdim və nəhayət gəldiyim nəticənin axırına çıxmaq istədim:
- Sən Yunus dayını hələ də sevirsən?
- Nə sevgi canım!-Bibim əlini yellədi, - bizim evimizdə uzun zamandır ki, nə sevgi var, nə hörmət-izzət. Mənə bu da azdı: atama qulaq asmadım, cəzamı da aldım.
- Belə çıxır ki, babam hər şeyi görürmüş?
- Əlbəttə, görürmüş! O, uzun bir ömür yaşamışdı, bilirdi ki, bu yol hara gedir, qarşıda məni nələr gözləyir. Yunusun Salyanlı olması sadəcə bəhanə idi ki, atam etirazını bildirsin, əslində isə, baban Yunusu dişinə vurdu və gördü ki, içi boş adamdı, məsuliyyətsizdi. "O, çörək qazanan kişiyə oxşamır". O, Yunusu bircə dəfə görən kimi bu sözü rəhmətlik anama söyləmişdi. Amma mən heç nəyə təəssüflənmirəm, axı ona ərə getmək qərarını özüm vermişəm. Necə deyərlər, özü yıxılan ağlamaz. Axı, bir də həyatın işdəklərini kim bilir, bəlkə əks halda, mən bütün ömrüm boyu əzab çəkəcəkdim ki, məhəbbətimi nəfsimə qurban verdim!
Bibimin taleyinə bir daha qəlbdən yana-yana soruşdum:
- Bəs niyə boşanmırsan?
Bibim zarafata keçdi:
- Biz papaq deyilik ki, gündə bir başa qoyulaq, - dedi.
-Papağın buna nə dəxli var?-Mən incik halda mövqeyimi bildirdim, - insan gərək xoşbəxt həyat üçün mübarizə apara! Bir dəfə yanılmısansa, gərək elə bütün ömrün boyu əzab çəkəsən? Sən namusla yaşamısan və mən şübhə etmirəm ki, ləyaqətli bir insanla qarşılaşarsan.
- Eh...cavanlıq...cavanlıq! Yadında saxla: taxtı dəyişmək olar, baxtı yox... Bu baxt ki, məndədir, ikinci nigahım ondan da uğursuz olardı.
- Nədi, yoxsa sən fatalistsən? Qəzavü-qədərə inanırsan?
- Mənim balam, mən qəti əminəm ki, hər insan həyatda öz borcunu yerinə yetirir. Şübhəsiz ki, işgüzar bir yolçu ilə yanaşı istedadsız da yaşamalıdır ki...nigah tarazlaşsın? Bəyəm sən xoşbəxt ər-arvada tez-tezmi rast gəlirsən? İnan mənə, iki ləyaqətli adam bir-birinə çox nadir hallarda rast gəlirlər, o qədər nadir hallarda ki, lap ilğım kimi...
İlğım? Baxarsız, biz Azərlə ailə qurandan sonra dünya biləcək ki, harmonik ər-arvad necə olar!

XXXXXX FƏSİL

Amma mənim istəklim nədən belə yad olmuşdu, nə üçün susurdu, niyə bizim gələcəyimiz barədə heç nə söyləmirdi? Hər halda mən hər şeyə hazır idim: təki o gözümün qabağında olsun... Axı, Azər müharibədən yad və qəribə qayıtmışdı, onu tanımaq olmurdu...
Xoşbəxtlikdən o yavaş-yavaş özünə gəldi. Düzdür, hələ də o müdhiş müharibədə başına gələnləri mənə danışmırdı, bu barədə mən özüm söz salanda isə eyni sözü eşidirdim:
- Sənə bəslədiyim duyğuların xatirinə məndən müharibədə gördüklərimin təfsilatını danışmağı xahiş eləmə: qadın qulağı gərək o söhbətləri eşitməsin, qadın əsəbləri o xatiratlara dözməz.
Mən daha üz vurmurdum, fikirləşirdim ki, qoy o günlərdən uzaqlaşsın. Şəhərimizdə gündən-günə göbələk kimi artıb-çoxalan müasir kafelərə getmək, orda əylənmək də ürəyimcə deyildi. İkinci bir tərəfdən də bu cür gəzintilər bizdə nastalji hisslər oyadırdı, günbəgün yox, saatbasaat dəyişən mehriban Bakını yadımıza salırdı. Qərbi görüb-tanımaq üçün daha xaricə getmək lazım deyildi; Avropa çağrılmamış qonaq kimi bizim şəhərimizə daxil olmuşdu: bənzərsiz Şərq kaloritini bəzi yerlərdə tamamilə sıradan çıxartmışdı, halbuki Bakıma xalqın milli-mənəvi dəyərləri üstündə qərar tutan şöhrəti elə bu Şərq kaloritilə bağlıdır. Yəqin ki, Azər də mənim kimi fikirləşirdi və elə bu səbəbdən də İçərişəhərdə-evdə oturmağa önəm verirdi. İkilikdə qalanda biz ən çox uşaqlıq illərimizi, itirdiyimiz insanları yada salırdıq, fortepianoda ikimiz birdən dörd əllə çalırdıq, oxuduğumuz son kitabları müzakirə eləyirdik, ya da sadəcə ətirli şamların, zərif titrək işığında susurduq...
...Bir axşam isə başımızı əmim, bibim qızlarının toy albomuna baxmaqla qarışdırdıq.
- Nə gözəl şəkildi, ilahi! -Fidanla Anarın "bəy-gəlin" şəklini göstərib ucadan dedim.
Azər gülümsədi və şəklə baxa-baxa:
- Bizim toy şəklimiz bundan gözəl çıxacaq, -dedi, -baxarsan...
Ürəyim yerindən oynadı. "Həqiqətənmi bu söz onun dilindən çıxdı? Bəlkə qulağım səslənib?".
Mən dondum, amma bu don birdən, qəfildən açıldı:
- Mən artıq inanmıram ki, haçansa bizim toyumuz olacaq...
- Niyə? Tezliklə mən bakalavr diplomunu müdafiə edəcəyəm, qalır nə-Ruqiyyə nənəmin ilini vermək; sonra da payız günlərinin birində toyumuzu eləyərik. - Azər bu sözü o qədər inamla dedi ki, məndə həqiqətən daha heç bir şübhə qalmadı.
Nəfəs almağa da qorxurdum: qorxurdum ki, onun bu qəfil qətiyyətli sözü bir quş misalında hürküb uça və o bu anlarda sakini olduğu dünyadan yenə insanlıq dünyasına düşə və sözündən qaça. "Doğrudanmı yuxularım gerçək olur? Doğrudanmı mənim də üzümə günəş doğacaq? Doğrudanmı bizim küçədə də bayram olacaq?"
Azər sanki qəlbimdən keçənləri gözlərimdən oxudu:
- Niyə də olmasın bizim toyumuz? - dedi, - nəyə görə biz ancaq əzab çəkməliyik? Nənəmin ölümündən sonra mən heç toy barədə danışa da bilməzdim, daha doğrusu, bunu heç özüm də istəməzdim... Amma gələcəkdə necə yaşayacağımıza yəni biz özümüz hökm verə bilmərik?
Mən dərindən köks ötürdüm və nəhayət Azərə çoxdan söyləmək istədiyim bir kəlməni dilimə gətirdim:
- Nənəm bizim xeyir-duamızı vermişdi...
Bu qəfil xəbərdən gözləri böyüdü:
- Bəyəm o bizim münasibətimiz haqqında bilirdi?
- O bu dünyada hər şeyi bilirdi, - mən qeyri-müəyyən cavab verdim, -keçək onun otağına!
Mən onu rəhmətlik nənəmin həmişə qapısı bağlı olan otağına çəkdim. Nənəmlə babamın yataq otağı o biri otaqlardan ona görə seçilirdi ki, burdakı divarda iki dərin rəf vardı və nənəm öz əllərilə bizim üçün tikib hazırladığı yorğan-döşəyi ora yığmışdı. Səliqə ilə üst-üstdə yığılmış rəngarəng yorğan üzləri, pərqu döşəklər, ipək üzlü yorğanlar otağa bir bayram ovqatı verirdi.
- Bu yorğanın üstündəki yazıları oxuya bilərsən?
Azər gözəl əl qabiliyyəti olan nənəmin yorğanın bir qırağında qırmızı ipək saplarla nəqş elədiyi qoşa "A.A" hərflərinə baxdı və gülümsədi:
- Amma bu qoşa "A.A" hərflərini bağdakı tut ağacına biz özümüz yazmışdıq, yadındadı?
Bu sualdan gözlərim dolsa da, bunu Azər görə bilməzdi, çünki bu otağa o qədər də gün işığı düşmürdü.
Azər soruşdu:
- Bu hərfləri sənin yanında toxuyub?
- Yox, -dedim, - mən onu sonradan, Novruz bayramından sonra çıxarıb günə verəndə görmüşəm.
Nənəmin sandığındakı şeylər isə Azəri lap heyrətə gətirdi: axı, ordakı cehizlərin bir qismi də bizim haçansa doğulacaq ilk övladımız üçün idi.
Azər balaca yorğançaya, döşəkçəyə, örtüyə, toxuma uşaq kostyumuna baxdıqca eyni açılsa da, mən yenə kövrəldim:
- Mənim zavallı nənəm, - dedim.
- Ola bilməz belə şey, -Azər yəqin ki, məni dəstəkləmək üçün dedi, -doğrudanmı bu günü görməyəcəyi ürəyinə dammışdı? Nədən belə tələsdi? Bilirsən, Ayka, əgər mən onun ölüm xəbərini almasaydım, bəlkə hələ də cəbhədə idim... Bu söz hardasa mənə toxunsa da, fərqinə varmadım, çünki nəhayət, o mənə cəbhədən, cəbhə həyatından danışmağa başladı və mənə bəlli oldu ki, Həsən əmim dəfələrlə Azərin koman-

dirindən xahiş edib ki, onu evə qaytarsın, amma Azər özü atasının xahişlərinə qarşı çıxıb. Sonuncu dəfə komandir onu yuxudan oyadıb və deyib:
- Sənin nənən-atanın anası Ruqiyyə xanım vəfat eləyib, hərbi komissarlıq rəsmi teleqram göndərib, atanın da teleqramını almışıq, o soruşur ki, səni gözləsinlər, yaxud nənəni torpağa sənsiz tapşırsınlar?..
Elə bu xəbər də Azərin atacağı addımı müəyyənləşdirib və o, elə andaca tərxis olunmaq üçün ərizə verib ki, mülki həyata qayıdır.

## XXXXXXI FƏSİL

Belə qəbul olunub ki, oğlanın evlənmək istəməsi haqqında xəbəri ataya ana çatdırar, amma Azər nə üçünsə anası ilə açıq danışmaqdan qaçırdı. O, qərara aldı ki, atası ilə bu incə məsələni özü həll eləsin-üz-üzə, göz-gözə. Bəs o bu ürək söhbətini anası ilə çözməkdən niyə yayınırdı? Bəlkə qəlbinə nə isə dammışdı? Ola bilər... bəlkə o, təkbətək kişi söhbətini özü üçün daha məqbul sayırdı? Mənim qənaətimə görə Qarabağ uğrunda döyüşlərə qatılması Azərin çəkisini öz gözündə də, ətrafdakıların gözündə də artırmışdı və o özünü atası ilə bərabər səviyyədə danışmağa hazır sayırdı, halbuki, müharibə həyatından qabaq o qətiyyən belə bir addım atmazdı...
Onlar şəhərdən bir qədər aralı sakit kafelərdən birində görüşməyi qərara almışdılar. Həsən əmim oğlunun evlənmək istəməsi haqqındakı xəbərini şadyana qarşılayıb, amma dərhal da şərt qoyub: "Əvvəlcə mən istəyirəm ki, sən magistraturaya girəsən, -Həsən əmim bildirib, -gətir mənə magistr diplomunu, mən də bir xarici maşının açarını verim sənə, o ki qaldı toya, kimə barmağını tuşlasan, elçi gedib alacam".
Mən məyus halda səsimi qaldırdım:
- Demək, sən kimə evlənmək istədiyini atana söyləmədin? - Yox, o söhbəti kəsdi, kimin qızını alacağımla maraqlanmadan söhbəti kəsdi, heç fərqinə varmadı ki, mən kimin qızını almaq istəyirəm.
Gözləməkdən başqa əlimizdən nə gələrdi ki? Amma çox keçmədi ki, Azər Beynəlxalq Əlaqələr fakültəsində bakalavr diplomu müdafiə elədi və daha bir elmi pilləyə yol açdı. Mən səbirsizliklə Azərin magistraturanı bitirəcəyi günü gözləyirdim, Azər də həmçinin. Hardan biləydik ki, Azərin valideynləri Azəri İngiltərəyə oxumağa göndərməklə, bizə daha bir sınaq hazırlayırlar?!
Ötən zamanlarda bir ali məktəbin diplomu bəs edirdi ki, özünü mütəxəssis sayasan, əlindəki diplomla, işə vəsiqə kimi həyatın qoynuna atılasan. Amma bizim günlərdə bu bəs eləmirdi: bütün imkanlı ailələr çalışırdılar ki, onların övladları bir Avropa universitetinin də diplomunu alsın. Elə bu səbəbdən də, Azərin növbəti diplomunun şərəfinə təşkil olunmuş banketdə valideynləri iftixarla bizə sürpriz olaraq elan edəndə ki, bəs övladlarını oxumaq üçün Oksforda göndərirlər, mən əmoğlumla stuldan qalxdıq və qonaqlar qürur hissilə Azəri bir ağızdan alqışlamağa başladılar: "Urra!"
- Hə, necədir, bizim sürprizimiz xoşuna gəldi?-Nazlı xala məmnun halda Azərə yaxınlaşdı.
Azər yorğun halda gözlərini yumub bir kəlmə ilə cavab verdi: - Son dərəcə!
Nazlı xala yəqin ki, bu cavabı özü istədiyi kimi qavradığından Azəri öpdü. O isə könülsüz də olsa qonaqların təbriklərini qəbul edirdi ki, ara sakitləşsin... Əvvəlcə restoranı o tərk elədi, bir qədər sonra isə mən.
...Biz bir-birimizin gözünə baxmırdıq. Hər şey sözsüz də aydın idi: Azər də mənim kimi, bir qədər incə söyləsəm, qarşıdakı ayrıdıq ərəfəsində "heyranlıq" içində deyildi, amma bununla yanaşı, o valideynlərinin ziddinə də gedə bilməzdi.
Azər cızdağı çıxa-çıxa:
- Öz hərbi səfərbərliyim barədə çıxartdığım oyundan sonra mən onun arzusunu həyata keçirməliydim, bu övladlıq borcumdu, - dedi.
Mən mübahisəyə girişmədim, çünki o haqlı idi... Mən hüznlə susurdum, hiss eləyirdim ki, ayaqlarımın, barmaqlarımın ucu buz bağlayır. Mənə elə gəlirdi ki, hətta qanım da damarlarımla axmaq istəmir, bu işdən bezib. Neynəyim, görəsən? Bəs o gedəndən sonra necə yaşayacam? Doğrudanmı, bizim iztirablarımız heç zaman sona varmayacaq?

## XXXXXXII FƏSİL

Azəri qarşıda gözləyən səfərə hazırlaşırdıq. Azərin yola salınması törəni bütün doğmaların dəvət olunduğu "Tural" restoranında keçirilməli idi. Təntənəyə iki gün qalmış Azərə bildirdim:
- Ancaq mənə məxsus olacağın günü söylə.
Azər fikirləşmədən cavab verdi:
- Sabah...
Sözləşdiyimiz məkana -"Bakı Soveti" metrosunun qarşısına çatanda Azər həyəcanlanmış halda məni gözləyirdi. O, gülümsəməyə cəhd etsə də, gözləri qüssəli idi. Maşının qapısını açıb onu içəri dəvət elədim:
- Gedək, - dedim, - mən səni qaçırıram.
Əmoğlum ehtiramla mənə baş əydi:

- Mən sənin ixtiyarındayam.
Bizim hara getdiyimizi soruşmurdu, amma şübhəsiz ki, maşının istiqamət götürdüyü yoldan bilirdi ki, mən onu qaçırdıram ki, Azər-Aida adasına aparım. İlin ən gözəl dövrü, yayın son günləri idi. Hava çox isti olmasa da, sərin də deyildi: ilin sevənlər üçün cənnət günləri idi-təbiət öz mərhəmətini göstərirdi. Yollarda seyrəklik olduğundan heç bir saat keçməmişdi ki, Saray qəsəbəsinə yaxınlaşdıq.
Dərhal sürücünün pulunu artıqlaması ilə ödəyən Azər (o heç vaxt məni pul xərcləməyə qoymazdı) maşından düşdü və arxa qapını şəstlə açıb (Bakıda əzəldən belə qəbul olunub ki, kişi sürücünün yanında, qadın arxada oturmalıdır) dilləndi:
- Buyurun, xanım!
Onun gözləri od tutub yanırdı, sifətində təbəssüm dolanırdı. Mən iri, dolu çantanı ona uzatdım. Heç soruşmadı ki, içində nə var, ehmalca qumun üstünə qoydu və yenə mənə sarı çöndü, görünür, zənn eləyirmiş ki, düşürüləsi hələ nə isə də var. Maşın çönüb döngədə gözdən itən kimi Azər ehmalca məni qucaqlayıb öpdü:
- Çox sağ ol, bu səfərə görə, əzizim, mən çox şadam ki, biz yenə Azər-Aida adasındayıq.
İlıq dalğaları ilə bizi qarşılayan Xəzər baba ilə görüşdük və sahil boyu gəzməyə, uşaqlıq və ilk gənclik illərimizi yada salmağa başladıq. Azər-Aida adasının yeraltı saraylarından minlərlə, yüz minlərlə qarışqa çıxmışdı ki, öz ağalarını salamlasınlar, qağayılar da öz duyğularını gizləmirdilər, şadlıqlarından ucadan qışqırışırdılar.
...Əl-ələ tutub, yan-yörəyə göz gəzdirəndən sonra öz mağaramıza sarı yönəldik. Mağara qaranlıq və sərindi. Bizi görən kimi burda məskən salmış cücü-mücülərin sırtıqlığına baxmayaraq, bu mağaranın əsil sahibəsi kimi mən əlimdəki çantanı mağaranın ən dərin yerinə qədər sürüdüm.
Sonra, ürəyimdə qərarlaşdırdığım kimi yüngül pelerini çiynimdən atdım və qısa qollu tiyə donda qaldım. Ehmalca Azərə yaxınlaşdım və gözlərimlə, baxışlarımla onu oxşamağa başladım. Mən ehmalca ona qısılanda və pıçıldayanda ki, bu gün bizi heç kim ayıra, on il qabaq yarımçıq qalmış zifah gecəmizə mane ola bilməz, həyəcandan onun gözləri böyüdü.
Azər susur, arabir saf duyğulardan xumarlanmış gözlərimə baxırdı. Mən ona o qədər yaxınlaşdım ki, aramızdan su da keçə bilməzdi. Azər başımı yuxarı qaldırdı və bir xeyli gözlərimin içinə baxdı: elə bil məni kitab kimi oxumaq istəyirdi. Mən hiss eləyirdim ki, onun qəlbində nə isə daxili mübarizə gedir. Nəhayət ki, o dilləndi:
- Məni gözlə burda, tezliklə qayıdıram...
Və o qeyb oldu.
Mən yarımqaranlıq mağarada nəm qumların üstündə barmağımın ucuyla mənə bu yerdə daha məhrəm olan bir sözü cızırdım:
"Azər-Aida adası".
Sonra özüm də bilmirəm necə olub ki, başımı çantamın üstünə qoyan kimi məni yuxu aparıb. Nə qədər yatdığımı bilmirəm, amma yuxudan ayılanda hiss elədim ki, qum soyuqdu. Dözməli idim, çünki bilirdim ki, Azər qayıdacaq. Birdən bütün Azər-Aida adasını silkələyən qışqırtıdan diksindim:
- A-i-i-da-a-a!
Mən mağaradan çıxdım, ətrafa nəzər saldım, amma Azəri görmədim. Səs yenidən ucalanda mən yenə sağa-sola göz gəzdirdim və birdən sahilə yan almaqda olan bir qayıq gördüm. Əlində bir dəstə gül tutmuş Azəri dərhal tanısam da, qayıqdakı digər kişilərin kim olduğunu bilmədim.
Mən əsil şahzadə qız kimi qayaların arası ilə aşağı enirdim və hiss eləyirdim ki, qayıqda oturmuş kişilər mənə heyrətlə baxırlar: lap yaxınlaşanda onların ikisini üzdən tanıdım: qəsəbədən olan balıqçılardı -Azərin köhnə dostları. Həqiqətən mənə elə gəlirdi ki, şahzadəyəm və şah sarayının mərmər pillləkənləri ilə vəliəhdə yaxınlaşıram. Həyəcandan nə etdiyini bilməyən şahzadə qız, aşağıda onu gözləyən vəliəhdə elə heyranlıqla baxır ki, ayağı sürüşür, amma vaxtında əl atıb bir koldan yapışa bilir, amma sən demə qəfildən havanı bulud aldığından qar kimi bəyaz kəpənəklər bu kolda sığınacaq tapıbmışlar, sakitcə yatışıbmışlar. Onlar mənim ətrafımda incə-incə uçuşurdular, sanki təzə gəlin kimi ağır-ağır "vağzalı" oynayırdılar, mənsə bundan ləzzət alırdım, fikirləşirdim ki, bu çox gözəl bir əlamətdir.
Məni ləpələrin qayalarla qucaqlaşdığı yerdə qucaqlayan Azər əlimdən tutub dalğaların atıb-tutduğu qayığa sarı gətirdi və yoldaşlarına təntənəli surətdə təqdim elədi:
- Tanış olun: nişanlımdı-Bağırova Aida Murad qızı.
Kişilər ehtiramla baş əydilər. Və sonra gözbağlıcı kimi ani bir hərəkətlə cibindən ağappaq bir şal çıxartdı və atdı mənim başıma (hələ də anlaya bilmirəm ki, o şalı o iki daşın arasında hardan tapdı?) Balıqçılar qayıqdakı yerlərini bizə verdilər. Mənim lap uşaqlıqdan tanıdığım o balıqçılardan başqa qayıqda daha bir kişi vardı. Başında papaq, əlində Quran və təsbeh. O bizimlə üzbəüz oturmuşdu.
- Molla Məşədi İsgəndər, - Azər ona müraciət etdi, -bizim quruda kəsilməyən kəbinimiz əsil nigah sayılacaqmı?
- Hər şeyə qadir olan Allah özü hər şeyi görür: quruda və eyni zamanda suda baş verənləri də həmçinin.
Bir köhnə balıqçı qayığında, açıq səma altında oturmuşduq. Molla Məşədi İsgəndər isə bizim kəbinimizi kəsirdi: "Doğrudanmı uzun illərdən bəri qəlbimizdə yaşayan arzu həyata keçəcəkdi?!"-fikirləşirdim və qorxurdum ki, öz düşüncələrimlə burda baş verəsi şeyləri hürküdəm.
- Bağırova Aida Murad qızı; bu gün siz könüllü olaraq, öz istəyinizləmi bu izdivaca razılıq verirsiniz?

Mən cəsarətlə cavab verdim:
- Bəli, öz istəyimlə!
- Siz Azər Həsən oğlu ilə sevincinizi, dərdinizi paylaşmağa, ona ömür gün yoldaşı olmağa razısınızmı?
- Əlbəttə!
- Bağırov Azər Həsən oğlu, Aida Murad qızını həyat yoldaşı olaraq qəbul etməyə, onu qorumağa, öz həyatını onunla bölməyə razısanmı?
- Razıyam!!!
- Şahidlər qol çəksin.
Sən demə, Azər balıqçıları şahid qismində gətiribmiş...
Molla Məşədi İsgəndər şən halda:
- Allahın izniylə və Məhəmməd peyğəmbərin adından bu andan sizi ər-arvad elan edirəm. - dedi, Allah oğullu-qızlı eləsin.
Onun mənə nəzakətlə təqdim etdiyi nigah şəhadətnaməsində ərəb hürufati ilə nə yazıldığını oxumağı bacarmasam da, təxminən bilirdim o əl boyda kağız parçasında mənim taleyimdə müstəsna rol oynayacaq bir cümlə yazılıb: bu gündən və əbədiyyən Azərin arvadıyam!!!
Mən şəhadət kağızını sinəmə sıxdım və Azərin şahid qismində gətirdiyi kişilərin təbrikini qəbul etdim. Günəş kimi şəfəq saçan Azər mənə bir dəstə çiçək təqdim elədi və mən o çiçəklərə baxan kimi hiss etdim ki, Azər onları tez-tələsik kiminsə baxçasından yoluşdurub. Daha sonra mənim ərim ehmalca qolumdan tutub qayıqdan quruya çıxmağıma kömək elədi və sahil qumlarına ayaq basan kimi qulağıma pıçıldadı:
- Mən indi qayıdıram.
Mən sahildən aralanmadan Azərin arxasınca baxırdım və görürdüm ki, cibindən çıxartdığı pulları balıqçıların cibinə dürtür. Onlar etiraz edəndə isə o ucadan:
- Bu şirinlikdir, - dedi, - bunları şirinlik kimi qəbul edin!
Mən arxaya çönəndə qağayıların dövrəsində bir qız, bir oğlan gördüm. Qaraqıvrım saç oğlan əqiq gözlü qıza dedi:
- Ayka, sənin doqquz, mənim isə on bir yaşım var, biz nə qədər bunu istəsək də, indi valideynlərimiz bizi evlənməyə qoymayacaqlar. Amma bizim birlikdə iyirmi yaşımız var və bu az deyil. Bu səbəbdən də biz bu gün, doqquzuncu ayın onbirində evlənməliyik. Belə toy sənin xoşuna gəlirmi? Qoy bu sahil bu gündən belə bizim adamız olsun, qağayılar isə toyumuzun qonaqları!
Arıq, çiyinlərinə bəyaz şal örtmüş iri gözlü qız həyəcandan titrəyirdi. Onlar həqiqətən xoşbəxt ər-arvad idilər, amma onların ikisinin bir yerdə cəmi iyirmi yaşı vardı...
Mən öz uşaqlığımın üzünə mehribancasına gülümsədim: bu da ən böyük arzumuzun həyata keçdiyi gün! Uşaqlar məni Azər-Aida adasında iyirmi yaşlı həyat yoldaşımla qoyub bizə əl eləyə-eləyə uzaqlaşırdılar, əziz qonaqlarını yola salmış ərim isə mənə yaxınlaşırdı...
Azərlə mən səadətin bizi dəli etdiyi bu anlarda sahildən anbaan uzaqlaşan, bizim qonaqları aparan qayığın arxasınca baxırdıq. Günəşin şəfəqləri altında son dəfə qayığın gümüşü avarları bərq vurub parılayanda Azər üzünü mənə çevirdi: Mən o anlarda göz yaşlarımı saxlaya bilmirdim, göz yaşlarımı Azərin mənə verdiyi çiçək dəstəsilə örtmək istəyirdim. O, ehmalca məni özünə sıxdı:
- Xoş gördük qadınım mənim, -dedi, - Allah və insanlar qarşısında qadınım mənim!
Mən göz yaşlarıma ara vermədən Azərdən soruşdum:
- Sən hər şeyi qabaqcadan ölçüb-biçmişdinmi?
Azər ötkəm səslə:
- Mən başqa bir addım ata bilməzdim, - dedi və məni ehmalca qolları üstünə alıb qayaların arasına gətirdi. Və elə burda da biz qucaqlaşdıq və yüz ilin həsrətliləri kimi gözlərimizi yumub öpüşməyə başladıq. Və ilk dəfə idi ki, öpüşəndə utanmırdıq. Ürəyim elə döyünürdü ki, sanki indicə sinəmi parçalayıb çıxacaqdı. Bəyəm bu xırda məsələdi? Biz yenidən mağaraya girmişdik!!! Və bu dəfəki şahidlərimiz insanlardı!
Biz səadətdən bihuş olub bir-birimizin əlindən elə tutmuşduq ki, sanki bir saniyəliyə də aralanmağa qorxurduq. Mağaraya -"izdivac yuvamıza" çatana qədər bəyaz qanadlı kəpənəklər bizi müşayiət elədilər. Toyumuzun rəqsini də bu bəyaz qanadlı gözəllər ifa eləyirdi və mənim aləmimdə bu qəribə musiqi bütün adanı titrədirdi: "Mübarək olsun!"
Və əbədiyyət anları başladı. Nə dəniz var idi, nə səma, nə ulduzlar, nə ay, yalnız BİZ var idik. Azər-Aida adası həqiqətən iki xoşbəxt, cavan ər-arvadın ixtiyarında qalmışdı.

## XXXXXXIII FƏSİL

Mən evdən götürdüyüm qalın yun şalı və üstünə rəhmətlik Ruqiyyə nənmin öz əli ilə iki böyük "A.A." hərflərini Azərin və mənim şərəfimə yana-yana toxuduğu yorğan üzünü ehmalca yerə sərdim.
Bir qədər aralıda, nəhəng qaya parçasının üstündə Azər təntənəli toy süfrəsi açmışdı (görünür, bu barədə də öncə düşünmüşdü). Və çox keçmədi ki, mağara bizə hər şəraiti olan bir ev qədər doğmalaşdı. Kağız torbalardan nələr çıxartmadı? İri təndir çörəklərinin arasına qoyulmuş, üstünə göy-göyərti, sumax səpilmiş tikə-kabab, lülə-kabablar, pomidor, xiyar, mer-meyvə, şirələr darhal ağzımı sulandırdı. Və ən nəhayət, bizim toy süfrəmizin daha bir bəzəyi peyda oldu. Bu mağaranı kifayət qədər işıqlandıran neft lampası idi.
Mən heyrətimi gizləmədim:

- Bəs bunu hardan aldın?
- Bu yol üstündəki restoranlardan hər şey tapmaq olar, - Azər gülümsədi. Toy süfrəsi arxasına keçən kimi cibindən çıxartdığı balaca qutunu mənə sarı uzadıb dedi:
- Düzünü söyləsəm, mən ancaq nişana hazırlaşmışam.. Buna baxmayraq.. belə bir improvizasiyanın da əleyhinə deyiləm.
Qutuda qırmızı lent bağlanmış iki yaraşıqlı üzük vardı. Azər üzüklərdən birini mənim barmağıma keçirəndən sonra, mən də həyəcan və xoşbəxtlik içində digər üzüyü Azərin barmağına taxdım. "Yaxşı olardı ki, lenti kəsməyək" - mən fikirləşdim. - "Onda heç ayrılmaqdan söhbət belə gedə bilməzdi..." Azər elə o anda qolunu kənara çəkdi və mənim barmağımdakı üzük də o lentə bağlı olduğundan qolum zərblə dartıldı. Bilmirəm bu gülməli idi, gülməli deyildi, amma biz xeyli gülüşdük.
- Bu lent bizə lazım deyil, - mənim ərim ciddi tərzdə, təmkinlə dedi, - biz ürəklərimizi bir-birinə düyünləmişiksə, nəyə lazım bu lent?
Azər bıçaqla lenti kəsdi və onu biləyimə sarıdı. Gülümsədi, əlimi ovcuna aldı, barmaqlarımızı bəzəyən üzüklərə baxdı və birdən əlimi yuxarı qaldırıb öpdü və mehribancasına:
- Mənim arvadım, - dedi, - mənim balaca arvadcığazım.
Və sonra biz qarşılıqlı anlaşmanın və bir-birimizə yiyələnmənin dəli səadətində qərq olduq...
Bir-birimizdən yalnız hava işıqlananda aralandıq, yenə də dəhşətli bir yanğıyla, amma susuzluğumuzu söndürməyə heç nə qalmamışdı. Azərin gətirdiyi yeməli, içməli şeylərin axırına cavan ər-arvad kimi qurd iştahasıyla çıxmışdıq.
Daha sonra əlimizə düşəndən çiynimizə atıb kimsəsiz çimərliyə düşdük. Bu sahildə bizdən başqa kimsənin olmadığını kəsdirəndən sonra biz pal-paltarımızı tamam soyunub sərin sularda əsl azadlığın ləzzətini yaşayan iki xoşbəxt balıq kimi yanaşı üzməyə başladıq...
Sudan çıxanda Azər dedi:
- Mən öz sevgilimi səhər yeməyinə qonaq etmək istəyirəm.
Bu təklif mənə bir balaca məyusluq gətirdi. Hər şey o qədər qeyri-adi, o qədər romantik, o qədər gözəl idi ki, mən yenidən insan dünyasına baş vurmaq, o dünyanın hər şeylə maraqlanmağa can atan canlıları ilə qarşılaşmaq istəmirdim. "Doğrudanmı axşamdan bəri yaşadığım qeyri-adi saatlara, dəqiqələrə, anlara bir şəhərkənarı kafedə son qoyulacaq?" - hər halda ürəyimə yol tapan bu duyğu qüssə gətirirdi.
Ancaq, sən demə, mən öz həyat yoldaşımı lazımınca qiymətləndirə bilmirmişəm; o dünyanın ən romantik təzə bəyi imiş. Azər məni tanış cığırla bağlara səmt aparırdı.
Soruşdum:
-Sən məni qəsəbədəki kafeyə aparırsan?
-Qəsəbənin kafesində nə işimiz var? - Azər gülümsədi, -biz başqa yerdə yox, Azər-Aida adasında ailə qurmuşuq, səhər yeməyimiz də ada sakinlərinə uyğun olmalıdır.
- Demək, qarnımızı incirlə doyuracağıq! Özü də qonşuların bağında!
Mənim atmacam deyəsən, Azərin xoşuna gəlmədi.
- Hər şey yaxşıdır, ancaq arvadımın mənim haqqımda gəldiyi qənaət yox...o, hesab eləyir ki, mən ailə həyatımızın ilk günündən ona haram yedirdəcəm!!! Yox, biz öz incirimizdən yeyəcəyik, bizim öz bağımızda babamın öz əli ilə əkdiyi incirdən!
Bu sözlərə cavab olaraq mən ona sarmaşdım! Mənim istəklim onsuz da cəlallı idi!
Kimsəsiz qalmış bağların arasından xəlvətcə adlaya-adlaya gəlib çıxdıq İbrahim babamın incir ağacına. Torbamızı hələ şehi çəkilməmiş incirlə doldurandan sonra başladıq şəhdi-şirəsi süzülən sapsarı incirləri bir-bir ikiyə bölüb yeməyə. Amma bağımızda çox qala bilmədik, xatirələr qüssə gətirirdi...
Çox keçmədi ki, biz yenə mağaraya qayıtdıq və sonsuz bir istəklə, ehtirasla qucaqlaşdıq. Başım Azərin sinəsində, saçlarım çiyinlərində fikirləşəndə ki, tezliklə bu səmavi səadətdən məhrum olacağam, heyrətlənirdim və məni dəhşətə gətirən bu gerçəklikdən qaçmaq istəyirdim.
- Bizə böyüklərimiz xeyir-dua verdilər, - Azər fikirli-fikirli dedi və Ruqiyyə nənəmin ipək üzlü yorğanına əlini çəkdi, - İbrahim babam isə bizə banket verdi...
Mən göz yaşları içində ona qısıldım, toy yorğanının altı yenə bizim yataq otağımız oldu - biz iki adam deyildik - birləşmişdik! Yenə hər şey dayanmışdı, hər şey susmuşdu...
Şəhərə qayıtmaq vaxtı gələndə, mən əl çantamın yan cibindən öz hədiyyəmi çıxartdım: Gümüşü zəncirbənddəki bir cüt maqnitləşmiş dəmir muncuğu birtəhər bir-birindən ayırıb birini Azərə verdim:
- Haçan məni görmək istəsən, - dedim, - bu muncuğu ovcuna al, mən gələcəyəm, bu cazib muncuğudu.
- Mən həmişə bu muncuğu özümlə gəzdirəcəyəm, - Azər dedi və muncuğu ovcunda sıxa-sıxa dikəldi.

## XXXXXXIV FƏSİL

O ərəfədə mən özümü dünyanın ən xoşbəxt gəlini hesab etsəm də, iki gün sonra Azəri qohumlarla birlikdə Binə aeroportundan yola salanda özümü bu dünyanın ən bədbəxt qadını sayırdım. Qohumlar onunla qucaqlaşsalar da, mən onun qanuni arvadı ola-ola, hər şeyə kənardan tamaşa eləyirdim və fikirləşirdim ki, axı bu uzun ayrılıq ərəfəsində mən nəyə görə başımı onun sinəsinə qoyub hönkürə bilməyim?!
Qohum-əqrəbanın yerli-yersiz nəsihətlərinə qulaq asmaqdan təngə gəlmiş, hətta rəngi-ruhu da dəyişmiş Azər nəhayət ki, mənə də nəzər saldı. O, qeydiyyat köşkünə yaxınlaşanda, mən də özümü ona yetirdim

və əlimdə tutduğum iri bağlamanı ona verdim:
- Bu sənindir... - dedim.
Nazlı xala araya girdi:
-Bu nədir? Onsuz da onun baqajı normadan artıqdır, - dedi, - niyə o artıq şeyləri özünə yük etməlidir?
Hamının sual dolu baxışları mənə doğru zilləndi.
Mən gözlərimi yerə dikdim:
- Bu yorğan xalis dəvə yunundandır, rəhmətlik Ruqiyyə nənəmin Azərə yadigarıdı, üstünə onun adını da yazıb...
Azər artıq söhbətə yer qoymadan bağlamanı aldı:
- Çox sağ ol, Aida, - dedi, - bu hədiyyə məndən ötrü əvəzsizdir!
Mən atamın və ögey anamın soyuq baxışlarını öz üzərimdə hiss etsəm də, cəsarətlənib Azərə daha bir kəlmə xoş söz dedim:
- Qoy o soyuq İngiltərə gecələrində sənə hərarət gətirsin!
Azər gözlərini yumdu və mən kənara çəkildim ki, boğazımdakı qəhər göz yaşına çevrilməsin. Yola salmağa gələnlərin hamısına necə izah etmək olardı ki, biz yenicə evlənmişik və mən inanmıram ki, bu ayrılığa tab gətirə bilim? Aramızda baş verənləri onlardan necə gizləmək olardı ki, mən özüm az qalırdım hər şeyi açıb-söyləyəm? Doğrudanmı hər qarşıma çıxana öz səmavi səadətimdən danışmaq istəyim ötüb keçəcəkdi?

İlk zifah gecələri haqqında ərgən qızlara ləzzətlə və ətraflı, hər şeyi yerli yerində danışan, zifah gecəsinin "sirlərindən" söz açan əmim, bibim qızlarına mən necə deyə bilərdim ki, məndə heç bir qeyri-adi hal baş vermədi? Onlar kişi ilə ilk cinsi yaxınlıqdan sonra çəkdikləri dəhşətli ağrılar haqqında ofuldaya-ofuldaya danışdıqları halda - mən necə söyləyə bilərdim ki, o anda həyəcandan və xoşbəxtlikdən savayı heç bir duyğu yaşamadım? Onlar zifah gecəsində infeksiyadan, bakteriyadan, soyuqlamadan necə qorxduqlarını dilə gətirdikləri halda, mən necə deyə bilərdim ki, zifah gecəsinin səhəri dəniz suyunda çimdim, özü də Həvva kimi?
Bal aylarını Ərəb əmirliklərinin beşulduzlu otellərində, Kanar adalarında keçirənlər hardan bilsinlər ki, bu dünyada Azər-Aida adası da var! Və ordakı mağaraya "əldəqayırma ulduzlar" yox, Ay özü şəfəq salır!
Azəri yola salmağa gələnlərin yəqin ki, heç birinin ağlına da gəlməzdi ki, Azər-Aida adasında, qızmar Günəş altında, qədim Xəzərin sularında bizə kəbin kəsiblər, daşlarını yosun örtmüş sehirli mağaraya kimi müşayiət ediblər və bu mağara da bizi ev sahibi kimi qəbul eləyib...
Mən uzaqlaşmaqda olan Azərin arxasınca baxırdım. Ürəyim sıxılırdı. Fikirləşirdim ki, son anda çevrilib mənə baxmasa, demək məni unudacaq! Addımlarını yavaşıdıb dayandı, qüssə ilə qohumların dəstəsinə əl elədi. Mənə isə ani də olsa, nəzər salmadı. Mən heyrətə gəldim: "Doğrudanmı məni unudacaq?"
Azər sərhəd nəzarət məntəqəsinə doğru inamla addımlayırdı. Birdən düz nəzarət məntəqəsinin yanında qəfildən çöndü, səbrlə köynəyinin yaxasındakı düymələri açdı və boynundan asılmış zəncirbəndin ucundakı muncuğu dodaqlarına yaxınlaşdırdı və ümidlə mənə sarı baxdı. Mən də qeyri-ixtiyarı əlimi sinəmə - maqnitləşmiş muncuqlarla bəzənmiş zəncirbəndə apardım, amma o muncuğu əlimdə saxlamadım. Xədicə ağzını qulağıma dayayıb soruşdu:
- Nədi onun sinəsindəki, Qurandı?
Məndən qabaq Fatimə bibim dilləndi:
- Ola bilsin ki, Qurandı, - dedi, - axı o, iman yiyəsidi, inanır...

## XXXXXXV FƏSİL

Mən necə dəli olmayım: artıq bir həftədir ki, Azərdən heç bir xəbər yoxdur, amma qabaqlar hər gün olmasa da, günaşırı zəng eləyirdi! Belə danışmışdıq ki, bir qayda olaraq kommunal və telefon xərclərini özü ödəyən atamda heç bir şübhə oyatmamaq üçün mən Azərə zəng etməyim. Elə bu səbəbdən də mən onun İngiltərədəki telefon nömrəsi ilə demək olar ki, maraqlanmamışdım, amma indi buna görə özümü qınayıram. Yana-yana telefona baxıram, az qalır ağlım başımdan çıxa, nə yaxşı bu məşhur mahnı var, zümzümə eləyirəm:

"Позвони мне, позвони!
Позвони мне, ради бога,
Через время протяни голос
Тихий и глубокий!
Без тебя проходят дни,
Что со мною, я не знаю,
Как хочу я слышать голос
Как хочу я слышать голос

Долгожданный голос твой".

Mən bu mahnının sözlərini haçansa qüssədən ana dilimizə də çevirmişdim:

Mənə zəng elə, zəng elə
Zəng elə, Allah naminə.
O incə, o lətif, işıqlı səsin
Zamanı aşaraq yetişsin mənə!
Mənə nə olubdu, düzü bilmirəm
Günlərim, anlarım sənsiz ötüşür.
Hayana üz tutub, hara gedirəm,
Yadıma səsin düşür, yadıma səsin düşür.

Mən mənzildə dümələnirdim, muncuqları maqnitləşmiş boyunbağını telefona yaxınlaşdırırdım, Lida xalanın soyuqqanlı baxışlarında anlaşılmazlıq oyadırdım, amma təəssüflər olsun ki, maqnitləşmiş muncuq öz vəzifəsinin öhdəsindən gəlmirdi.
Dərsləri buraxmağa adət etsəm də, arada universitetə də gedirdim, amma hər mühazirədən, seminardan sonra mütləq evə zəng vurub ümidlə Lida xaladan soruşurdum:
- Mənə zəng eləyən olmayıb ki, Lida xala?
Bu alman qadını özünəməxsus soyuqqanlı səslə dərhal bildirərdi ki, yox, evə heç bir zəng daxil olmayıb. Dərsdən sonra mən ona görə evə tələsirdim ki, bəlkə Lida xala məni şad xəbərlə qarşıladı: dedi ki, Azər zəng eləmişdi...
Həyatımda özümü heç zaman belə yalqız hiss etməmişdim. Mənim zəngin təxəyyülümdə yaranan dəhşətli mənzərələr ya Azərin mənə xəyanətini, ya da onun həlak olmasını əks etdirirdi. Bu qorxunc mənzərələr bir-birini tez-tez dəyişən kaleydoskop şəkilləri kimi əvəz eləyirdi. Qorxunc təfsilatların üstünü basdırırdı. Həm yuxum qaçmışdı, həm də iştaham. Divana sərələnib min cür tədbir tökürdüm ki, gedib İngiltərəyə çıxa bilim, amma bu planlar həyata keçə bilməzdi. Bəlkə Nazlı xalaya zəng vurum, soruşum ki, Azərdən nə xəbər var? Məni bu addımı atmağa da mənliyim qoymadı. Bəlkə məlum oldu ki, o, evlərinə zəng vurur, amma mənimlə maraqlanmır? Tez-tez onlara getmək lazımdı... Yoxsa, mən bu cür dözə bilmərəm...
Qəfildən ağlıma gözəl bir fikir gəldi: yığışıb köçüm Həsən əmimgilə! Evrika! Mən onun əl vurduğu əşyalara toxunacağam, stulunda oturacağam, stolüstü kitablarını oxuyacağam, qismət olsa, bəlkə elə onun çarpayısında da yatdım? Azərlə bağlı hər şeydən xəbərim olacaq! Mən onun valideynləri ilə bir evin havasını udacağam və yəqin heç hiss etməyəcəm ki, ayrılıq günləri necə gəldi, necə keçdi! Görəsən, niyə mən qabaqlar bu barədə düşünməmişəm? Bir göz qırpımında səfər çantamı hazırladım və mənim hərəkətimdən çaşıb qalmış Lida xalaya nə isə, müəmmalı bir şey anlatdım və pilləkənləri iki-iki tullanıb aşağı enməyə başladım.

## XXXXXXVI FƏSİL

Nazlı xala məni görəndə, demək olar ki, səmimi bir tərzdə, şən səslə:
- Aida can, - dedi, - körpə balam, gözlərimə inanmıram! Yəni bu sənsən? Bəs niyə belə arıqlamısan?
Belə qarşılanmaqdan xoşhallandığım üçün öz qərarımı evin astanasındaca verdim: dedim ki, o yaramaz Lida ilə bir yerdə yaşamamaqdan ötrü daha mən nənəmin evinə dönməyəcəm!
- Yazıq qız! - Azərin anası ağlamsındı, - əlbəttə, sən bizdə də yaşaya bilərsən. Bir halda ki, Azər evdə yoxdur, Aynurla Fidan da ərdədilər, sən Könüllə baş-başa verib bizim evimizdəki boşluğu doldursan, elə bizə də xoş olar, sənə də!
O, məni mətbəxə gətirdi, səliqə ilə süfrə açdı və sevinclə bildirdi ki, bu gün, qismətdən mənim ən çox sevdiyim xörəyi bişirib: təzə tənək yarpağından dolma.
Mən bir də ona görə xoşbəxt idim ki, Azərin evində, Azərin anası ilə üzbəsurət oturmuşdum və nazik, turşməzə üzüm yarpağına bükülmüş dolmaları yeyirdim və bilirdim ki, Azərin anasının dili olsa da, dilçəyi də var; xüsusən də xörək bişirmək sahəsində!
Həsən əmim toydan sonra arvadına bildirmişdi ki, ev işlərində onun heç bir çətinliyi olmayacaq, lap istəsə qulluqçu da tutacaq ki, evi yığışdırmaqda, pal-paltar yumaqda ona kömək etsin, amma bir şərtlə; ailənin biş-düşünü arvadı özü etməlidir, öz əllərilə.
- Mənim balalarım bu evdə qulluqçu bişirən xörəyi yeməyəcəklər!
Bu Həsən əmimin neçə il qabaq dediyi söz idi, hələ də kəsərdən düşməmişdi.
Və elə o zamandan da Nazlı xala ürəyi əsə-əsə, işi-gücü başından aşsa da, ailənin gündəlik xörəyini özü hazırlayırdı və kulinariya sahəsində elə uğurlar qazanmışdı ki, hətta Ruqiyyə nənəmin və Fatimə bibimin bişmişindən savayı heç nə bəyənməyən vasvası Həsən əmim arvadının bu sahədəki uğurlarını etiraf etməyə başlamışdı. Düzdür, o, heç zaman xəngəl, əriştə, düşbərə, gürzə, çudu kimi çətin hasilə gələn xörəklər bişirməzdi, etiraf edərdi ki, bu xörəklər Fatimə bibimin təsir dairəsinə aiddir.
- Mən həkiməm və elə bu səbəbdən də yüngül xörəklərlə insanların cansağlığını qoruyuram, - Nazlı xala

deyirdi, amma böyük məmnuniyyətlə Fatimə bibimin bişirdiyi xörəklərə girişirdi...
...Mənimlə üzbəüz oturmuş qaynanam mənim necə yeməyimə tamaşa eləyirdi. Birdən köks ötürdü və titrək səslə dedi:
- Çox maraqlıdı, bəs görəsən mənim balam orda nə yeyir? Axı o da dolmabazdı!
Tikəm boğazıma ilişib qaldı. İştaham küsdü! Keçən yay Fatimə bibimin bağladığı ərik kompotundan bir qurtum içib ehtiyatla soruşdum:
- Nazlı xala, o, necədi, zəng eləyir?
- On gün qabaq zəng vurmuşdu, bu gün biz özümüz ona zəng edəcəyik... Balasından ayrı düşən ana indi bilirəm ki, nələr çəkib...
O, ağlamağa başladı. Mən də özümü saxlaya bilmədim və elə bir hönkürtü qopartdım ki, Nazlı xala qorxdu və elə bil öz oğlunu da unutdu:
- Sənə nə oldu, qızım, xəstə deyilsən ki?
O, mənim başımı, kürəyimi ovcalayırdı, məni sakitləşdirməyə çalışırdı.
Mən onun atlaz kimi nazik, uzun barmaqlı kübar əllərinə nəzər salırdım və ərimin bədənimdə gəzən, məni oxşayan barmaqlarını xatırlayırdım. O, ipək əllər də məni haldan çıxartdı! Mən qaynanamın - Azərin anasının əlindən tutdum, o əli yanağıma toxundurdum və həyəcandan titrəyə-titrəyə:
- Nazlı xala, bir həftədir ki, o, heç mənə də zəng eləmir! -dedim, -bilsəniz necə nigaranam! Nə yaxşı ki, siz mənə sizin evdə yaşamağa icazə verdiniz! Mənimçün çox çətindi! İndi isə mən onu, o, qayıdanacan burda gözləyəcəyəm, ona layiq olduğumu sübut edəcəyəm! Arvadı kimi sübut edəcəyəm!
Nazlı xala məndən elə aralandı ki, elə bil gürzə ilə üz-üzə dayanmışdı. Onun sifəti səyriyirdi, zərifliyindən əsər-əlamət qalmamışdı, üzündə, gözündə kin-küdurət yaranmağa başlamışdı.
- Ay qız, sən nə çərənləyirsən? Sən haçandan arvad oldun? Ağlın başındadırmı sənin?
Mən ani olaraq qət etdim ki, ona öz yaxınlığımız haqqında danışım və o da baş verənlərə ciddi yanaşsın.
- Biz Azərlə bir-birimizə söz vermişik, - dedim, -amma yalnız söz yox, biz xəlvətcə evlənmişik. Elə bu səbəbdən də mən hiss elədim ki, onu öz evimdə gözləməyə qüvvəm çatmaz. Mən bu ayrılığa dözə bilmərəm, Nazlı xala. İndi məni yalnız sizinlə bir yerdə yaşamaq xilas edə bilər... Sizinlə bir yerdə yaşamaq və onu burda gözləmək!
- Kəs səsini!!! - Nazlı xala üstümə qışqırdı - Sən bunun həyasızlığına bax! Utanmır! Gör bir nələr danışır! Azərin hələ evlənən vaxtı deyil, lap o özü belə bir addım atmaq istəsə də, biz buna yol verməzik!
Azərin anasının hökmü ildırım kimi içimdən keçdi. Birtəhər özümü toplayıb soruşdum:
- Mən öz amazonkamı tanıya bilmirəm, - Azər gülə-gülə dedi, - ucadan danış, mən səni eşitmirəm!
Amma mən yenə bilmədim nə danışım?
- Aida, əzizim, - o, ciddi tərzdə sözünə davam elədi, - mən səninlə razıyam: biz ayrılmamalı idik. İndi artıq mən özüm sənsiz dəli oluram, deyəsən!
Ürəyim çırpınırdı, havam çatmırdı, bəlkə buna görə danışmağa söz də tapmırdım.
- Məndə yaxşı xəbərlər var, qulaq as, gör nə deyirəm: bir həftədir ki, mən türklərin çörəkxanasında işə düzəlmişəm, iş iki növbəlidi. Tezliklə mən sənə viza və bilet almaq üçün pul göndərəcəyəm, sən mənim yanıma gələcəksən, eşidirsən?
Və içimdə toy-bayram başladı! Bu da səadət! Həyatda bundan artıq səadət istəmirəm!
Nəhayət ki, səsimi çıxartdım:
- Deyirsən ki, "tezliklə" - yəni haçan? Ölürəm sənsiz, Azər!
- Mən də ölürəm sənsiz - astadan cavab verdi, - səni orda tək qoymaq ağılsızlıq imiş... Bilsən necə peşimanam. Heç bir elm başıma girmir...
- Onda çıx gəl!
O, bir qədər susandan sonra:
- Yalnız bu addım hər şeyi korlaya bilər... Ayka, bu gün anam hönkürə-hönkürə mənə zəng eləyəndə, məsələdən halı deyildim, amma bir şeyi anladım ki, məsələni gizlətmək yetər. Mən... xahiş etdim ki, sizə elçi getsinlər, heç bilirsən mənə nələr söylədi? Heç söyləməli deyil. Ona görə də Balaca, indi mənim ora gəlməyim, yalnız gərginlik yarada bilər, bunun da faydası olmaz.
Mən ölmüşdüm, amma yenə də nə isə eşitmək istəyirdim.
Mən heyrət içində, cəsarətlə səsimi qaldırdım:
- Bəs indi biz neynəyək?
- Sən narahat olma, eşidirsən? Mən qəti qərara gəlmişəm. Mən öz arvadımı orda necə yalqız qoya bilərəm?
Mən səadətdən yerimdə qərar tuta bilmirdim. Fikirləşirdim: əsl kişi belə olar! Mənim Azərim həmişə bilir ki, nəyi necə etmək lazımdır!
Azər sözünə davam elədi:
- Mən sənə viza və yol xərci üçün pul göndərəcəyəm, sən mənim yanıma gələcəksən və sonra biz ingilis dövlətindən xahiş edəcəyik ki, bizə sığınacaq versin. Sən qorxma, qaçqınlıq burda tam məqbul sayılır, mən özümə inanmasam, səni heç vaxt çağırmazdım.
Fikirləşirdim ki, axı bu izahatın nə mənası? Mən lap karserdə də oturmağa hazır idim, təki Azər yanımda olsun. "Bəs onun dərsləri?"
- Bəs sənin təhsilin necə olacaq? - Mən nigarançılığımı bildirdim, - axı sən diplom müdafiə etməlisən!

Azər sözümü kəsdi:
- Mənim diplomum var!
Mən susurdum, çünki bilirdim ki, Həsən əmim Azəri Oksforda oxumağa göndərmək üçün nələrə əl atıb. O, deyəsən mənim susmağımın səbəbini anladı və:
- Mən bilə-bilə ki, -dedi, -sən orda dəli olursan, mən burda qayğısız tələbə kimi yaşaya bilmərəm, başa düşürsən?
- Düşünmək lazımdır, Azər, -dedim, - bilirsən... -Amma, o, sözümün ardını gətirməyə macal vermədi:
- Elə mən də sənsiz dəlidən fərqli deyiləm, -dedi, -amma sən yanımda olanda, mənim hər şeyə gücüm çatacaq: oxumağa da, işləməyə də! Ən başlıcası isə odur ki, sənin yol və viza xərcini öz qazancımla çəkim! Qoy sonra deməsinlər ki, atasının göndərdiyi təhsil pulunu arvadına xərcləyib! Ancaq sən narahat olma, mən ailənin də etimadını doğruldacam: bu diplomu alacam, amma sonra... İndi hər şeydən vacibi səni xilas etməkdi. Qoy onlar bu gün mənim seçimimi təqdir etməsinlər, amma sabah, bizim balalarımız dünyaya gələndə, başa düşəcəklər ki, səhv eləyiblər və özləri sülhə gələcəklər.
Bu cavab isə məni tam qane elədi. Azər isə sözünün ardını gətirdi:
- On gündən sonra mənim dostum Elçin Bakıya gələcək. O, sənə pul gətirəcək, özü də sənin üçün viza alacaq. Sənə o qalır ki, özünü ayıq aparasan və heç kimdə, xüsusən atanda şübhə oyatmayasan. Pasportunu əldə saxla, yerdə qalan şeyləri Elçin eləyəcək.
- Demək, on gündən sonra?
- Bəli, on gündən sonra...
Mən qulaqlarıma inanmırdım! Doğrudanmı biz on-on beş gündən sonra bir yerdə olacağıq? Bəs o, bütün bunları necə çatdırdı, pulu hardan aldı, dostunu necə bu işə caladı?
Elə bil Azər dəstəyin o başında ürəyimdən keçənləri oxuyurdu:
- Mən artıq iki həftədir bu işlə məşğulam, - dedi, - sadəcə qabaqcadan səni məsələdən halı etmək istəmirdim.
- Bəs sən rəsmi surətdə mənə elçi göndərmək üçün yay tətilini niyə gözləmədin?
O, tutula-tutula:
- Başa düşürsən, Ayka, - dedi, - mən əmin idim ki, onlar etiraz edəcəklər və bu gün mən tam arxayın oldum ki, qorxmağım səbəbsiz deyilmiş. Amma yaxşı olar ki, hələlik bu söhbəti çözməyək, danışdıq?
- Bəs bizim Azər-Aida adası necə olacaq?
Azər bir qədər ara verəndən sonra:
- Mən burda yeni ada kəşf etmişəm, - dedi, - sən gələndən sonra biz onun da adını Azər-Aida adası qoyarıq. Qoy dünyada bu adda iki ada olsun.
- Gözəl fikirdi, -dedim, - mən səni... - amma sözümün ardını gətirmək istəyəndə məni hıçqırıq boğdu, kövrəldim.
Elə bil telefonun o biri başında Azər bunu dərhal hiss elədi:
- Mənim mübariz arvadım ağlamamalıdır, - dedi, - ağlamaq hünər deyil...
Mən onu toxdatmaq istədim:
- Bu şadlıqdandır, - dedim və məni bayaqdan bəri düşündürən sualı da dilimə gətirdim, - bəs orda, çörək bişirilən yerdə isti deyil?
Əslində isə məni daha çox narahat edən yüksək təhsil görmüş sevimli ərimin qara fəhlə kimi işləməsi idi.
Azər birdən-birə ucadan gülməyə başladı:
- Əsla isti deyil. Mən bütün həyatım boyu arzulamışdım ki, fiziki işdə çalışım! Bilirsən, iki həftə ərzində mənim çiyinlərimdən ikibaşlı siçanlar baş qaldıracaq.
Biz daha yarım saat danışdıq və birdən-birə yadıma düşdü ki, axı bu beynəlxalq rabitə xidmətinə görə Azər böyük pullar ödəməlidi...
Bəxtiyar halda yuxuya getdim və yuxuda da gördüm ki, gəlinlik donundayam. Günahsız gəlinlərə bənzəyən bəyaz qərənfillərin arasında rəqs eləyirəm.

## XXXXXXIX FƏSİL

Araverməyən telefon zəngi məni yuxudan oyatdı. Saata baxdım, dəhşətə gəldim: gün yarı olmuşdu! Ay yatmışam ha! Lida xala evdə yox idi, görünür, nə isə almağa getmişdi.
- Aida, biz təcili danışmalıyıq, - atam mülayim səslə dedi, - mən fasilə vaxtı, saat bir radələrində gələcəyəm.
Sən bir işə bax, yəqin ki, evdə hazır heç nəyimiz yoxdur, bəs atama nə yedirdəcəyik? Mən xalatımı çiynimə atıb özümü mətbəxə saldım. Bəli, hazır heç nə yoxdu: Lida xala, səhər açılar-açılmaz qazan asan nənəmdən, bibimdən fərqli olaraq, yemək bişirməyə axşam saat beşdə başlayırdı ki, saat altıda süfrəyə isti xörək qoysun, daha onu qızdırmağa ehtiyac olmasın. Şəxsən mənə haçan yeməyin o qədər də dəxli yoxdu, onun biş-düşü isə ürəyimcə olmurdu, amma bir zamanlar bizim mətbəxi bürüyən ləziz yeməklərin qoxusunu da unuda bilmirdim. Mən evə qayıdanda və bişmiş qazanının qapağını qaldırıb orda sevimli xörəyimi görəndə ağzım sulanırdı, yeməmişdən ləzzət alırdım! Bəlkə də mənim zavallı nənəm bilsəydi ki, bu alman "maşını" onun istəkli nəvəsini acından öldürür, qəbirdən çıxıb gələrdi...
Soyuducunu açdım: səhər yeməyi üçün nə istəsən vardı; qırmızı, qara kürüyə kimi, amma nahar vaxtı

atamın qabağına səhər yeməyi qoymayacaqdım ki! Çaydanı qazın üstünə qoyub özümü səliqəyə saldım və salat hazırlamağa başladım: qət elədim ki, atama qayğanaq bişirərəm, üstünə də sumax səpərəm, lap Fatimə bibim kimi. Salat doğraya-doğraya fikirləşirdim ki, atamın qarşısında özümü necə aparacağam. Mən hər cür söhbətə hazır idim, heç bir sorğu-sualdan da qorxmurdum, mən hər cür rol oynamağa, hər dona girməyə hazır idim ki, təki Azərlə tökdüyümüz tədbir əngəllənməsin.
Amma, sən demə, məni sürprizlər gözləyirmiş: acılı, şirinli sürprizlər. Əlbəttə, atamın restorandan içinə ləvəngi doldurulmuş ziyad, qızardılmış şahmayı alıb özüylə gətirməyəi çox xoşuma gəldi, heç mənim qayğanaq bişirməyimə də ehtiyac qalmadı, amma eşidəndə ki, o, anamla da bəzi məsələlər barədə danışıb, məyus oldum. Çünki atam deyənlərə əməl etsəm, Azərlə qurduğumuz planlar alt-üst ola bilərdi. Mən bunu hiss elədim və necə deyərlər, özümü dəli yerinə qoydum: "Mən fikirləşməliyəm, mən hər şeyi ölçüb-biçməliyəm" dedim, halbuki atamın verdiyi xəbərin müqabilində bu cür cavab gözlənilməzdi: axı, atam deyirdi ki, Qreta nənən ölümcül vəziyyətdədir, son günlərini yaşayır. Nənəmə görə çəkdiyim acılar Azərlə bağlı xəyallarımı üstələsə də, susurdum və baş aça bilmirdim ki, neynəyim...
- Mən bu gün sənin ananla danışmışam, o, hesab eləyir ki, sən nənənlə vidalaşmaq üçün Moskvaya uçmalısan.
Moskvaya getmək? Özü də indi, Azərin yanından gələn adam mənə İngiltərəyə getmək üçün yol pulu gətirəndə? Digər tərəfdən baxanda isə, necə ola bilərdi ki, mən Qreta nənəmlə vidalaşmağa getməyim? Hələ, anamı da görəcəkdim, gör bir nə müddətdi görüşə bilmirdik.
- Vaxtı itirmək olmaz, - atam dedi, - Sən təcili Moskvaya uçmalısan. İnstitut mənim boynuma.
"Böyük Britaniyaya vizanı da öz boynuna götürsəydin, nə olardı..." - bunu ürəyimdə söylədim, dilimdə isə:
- Mən özümü yaxşı hiss eləmirəm, - dedim, - mən tək qalmalıyam və bütün bunları araşdırmalıyam, incimə, danışdıq?
Əlbəttə, mən vaxt qazanmalı idim ki, Azəri məsələdən agah eləyim və biz yeni bir tədbir tökək.

- Mən öz amazonkamı tanıya bilmirəm, - Azər gülə-gülə dedi, - ucadan danış, mən səni eşitmirəm!
Amma mən yenə bilmədim nə danışım?
- Aida, əzizim, - o, ciddi tərzdə sözünə davam elədi, - mən səninlə razıyam: biz ayrılmamalı idik. İndi artıq mən özüm sənsiz dəli oluram, deyəsən!
Ürəyim çırpınırdı, havam çatmırdı, bəlkə buna görə danışmağa söz də tapmırdım.
- Məndə yaxşı xəbərlər var, qulaq as, gör nə deyirəm: bir həftədir ki, mən türklərin çörəkxanasında işə düzəlmişəm, iş iki növbəlidi. Tezliklə mən sənə viza və bilet almaq üçün pul göndərəcəyəm, sən mənim yanıma gələcəksən, eşidirsən?
Və içimdə toy-bayram başladı! Bu da səadət! Həyatda bundan artıq səadət istəmirəm!
Nəhayət ki, səsimi çıxartdım:
- Deyirsən ki, "tezliklə" - yəni haçan? Ölürəm sənsiz, Azər!
- Mən də ölürəm sənsiz - astadan cavab verdi, - səni orda tək qoymaq ağılsızlıq imiş... Bilsən necə peşimanam. Heç bir elm başıma girmir...
- Onda çıx gəl!
O, bir qədər susandan sonra:
- Yalnız bu addım hər şeyi korlaya bilər... Ayka, bu gün anam hönkürə-hönkürə mənə zəng eləyəndə, məsələdən halı deyildim, amma bir şeyi anladım ki, məsələni gizlətmək yetər. Mən... xahiş etdim ki, sizə elçi getsinlər, heç bilirsən mənə nələr söylədi? Heç söyləməli deyil. Ona görə də Balaca, indi mənim ora gəlməyim, yalnız gərginlik yarada bilər, bunun da faydası olmaz.
Mən ölmüşdüm, amma yenə də nə isə eşitmək istəyirdim.
Mən heyrət içində, cəsarətlə səsimi qaldırdım:
- Bəs indi biz neynəyək?
- Sən narahat olma, eşidirsən? Mən qəti qərara gəlmişəm. Mən öz arvadımı orda necə yalqız qoya bilərəm?
Mən səadətdən yerimdə qərar tuta bilmirdim. Fikirləşirdim: əsl kişi belə olar! Mənim Azərim həmişə bilir ki, nəyi necə etmək lazımdır!
Azər sözünə davam elədi:
- Mən sənə viza və yol xərci üçün pul göndərəcəyəm, sən mənim yanıma gələcəksən və sonra biz ingilis dövlətindən xahiş edəcəyik ki, bizə sığınacaq versin. Sən qorxma, qaçqınlıq burda tam məqbul sayılır, mən özümə inanmasam, səni heç vaxt çağırmazdım.
Fikirləşirdim ki, axı bu izahatın nə mənası? Mən lap karserdə də oturmağa hazır idim, təki Azər yanımda olsun. "Bəs onun dərsləri?"
- Bəs sənin təhsilin necə olacaq? - Mən nigarançılığımı bildirdim, - axı sən diplom müdafiə etməlisən!
Azər sözümü kəsdi:
- Mənim diplomum var!
Mən susurdum, çünki bilirdim ki, Həsən əmim Azəri Oksforda oxumağa göndərmək üçün nələrə əl atıb.

O, deyəsən mənim susmağımın səbəbini anladı və:
- Mən bilə-bilə ki, -dedi, -sən orda dəli olursan, mən burda qayğısız tələbə kimi yaşaya bilmərəm, başa düşürsən?
- Düşünmək lazımdır, Azər, -dedim, - bilirsən... -Amma, o, sözümün ardını gətirməyə macal vermədi:
- Elə mən də sənsiz dəlidən fərqli deyiləm, -dedi, -amma sən yanımda olanda, mənim hər şeyə gücüm çatacaq: oxumağa da, işləməyə də! Ən başlıcası isə odur ki, sənin yol və viza xərcini öz qazancımla çəkim! Qoy sonra deməsinlər ki, atasının göndərdiyi təhsil pulunu arvadına xərcləyib! Ancaq sən narahat olma, mən ailənin də etimadını doğruldacam: bu diplomu alacam, amma sonra... İndi hər şeydən vacibi səni xilas etməkdi. Qoy onlar bu gün mənim seçimimi təqdir etməsinlər, amma sabah, bizim balalarımız dünyaya gələndə, başa düşəcəklər ki, səhv eləyiblər və özləri sülhə gələcəklər.
Bu cavab isə məni tam qane elədi. Azər isə sözünün ardını gətirdi:
- On gündən sonra mənim dostum Elçin Bakıya gələcək. O, sənə pul gətirəcək, özü də sənin üçün viza alacaq. Sənə o qalır ki, özünü ayıq aparasan və heç kimdə, xüsusən atanda şübhə oyatmayasan. Pasportunu əldə saxla, yerdə qalan şeyləri Elçin eləyəcək.
- Demək, on gündən sonra?
- Bəli, on gündən sonra...
Mən qulaqlarıma inanmırdım! Doğrudanmı biz on-on beş gündən sonra bir yerdə olacağıq? Bəs o, bütün bunları necə çatdırdı, pulu hardan aldı, dostunu necə bu işə caladı?
Elə bil Azər dəstəyin o başında ürəyimdən keçənləri oxuyurdu:
- Mən artıq iki həftədir bu işlə məşğulam, - dedi, - sadəcə qabaqcadan səni məsələdən halı etmək istəmirdim.
- Bəs sən rəsmi surətdə mənə elçi göndərmək üçün yay tətilini niyə gözləmədin?
O, tutula-tutula:
- Başa düşürsən, Ayka, - dedi, - mən əmin idim ki, onlar etiraz edəcəklər və bu gün mən tam arxayın oldum ki, qorxmağım səbəbsiz deyilmiş. Amma yaxşı olar ki, hələlik bu söhbəti çözməyək, danışdıq?
- Bəs bizim Azər-Aida adası necə olacaq?
Azər bir qədər ara verəndən sonra:
- Mən burda yeni ada kəşf etmişəm, - dedi, - sən gələndən sonra biz onun da adını Azər-Aida adası qoyarıq. Qoy dünyada bu adda iki ada olsun.
- Gözəl fikirdi, -dedim, - mən səni... - amma sözümün ardını gətirmək istəyəndə məni hıçqırıq boğdu, kövrəldim.
Elə bil telefonun o biri başında Azər bunu dərhal hiss elədi:
- Mənim mübariz arvadım ağlamamalıdır, - dedi, - ağlamaq hünər deyil...
Mən onu toxdatmaq istədim:
- Bu şadlıqdandır, - dedim və məni bayaqdan bəri düşündürən sualı da dilimə gətirdim, - bəs orda, çörək bişirilən yerdə isti deyil?
Əslində isə məni daha çox narahat edən yüksək təhsil görmüş sevimli ərimin qara fəhlə kimi işləməsi idi.
Azər birdən-birə ucadan gülməyə başladı:
- Əsla isti deyil. Mən bütün həyatım boyu arzulamışdım ki, fiziki işdə çalışım! Bilirsən, iki həftə ərzində mənim çiyinlərimdən ikibaşlı siçanlar baş qaldıracaq.
Biz daha yarım saat danışdıq və birdən-birə yadıma düşdü ki, axı bu beynəlxalq rabitə xidmətinə görə Azər böyük pullar ödəməlidi...
Bəxtiyar halda yuxuya getdim və yuxuda da gördüm ki, gəlinlik donundayam. Günahsız gəlinlərə bənzəyən bəyaz qərənfillərin arasında rəqs eləyirəm.

## XXXXXXIX FƏSİL

Araverməyən telefon zəngi məni yuxudan oyatdı. Saata baxdım, dəhşətə gəldim: gün yarı olmuşdu! Ay yatmışam ha! Lida xala evdə yox idi, görünür, nə isə almağa getmişdi.
- Aida, biz təcili danışmalıyıq, - atam mülayim səslə dedi, - mən fasilə vaxtı, saat bir radələrində gələcəyəm.
Sən bir işə bax, yəqin ki, evdə hazır heç nəyimiz yoxdur, bəs atama nə yedirdəcəyik? Mən xalatımı çiynimə atıb özümü mətbəxə saldım. Bəli, hazır heç nə yoxdu: Lida xala, səhər açılar-açılmaz qazan asan nənəmdən, bibimdən fərqli olaraq, yemək bişirməyə axşam saat beşdə başlayırdı ki, saat altıda süfrəyə isti xörək qoysun, daha onu qızdırmağa ehtiyac olmasın. Şəxsən mənə haçan yeməyin o qədər də dəxli yoxdu, onun biş-düşü isə ürəyimcə olmurdu, amma bir zamanlar bizim mətbəxi bürüyən ləziz yeməklərin qoxusunu da unuda bilmirdim. Mən evə qayıdanda və bişmiş qazanının qapağını qaldırıb orda sevimli xörəyimi görəndə ağzım sulanırdı, yeməmişdən ləzzət alırdım! Bəlkə də mənim zavallı nənəm bilsəydi ki, bu alman "maşını" onun istəkli nəvəsini acından öldürür, qəbirdən çıxıb gələrdi...
Soyuducunu açdım: səhər yeməyi üçün nə istəsən vardı; qırmızı, qara kürüyə kimi, amma nahar vaxtı atamın qabağına səhər yeməyi qoymayacaqdım ki! Çaydanı qazın üstünə qoyub özümü səliqəyə saldım və salat hazırlamağa başladım: qət elədim ki, atama qayğanaq bişirərəm, üstünə də sumax səpərəm, lap Fatimə bibim kimi. Salat doğraya-doğraya fikirləşirdim ki, atamın qarşısında özümü necə aparacağam.

Mən hər cür söhbətə hazır idim, heç bir sorğu-sualdan da qorxmurdum, mən hər cür rol oynamağa, hər dona girməyə hazır idim ki, təki Azərlə tökdüyümüz tədbir əngəllənməsin.
Amma, sən demə, məni sürprizlər gözləyirmiş: acılı, şirinli sürprizlər. Əlbəttə, atamın restorandan içinə ləvəngi doldurulmuş ziyad, qızardılmış şahmayı alıb özüylə gətirməyəi çox xoşuma gəldi, heç mənim qayğanaq bişirməyimə də ehtiyac qalmadı, amma eşidəndə ki, o, anamla da bəzi məsələlər barədə danışıb, məyus oldum. Çünki atam deyənlərə əməl etsəm, Azərlə qurduğumuz planlar alt-üst ola bilərdi. Mən bunu hiss elədim və necə deyərlər, özümü dəli yerinə qoydum: "Mən fikirləşməliyəm, mən hər şeyi ölçüb-biçməliyəm" dedim, halbuki atamın verdiyi xəbərin müqabilində bu cür cavab gözlənilməzdi: axı, atam deyirdi ki, Qreta nənən ölümcül vəziyyətdədir, son günlərini yaşayır. Nənəmə görə çəkdiyim acılar Azərlə bağlı xəyallarımı üstələsə də, susurdum və baş aça bilmirdim ki, neynəyim...
- Mən bu gün sənin ananla danışmışam, o, hesab eləyir ki, sən nənənlə vidalaşmaq üçün Moskvaya uçmalısan.
Moskvaya getmək? Özü də indi, Azərin yanından gələn adam mənə İngiltərəyə getmək üçün yol pulu gətirəndə? Digər tərəfdən baxanda isə, necə ola bilərdi ki, mən Qreta nənəmlə vidalaşmağa getməyim? Hələ, anamı da görəcəkdim, gör bir nə müddətdi görüşə bilmirdik.
- Vaxtı itirmək olmaz, - atam dedi, - Sən təcili Moskvaya uçmalısan. İnstitut mənim boynuma.
"Böyük Britaniyaya vizanı da öz boynuna götürsəydin, nə olardı..." - bunu ürəyimdə söylədim, dilimdə isə:
- Mən özümü yaxşı hiss eləmirəm, - dedim, - mən tək qalmalıyam və bütün bunları araşdırmalıyam, incimə, danışdıq?
Əlbəttə, mən vaxt qazanmalı idim ki, Azəri məsələdən agah eləyim və biz yeni bir tədbir tökək.
Atam yerindən qalxdı və bildirdi ki, axşam işdən çıxandan sonra yenə mənə baş çəkəcək. O, gedəndən sonra mən otaqda yaralı aslan kimi gəzirdim. Deməli, mənim dünənki hərəkətimə görə narahat olan atam, anamla məsləhətləşmək qərarına gəlib, anam da nənəmin xəstəliyindən söz açıb! İkilikdə də qərara gəliblər ki, qız nənəsini görməyə gəlsə, anasının da qonağı olar. Mənim yeniyetməlik çağlarımda keçirdiyim depressiyanın təcrübəsindən bilirdilər ki, mənimlə ehtiyatlı davranmaq lazımdır. Maraqlıdır, görəsən başqa vaxt olsaydı, onlar yenədəmi mənə nənəmin xəstələnməsi, əcəl yastığına düşməsi haqqında danışardılar? Nə biləsən, hər halda, bizim ən yaxşı yolumuz gözləməkdi? Düz deyirlər: insan güman eləyir, Allah yerbəyer. Barmaqlarım titrəyə-titrəyə şəhərlərarası beynəlxalq teleqraf mərkəzinin tanış nömrəsini yığdım.
- Şəhərlərarası beynəlxalq teleqraf mərkəzi sizin xidmətinizdədir.
Allaha şükür ki, Azər öz London nömrəsini yazmağa məni məcbur eləmişdi, "hər ehtimala qarşı, yaz" demişdi, amma o nömrə mənim yaddaşıma da yazılmışdı, özü də əbədi.
Məlum oldu ki, Azər evdə yoxdur.
- Kimdi, nişanlısıdı soruşan? - Dəstəkdən gələn səs yad olsa da, dil doğma idi və elə bu doğmalıq da məni ürəkləndirdi:
- Danışan Aidadır, - cavab verdim, - ona mühüm bir xəbər çatdırmaq lazımdır.
- Narahat olmayın, Aida xanım, indi mən qaçıb iş yerində ona xəbər verərəm, o da sizə zəng vurar...
- Sağ ol, Elçin! - Mən öz aləmimdə onun adını çəkdim ki, aramızdakı yaxınlığı duysun. Amma o:
-Elçin də indi Azərlə bir yerdə, işdədir, - dedi, - mən isə Müşfiqəm...
İngiltərəyə vurduğum zəngdən iki saat keçsə də, Azərdən hələ də xəbər yoxdu. Telefon aparatından gözümü çəkmədən dırnaqlarımı gəmirirdim. Həyəcanlı anlarda bu mənim adətimdir.
Nəhayət ki, telefon səslənəndə mən yerimdən dik atıldım. Azər idi. Həyəcanlı olduğunu səsindəki titrəyişdən sezdim:
- Nə olub, Balaca?
- Azər! - birnəfəsə dilləndim, - Dəhşətli xəbərlər var! Bizim bütün planlar alt-üst oldu! Atam məni Moskvaya anamın yanına göndərir, çünki Qreta nənəm ağır xəstədir. Biz indi neynəyək?
- Ay sənin canın yanmasın! Amma məni yaman qorxutdun, ha! Mən də elə bilirəm ki, onlar bizim planlarımızdan xəbər tutublar, səni məhşər ayağına çəkiblər! Əlbəttə, mən Qreta nənənin halına acıyıram, amma bu sənin düşündüyün qədər də dəhşətli xəbər deyil. Bilirsənmi, nəyə görə? Deyim, qulaq as: bu hadisə bizi məqsədimizə yaxınlaşdırır. Onsuz da sən Londona ya İstanbuldan uçmalısan, ya Moskvadan. Moskvadan uçmağın daha yaxşı, çünki orda doğma anan yaşayır! Bu öz yerində, mən özüm istəyirdim, sənə təklif edəm ki, Moskvadan uçasan, amma bilmirdim ki, Murad əminin razılığını necə almaq olar? Bilirsən, mən sənin marşrutunu çoxdan ölçüb-biçirdim və hesab eləyirdim ki, sən mənim yanıma gəlməmişdən öncə ananla vidalaşmağa borclusan.
Mən əllərimlə gözlərimin yaşını silə-silə hıçqırır, içimi çəkirdim və fikirləşirdim ki, görəsən bu dünyada ikinci belə bir qayğıkeş və diqqətcil insan varmı?
Mən minnətdarlığımı səsimlə, sözümlə ifadə etdim:
- Mən səni sevirəm!
- Mən səni daha çox sevirəm, Balaca, çox sevən, çox yaşayar, - zarafatla dedi, - Karina xalanın nömrəsini ver mənə, mən hər gün sənə zəng eləyəcəm. Elçin də Bakıya Moskvadan uçmalıdır, o, hər şeyi təşkil eləyəcək. Sən haçan uçursan Moskvaya?
Yəqin ki, verdiyim cavab onun üçün gözlənilməz olmadı:
- Lap elə bu dəqiqə!
Amma mən Moskvaya bir gün sonra son gecəni dünyalar qədər sevdiyim Fatimə bibimlə baş-başa verib

doyunca ağlayandan sonra uçdum. Atamın sürücüsü Azərbaycan nemətləri - ağ balıq, qara kürü, qoz, fındıq ləpəsi, həmçinin paxlava, şəkərbura kimi şirniyyatlarla doldurulmuş qutuları yerdən güclə qaldırırdı. Atam göz yaşlarını gizlətməyə çalışsa da, anama aldığı hədiyyəni və konvertin arasındakı pulu mənə verəndə bir xeyli danışa bilmədi, üzümə baxa-baxa qaldı. Və nəhayət:
- Nəyə istəsən xərclə, özünə də, anana da, nənənə də, - dedi, - mən dağ kimi arxanızda dayanmışam, ancaq özünü qoru, ehtiyatsız hərəkətlərə yol vermə. Unutma ki, mən səni sevirəm...

XXXXXXX FƏSİL

Mənim zavallı nənəm! Mənim Qreçkam! Gör bir lənətə gəlmiş xəstəlik səni nə hala salıb?!
Paytaxt xəstəxanasının bəyaz palatalarından birində onun qurumuş cismini ağappaq yorğanın arasında görəndə elə bildim bir əlçim yumaqdı. Nazik xəstəxana yorğanının altındakı skeletin üstündə qalan dərinin sarıya çalan rəngi əyani şəkildə sübut eləyirdi ki, daha Qreta nənəm bu dünyanın sakini deyil.
Hönkürüb özümü onun üstünə atdım:
- Qreçka nənə! Heç bilirsən necə darıxmışam sənin üçün?!
O, deyəsən, ağlamağı da yadırğamışdı - giləlorində bütün dünyanın ələminə yer eləmiş gözlərilə mənə baxdı, baxdı və birdən pıçıltıyla: - Qismətimdə bir şey varmış! Mən qorxurdum ki, səni görmədən öləm...
Mən təəssüflənirdim ki, bütün bu illər ərzində bir dəfə də olsun nənəmə baş çəkməmişəm, həmişə düşünmüşəm ki, Azərdən ayrılmayım, demək, yalnız özümü düşünmüşəm, bu isə xudpəsəndlikdi...
- Qreçka nənə! Mən səni çox istəyirəm! Çox! Ancaq bağışla ki, gəlib səni görməmişəm.
- Mən hər hər şeyi başa düşürəm, mənim balam, - nənəm güclə eşidilən bir səslə dedi, - sən bizi bağışla ki, səni atdıq. - Və birdən o, tövşüməyə başladı.
Anam narahat olduğunu dərhal biruzə verdi:
- Sənə həyəcanlanmaq olmaz, ana, -dedi, -olmaz...
Nənəm özünün taxta kimi qurumuş əlini yorğanın altından mənə uzatdı:
- Gəl səni tumarlayım, dəcəl balam! -dedi, -sən necə də gözəlləşmisən!
Mən onun əllərindən tutub öpüşlərimə qərq elədim:
- Mənim şirin, Qreçka nənəm, -dedim, - sənsiz bir xoş gün görmədim.
- Bilirəm mənim balam, heç biz də bu illər ərzində bir xoş gün görmədik... Təki sən xoşbəxt ol, mənə daha heç nə lazım deyil.
Nənəm zəndlə gözlərimin içinə baxır, sanki nə isə soruşmaq istəyirdi, amma ürək eləmirdi. Onu düşündürən nə idi görəsən? Bəlkə də atamın evlənməsi? Hər şey ola bilər... Birdən o, soruşdu:
- Aida, mənə düzünü de, doğrudanmı Bakıda erməni qəbiristanlığını yernən bir eləyiblər?
- Sən nə danışırsan, ay nənə?! - Etirazımı dərhal bildirdim, - heç bir daşına da əl vurmayıblar, ora toxunulmaz məkandı!
- Kaş bircə anlığa o qəbiristanlığa girəydim, yazıq Xristoforla vidalaşaydım və bir anlığa da Zavağzalnıdakı evimizə tamaşa edəydim...
Qreta nənəmin səsindəki kədər mənə bir daha anlatdı ki, bu illər ərzində o, doğma ocağından uzaqlarda - qürbətdə, qəriblikdə nələr çəkib.
- Nənəcan, mən Azərlə hər il Xristofor babamın qəbrini ziyarət eləyirəm, orda gül-çiçək də əkmişik.
Bu sözdən sonra onun üzü işıqlandı:
-Sizi Pərvərdigar özü qorusun! -dedi.
O, gözlərini qıyaraq sanki məni gözlərinin giləsinə köçürtmək, şəklimi çəkmək istəyirdi və birdən...mənə elə gəldi ki, daha onu görmürəm. Vicdan əzabı məni silkələdi: nə üçün bu illər ərzində mən Moskvaya - nənəmin yanına getməmişəm? Axı mən ixtiyar çağında onun həyatını bəzəyə bilərdim...
Peşimançılıq məni üzürdü. Mən ona görə öz taleyimi lənətlədim ki, məni çox sınağa çəkib. Mən hardan biləydim ki, sınaqlar yenidən başlayır...
Əgər mən bilsəydim ki...

XXXXXXXI FƏSİL

Palatanın qapısı açıldı və xoşagəlməz zahiri görkəmə malik olan əli dolu bir kişi içəri girdi. O, qapının ağzında dayanıb üstdən aşağı bizi bir qədər süzəndən sonra, nəhayət ki, səsini çıxartdı:
- Deməli, yenə tapışmısınız!
Anam qorxu içində məni nənəmin çarpayısından araladı və dərhal özü də kənara çəkilib yerini ona verdi. Bu şişman kişi nənəmin çarpayısına yaxınlaşdı və xırıltılı səslə:
- Barefzes, mama! - dedi.
Amma bu qalın, eybəcər səsdən nənəmin üzünə işıq qondu və o, şən halda cavab verdi:
- Barafses, Rubencan...
Əlbəttə, mən bu erməni sözünün mənasını bilirdim, amma inana bilmirdim ki, qarşımdakı anamın qardaşıdı, bizim bütün faciələrimizə bais olan dayım Rubendi. Ya mən onun görkəmini tamam unutmuşdum, ya da o, zahirən çox dəyişmişdi. Sırtıq, qan çəkmiş gözləri olmasaydı, onu qətiyyən tanıya bilməzdim.
Nənəm gözlərini ona zillədi:

- Yaxşı ki, gəldin, oğul! - dedi, - Necə dolanırsız? Mənim gəlinim Hayqanuş neynəyir? Nəvəm Araksiya necədi?
- Yaxşı yaşayıram! Ümumiyyətlə, biz hamımız yaxşı yaşayırıq, - dayım özündən razı halda gülümsündü, - biz öz vətənimizdə yaşayırıq və düşmən çörəyi yemirik. - o, tikanlı nəzərlərini bizə yönəltdi, amma biz onun atmacasını eynimizə almadıq və bununla da deyəsən onun ürəyində qurduğu plan pozuldu və biz bir qədər həyacanlansaq da, yerimizdən də tərpənmədik.
- Lazım deyil, - nənəm yalvarış dolu baxışlarını oğluna zillədi, - Lazım deyil, Rubencan...
Öz ailəsində yaranmış nifrət məşəlini, zavallı nənəmin söndürməyə cəhd etməsi birinci dəfə deyildi. Amma məhz indi mən dərk etdim ki, bu illər ərzində o, nələr çəkib... Bu acılı düşüncələr içində yaxşı kəsdirə bilmədim ki, dayım məndən nə soruşmaq istəyir. Amma o, sırtıq bir təbəssümlə verdiyi sualı dübarə dilinə gətirdi:
- Hayes-turkes?
"Bəyəm o, mənim kim olduğumu bilmirdi?"
Mənə yaxşı məlum idi ki, bu alçaq sualın arxasında hansı məqsəd durur, ona görə də qərara aldım ki, qabağından qaçmayım, elə bir cavab verim ki, onu yandırsın: "Türkəm!" deyim. Amma Qreta nənəmin yalvarış dolu baxışları məni susmağa vadar elədi. Xəstəyə daha bir dərd gətirməmək üçün astadan:
- Mən ermənicə bilmirəm, - dedim.
Ruben dayım məsxərə ilə güldü:
- Əgər, doğma ana bu dili sənə öyrətməyibsə, hardan biləsən? Eybi yox, Ruben dayın sənə ana dilini öyrədər.
O, yerindəcə donub qalmış anama sarı çöndü və yerə qoyduğu selofan torbaları nişan verdi:
- Bunları yerbəyer elə, anam üçün gətirmişəm, - dedi, - nə gözlərini bərəldirsən?
Və sonra da saymazyana davam elədi:
- Sabah sizi teatra göndərəcəyəm. Uşaq dahi Aram Xaçaturyanın musiqisini dinləməlidir.
Daha onun sərsəmləmələrinə dözə bilmədim. Başımdan ağrı tutduğu üçün bayıra çıxdım. Anam da ardımca gəldi. Evə çatanacan biz bir kəlmə də kəsmədik. Görünür, anam da mənim kimi iyrənc məqamları ilə yadda qalan o görüşü yaddaşından silib atmaq istəyirdi, amma "istəkli qohum"" axşamdan bir xeyli keçəndən sonra özünü yenə bizim yadımıza saldı, konsertə bilet gətirdi. Və o, bildirəndə ki, sabah özü gəlib bizi taksi ilə aparacaq, mən tamam dilxor oldum...

XXXXXXXII FƏSİL

Ruben dayımla görüşdən sonra içimdə baş qaldırmış xoşagəlməz yaşantıları mən necə qovmayaydım? Bu mübarizədə vaxt əriyirdi. Mən zamanı əyləmək istəməsəm də, o bədnam "sabah" axırı ki, özünü çatdırdı. Amma mən teatra getmək söhbətindən qəti imtina elədim. İçimdə minbir qayğı teatrda oturmaq harama yaraşardı? Onsuz da heç bir qüvvə məni evdən çıxara bilməzdi, çünki bu arada mənə O zəng etməli idi, o - mənim Azərim! Anamın əhvalı dəyişsə də, bunu biruzə verməməyə çalışırdı. Mən bilirdim ki, heç o özü də teatra həvəslə getmir; gedir ki, biletləri üçqat bahasına almış Ruben dayım burnunu sallamasın. Bilet yanmasın deyə o, rəfiqələrindən birinə zəng vurdu, mənə də tapşırdı ki, qapını heç kimə açmayım, heç yana getməyim və özüm şam eləyim.
Mən Ruben dayımın özünü görməsəm də, taksinin təyin olunmuş vaxtda binanın girişinə yan aldığını və anamın rəfiqəsi ilə maşının arxa oturacağında əyləşdiklərinə şahid oldum.
Anam gedəndən sonra otaqda var-gəl etməyə başladım ki, vaxtı bu yolla öldürüm. Nə isə oxumaq da olardı! Amma anamın kitabxanası yoxdu. Qüssə məni üstələdi. Baxmayaraq ki, anam mənim çox sevdiyim yeməkləri - atamın göndərdiyi osetrindən soyutma və ət qutabı bişirmişdi, yeməyə həvəsim yoxdu. Televizoru yandırdım. Latın Amerikası ölkələrindən birinin sentimental serialı nümayiş etdirilirdi ki, mən ümumiyyətlə belə şeylərə baxmırdım. Pultu divanın üstünə tullayıb "Qrundiq" maqnitofonuna yaxınlaşdım. Anamın sevimli audiokasetləri də burda idi. Mənə maraqlı oldu; bildim ki, o, hansı musiqilərə qulaq asır. Kasetləri araşdırmağa başladım: Sara Qədimovanın, Şövkət Ələkbərovanın, Rəşid Behbudovun, Vaqif Mustafazadənin kasetlərinə rast gəldim. Məni ağlamaq tutdu: yazıq anam! Deməli, sən Azərbaycan həsrətini Azərbaycan mahnıları ilə söndürürsən. Rəşid Behbudovun kasetini maqnitofona salan kimi unudulmaz "Lalələr" mahnısının sədaları anamın soyuq Moskva mənzilinə hərarət gətirdi. Kövrəldim. Gözlərimi yumdum və mənə elə gəldi ki, Abşeron çöllərindəyəm, qızıl lalələrin örtdüyü Azərbaycan çəmənliklərinə ayaq basıram. Birdən, özüm də bilmədən, mənim bütün cismim oynamağa başladı. Ayaqlarım döşəməyə dəymirdi, yarıyumulu gözlərim şəfəq saçırdı, açılmış qollarım musiqinin ahənginə uyğun şəkildə qalxıb enirdi...

"Yayın əvvəlində Gəncə çölündə
Çıxıblar yenə də düzə, lalələr...
Nə vaxtdır Bakının gözü yoldadır
Bir qonaq gələsiz bizə, lalələr..."

Bədənim anamın mənzilində süzürdü, qəlbim, xəyalım isə uşaqlığımın günəşli may günlərinə uçmuşdu;

"1-may" bayramını biz mütləq şəhər kənarında, Rəşid Buhbudovun tərənnüm elədiyi məşhur laləli çöllərdə keçirərdik. Azərlə İbrahim babam köhnə samovarı yandırardılar, atamla Həsən əmim bulaqdan su gətirərdilər, qadınlar çəmənliyə xalça-palaz döşəyib süfrə açardılar, mən də əmim qızları ilə kəpənək, cırcırama tutardım...
Budur, yenə də uca dağlar qoynundayıq, dərədən buz kimi çay axır. Azərlə mən qolboyun olmuş ağacların kölgəsində gizlənib İbrahim babamın iri-iri qarpızların qarşısına iri-iri daşları düzməsinə tamaşa eləyirik. Azər birdən mənə göz vurub qarpızlardan birinin qənşərindəki daşı kənara itələyir və qarpız uşaqların qışqırığı altında ağır-ağır üşüaşağı diyirlənir. Hamının gözü yamacla dağ çayına doğru, parçalana-parçalana diyirlənən xoruz ləläyi qıpqırmızı tikələrə zillənəndə Azər qulağıma pıçıldayır: "Beləliklə, biz arıları da süfrəmizə qonaq elədik, - dedi, - payı gərək balaca qardaşınla paylaşasan..."

Mahnı bitmişdi, amma mən hələ də oynayırdım, kədərli gerçəkliyə qayıtmaq istəmirdim. Gözlərimi açanda mənə elə gəldi ki, türmədəyəm və dərhal da könlümdən təbii bir istək keçdi: qaçmaq! Amma hələ ki, bu addımı atmaq olmazdı, ona görə ki, Azərin elçisi gəlib çıxmamışdı. Mən üzücü düşüncələrdən xilas olmaq üçün maqnitofona daha bir kaset qoydum. Maqnitofondan qəlb titrədən bir nəğmə yayıldı, bu deyəsən ara mahnısı idi, amma sözləri məni silkələdi:

Мой мёртвый город, ты меня прости
За то, что я прощаться не приеду.
Мне не найти обратного пути
К тебе, мой город, и к могиле деда.

Мне не найти средь ночи белый свет,
И не подставить под удары спину.
Прости, Баку, тебя сегодня нет,
И не вини тех, кто тебя покинул.

На колени доченьку посажу,
Всю ей правду горькую расскажу.
Не найти на Родину нам билет
Больше нашей Родины, дочка, нет...

Свои часы теперь мне не сверять
С часами на вокзале Сабунчинском,
И по бульвару больше не гулять
И не дышать уж воздухом Бакинским.

Исчезли Хутор и Арменикенд,
И нет друзей моих на Завокзальной,
И Завокзальной тоже больше нет,
И нет Баку, как это не печально...

Ай, Баку, джан-Баку, на твоём берегу
Было столько огней, жило столько друзей.
Где ж теперь вы, друзья? А где же сам теперь я,
Если снится мне Каспий ночами...

Birdən-birə yadıma düşdü ki, mən bu mahnının Azərbaycan dilinə tərcümə olunmuş variantını da eşitmişəm; misralar aram-aram yadıma düşdü.

Ey ölü şəhərim, bağışla məni
Gələ bilməyəcəm vidalaşmağa,
Geriyə yolum yox, baba qəbrini
Ziyarət etməyə bilmərəm daha.

Zülmət gecələrdə ağ gün tapammam,
Yağan zərbələrə tabım yox tamam.
Ey Bakı, yoxsan sən o gündən bəri,
Qınama yurdunu tərk edənləri.

Bağrıma basaraq körpə qızımı,
Açıq söyləyərəm qara yasımı,
Vətənin yolları bağlıdır, bala,
Vətənsiz ürəyim dağlıdır, bala...

Sabunçu vağzalı orda qalası,
Tuş gəlməz onunla mənim saatım,
Bulvarda udduğum Bakı havası
İndi itirdiyim miras muradım...

Yox oldu Xutor da, Ermənikənd də,
O vağzal ötəsi küçə də getdi...
Dostlar perik düşdü, getdi vətən də,
Bakı da bizimçün biryolluq itdi.

Ey Bakı, can Bakı, sahillərində
O qədər çıraqlı ocaqlar vardı.
Hardasız, dostlarım? Varlığım bu dəm
Xəzərli, Bakılı yuxulardadı!..

Mən tamam keyləşdim... Amma hələ ifaçının adamın yeddi qatından keçən səsi kəsilməmişdi:

По земле нас судьба раскидала,
Нахлебались мы горя немало.
Как в тюрьме живём на этой воле, мама-джан,
Вот какая беженская доля.
Я пою, и пусть все люди знают:
Беженцев счастливых не бывает.
Как без крыльев не летают птицы, мама-джан,
Так живут без Родины бакинцы...

Yəni:

Tale səpələdi bizi çöllərə,
Qəm yedik, qərq olduq məşəqqətlərə...
Azad ola-ola dustaq kimiyik,
Köçkünük, qaçqınıq, kimik, nəçiyik...

Bəxtiyar olarmı didərgin olan?
Qoy hamı bilsin ki, necə naçarıq.
Qanadsız quş uçan deyil, anacan,
Vətənsiz yaşayan bakılılarıq...

Mən cəld maqnitofonu söndürdüm. Kaseti çıxartdım. Üstündəki yazını oxumamışdan anamın xəttini tanıdım: Qriqoriy Zareçnıy. Sən bir işə bax! Mən bu müğənninin adını eşitmişdim, o da mənim anam kimi Bakı ermənisi idi...
Heysiz halda mənzildə vurnuxurdum, gücüm stullara çatırdı, arabir onları vurub aşırırdım:
"Ömrün sonunu qəribçilikdə yaşamağa məcbur olan yazıq və bədbəxt insanlar. Haçansa sizin də hər şeyiniz vardı: cəmiyyətdə mövqeyiniz, pulunuz, hörmətiniz, sabaha inamınız və ən başlıcası - Vətən duyğusu. Amma manyak ehtirası ilə torpaq və qan almaq eşqinə düşən erməni daşnakları sizin taleyinizi nəzərə almadılar. Onlar doğma ocaqlarından qovub-çıxartdıqları yüz minlərlə Azərbaycan əsilli Ermənistan vətəndaşlarının başına müsibətlər gətirəndə, doğrudanmı Bakıda yaşayan qan qardaşlarının taleyi onları maraqlandırmadı? Bu gün Qarabağa köçənlər, özgə evlərinə yiyələnənlər, hansı qələbəni öz zurnasında pülüyə bilər? Eybi yox, cənab daşnaklar, əvvəldə hamı gülər, əsas sonda güləndi, qələbə haqqında zurna püləmək isə hələ tezdi: "...belə qiymətə əldə olunan qələbənin bir quruş da qiyməti yoxdur"... "Cücəni payızda sayarlar".
Görün bir bu qırğını törədən erməni millətçiləri nə qədər insanlıqdan məhrumdular ki, belə asanlıqla yüz minlərlə insanın taleyi ilə oynadılar! Mən özümü zərərçəkənlərdən biri sayıram, amma tamam səbrim tükənəndə Fatimə bibim məni sakitləşdirdi; dedi ki, mən özümü faciə qurbanı hiss eləyəndə Ermənistandan, Qarabağdan və ona bitişik rayonlardan qovulan azərbaycanlıları, eləcə də Azərbaycanı tərk etməyə məcbur olan günahsız Bakı ermənilərini düşünməliyəm.
"Bu həqiqətdir, səni anasız, nənəsiz qoyublar, ləyaqətli bir ailədə keçən qayğısız, xoşbəxt uşaqlığından məhrum ediblər. Amma sənin Vətənin var, biz varıq və evin var. Həmişə özündən yuxarı baxıb köks ötü-

rüncə, özündən aşağı bax, şükür elə" - bibim deyirdi. Və vəziyyətə bu cür yanaşmaq həqiqətən kömək eləyirdi. Amma kömək eləyirdi, ona görə ki, Azər yanımda idi.
Mən saat rəqqası kimi anamın mənzilində o yan-bu yana gedirdim. Məni bu evdə hər şey qıcıqlandırırdı: divarlardakı Qarabağ xalçaları, suvenirlər, Azərbaycan sənətkarlarının əlindən çıxmış corablardan, çarıqlardan tutmuş xəncərlərə kimi. Anamın böyütdürüb televizorun üstünə qoyduğu şəkildə mənim valideynlərim öz sevimli qızlarını qucaqlayıb xoşbəxtcəsinə gülümsəyirdilər.
Amma qəribə idi ki, Rusiya paytaxtına atılmış bədbəxt anamın nə ilə nəfəs alması məndə ümidsizlik doğururdu. Mən özümü ona görə günahkar sayırdım ki, bu cür həyat ona xoş deyildi. Qəfildən ağlıma bir fikir gəldi: onların mənim anamın və eləcə də mənim qəlbimi fəth eləmiş müğənni Qrişanın adı ermənidir, əslində onlar bakılıdırlar və bakılı olaraq da qalacaqlar! Vətənsiz qalmış yazıqlar, qalan ömürlərini, parlaq keçmişlərinin bəyaz kölgəsi kimi xatiratlarla yaşamağa məcburdular...
"Eybi yox, az qalıb. Böyük Britaniyada qaçqın statusu alan kimi, - özümə təsəlli verdim, - anamı aparacağam ki, orda bizimlə - öz nəvələri ilə yaşasın. Bizim Azər-Aida adasında milliyyət söhbəti yoxdur və olmayacaq..."
Mən öz küskün baxışlarımı ümidlə telefona zilləmişdim, o isə susurdu. Mən saymağa başladım, dəfələrlə sınamışdım, minə qədər sayanda, Azər zəng eləyirdi. Amma indi say altı yüz altmış altıya çatanda kimsə qapını döydü.

## XXXXXXXIII FƏSİL

Diksindim: bu lap şeytan əməli oldu ki! Qapının gözcüyündən baxanda gördüm ki, Ruben dayımdı, əlində də bağlama var. Ürəyimdə onu söyə-söyə qapını açdım və ani olaraq özümü topladım: bu sırtıq, zəhlətökən qohumcığaza necə anladım ki, teatra getməkdən niyə imtina etmişəm. Amma, xoşbəxtlikdən dərhal hiss elədim ki, Ruben dayım mənə qarşı incik deyil. Düzü, heç mən onu belə şən görməmişdim. Əlindəki bağlamanı mənə verib kresloya yayxandı və nəzakətlə soruşdu:
- Deməli, teatrı sevmirsən?
Mən özümə haqq qazandırmağa cəhd elədim:
- Yox, sevirəm, ancaq bu gün kefsizəm...
- Eybi yox, teatr insan həyatında o qədər də vacib məsələ deyil, ürəyin istəmir - getmə! Mən özüm də cavan olmuşam, səni niyə anlamayım ki?
Mən belə başa düşdüm ki, teatr söhbəti ilə bağlı aramızda yaranmış münaqişəyə son qoyulub və yüngülcə nəfəsimi dərdim.
- Boşqab gətir bura, - o, dedi və hələ əlimdən yerə qoymadığım qutunun qapağını açıb masanın üstünə boşaltdı. Hamısı bahalı, az tapılan yemək şeyləridi: hisə verilmiş kolbasalar, paştetlər, qaxaclar, təbii şirələr, meyvələr və s. O, həvəslə bu ərzaqları mənim gətirdiyim boşqablarda yerbəyer eləyib şən halda dilləndi:
- Bəs qədəh?! Dərhal görünür ki, evdar deyilsən, anana bənzəməmisən, o, dərhal başa düşərdi ki, bu süfrənin nəyi çatmır? Bilirsən, indi biz səninlə nə içəcəyik?
Və o, mənim cavabımı gözləmədən təntənəli surətdə elan elədi:
- Əsl erməni konyakı! Üçulduz! Mən onu Yerevandan gətirmişəm, Moskvadakılar əldəqayırmadı!
Mən konyak şüşəsinə maraq göstərməsəm də, o, qalib bir əda ilə məni süzürdü. Nə butulkanın üstündəki şəkil, nə bu içkinin dəyərindən xəbər verən ulduzların sayı məndə heç bir maraq oyatmadı, gözümdə bu konyakın qiymətini qaldırmadı. O, lap çantasından "Napoleon"" konyakı, ya ev şəraitində hazırlanmış çoxillik şərab çıxardıb ortaya qoysaydı belə, mən yenə bunun fərqinə varmazdım. Birinci ona görə ki, mən içmirəm. İkincisi də, hətta alkoqolsuz içkiləri də xoşum gəlməyən adamların məclisində dilimə vurmuram. Ruben dayım da məndə son dərəcə ikrah hissi oyadan adamlardandı, dayım olsa da, məndə heç bir doğmalıq hissi oyatmırdı. Amma belə görünürdü ki, mən bu axşamı onunla bir yerdə keçirməliyəm, gülərüz ev sahibi, istəkli qohum rolu oynamalıyam, bütün bunlar isə nə gerçəkliyə uyğundu, nə mənim planlarıma.
- Nə qaş-qabağını tökdün? - O, narazılığını bildirdi, - bəlkə deyəsən ki, sizin "Göy-göl" daha yaxşı konyakdı? "Göy-göl" əsl erməni konyakı ilə müqayisədə horradı...
Mən saymazyana çiynimi çəkdim: "qoy nə deyir, desin".
- Başa düşdüm, - deyəsən dayım barış qərarına gəldi, - səni qınamaq olmaz, sən ki, heç zaman əsl erməni konyakı içməmisən, onun ləzzətini hardan biləsən?
Mən özümü toparladım ki, onu acılamayım, axı onun mənə spirtli içki təklif etməsi özü əslində təhqir idi; onun bu sahədəki maarifçiliyi də ona yaraşan hərəkət deyildi. Azərin uşaq vaxtı bir siqaret yandırıb əlimə verdiyinə görə Həsən əmim tərəfindən necə döyülməsi yadıma düşdü. Eh...kaş o günlər olaydı... Birdənbirə uzaqda qalmış doğmalarım üçün son dərəcə qəribsədim, axı onlarla bir yerdə olmaq xoş idi, həm də qorxusuz...
- Yaxın otur, əvvəlcə içək bizim Qretanın - sənin nənənin, mənim anamın sağlığına. Yastığı yüngül olsun.
O, dolu qədəhi boşaldıb duzlu xiyardan bir dişdəm alanda, mən fikirləşdim ki, hətta konyakın yalnız konfetlə içildiyini mən də bilirəmsə, bu hansı meşədən çıxıb görəsən?
- Sən Qreta nənəni çox sevirsən?
Bu mənasız sual məni cin atına mindirdi və istədim qışqıra-qışqıra ona deyəm ki, bu sualı sənə vermək

lazımdır, çünki sən bu illər ərzində ona bir qəpik də göndərməmisən! Bütün bu illər ərzində Moskva kimi bahacıl şəhərdə ona yalnız mənim atam arxa, həyan olub.
Ancaq fikirləşdim ki, yaxşısı budur heç ona baş qoşmayım, belədə o, daha tez çıxıb gedər.
- Əlbəttə, Qreta nənəmi mən çox sevirəm, - dedim və ümid elədim ki, içəndən sonra az danışar, qoy içsin. Amma mən deyən olmadı, bir neçə qədəhdən sonra onun riyakarlığından, cəfəng söhbətlərindən təngə gəldim.
- Deməli, onu çox sevirsən? Bu yaxşıdı. Kim sevirsə yaşamaq ona asan olar, amma bunu hamı bacarmır. Bilirsən indi mən necə yaşayıram? İndi mənə çoxları həsəd aparır. Mən sənin atandan daha artıq təmin olunmuşam. Mən öz qızıma maşın da almışam, ayrıca mənzil də. Bəs de görüm, atan sənə nə alıb ad günündə? Axı iyirmi yaşın tamam olub. Hə, nə alıb? Ferrari? Volvo? Ay aldı ha! Onun iki oğlu var, Ferrarini, Volvonu da onlara alacaq. Sənə isə, olsa-olsa, ərə gedəndə bir az taxta-tuxta alacaq, maşını, mənzili yuxuda görəcəksən! Türklərdən ancaq sən bublikin halqasını ala bilərsən, onlar öz qızlarını adam hesab etmirlər!
Mən onun nəyə işarə vurduğunu, nə demək istədiyini başa düşmürdüm, ona görə də başımı aşağı saldım ki, boş nəsihətlərinə sədd qoysun. Görünür, Ruben dayım məni başqa cür anladı və elə bu səbəbdən də bəlağətlə səsini qaldırdı:
- Sən niyə kədərlənirsən? Mən ölmüşəm, bəyəm? Yox, hələ sənin dayın ölməyib ki, sən maşınsız qalasan!
Və öz məqsədini bir qədər də açıqladı:
- Bəli. Bəli, sənin "Ferrari"n olacaq, özü də tezliklə! Yadında saxla: səni "Ferrari"də görəndə bütün Bakı paxıllıqdan partlayacaq.
Mən qulaqlarıma inana bilmirdim: Ruben dayım mənə maşın bağışlamaq istəyir! Bu hardan onun ağlına gəlib?
Verdiyim sualın cavabını çox gözləməli olmadım: o, mehribancasına məni süzdü və birdən:
- Sən ancaq, hərdənbir dayının tapşırıqlarını yerinə yetirəcəksən, vəssalam. Amma bu barədə heç kimə heç nə söyləməməlisən, hətta anana da.
Bu lap maraqlı oldu ki! Deməli, dayımın məqsədi var! Özümü səfehliyə qoyub soruşdum:
- O nə tapşırıqdı elə? Ümidvaram ki, çətin olmaz?
O, hiyləgərcəsinə qımıldandı:
- Əvvəlcə sən bizim partiya ilə əməkdaşlıq müqaviləsi bağlayacaqsan və bundan sonra mən sənə hər şeyi danışacam. Sən bir il ərzində milyonçu olacaqsan.
Mən gülümsədim və bu oyunu axıra qədər onyamaq qərarına gəldim:
- Bəs müqaviləni imzalamasam?
- Onda biz sənə etibar edə bilmərik, -dedi, - axı sən düşmən ölkənin paytaxtında yaşayırsan. Biz sənə dövlət sirlərini etibar edirik, sən də gərək əməkdaşlıq üçün yazılı surətdə razılığını bildirəsən!
- Tutalım ki, mən razılığımı bildirdim: mən nə etməliyəm? Casusluq?
- Mən bu barədə sənə ətraflı məlumat verəcəyəm. Ancaq sən qoçaq qızıymışsan! Əhsən! Qan belə şeydi, bax! Bilirsən, əzabkeş erməni xalqı sənə nə ümidlər bəsləyir?
- Doğrudanmı siz məni vuruşmağa təhrik eləyirsiniz? Axı bu mən bacaran iş deyil.
- Nə üçün vuruşmaq? Mübarizənin daha incə yolları var. Təbliğatdan tutmuş terakta kimi. Sən dəqiq tapşırıqları yerinə yetirəcəksən. Məsələn, yanğın törədəcəksən, ictimai yeməkxanalarda xörəkləri zəhərləyəcəksən, partlayıcı qurğuları lazım olan yerdə işə salacaqsan. Hər başa çatdırılan tapşırığa görə böyük mükafatlar və bizim dövlətimizdən dəstək alacaqsan.
Daha dözə bilmədim, nifrət hissi məni səsimi qaldırmağa vadar elədi:
- Partlatmaq, yandırmaq, bir-birini zəhərləmək - bunlardımı sizin incə mübarizə yollarınız? Niyə siz sakitləşmirsiniz? Bəyəm bu son illər ərzində törətdiyiniz hadisələr bəs deyilmi?
- Bəyəm onlar bizə az pislik eləyiblər? Yadından çıxıb Sumqayıt hadisələri? Onların bizi Bakıdan qovduqlarını nə tez unutdun?
- Kim qovdu sizi? Sənin ananı, bacını hələ də mənim atam saxlayır, amma sən demə milyonçu imişsən! O ki, qaldı Sumqayıt hadisələrinə - artıq çoxdan sübut olunub ki, bu erməni fitnəkarlığıdı, tamaşadı!
Ruben dayım da səsini qaldırdı:
- Sən bir buna bax, türk cındırı, sən hansı cəsarətlə mənimlə belə danışırsan? Bəyəm sən bilmirsən ki, türklər bizim qan düşmənimizdir?!
- Siz özünüz özünüzə düşmən kəsilmisiniz! Həqarətdən savayı da heç nə qazanmamısınız! Sən bir özünə yaxşı-yaxşı bax: insan qanı tökməklə qazandığın var-dövlətlə öyünürsən, amma öz doğma atanın yasına da gəlmədin, onda hələ Sovet pasportu qüvvəsini saxlayırdı, MDB daxilində hara istəsən vizasız gedə bilərdin! Amma sən doğma atanın meyidini də, indi daşını döydüyün atamın ümidinə qoydun!
- Südəmərsən, amma çox şeylər bilirsən! Ancaq bilmirsən ki, sənin nənən Qreta Yerevana, mənim yanıma gəlmədi, özü də açıq-aşkar elan elədi ki, manyak millətçilərin arasında yaşamaq istəmir! Sənin xəbərin varmı ki, o mənim göndərdiyim pul baratlarını özümə qaytarıb, özü də yazıb: qanla bulaşmış çörəyi yeyə bilmərəm. Bəs sən mənim satqın, ağciyər atam haqqında nə bilirsən? Və ümumiyyətlə, bu həyatda sən nə qanırsan ki, hələ bir mənə tənə eləyirsən? Doğrudanmı, sən elə bilirsən ki, mənim ürəyim yoxdur? Bu qocalar - öz ata-anamı deyirəm - mənim bütün həyatımı zəhərlədilər!

O, gözlənilmədən, zarıya-zarıya mənə öz uşaqlığından danışmağa başladı:
- Sənin ananın ucbatından mənim bütün uşaqlığım dərd-sər içində keçib. Biz bir-birinə oxşamayan iki uşaq bir evdə böyüyürdük, ondan söz düşəndə deyirdilər; fərasətlidi, ağıllıdı, gözəldi, mənim adım çəkiləndə isə əllərini yelləyirdilər: qanmazdı, eybəcərdi, avaradı. Həmişə də bizi tanıyanlardan eşidərdim: "doğrudanmı onlar bacı-qardaşdılar? Necə də fərqlənirlər: lap Esmeralda ilə Qvazimoda kimi". Nəinki, yadlar, hətta valideynlərimiz də bizim bir-birimizə bənzəməməyimizdən danışırdılar. Onların başı ona qarışmışdı. Karinacan, orda oturma, burda otur! Karinacanı qarşılamaq lazımdı! Karinacanı yola salın! Karinacana don, bant lazımdı! Tfu! Bunları yada salanda da iyrənirəm! Amma mən öz evimizdə yetim kimi böyümüşəm. Məni heç kim sevməyib, məni utandırıblar, mənə ziyankar kimi baxıblar. Sən haçansa görmüsənmi azərbaycanlılar ailədə öz oğullarına belə münasibət bəsləsinlər? Onlar üçün oğul-fəxrdi, varisdi! Amma mənim kütbaş atam öz qızını məndən üstün tuturdu, özü də deyirdi ki, o, balacadı, ona görə. Doğrudanmı üç il yaş fərqi belə məna kəsb eləyə bilər? Üstəlik də, sənin o başdan xarab babanın ağlına da gəlmirdi ki, azıb gəlmişə dayəlik etməklə öz doğma övladının xətrinə dəyir; bax buna görə ondan lap zəhləm gedirdi! Bəli, bəli, mənim öz atamnan zəhləm gedirdi, çünki mənə elə gəlirdi ki, o dəyyusun qızından xəbəri yoxdu, bilmir ki, arvadı onu türkdən doğub!
Mən bu sözlərdən elə sarsıldım ki, şirə dolu stəkanı tərsinə çevirdim. Doğmaca dayımın dilindən bunları eşitmək məni elə hala saldı, hiss elədim ki, dilim ağzımda dönmür. Üstəlik də Ruben dayı birdən-birə elə içdən ağlamağa başladı ki, mənim hətta ona yazığım da gəldi.
- Heyrətlənirsən, hə? Mən də uzun müddət başa düşmürdüm, amma sonra hər şey mənə bəlli oldu, - göz yaşlarını sərxoş sifətindən axıda-axıda hıçqırdı, -əks halda, axı biz nə üçün bu qədər fərqli doğulmalıydıq?
- Bu nə fərqdi ki? -mən dedim, - o qədər ailədə bir-birinə bənzəməyən uşaqlar doğulur ki! Onlar hamısı şübhələnsə, necə nəticələnər? Doğrudanmı sən nənəm kimi zəhmətsevər, ləyaqətli, namuslu qadın haqqında belə düşünürsən?
- Siz hamınız ləyaqətli olursunuz, amma türkü görənə qədər,-dayım tənə ilə dedi, - türkü görən kimi tumanınızın rezini boşalır...
Nə çərənləyir, çərənləsin, hər halda mənim ona yazığım gəlirdi, çünki mən başa düşürdüm ki, qarşımda oturmuş adam xəstədir, özü də ümidsiz xəstədir və heç kim onu çəkdiyi iztirablardan xilas edə bilməz. Yalnız xəstə adam bu boyda nifrəti öz ürəyində daşıya bilər, yalnız xəstə adam qəlbinə bu boyda şübhə toxumu əkib bu qədər yaşaya bilər.
- Lap elə sənin ananı götürək, həddi-buluğa çatan kimi sərildi türkün altına, bilirsən, mən də gərək şadyanalıq nümayiş etdirəydim onların qara gəlmiş toyunda, hə? -sualın cavabını gözləmədən sözünə davam elədi, -sənin nənənlə baban yeni qohumlaşma ərəfəsində o qədər quyruq buladılar ki, insan sifətindən çıxdılar. Axı onların qızı varlı ailəyə düşmüşdü, "xanım" olmuşdu! Tüpürüm hamısına! Mən, bədbəxt dəmirçi isə kiçik bacımın süfrəsinin artıq-urtuğu ilə qidalanmalı idim! Bax, elə onda da mən qərara gəldim ki, bu mundar şəhərdən gedim, təmiz qanlı erməni qızına evlənim, elə bir erməni qızına ki, türklərə nifrət eləsin, özü də necə lazımdı! Nəticə yaxşıdır: indi mənim hər şeyim var, nə istəsən tapa bilərəm, Yerevanın sayılan-seçilən adamlarındanam, qızım böyüyür, özü də naz-nemət içində, əsil erməni ailəsində, sənin anan isə qaçqın kimi yaşayır, özü də əri tərəfindən atılmış bir qaçqın kimi. Sənin o satılmış nənən isə onunla birlikdə qürbətdə çürüyür!
O qarnını tutub şit-şit gülməyə başladı. Mən heç cür təyin edə bilmirdim ki, o mənə hansı iyrənc heyvanı xatırladır. Mən ona nifrət bəsləyirdim və kəskin surətdə hiss eləyirdim ki, o bizim çəkdiyimiz məşəqqətlərin səbəbkarı- mərkəzidir.
- Sən bura niyə gəlmisən, Ruben dayı? - Astadan soruşdum, - əgər sən onlara belə nifrət bəsləyirsənsə, niyə onlarla birdəfəlik üzülüşmürsən?
O gözlərini bərəltdi və gurultulu səslə:
- Mən anamla vidalaşmalı idim, - dedi, - qoy ölümqabağı başa düşsün ki, türk kürəkəni yox, onunla halallaşmağa bəyənmədiyi oğlu gəlib. O, boynuna almalıdır ki, məğlub olub... və bir də... günahını mənə etiraf etməlidir.
Mən dəhşətdən heyrətə gəlib soruşdum:
- Yəni sən cürət eləyib bu barədə ondan bir şey soruşdun?
- Əlbəttə soruşdum,- saymazyana dilləndi, - mən həyatım boyu bu dəqiqəni gözləmişdim. Amma bu ikiüzlü riyakar ölümqabağı da bunu boynuna almadı, ancaq dedi ki, mənə yazığı gəlir, özü də bədbəxt bir insan kimi... Onun niyə mənə yazığı gəlsin? Mənimlə yalnız fəxr etmək olar, qoy qızına yazığı gəlsin ki, əclaf türk atıb küçəyə!
- Mənim atam haqqında sənin belə danışmağa haqqın yoxdur! O, anamı atmayıb, anam özü gedib, özü də sənə görə gedib. Mənim atam heç zaman anamı atmazdı, özü getməsə...
Ruben dayım da səsini qaldırdı:
- Sənin atan-natəmiz türk buğasıdır, özü də hərəmxana saxlayır.
Və beləliklə, biz əməlli-başlı deyişməyə başladıq.
- Heç sən mənim atamın ayağının tozu da ola bilməzsən! Mənim atam o günə qalmamışdı ki, Qarabağ

kartı ilə bazar açsın, -bildin? O mənim anamla necə qala bilərdi ki, bütün dünya bilirdi ki, sən-onun qaynı alçaq daşnaksan?
Dayımın gözləri qanla doldu, elə bil qəzəblənmiş öküzdü. O ayağa qalxıb stulu kənara itələdi:
- Onlar sənin beynini necə suya çəkiblər ki, öz qanına qarşı çıxırsan? Axı ananın qanı sənə atanın qanından yaxın olmalı idi! Səni nə ilə ələ aldılar ki, sən də anan kimi lənətə gəlmiş türklərin tərəfini saxlayırsan? Siz hamınız bir bezin qırağısız-qəhbə satqınlarsız!
- Satqın özünsən!!! - Dedim, - sənin kimilərin əliynən Bakıda Yanvar qırğınını, Qarabağda Xocalı faciəsini törətdilər. Bəs, nədi, yoxsa elə bilirsən cinayətkar terrorçu təşkilatının tapşırığını yerinə yetirəcəyəm?! Yox! Əksinə. Dünyaya bəyan edəcəyəm ki, siz Yerevanda nə ilə məşğulsunuz və nəyin hesabına varlanırsınız!
Birdən o, öküz kimi böyürdü və erməni dilində söyüş seli axıda-axıda mənə yaşınlaşdı, amma mən o "seldə" yalnız bir sözü, "türk" sözünü tuta bildim.
Mən qorxdum və geri çəkildim, amma Ruben dayım qəfildən üstümə atıldı və pal-paltarımı cırıqlaya-cırıqlaya məni vurmağa başladı. Mən bacardığım qədər özümü müdafiə etsəm də, təbii ki, qüvvələr bərabər deyildi. Bu arada telefon zəng çaldı.
"Azərdi!". Ağlıma gələn bu fikir gücümü ikiqat artırdı və mən pişik kimi ani hərəkətlə onun dana gözlərini cırmaqladım ki, üfunətli tər iyi verən qolları arasından çıxım, özümü telefona çatdırım, Azəri dinləyim. Mənə elə gəlirdi ki, bu dəhşətli bir yuxudur və bu yuxudan ayılsam, sevgilimin səsini eşidə biləcəm. Amma Ruben dayım zarıya-zarıya başımı var gücü ilə divara çırpdı və mən huşumu itirdim...

## XXXXXXXIV FƏSİL

Mən bir də onda özümə gəldim ki, üstümdə oturmuş qıllı məxluq məni şapalaqlaya-şapalaqlaya silkələyir və qışqırır:
- Qəhbəcə! Türk döşəyi! Fahişə! Deməк türklərin xidmətindəsən! De görüm bu günə qədər neçə türkə vermisən? Bu yaşda sən bakirə olmalıydın, ay zəhər tuluğu! Ay gürzə!
Sən bir işə bax! Sən demə, mənim dayımı ən çox narahat edən bacısı qızının bakirə olmaması imiş! Gözlərimdən sel kimi yaş axırdı, özgə heç nəyə qüvvəm çatmırdı, çünki tərpənməyə də halım yoxdu, bədənim uyumuş, keyimişdi. Üstəlik də bu mundar, vəhşi yenidən məni şapalaqlayırdı. Ağır-ağır, ağzından su axa-axa nəfəs aldıqca o, yaralanmış qabana oxşayırdı. Nədən əvvəllər mən bunu görməmişdim? Bütün gücümü toplayıb heyrətlə qəddar sifətinə tüpürdüm və nifrətlə dedim:
- Donuz! Mundar, məkrli donuz! Alçaqsan, alçaq!
- Hə...ə...ə...ə? -O, bağırdı və barmaqlarını boğazıma keçirib məni boğmağa başladı.
Mən xırıldayırdım və bir şam misalı öləziyən, sozalan ağlımla anlayırdım ki, bu axırıdı, nəfəsimi kəsəcək, amma birdən yad bir tappıltı eşitdim və dərhal da hiss elədim ki, Ruben dayımın xirtdəyimə keçmiş barmaqları və eləcə də bütün bədəni, əli, qolu sustaldı...
...Mənim üstümə isti maye axırdı: "Bu onun qanıdı!". Mən buna da birdən-birə anladım. O qədər iyrəndim ki, bütün gücüm, qüvvəm özümə qayıtdı. Mən onu itələdim və qarşımda anamı gördüm, o ağappaqdı, üzündə qan nişanəsi qalmamışdı.
O, üstdən aşağı bizə sarı əyilərək, əlində xəncərin qınını dəli kimi yellənməyə başladı.
- Mən cəhənnəmə vasil olacam, çünki öz anamın oğlunu öldürmüşəm, - dedi. Elə beləcə də söylədi, - öz anamın oğlunu, amma qardaşımı yox.
- Sən cənnətə düşəcəksən, - mən dedim, - çünki sən bir yırtıcını, vəhşini öldürmüsən!
Amma o, deyəsən məni eşitmirdi, əlində xəncərin qını özünü yelləyirdi.
Mən atamın anama hədiyyəsi olan Azərbaycan xəncəri ilə cəhənnəmə göndərilmiş dayımın nəşinin üstündən keçdim ki, özümü hamama salım və yuyunum. Təbii olaraq mundarlanmış bədənimi təmizləməli idim. Yadımda deyil, göm-göy göyərmiş, yaralanmış bədənimi neçə saat yudum, -bir, iki, üç... vannadan çıxanda gördüm ki, anam hələ də xəncərin qını əlində oturduğu yerdəcə dəli kimi yellənir, çiynimə bir xalat salıb ehtiyatla ona yaxınlaşdım və xəncərin qınını əlindən aldım. Anamın çiyinlərindən tutub heydən düşmüş, keyimiş bədənini divara söykədim. Sonra çətinliklə də olsa, qəbzəsinə qədər dayımın piyli bədəninə saplanmış xəncəri çəkib çıxartdım, dəstəyini mətbəx dəsmalı ilə tərtəmiz sildim, nənəmin oğlunun-dayı deməyə dilim gəlmir, -qanını xəncərin tiyəsindən də təmizlədim. Və sonra yenə xəncərin dəstəyindən yapışıb daha bu dünyanın sakini olmayan rəqibə -qatı millətçiyə-daşnaka, satqın Kreml oyuncağına-araqızışdıran, amansız işğalçıya-quldura, erməni saqqallısına, qatilə zərbələr endirməyə başladım... Zərbələrin birində qolum tamam boşaldı və mən heysiz halda yerə yıxıldım, xəncəri də anamın qardaşının cəsədinin üstünə tulladım. Gözlərim yerə düşmüş, muncuqları maqnitlənmiş boyunbağıya qəfildən sataşdı. Mən öz cazib muncuğumu bərk-bərk ovcumda sıxdım...
Sonra mən nisbətən düşüncəli surətdə hərəkət etməyə başladım: lazım olan şeyləri səfər çantama yığdım və geyinmək üçün elə paltarlar seçdim ki, qolumdakı, qıçımdakı qancırları, yaraları gizləsin. Tamam geyinib- gecinəndən sonra hələ də heysiz-hərəkətsiz qalmış anama yaxınlaşdım və üzündən öpüb dedim:
- Yadında saxla, ana, sənin qardaşını mən öldürmüşəm! Bunun sübutu da var: sən rəfiqənlə konsertdə olmusan. Çalış ki, özünü ələ alasan. Sən Qreta nənəyə çatdırmalısan ki, daha onun oğlu yoxdur, nəvəsi yoxdur, səndən savayı kimsəsi yoxdur!

Bu sözlərin tamamında mənim bədbəxt anam yerindən tərpəndi və başladı... qəribə bir səslə, dəli kimi ulamağa... Evdən çıxanda arxaya çönüb bir də ona nəzər saldım. Əbədi ayrılmaq üçün baxışlarımız son dəfə bir-birini kəsdi...
Soyuq və qəddar Moskva öz adi günlərindən birini yaşayırdı. İşıqları sayrışan mehmanxanalar, rahat maşınlar gəl-gəl deyirdi, o ki, qaldı bayram əhval-ruhiyyəsində olan adamlara, onları heç nə və heç kim maraqlandırmırdı. Mənə uşaqlıq illərimdən tanış olan Belyayevo rayonunda Mikluxo-Maklay küçəsi ilə gedirdim. Bir zamanlar atam bu küçədə bizim üçün kooperativ mənzil almışdı və uşaq vaxtı anam məni burdan avtobusla Yuqo-Zapadnaya metro stansiyasına-ordan da "Belqrad", "Yadran", "Leypsik" kimi firmenni mağazalara, atam isə axşamlar bu ərazidən bizi Qorki küçəsində yerləşən "Baku" restoranına aparardı. Mən də bilirdim ki, yol boyu qarşımıza çıxan qara dərili əcnəbilər yataqxanaları o ərazidə yerləşən Patris Lumumba adına universitetin tələbələridi və o gəlmələrə böyük bir ölkənin vətəndaşı-sahibi kimi tamaşa etmək xoşdu. İndi isə mənə elə gəlirdi ki, bir zamanlar mənə doğma, əziz olan paytaxt küçəsinə başqa planetdən gəlmişəm, inoplanetyanam.
Göz yaşlarım üzümü yandırırdı. Telefon köşkünə girdim və məlum nömrəni yığıb polisə məlumat verdim ki, mən adam öldürmüşəm. Sonra taksi saxladıb Kursk vağzalına sürdürdüm. Göz yaşlarımı udurdum və çalışırdım ki, həyəcanımı kimsə duymasın. Abirsız sürücü maraqla güzgüdən mənə baxırdı, amma mən onu saya salmırdım.
Dəmiryol vağzalında mən Bakıya bilet aldım və qatarı gözləmək məqsədilə elə bir küncdə oturdum ki, diqqətdən kənarda qalım. Xoşbəxtlikdən çox gözləmək lazım gəlmədi, bəlkə də belə deyil, mənə elə gəlir, çünki vaxt duyğusu məni tamamilə tərk eləmişdi. Qatara minməmişdən qabaq mən vağzaldan anamın rəfiqəsinə -onunla birlikdə konsertdə olmuş Sveta xalaya zəng elədim:
- Sveta xala, danışan Aidadır, Karinanın qızı, - dedim, - siz anamla teatrda olanda mən dayımı öldürdüm. O qonaq gəlmişdi, əvvəlcə məni şirnikləndirib yoldan çıxartmaq, sonra da zorlamaq istədi, - sözümə ara verdim ki, fikrimi cəmləşdirim, - mən artıq evdən qaçmışam və kifayət qədər etibarlı yerdə gizlənmişəm. Polis məni tapa bilməz, ancaq sizdən xahiş edirəm, çalışın ki, heç bir günahı olmayan anam bu işdən kənarda qalsın: o, hər hansı bir ana kimi istəyəcək ki, bu cinayəti öz üzərinə götürsün. Və bir də anama yetirin ki, mən onu çox sevirəm...

## XXXXXXXV FƏSİL

Qatar Kursk vağzalından tərpəndi: səsli-küylü, natəmiz stansiyalardan keçirdim, aradabir bələdçinin gətirdiyi dadsız çaydan içirdim, vaqonun iy verən ayaqyolusunda yuyunmağa su, sabun tapmırdım, başımı aşağı salıb dinməzcə otururdum ki, mehribançılığa can atan kupe yoldaşlarım artıq-əskik sual verməsinlər, ən böyük arzum da üzücü, uzun yolda o idi ki, yaradan məni gözəgörünməz məxluqa çevirsin.
Kupeyə girirdilər, çıxırdılar, məni cürbəcür suallara tuturdular, qeyri-iradi cavablar verirdim, arada isə özümü yuxululuğa vururdum. Respublikalar arası sərhəddə sərhədçilər məndən pasport istədilər, diqqətlə sənədlərimdəki şəklə, sonra da mənə nəzər saldılar, gömrükçülər isə yol çantamı yoxladılar. Mən yerimdən tərpənmədən, dişlərimi bir-birinə sıxıb susurdum, çünki məqsədim vardı; mən daşnak Rubeni öldürdüyümə görə Rusiya hüquq mühafizə orqanları tərəfindən tutulmamalıydım və əsil cinayətkarların yatdığı bir türməyə atılmamalıydım. Mənim nə haqqım vardı ki, öz istəklimə qurban dediyim həyatımı, belə ləyaqətsiz şəkildə başa vurum? Mənim tamamilə düşünülmüş məqsədim vardı və bu planı poza bilməzdim. Arada mürgüləyirdim, çalışırdım ki, heç nə fikirləşməyim, heç nə xatırlamayım. Mən öz cazib muncuğumu ovcumda sıxırdım...
Birdən gözümü açanda qarşımda cəngavər fiqurları gördüm, özü də geydirmə libasda. Çeçenlərdi, diqqətlə məni süzürdülər. Mən oturacağın bir qırağında zəhərlənmiş heyvan balası kimi əyləşmişdim.
- Salam əleyküm! - Onlardan biri dedi.
Mən donub qaldım, qəlbim isə şam kimi əridi-buzlar arasında donub qalan bir kəpənəyə çevrildi! Bircə elə bu çatmırdı. Salam əleyküm! Salam əleyküm! Elə bu "salamla" da hər şey öz yerini tutdu. Mən əsəbi halda zar-zar ağlamağa başladım, elə bil ətimi kəsirdilər:
- Və Əleykuməssalam! Və Əleykuməssalam!
Çeçenlər bir-birinə göz vurdular. Görünür, onlar mənim vəziyyətimi başa düşdülər, ona görə də sakitcə halıma şərik oldular, hətta biri məni sakitləşdirməyə də cəhd elədi:
- Narahat olma, bacım, burda sənə toxunan ola bilməz! Burda kimsə sənin xətrinə dəyməyəcək, sən müsəlmansan və deməli bizim bacımızsan.
Qatar tərpənmişdi, nəzarət məntəqəsi çoxdan arxada qalmışdı, başımı əllərimlə tutmuşdum, vurnuxurdum və bədbəxt anam kimi hələ də dua eləyirdim:
- Salam Əleyküm!!!
Mən bu duanın böyük mənasını da uşaq vaxtından bilirdim: "Sülh olsun!" və ya Sovet şüarlarında yazıldığı kimi "Miru-Mir" yəni "Sülhə sülh".
Sonra isə mən öz kupe yoldaşlarıma məhəl qoymadan-onlar deyəsən məni ağıldan kəm hesab eləyirdilər, -vaqonun aynasından başımı çıxartdım və var səsimlə qışqırdım:
- Salam Əleyküm, Qafqaz! Salam Əleyküm, ana torpaq! İzlə məni öz dalğalarında! Salam Əleyküm! Səndən özgə kimsəm yoxdur!

Sanki səsimi eşitdilər və Vətənə doğru şütüyən qatar sürətini bir qədər də artırdı...

XXXXXXXVI FƏSİL

Qatar Bakıya çatanda axşamdan xeyli keçmişdi. Stansiyada qələbəlikdi, doğma, tanış sifətli adamlar qarışqa kimi qaynaşırdı. Və günəşin qaraltdığı bu qaraqaş, qaragöz insanlara nə qədər arxalandığımı, gözlərim yaşaranda, məni ağlamaq tutanda bir daha hiss elədim. Ətrafda şipşirin Azərbaycan dilində danışırdılar və bu yağ kimi ürəyimə yayılırdı. Vağzalın tozlu perronuna ayaq basanda, özümü bu şöhrətli şəhərin ağası kimi duydum. Onu da hiss elədim ki, heç kim burda mənə güldən ağır söz deməz. Mən bu şəhərin sakini, bir parçası idim və bu haqqı məndən kimsə ala bilməzdi.
Ən böyük yaraşığı əmin-amanlıq və rahatlıq olan bu şəhərdə bu xalqın arasında biz necə xoşbəxt olmaya bilərdik?! Amma bizi bu səadətdən məhrum etdilər!!! Bu haqqı bizdən o insanlar aldılar ki, Yaradan onların da əməllərinə göz qoyurdu, eynilə bizim kimi ancaq "taleyüklü" qərar çıxarmağa gələndə, məlum oldu bu pay kimi onlara verilib. Bir-deyəndə qoşun yeritdilər! İki deyəndə -dünyanın yarısını çapdılar! Üç deyəndə -bir əsrlik quruluşu dağıtdılar! Yoxdur onların hakimi, onların ədaləti! Bir də eşidirsən ki, uzaq Haaqada, Beynəlxalq məhkəmədə bir diktatoru məhşər ayağına çəkiblər, amma mən inanmıram ki, haçansa müttəhimlər kürsüsündə Qorbaçovu və onun başımıza oyunlar açan əlaltılarını əyləşdirsinlər. Belə bir şey heç vaxt baş verməyəcək, çünki haqq-ədalət yoxdur! Əgər ədalət mövcud olsaydı, mənim xalqımın başına bu qədər müsibətlər gəlməzdi. Ədaləti yalnız güclə yaratmaq və yaşatmaq olar! Bu da kimə isə gərək olsa...
Bax, buna da mənim dərindən şübhəm var, mən ümumiyyətlə, hər şeydən şübhələnirəm, yalnız Azərə olan məhəbbətimdən başqa. Bir də öz xalqımdan, öz sevimli şəhərimdən başqa. Bu şəhərlə məni milyonlarla gözəgörünməz tellər bağlayır və yalnız bu şəhər mənim yaralarımı sağalda bilər... Yetər bu qədər sızlamaq! Mənə ağlamaq olmaz. Emosiyalara, duyğulara qapanmaq yetər, mən hər şeyi soyuq başla düşünməliyəm ki, öz planlarımı yenidən canlandıra bilim...
Taksi əylədib, məni kimsənin gözləmədiyi evimə gəldim. Nə yaxşı ki, məni heç kim gözləmirdi, başım-beynim gedəcəkdi, qaçılmaz suallar da bir yandan - amma digər tərəfdən baxanda, qapını üzünə açırlarsa, üzünə gülümsəyirlərsə, bu daha xoşdur... mən çaydanı qaynadıb, həvəslə, rəhmətlik Ruqiyyə nənəmin öyrətdiyi qaydada çay dəmlədim. Fatimə bibimin məxsusi mənim üçün bişirdiyi zoğal mürəbbəsinin qapağını açdım, servantdan fincan, nəlbəki çıxartdım, çay süzdüm, divanda televizorun qarşısında otursam da, ailə albomunu çıxardıb şəkillərə baxmağa başladım. Təklikdən, tənhalıqdan qorxurdum və istəyirdim ki, məni isti xatiratlar öz ağuşuna alsın.
Səhər açılana qədər ailə alobomunu vərəqlədim və videokasetlərə baxdım. Fidanın toyunda elə bil operator bütün diqqətini bizə yönəldibmiş, bizi hamıdan çox lentə alıb, özü də bir-birimizə daha çox yaxınlaşanda. İlahi, indi o nə qədər də mənə yaxındır: əlini uzat, əlindən tut! Doğrudanmı, bütün bunlar olub?! Doğrudanmı, başıma gələnlərin hamısı həqiqətdir?! Bədbəxtlikdən -bəli, heç nəyi də dəyişmək mümkün deyil... Zamanı geriyə qaytarmaq mümkün olsaydı... O toyda mən Azərə deyəndə ki, qalxsın oynayaq, o ciddi şəkildə cavab verdi:
- Bilirsən, Ayka, qardaşın bacısının toyunda şənlənməsi - oynaması yüngüllük sayılır. Bir də axı, niyə şadlanasan? Bilirsən ki, o özgə evinə gedir və bilmirsən ki, orda onu nə gözləyir. Mən gərək ağır oturub batman gələm.
O bacısından balaca idi, amma hər şeyin yerini bilirdi. Mən niyə onunla qürrələnməyim? Ən başlıcası, mən tam əmin idim ki, mənim səadətim sarsılmazdır, çünki Azər kimi ərlə daş divarlar arxasında da yaşamaq olar. Mənim yerim dünyanın ən hündür və basılmaz divarının arxasında idi, amma qızılkünbəzli paytaxta gələnə qədər... Və mən hönkürdüm...
Bir qədər saralmış köhnə şəkillərə acgözlüklə baxırdım: iri gözlü, qıvrım saçlı körpəni cavan və gözəl ataanası elə qucaqlayıblar ki, hər üçü səadətdən işıq saçır. Amma bu şəkildə qızın artıq üç yaşı var, yəqin ki, yeni il ərəfəsidi, ya yeni ilin ilk günləridi, anamın dizi üstündə oturmuşam, böyrümüzdə də Şaxta Baba və mənim norka papaqlı atam... hə, bu da mənəm, beş-altı yaşında, zooparkda,cırtdan atın belində oturmuşam, yanımda da döşünü qabağa verib durmuş Azər, kostyumda. Bu şəkildə isə biz uşaqlar -əmim, bibim qızları, Azər sirkdəyik, cins kostyum geyindirilmiş gülməli meymunu isə qucağına qaşqabağını tökmüş Azər alıb. Bu şəkil isə çox sonralar çəkilib, özü də xoreoqrafiya məktəbində, balet dərsində, bəyaz libasda hansısa mürəkkəb balet elementini ifa eləyərkən. Bu şəkil isə İbrahim babamın bağında çəkilib, bütün ailə cəmləşib, hamısı da şad, xürrəm! Mən dərindən köks ötürdüm. Hava işıqlaşırdı və şəkillərə baxa-baxa məni yuxu aparırdı. Diksinib gözlərimi açdım, elə bil mənə naməlum bir əl toxunmuşdu. Yeddiyə az qalırdı. Qalxmaq lazımdı!

XXXXXXXVII FƏSİL

Səhər saat səkkizdə mən ata evinə çatmışdım, amma ağacların arxasında gizlənmişdim ki, adəti üzrə oğlanlarını dayə yanına aparan atama tamaşa eləyim, bilirdim ki, Dilbər xanım Elmlər Akademiyasında işə başlayandan sonra bu iş atamın boynunda qalıb. Budur, o şux geyinmiş halda otaqdan çıxdı, qəddqamətini də lap cavanlıqda olduğu kimi saxlayıb, yalnız saçları ağarıb...maraqlıdır: məni yadına salırmı?

Mənsiz darıxırmı, görəsən? Mənim bədbəxt atam bilsəydi ki, onun yeganə qızının başına Moskvada nələr gəlib yəqin ki, başına hava gələrdi... Bir anlığa istədim ki, ona sarı qaçım, onun dizlərini qucaqlayım və bütün ağrı-acıları onunla paylaşım, axı onun gücünə inanırdım, bilirdim ki, o həmişə, hər şeyin yolunu bilir.
Amma mən bunu etmədim. Mən öz əzablarımı onun çiyinlərinə yükləmək istəmədim, fikirləşdim ki, qoy atam bir neçə gün də dərd-sər bilmədən, xoşbəxt yaşasın. Axı, o hələ heç nə bilmirdi və yəqin ki, bu məsələ ilə bağlı anam ona zəng vurmağa da özündə cəsarət tapmazdı. Anam heç zaman ona deyə bilməzdi ki, doğma qardaşı qızının namusuna toxunub. Zavallı anam, yəqin ki, doğmaları görüşdürməyə can atdığına görə özünü qınayırdı.
Ancaq hər şey çox gözəl düşünülmüşdü! Atamla anam belə qərarlaşdırmışdılar ki, Qreta nənəmlə vidalaşandan sonra doğma anamı da qüssədən qurtarım, onunla bir yerdə yaşayım. Amma mənim zavallı valideynlərimin qurduqları planlar kağız evcik kimi sökülüb dağıldı, çünki danasifət Rubenin qəlbində gözlənilmədən övladlıq hissi baş qaldırdı və o özünü Moskvaya çatdırdı...
Atam iki gündən tez anama zəng etməz: nədən ki, onların şərti-danışığı belədir, cümə günləri zəngləşirlər. Bu gün hələ çərşənbədi. Bu iki günü də rahat yaşa, ata! Mən ağacların arxasından onun oğlanlarına-qan qardaşlarıma-İbrahimlə Hüseynə, ata nəslimin davamçılarına tamaşa eləyirdim.
Yadımdadır, İbrahim babam həmişə təəssüf hissilə bildirirdi ki, Allah bədbəxt Murada oğul vermir ki, qocalanda qəbr evinə oğul çiynində getsin. İbrahim babamın düşüncəsinə görə kişi üçün ən böyük bədbəxtlik onu son mənzilə öz oğlu yox, başqalarının oğullarının aparmasıdır. İbrahim babamın cənazəsi isə evindən atamla əmimin çiynində çıxdı, mənim ərim olmağa hazırlaşan, nəslin davamçısı Azər də çiynini cənazənin altına vermişdi. Bir zamanlar babam atamın oğlu olmadığı üçün təəssüflənəndə, könlümdən keçirdi ki, onu sakitləşdirim, deyim ki, Azər - mənim gələcək ərim atama həm də oğul olacaq, axı yaxşı kürəkən oğul sayılır, amma içimdə baş qaldıran duyğular məni babamla belə açıq danışmağa qoymurdu.

Əgər İbrahim babam bilsəydi ki, atamın iki oğlu olub və haçansa onlar atamın cənazəsinin altına girəcəklər, kim bilir necə qürrələnərdi. Bunu tam mənası ilə dərk elədim və qan qardaşlarıma qanım qaynadı, onları heç vaxt özümə bu qədər yaxın bilməmişdim! Nə yaxşı, çox şükür ki, onlar var! Mən gözlərimdən giləlonən yaşları silə bilmirdim. Axı, böyük bacıları atasının ümidini doğrultmamışdı.. Atam mənim! Əzizim, doğmam, mənim xeyirxahım! Bağışla ki, ümdə məsələni -sənin şərəfini qoruya bilmədim.. Amma başlıca məsələ - sənə bəlli olmayacaq: bu dünyada bir insan var ki, mənim namusumun, şərəfimin səndən çox ona dəxli var. Bu insan mənim qanuni ərim Azərdir, amma bunu yalnız göylər bilir. Mən onu daha çox alçaltdım, nəinki səni.
Və bu anda atam öz yaramaz dəcəllərini maşına oturdub getdi, mən isə hönkürə-hönkürə qaldım.. Hər şey bitdi. Əsas məsələ ilə qurtardım. Və bir də Fatimə bibimi görmək istəyirdim, amma bu çox təhlükəli idi, çünki mən onu çox sevirdim və ola bilərdi ki, hər şeyi açıb danışım. Elə buna görə də: birbaş irəli!
Sonra - bir aktyorun teatrı başlanırdı. Küçədə taksi çoxdu, amma mən elə bir maşın seçmək istəyirdim ki, planlarımı həyata keçirməyə yarasın: hə, bu da köhnə markalı "Moskviç", bəlkə heç məni mənzil başına çatdıra bilmədi, amma yox, qoca, kepkalı sürücü işini bilən adama oxşayır. Maşını da lap böyrümdə saxladı, hara gedəcəyimi bildirəndə maşının arxa qapısını açıb:
- Əyləşin, bacı qızı, - dedi, - əyləşin... - Və maşın tərpənəndən sonra sövdələşmək qərarına gəldi. Bəlkə də, öz aləmində çox baha bir qiymət dedi. Amma onun hardan ağlına gələ bilərdi ki, daha məndən ötrü bu dünyada pul deyilən şeyin heç bir mənası yoxdur. Mən acı-acı gülümsədim; qapının sınıq dəstəyinə əl atdım ki, yan şüşəni aşağı endirim - dünyanın ən gözəl yarımadasının-doğma Abşeronun mənzərələrinə tamaşa eləyim. Yalnız mənim sevgilimin məni aparmaq istədiyi Azər-Aida adası bundan gözəl ola bilərdi.
Köhnə "Moskviç" yavaş-yavaş bizim bağımıza yaxınlaşanda mən qorxmağa başladım, mənə elə gəldi ki, çoxdan öz ömrünü başa vurmuş bu dəmir at son dərəcə təhlükəli bu səfərdə məni mənzil başına çatdıra bilməyəcək. "Çox qəribədi, -öz-özümə dedim, -çoxdan atılmalı olan bu köhnə maşın müqavimət göstərir, amma sapsağlam orqanizm daha mübarizə aparmaq istəmir..."
Qoca sürücü ona verdiyim bir dəstə pulu alanda, bu xoşbəxtliyə inanmadı, heyrətlə mənə baxdı!
Mən onu sakitləşdirmək üçün:
- Mən miras almışam, - dedim, - Siz bunu bilən ilk adamsınız, bu səbəbdən də sizə dəsxoş verdim.
O, maşının sürətini dərhal artırıb uzaqlaşanda isə mən arxadan baxa-baxa gülümsəyirdim və fikirləşirdim ki, bu gün bir kasıb sürücü ailəsini xoşbəxt elədim. Yəqin ki, yazıq qoca ömrünün axırına kimi öz uşaqlarına və nəvələrinə bir səfeh qızcığaz haqqında söz açacaq; danışacaq ki, o qız ona bir günlük xidmətinə görə bir ildə qazana biləcəyindən artıq pul verib.

XXXXXXXVIII FƏSİL

Bağımıza incir, tut ağaclarına, bizim otağın bağçaya açılan pəncərəsinə, iydə ağacından asılmış

yelləncəyə, babamın qızılgül kollarına kənardan tamaşa eləyirdim. Qumluqda oynamağımızı, iyunun əvvəllərində qara tut dərməyinizi, budaqdan budağa dırmaşmağımızı yada saldıqca, gözlərimdən yaş giləl, gilələnirdi... Bağ evimiz əslində yataqxanaya oxşayırdı, ağacların altında yad qadınlar, kişilər, uşaqlar gözə dəyirdi. Mən bilirdim ki, onlar bizim bağı zəbt eləmiyiblər, atamla Həsən əmim bağı Füzuli rayonunun işğal altında olan ərazilərindən qovulmuş qaçqınlara -Nazlı xalanın uzaq qohumlarına müvəqqəti sığınacaq kimi veriblər. Bizim atalarımız isə Zağulbadakı hökumət bağlarında yer alandan sonra bəlkə də atalarından qalan bağa bir dəfə də olsun yön çevirməmişdilər. Bilmirəm, çəhrayı bizim uşaqlığımızın rəngidir, yoxsa bağımızın, amma bu yurdun yeni rəngləri qüssə gətirirdi və mən fikirləşirdim ki, bağın yeni sahibi Fatimə bibim bu bağı yenidən bağa çevirə biləcəkmi?
Ətrafa nəzər salıb, səfər çantamı çiynimə atıb üz tutdum dənizə sarı. Yolda yadıma düşdü ki, çoxdandı heç nə yeməmişəm və incir ağaclarının daş barılardan aşıb yola çıxmış budaqlarından bir xeyli saralmış incir dərdim. Bu meyvələrdən mənim uşaqlığımın, bir də günəşin dadı gəlirdi...
"İkili həyatımızın ilk günündə mən öz arvadıma haram yedirtsəm, o, mənim haqqımda nə düşünər? Biz öz incirimizdən yeyəcəyik. Əziz babamızın öz bağında öz əli ilə əkdiyi incirdən!" - Mən Azər-Aida adasındakı nişandan mərasiminin sabahı Azərin dilindən çıxan bu sözləri xatırladım və bu sözlərin içimdəki əks-sədası da göz yaşı gətirdi...
Mən sahilə çatandan sonra da qızılı qumlar üstündə, yalçın qayalıqlar arasında bir xeyli gəzib-dolandım ki, qeyb olmuş xoşbəxt uşaqlığımdan və nağıla bənzəyən düyünümüzdən bir işarə tapa bilim, ancaq dəniz bütün izləri yuyub aparmışdı, anlaşılmaz Xəzər heç bir sirrin üstünü açıq qoymamışdı. Nə etməli, həyatımın ən son, ən vacib sirrini də qoca Xəzərə etibar etmək olar.
Qayalara dırmaşa-dırmaşa, Azərlə unudulmaz zifah gecəmizi keçirtdiyimiz mağaraya çatdım. İçəri bizim nigah günümüzdən tam fərqli olaraq nəm və sərin idi. Mən əl çantamda nə var idisə, hamısını - şəffaf cığaraya bükdüyüm nigah şəhadətnaməsini, anamın bütün həyatı boyu canı-dildən qoruduğu donunu, həyat tarixçəmi özündə yaşadan balaca qutudakı xırda diktafon kasetlərini və öz təbərrükümü - cəzb muncuğunu səliqə ilə yerə boşaltdım. Özümlə kəndir və lezviya götürüb yavaş-yavaş dənizə enməyə başladım...
Sahilə çatandan sonra elə bir yerdə oturdum ki, ayaqlarım suda olsun, əllərim suya çatsın, yalnız başım islanmasın. İlıq dalğalar mənə elə sığal çəkdilər ki, sanki bu yolla son günlərin bütün acılarını canımdan çıxartmaq istəyirdilər. Mən dəniz havasından məst olub dərindən köks ötürdüm və fikrə getdim...
Su və quru... Bu iki fərqli anlayış həmişə həmahəng olub və bu qonşuluq hamını qane edib. Başqa cür mümkündürmü? Yoxsa, yer kürəsi öz oxundan çıxardı! Bax elə mənim canımda iki ayrı-ayrı qan sülh şəraitində yaşayırlar - Azərbaycan və erməni qanları. Baxmayaraq ki, ətraf mühit onların dinc və yanaşı həyat tərzini qəbul etmək istəmir, amma onlar qətiyyən bu düşüncəyə yaddılar. Nəticə etibarilə dünyanı xoşbəxt etmək üçün, belə çıxır ki, gərək bu iki qanı bir-birindən ayırasan... Laciverd dalğalar qoluma sığal çəkdi, sanki məni dəstəkləyirdi.
-Darıxmısanmı, Xəzər baba? Axırıncı xidmətini də mənə göstər, atam-anam! - Mən dedim və sol qolumun arxa hissəsini ülgüclə çərtdim, əlbəttə gələcək həkim kimi mən bilirdim ki, şah damara necə düşmək olar. İndi diqqətli olmaq lazım idi ki, hesablamada yanılmayasan, yoxsa fikirləşdiyim şeyləri həyata keçirə bilməzdim.
Beləliklə, bədənimdə olan beş litr qanın iki litr yarımını - lənətə gəlmiş erməni payını axıdaq Xəzərə, çünki mənim həyatımı zəhərləyən odur. Qoy canımın Xəzərin sularına qarışan yarı payı axsın və damarlarımda qalan qan təmizlənsin və bu azərbaycanlı qanıyla düşündüklərimi həyata keçirim. Əgər mən bunu bacarmasam ...yox mən bunu bacarmalıyam, türk əcdadlarımın vəsiyyətinə xilaf çıxmaqla etdiyim hərəkətin ər evinə qədər qorumadığım bəkarətin cəzasını çəkməliyəm. Mən qoymaram ki, Ruben öz heçliyi ilə cismimdə bayram etsin. Mən onun mundar qanını öz qanımdan ayırıram və inanıram ki, ləkə götürməyən müdrik Xəzər o qanı öz saf sularında saxlamayacaq, ləkə kimi qumsal sahillərə, qayalıqlara çırpacaq.
Mən fizika sahəsində öz yoxsul zehnimi canlandırmağa cəhd elədim - axı mən Azərdən fərqli olaraq texniki fənnlərə meyilli deyildim. Hətta mən fizikadan buraxılış imtahanına girəndə özümlə şparqalka götürmüşdüm... Adı nədi onun? Hə, yadıma düşdü - birləşmiş qablar qanunu! Bax mən də həmin birləşmiş qablar kimiyəm: bu qablarda da rəngi eyni, lakin keyfiyyəti müxtəlif iki cür məhlul - iki cür qan qarışıb. Bu düşüncə də duzlu göz yaşları gətirdi, amma onlar da Xəzərin firuzəyi sularına qarışıb əridilər. Düşünmək lazımdı: mən canlı insan ola-ola, hamı mənə "birləşmiş qablar" kimi baxdılar. Hamı! Qəlbimin sakini Azərdən başqa, hamı. Yalnız Azəri mənim qəlbim maraqlandırırdı, qanım, qanımın bioloji tərkibi - DNK-am yox! Hə, qanıma görə qanıma susayanlar! İndi kef eləyin! Mən hönkürdüm... Əgər o gün Nazlı xala məni anlayıb qəbul etsəydi, mən heç zaman Moskvaya getməzdim və bir alçaq daşnakın qurbanı olmazdım. Mən məzarım üstündə hönkürən Nazlı xalanı təsəvvürümə gətirdim... Bəlkə də, o bir dəfə yox, min dəfə təəssüflənəcək ki, öz gəlinini-öz can-ciyərini qapı arxasında qoyub... Amma sizladığım yetər, hərəkət etmək zamanıdı!
Qüvvəm tez tükəndi, axı mən hələ bizim böyük ailəmizdən məğrur İbrahim babamın və müdrik Ruqiyyə nənəmin əbədi uyuduğu o müqəddəs məkana özümü çatdırmalıydım və qalan qanımı o məzarların üstündə axıtmalıydım, orda torpağa qarışmalıydım.
Mən Qurd Qapısı qəbirstanlığında, onların yanında əbədi uyumaq istəyirəm, amma bilmirəm ki, bu Qapı

bir zaman kiminsə yalanı ucbatından türkləri Asiyadan Kiçik Asiyanın qapısına - Anadoluya gətirən, ömrü boyu yalnız Asena adlı vəfalısına məhəbbət bəsləyən əfsanəvi Boz Qurdla nə dərəcədə bağlıdır? Yalnız öz qanımı, mənə şərəfsizlik gətirən qarışıqdan təmizləyəndən sonra hər şeydən öncə şərəfini qoruyan, öz xələflərinə özgələrə qarşı heç vaxt sui-qəsd yolunu tutmağı aşılayan babam İbrahim kişi ilə bir yerdə uyumağa mənəvi haqqım olacaq. Mən atılmış erməni qəbristanlığında bir də ona görə dəfn olunmaq istəməzdim ki, onda gərək Azər qəbrimi xəlvət ziyarət edəydi... Yox, yox, mən bunu əsla istəmirəm!!! Ən başlıcası isə məni dəli bir ümid, güman isidirdi-səksən, doxsan ildən sonra Azər yanıma gələcəkdi... Axı, ola bilməz ki, biz bir daha qarşılaşmayaq... Doğrudanmı, bir daha bizə görüşmək qismət olmayacaq?

## XXXXXXXIX FƏSİL

Qanım damla-damla azaldıqca mən səmavı bir səadətlə qucaqlaşırdım, Rubendən və Ruben kimilərdən anbaan uzaqlaşırdım. İndi mən cismimi və qəlbimi mundarlamış o iyrənc qandan tamam xilas olacam. Mən qan damcılayan qolumu qaytanla bağladım və nigah mərasimindən sonra girdiyimiz gərdəyə-mağaraya doğru sürünməyə başladım. Çalışırdım ki, qumun üstə düşüb qalmış bir tükü də ləkələməyim, axı gəlinin pinti-balaq olmağa haqqı yoxdur.
Mağaranın ortasına qədər süründüm, çətinliklə də olsa, qana bulaşmış paltarlarımı soyundum-anamın bəyar donunu əynimə keçirtdim. Düzdür, həmişə deyirdilər ki, mənim bədənim anamınkı ilə eynidir, amma indi gördüm ki, yox, elə bil əynimə xaral keçirtmişdim, görünür, anam bu donu tikdirəndə hamiləliyin birinci ayını yox, kim bilir neçənci ayını keçirirmiş. Mən yenidən valideynlərimin keçmişinə toxundum. Nə üçün bir-birini sevmək və dünyaya qarışıq qanlı bir bədbəxt insan gətirmək lazım idi ki, sonradan dünya o bədbəxtə qarşı bu qədər amansız olsun?!
Nazlı xalanı mənim erməni qanım hiddətləndirirdi, Ruben dayımı azərbaycanlı qanım. Son illər mənə ən çox əzab verən qanımdakı bu qarışıq və bu qarışıqla bağlı üzləşdiyim məqamlar idi. Bütün ömrüm boyu məktəbdə, evdə, yüksək kürsülərdə, ağıl öyrədən kitabların səhifələrində xalqlar dostluğu haqqında həyasız yalanlara qulaq asmışdım. Əgər iki qonşu xalqın nümayəndəsi öz övladlarının taleyini qoruya bilmirsə, yeni nəsli yaşatmaq iqtidarından məhrumdursa, onda beynəlmiləlçilikdən dəm vurmaq nə üçünmüş? Mən Azərbaycanın qızıyam, amma haçansa Ermənistanı da öz vətənim bilirdim. Bəs nədən bu Vətənin sevimli oğlu, möhtərəm vətəndaşı bu dünyanın ən şərəfsiz cinayətlərindən birinə əl atdı-öz bacısı qızının namusuna sataşdı. Canımı və ruhumu ləkələdi, taleyimi korladı, duyğularımı məhv elədi? İlahi, bundan da böyük məkr ola bilərmi? Mən bu çirkabla yaşaya bilməzdim; bünü kiməsə söyləməyə də dilim gəlməzdi. Bəs Azər? Yox, yox, onun nə taqsırı var ki, bu alçaqlıqdan xəbər tutsun? Qəlbim o qədər sıxılır ki, birdəfəlik partlasa yaxşıdır. Amma bir qədər də gözləmək lazımdır ki, ruhum Azər-Aida adasına uçsun, o ki, qaldı cismimə, o babamla nənəmin yanında rahatlıq tapacaq.
Mağaranın çıxışına doğru süründüm, dənizlə üz-üzə qaldım və acgözlüklə gözümü oxşayan mənzərələrə baxmağa başladım. Belə, əzizim Azər, sənin məndən ötrü kəşf etdiyin Yeni Azər-Aida adasına gedib çıxa bilmədik. Məni bağışla əzizim, bağışla ki, sənin arzularını sındırdım, göyərməyə qoymadım... Mənim başqa yolum yoxdu: mənim anam adam öldürüb, buna görə də cəhənnəmə düşəcək. Yaxşı olardı ki, onu orda tək qoyum, amma öz canına qəsd eləyəni də cəhənnəm gözləyir, ona görə də ora tələsirəm ki, onu orda qarşılayım, axı o binəvanın məndən başqa heç kimi yoxdur. Amma mən tək deyiləm, SƏN varsan, SƏN! Mən bilirəm ki, sən bizi hər hansı bir cəhənnəmdən çıxardacaqsan, sən heç vaxt məni atmayacaqsan, heç vaxt! Bizim yarımçıq qalmış sevgimizə görə məni bağışla, əzizim, doğulmamış körpələrimizə, çiçək açmamış arzularımıza görə bağışla...
Əzizim, ən başlıca məsələni heç sən də bilmirsən: mən getməliyəm, amma ona görə yox ki, bir Qafqazlı kimi namusumu qoruya bilməmişəm və bir də ona görə ki, bətnimdə özünə yer eləmiş ilkimizin - sənin övladının mundarlanmasına yol vermişəm... Bəli, əzizim, mənim bütün dəliliyim o zaman başladı ki, ana olacağımı bildim...Daha heç vaxt ana olmayacağam... mən yaxşı ana olmadım, öz körpəmi qoruya bilmədim! Sənin övladın... bizim övladımız... Öz aramızdı, kim bilir o körpəni canlılarının bir-birinin qanına susadığı bu dünyada nə gözləyirmiş? Bizim yaşadığımız bu dünyanın hər yanı barıtdı və bu yeni dünya o qədər amansızdır ki, orda bizim uşaqlarımız çətin ki, yaşaya bilsinlər. Bu əbədi dünyadan ulu göylərə mən yalnız sənə olan sevgimi aparıram və əbədi sənin qəlbində yaşamağı arzulayıram.
Göyərmiş, həyat əlamətini itirməkdə olan barmaqlarımla qolumdakı qaytanı boşaltdım ki, bir sədaqətli övlad kimi təmizlənmiş qanımı doğulduğum və cismimlə, ruhumla məxsus olduğum müqəddəs torpağa çiləyim.
...Mən uzanmış halda zəncirbəndin ucunda yetim uşaq kimi mızıldayan o əziz cəzb muncuğumu dənizə sarı tutmuşdum və mağaranın girəcəyinə baxırdım. Və inanırdım Azər gələcək. Cəzb muncuğu onu çəkib gətirəcək...
Mən dünyanın ən bədbəxt gəlini kimi, bir neçə ay qabaq onun qeyri-adi toyuma şahid olan, qurğuşun rəngi almış dənizin üstündə qıy-qışqırıq salan qağayılara tamaşa eləyirdim. Bu nədir bəs? Qarabasma? Dalğaların üstüylə mənə sarı qaçan Azərdi! İtib-batmaqda olan xəyalımla anlamağa çalışıram ki, axı, sən hansı yolla bu qədər dənizlər, dəryalar aşdın, axı Xəzər Qapalı dənizdi, dünya dənizlərinə girişi, çıxışı yoxdu! Aha, tapdım, bura səni öz qanadlarına alan, sərhəd-sınır tanıyan, millət, din nə olduğunu anlamayan Məhəbbət gətirib! Qurumuş dodaqlarıma qanla, qumla ləkələnmiş diktofonu yaxınlaşdırıram

ki, son gücümü toplayıb var səsimlə pıçıldayım:
- A...z...ə..r, mən... sə...ni... se...vi...rəm...

## E P İ L O Q

Artıq sizə məlum olan bu hadisələrdən bir həftə sonra Şüvəlan qəsəbəsinə gələn ucaboylu, qədd-qamətli, şux yerişli cavan leytenantın ağarmış sifəti və son dərəcə kədərli gözləri diqqətdən yayına bilməzdi. Amma adamları daha çox heyrətə gətirən onun cavanlığı ilə müqayisədə qar kimi ağappaq ağarmış saçları oldu. Cavan oğlanın əynində hərbi libas vardı, kəmər də bağlamışdı. O, inamla həyətində gül şitilliyi olan qapılardan birini itələyib açdı:
- Salam əleykım! - Beləcə o, şitilliyin sahibini salamladı.
Şitillik sahibi heyrət içində ona baxa-baxa fikirləşirdi ki, görəsən bu cavan oğlanın saçı-saqqalı nədən belə erkən ağarıb? İçində baş qaldıran bu sualın da cavabını tapdı: "Ola bilsin ki, nəsildən gəlmədi, ya da sarsıntı keçirib..."
- Əleyküm-əs-salam, - gülçü yerindən qalxıb onun salamını aldı, - Sizə nə lazımdı, qardaş?
- Mən bütün qəsəbəni gəzmişəm, məni sizin üstünüzə göndəriblər. Məsələ belədir ki, mənə çoxlu ağ qərənfil lazımdır, yalnız ağ, qırmızı, çəhrayı, mavi yox. Yalnız ağ...
- Neçə dənə?
Cavan oğlan cibindən çıxartdığı paranı gülçünün ovcuna qoydu: - Bu pula yetdik, - dedi, - bu pulun dəyərində.
Gülçü əlləri əsə-əsə ovcunda tutduğu beş min dolları sayıb başa çıxandan sonra o qədər heyrətləndi ki, özündən asılı olmayaraq füştürük çaldı:
- Bu bir dəniz çiçək deməkdi!
Cavan oğlan bu sözdən diksindi və xəyal içində soruşdu:
- Siz necə söylədiniz? Bir dəniz çiçək? Hə...bu lap yerinə düşdü, dənizi də o, çox sevirdi...
O, dərindən köks ötürdü, ovcunda tutduğu zəncirbəndin ucundakı cəzb muncuğunu sıxdı və tələşla:
- Mən bir okean qədər də çiçək ala bilərdim, - dedi, - amma bu gün gücüm buna çatır. Sifarişi qəbul eləyirsiniz?
Gülçü nəzakətlə dilləndi:
- Bəli. Hara gətirək?
Cavan oğlan başını aşağı saldı və güclə eşidilən bir səslə:
- Saat dörd tamamda. Qurd Qapısı qəbristanlığına, - dedi, - girəcəyə.
Gülçü razılıqla başını tərpətdi:
- Parnikdə nə qədər ağ qərənfil varsa, hamısını dərəcəyik, - dedi, -
arxayın olun.
- Ancaq gecikməyin ha, saat yeddidə mən yola düşürəm.
Şitillik sahibi soruşdu:
- Hara?
- Müharibəyə, Qarabağa.
- Belə de. - Qoca gülçü ağır-ağır dilləndi, - Allah özü sizə kömək olsun!
Zabit vidalaşıb çıxanda gülçü sifarişçinin cibindən düşən qana, quma bulaşmış əşyanı bir şeyə oxşada bilməsə də, leytenantı səslədi:
- Qardaş, ayaq saxlayın, - dedi, - cibinizdən nə isə düşdü!
Zabit qana, quma bulaşmış diktafonu yerdən götürüb sinəsinə sıxdı və dərhal da uzaqlaşdı.
Gülçü cavan oğlanı bir qədər arxadan izləyəndən sonra beş min dolları yenidən konvertə qoydu və konvertin üzündəki yazını da oxudu: "Bizim yeni Azər-Aida adasında görüşənə qədər, əzizim".

S O N

Hollandiya, 2006.
Rus dilindən tərcümə edən:
Məmməd ORUC

## YER KÜRƏSİ - MƏHƏBBƏT ADASI

Hollandiyada Azərbaycan Qadınlar Avropa Şurasının sədri, Hollandiya krallığında tərcüməçi kimi çalışan Azərbaycan yazıçısı Gülşən Lətifxanın Bakıda son illər iki romani kitab halında çap olunub. "Doseri roda moeqo" ("Nəslimin qızları") və "Ostrov Azeraidi" ("Azər və Aida adası"). Bu bədii örnəkləri eyni qayə birləşdirir: milli münaqişə və məhəbbət. Uşaqlıq illəri Şuşa şəhərində keçən Gülşən xanım hər iki romanında

Sovetlərin dağılması ərəfəsində Sovet İttifaqı iflasa uğrayandan sonra siyasətçilərin "Qarabağ kartı" ilə işğala məruz qalmış Azərbaycanın,qaçqınlıqla üzləşən Azərbaycan insanının çağdaş dünyamızdakı acılarını qələmə almışdır.
"Doçeri roda moeqo" əsəri haqqında xalq yazıçısı Çingiz Abdullayev, "Ostrov Azeraidi" romanı barəsində isə Çingiz Hüseynov söz deyiblər; bu nəşr nümunələrini ətraflı təhlil ediblər, dəyərləndiriblər. Məni daha çox "Ostrov Azeraidi" romanı düşündürür. Bu əsəri oxuyanda məni "Əsli və Kərəm", "Aşıq Qərib" dastanlarının,habelə "Bahadır və Sona" romanının (N.Nərimanov), "Şeyx Sənan" (H.Cavid), ən nəhayət, "Əli və Nino" romanının (Qurban Səid) havası vursa da, bu əsər Azərbaycan ədəbiyyatında tamamilə yeni nəşr nümunəsidir.
Hadisələr Aidanın dilindən nəql olunur. Aidanın anası ermənidir və mövcud hadisələr zamanı doğmalarının - nənəsi Qretanın, babası Xristoforun,dayısı Rubenin itgisi ilə üzləşir, son nəhayətdə isə anası da qəfildən evdən qaçır və on bir yaşlı qızcığazın iztirabları başlayır. Aidanın gündən-günə qaranlıqlaşan dünyasında yeganə işıq Azərdir; son dərəcə həssas,duyğulu qızcığazın sevgisini qazanmış Azər. Nağıl kimi şirin təhkiyə ilə qələmə alınmış bu sevgi dastanı Aidanın "Azəraidi" adasından Azərə xitabıyla başlayır.Bu adanı hansı dənizdəsə,hansı okeandasa axtarmaq lazım deyil,bu ada bütün dənizləri,okeanları qarşılıqlı sevgilərlə özündə birləşdirən Yer kürəsidir.Gülşən Lətifxan bu məkanda son dərəcə mürəkkəb surətlər yarada bilib: Murad, Karina, Azər, Aida və s. Yazıçının bir söz ustası kimi qüdrəti məhz bu obrazların təqdimatında üzə çıxır.
Mən şadam ki, Azərbaycan oxucusu XX əsrin sonu, XXI yüzilliyin əvvəllərində yaşanmış Azərbaycan gerçəkliklərini, adət və ənənələrini, həmçinin,folklor nümunələrinin -rəvayətlərin,əfsanələrin,atalar sözlərinin mayası ilə yoğrulmuş "Azər və Aida" romanını ana dilində oxuyacaq.

FİKRƏT QOCA

E-mənbə / link: http://www.azyb.net/cgi-bin/jurn/main.cgi?id=334